QASIM HACIYEV

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

# BƏRDƏ ŞƏHƏRİ

## COĞRAFİ, SİYASİ VƏ MƏDƏNİ TARİXİ

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu

**QASIM HACIYEV**

# BƏRDƏ ŞƏHƏRİ

# COĞRAFİ, SİYASİ VƏ MƏDƏNİ TARİXİ

Bakı – 2008

*Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur*

Elmi redaktor: AMEA-nın müxbir üzvü,
t.e.d., professor **Y.M.Mahmudov**

Rəyçilər: AMEA-nın müxbir üzvü, t.e.d.,
professor **İ.A.Babayev**
t.e.d. **T.M.Məmmədov**
t.e.d., professor **V.Z.Piriyev**
t.e.d., professor **T.T.Mustafazadə**
filol.e.d. **S.Ş.Nuriyev**

Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

**Hacıyev Q.Ə.**
**Bərdə şəhəri. Coğrafi, siyasi və mədəni tarixi**. – Bakı, Un-iPrint, 2008. – 250 s.

Əsər Azərbaycanın qədim şəhərlərindən biri, ölkənin beş əsrə qədər paytaxtı olmuş, 2500 ildən artıq yaşı olan Bərdənin tarixinə həsr edilmişdir. Kitabın I cildində Bərdənin qədim dövrdən XIX əsrədək tarixi öz əksini tapmışdır. Əsərdə eyni zamanda Bərdənin yerləşdiyi tarixi ərazinin təbii-coğrafi xüsusiyyətləri, şəhərin tarixi yeri, təşəkkül dövrü, quruluşu, adının etimologiyası, ictimai-inzibati şəraiti, əhalisinin etnik tərkibi işıqlandırılmışdır.

Əsərdən Azərbaycan tarixinin tədrisində ali və orta ixtisas məktəblərinin müəllim və tələbələri, elmi işçilər və şəhər tarixi məsələləri ilə məşğul olan tədqiqatçılar, ümumiyyətlə, tariximizlə maraqlananlar yararlana bilərlər.

Kitabın işıq üzü görməsində xüsusi roluna görə vətənpərvər ziyalı, polis polkovniki Əbülfət Hacıyevə minnətdarlıq edirik.

İSBN 978-9952-440-33-1

© Q.Hacıyev, 2008

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

***AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVİN UNUDULMAZ XATİRƏSİNƏ İTHAF EDİRƏM!***

**Qarabağın Bərdə şəhəri qədim tarixə, zəngin ənənəyə malikdir.**

**Düzü, mən qədim Bərdəni çox sevir və bərdəlilərə böyük hörmət bəsləyirəm.**

**Heydər Əliyev**

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

# MÜƏLLİFDƏN

2000-ci ildə Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə «Bərdə şəhərinin tarixi (e.ə. III əsr – b.e. XVIII əsri)» adlı monoqrafiya çap etdirdik və 2006-cı ildə Azərbaycan MEA Tarix İnstitutunun Birləşdirilmiş Müdafiə Şurasında həmin mövzuda doktorluq dissertasiyası müdafiə etdik.

Ulu Öndər Heydər Əliyevin «Düzü, mən qədim Bərdəni çox sevir və bərdəlilərə böyük hörmət bəsləyirəm» sözləri hər bir bərdəli kimi bizi də ruhlandırdı və bu mövzuya yenidən qayıtmağa sövq etdi.

Onu da qeyd edək ki, Azərbaycanın qədim şəhərlərindən biri olan Bərdənin tarixinin yazılması, eləcə də qədim və zəngin tarixə malik Qarabağ bölgəmizin tarixini hərtərəfli və dərindən tədqiq etmək üçün "Qarabağ tarixi" şöbəsinin yaradılması da Ulu Öndərin tövsiyəsinin nəticəsidir.

Heydər Əliyev həm tarixi yaradan və bu mənada tariximizi tarixlərə yazan dahi şəxsiyyət, həm də tarixi yazanlara arxa duran rəhbərdi.

Məlumdur ki, Bərdə şəhərinin adı yazılı mənbələrdə Albaniyanın paytaxtı kimi çəkilir. Bu məlumatdan başqa yazılı mənbə əldə edilmədiyindən və arxeoloji tədqiqatların

aparılmaması səbəbindən Bərdə bir qayda olaraq tarixi ədəbiyyatda orta əsr şəhəri kimi təqdim olunmuşdur. Lakin erkən orta əsrlərdə (V əsr) ölkənin paytaxtına çevrilmiş, iqtisadi və strateji cəhətdən əlverişli olan bu şəhərin bünövrəsinin elə həmin vaxtda qoyulması versiyası tarixşünaslıqda haqlı olaraq birmənalı qəbul edilməmişdir.

Əsrlər boyu qaranlıq qalmış tarixi sirləri açan, hətta mövcudluğunu itirmiş neçə-neçə qədim şəhərin tarixini meydana çıxaran arxeologiyanın möcüzəvi imkanlarından lazımınca bəhrələnmədən, elə həmin mənada, Bərdədə aparılmış arxeoloji qazıntı nəticələrini nəzərə almadan, yəqin ki, biz də şəhərin min beş yüz il tarixə malik orta əsr şəhəri olması fikrilə razılaşmaq məcburiyyətində qalardıq. Başqa sözlə, Bərdədə aparılan arxeoloji qazıntılar nəticəsində yerin dərin qatlarında arxeoloji qayda-qanunlarla izlənən mədəni təbəqələrin açılması, külli miqdarda qədim maddi mədəniyyət nümunələrinin aşkar edilməsi, şəhərin tarixinin yazılı mənbələr və arxeoloji tədqiqatlar əsasında hərtərəfli və kompleks tədqiqini mümkün etdi və Bərdənin daha qədim dövrdə yaranması barədə yeni söz deməyə, onun inkişafını, günümüzədək intensiv yaşayış məskəni olaraq qalmasını, şəhərin siyasi, iqtisadi, ictimai, mədəni tarixini öyrənməyə imkan yaratdı.

«Qarabağın Bərdə şəhəri qədim tarixə, zəngin ənənəyə malikdir» deyən Ulu Öndər Heydər Əliyevin qədim şəhərin keçmiş şöhrətinin özünə qaytarılmasına dair tövsiyələrini biz Bərdədə onun öz dilindən dəfələrlə eşitmişdik. Heç də təsadüfi deyil ki, Ulu Öndərin tövsiyələri zaman-zaman öz bəhrəsini vermiş və verməkdədir. Bərdə şəhərində Ulu Öndərin göstəriş və tələbi ilə inşa edilmiş nəhəng tikililər – mədəniyyət sarayı, vətən müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidə kompleksi, poçt-rabitə, mehmanxana binaları, zavod və fabriklər,

ticarət mərkəzi, bazar kompleksi, məktəb binaları, xəstəxana və poliklinikalar, çoxmərtəbəli ictimai və məişət xidməti binaları, körpülər və s. vaxtilə şəhərin həyatını dövrün inkişaf səviyyəsinə uyğun yeniləşdirmişdisə, bu böyük işləri layiqincə davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin şəxsi təşəbbüsü və göstərişi ilə son dövrlərdə burada tikilmiş olimpiya idman kompleksi, Heydər Əliyev muzeyi, akademik Zərifə Əliyeva adına orta məktəb, ictimai binalar, istehsal müəssisələri, salınmış parklar və görülmüş çoxsaylı abadlıq işləri və s. Bərdə üçün daha geniş inkişaf perspektivləri açmışdır. Bütün bunlar Bərdənin müasir quruculuq tarixidir və gələcək xüsusi tədqiqatların mövzusudur.

Bunlarla yanaşı, aşağıdakıları da qeyd etməyi özümüzə borc bilirik:

Bərdənin qədim tarixini və zəngin ənənələrini yaşadan əhalinin gözündə doğma şəhərin inkişaf edib çiçəklənməsində əvəzsiz tarixi rolu olan Ulu Öndər Heydər Əliyev və cənab İlham Əliyev misilsiz insanlardır. "Qarabağın bütün guşələri, o cümlədən Bərdə mənim üçün daha doğma, daha əzizdir" deyən Ulu Öndərin Bərdəyə məhəbbəti ilə Bərdəni Azərbaycanın dilbər guşəsi adlandıran, onun Azərbaycanda xüsusi yeri olduğunu, həmçinin hər bir azərbaycanlı üçün doğma yer, doğma məkan olduğunu vurğulayan cənab İlham Əliyevin Bərdənin çox inkişaf edib gözəlləşməsindən, abadlaşmasından keçirdiyi xüsusi fərəh arasında birbaşa bağlılıq var. Sürətlə inkişaf edən Bərdədə böyük işlər görülməsinə şad olduğunu dəfələrlə bildirən cənab İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin Bərdəyə göstərdiyi qayğı və xüsusi münasibətə dərin hörmətlə yanaşdığını və buna sadiq olduğunu dönə-dönə nümayiş etdirir.

Bərdəlilər xalqımızın Ulu Öndəri Heydər Əliyevin yolunu saxlayanları, Heydər Əliyev kursuna sadiq və etibarlı insanları da ağırlayır, yüksək qiymətləndirirlər. Bu cür ali keyfiyyətlərə malik insanlar hörmətli cənab Prezident İlham Əliyevin komandasında yetərincədir. Bu komandada Heydər Əliyev kursuna sadiqliyi ilə seçilən və Qarabağ camaatının, eləcə də bərdəlilərin xüsusi rəğbət bəslədiyi Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanı, Daxili İşlər Naziri cənab Ramil Usubovu qeyd etməmək, düşünürük ki, ilk növbədə elimizin istəyinə qarşı ədalətsizlik olar – el gözü tərəzidir.

2006-cı ilin ortalarında Bərdə İH başçısının AMEA-nın prezidenti akademik M.K.Kərimova Bərdə şəhərinin salınma tarixi barədə məlumat almaq üçün müraciəti ilə əlaqədar olaraq AMEA Tarix İnstitutunun direktoru AMEA-nın müxbir üzvü, professor Y.M.Mahmudovun, Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru tarix elmləri doktoru M.A.Rəhimovanın razılığı ilə tarixçi və arxeoloqlardan (AMEA-nın müxbir üzvü, t.e.d., professor İ.A.Babayev, t.e.d.Q.Ə.Hacıyev, t.e.d. A.M. Məmmədov) ibarət elmi-tədqiqat qrupu yaradıldı və Bərdə şəhərinin əsasının qoyulduğu tarixi dəqiqləşdirmək məqsədilə şəhərin qədim yerində arxeoloji qazıntı işləri aparıldı.

Bərdə şəhərinin 2500 il tarixə malik olması sübuta yetirildi.

Təqdim olunan bu əsər «Bərdə şəhərinin tarixi (e.ə. III əsr–b.e. XVIII əsri)» monoqrafiyasından fərqli olaraq Azərbaycanın əzəli-əbədi torpağı olan Qarabağ bölgəsinin qədim şəhəri Bərdənin yaranması və inkişafına dair yeni materialların da daxil edildiyi antik, orta əsrlər və yeni dövr (e.ə. IV əsr – b.e. XIX əsri) tarixini əks etdirən ikicildliyin I cildidir.

Üzərində iş gedən II cild də yaxın zamanlarda işıq üzü görəcəkdir.

Məqsədimiz doğma vətənimizin, qədim və zən-gin tarixə malik şəhərimizin tarixini obyektiv yazıb oxuculara təqdim etməkdir. Buna nə dərəcədə nail olduğumuzu isə hörmətli həmkarlardan və oxuculardan eşitmək ümidindəyik.

Yeri gəlmişkən, vaxtında araşdırılmaması səbəbindən erməni ideyapərdazları pərxaşlıq yazılarında Bərdəni də uydur-ma «Şərqi Ermənistan», «əzəli erməni torpaqları» daxilinə «qatmışlar» və bu saxtakarlıqları genişləndirməkdə davam edirlər. Söz yox ki, erməni təbliğatçılarının yazdıqları o qədər cəfəngdır ki, tarixdən az-çox xəbərdar olan hər kəs həmin yazıları oxusa, onların uydurma olduğunu anlamaqda çətinlik çəkməz.

Biz təmkin və dözüm nümayiş etdirərək ermənilərin yazdıqları cəfəngiyatlara detallarına qədər cavab vermək fikrindən yan keçirik. Onlara ən tutarlı cavab Azərbaycanın Qarabağ bölgəsinin qədim şəhərlərindən biri olan Bərdənin ob-yektiv, elmi mənbələrə əsaslanaraq yazlmış bu tarixidir. Güman edirik ki, onlar da bu əsəri oxuyub uydurduqları yalanlardan usanarlar – beş min illik dövlətçilik tarixi olan türk torpaqlarında özlərinə qədim məskən axtarmazlar.

# GİRİŞ

Azərbaycan dünyanın ən qədim yaşayış məskənlərindəndir. Azərbaycan həm də ulu tarixə malik şəhərlər diyarıdır. Həmin şəhərlərdən biri də vaxtilə ölkənin siyasi, iqtisadi və mədəni mərkəzi – paytaxtı olmuş Bərdədir. Bərdə orta əsrlərdə Yaxın və Orta Şərqin nəhəng şəhərlərindən olmuşdur.

Azərbaycanda qədim və orta əsr şəhərlərinin yaranması və əsas inkişaf xüsusiyyətləri, şəhərin quruluşu, ictimai həyatı, hərbi-strateji mövqeyi, inzibati-idarə üsulu, sənətkarlıq və ticarəti, mədəniyyəti, xarici əlaqələri və şəhər həyatı ilə bağlı digər məsələlər tarix elmimiz üçün vacib, habelə mühüm elmi axtarışlar tələb edən məsələlərdir.

Mənbələr, arxeoloji materiallar və etnoqrafik müşahidələr əsasında aparılmış tədqiqat Bərdənin çoxəsrlik və zəngin tarixə malik olması qənaətinə gəlməyə imkan verir. Cənubi Qafqazda, qədim və beynəlxalq ticarət yollarının kəsişdiyi yerdə yaranaraq inkişaf etmiş Bərdə şəhəri Azərbaycan xalqının iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynamışdır. Bərdə orta əsrlərdə, mənbələrin dili ilə desək, «Arranın anası» olmuşdur.Yeri gəlmişkən, ərəb mənbələrində indiki Cənubi Azərbaycan "Azərbaycan", Albaniya isə "Arran" adlandırılmışdır.

Əsər Bərdə şəhərinin eramızdan əvvəl I minilliyin sonundan bizim eranın XIX əsrinədək tarixini əks etdirir. Bu

dövr Bərdə şəhərinin yaranma, formalaşma, inkişaf mərhələlərini əhatə edir. Şəhərin yarandığı və fəaliyyət göstərdiyi antik və orta əsrlər dövrü tarixinin tədqiqinə qanunauyğun bir maraq oyanır. Bu baxımdan qeyd olunan xronoloci çərçivə daxilində Bərdənin ümumi tarixini elmi əsasda tədqiq etmək mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda şəhər tarixinin tədqiqinə son dövrlərdə başlanılmışdır. Bu, hər şeydən əvvəl ümummilli liderimiz Heydər Əliyevin vaxtilə verdi-yi göstəriş və qərarları ilə bağlıdır. Ulu Öndərin imperativ şəkildə dediyi «Azərbaycanın qədim şəhərlərinin tarixi öyrənilməlidir» fikri tarixçiləri ruhlandırdı, onların qarşısında böyük məsuliyyət qoydu, bu səpkidə mövzuların tədqiqinə diqqəti artırdı. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin «Tariximizin hər səhifəsi bizim üçün əzizdir», «Xalq gərək daim öz kökünü xatırlasın» aforizmlərinin də böyük təsiri oldu.

Azərbaycanın qədim və orta əsr şəhərlərinin müxtəlif aspektdə öyrənilməsi şəhər tarixşünaslığımızın bir çox problemlərinin üzərinə işıq salmışdır. Azərbaycan tarixçiləri arasında şəhər tarixi problemi ilə məşğul olan böyük bir alimlər ordusu formalaşmışdır (S.B.Aşurbəyli, M.X.Heydərov, H.Ə.Ciddi, Q.M.Əhmədov, S.M.Onullahi, İ.A.Babayev, N.M.Vəlixanlı, V.H.Əliyev, T.M.Məmmədov, A.B. Nuriyev, Ş.F.Fərzəlibəyli, R.İ.Məmmədov, İ.M.Cəfərzadə, İ.N.Əliyev, F.V.Qədirov, R.M.Vahidov, E.Q.Mirzəyeva və b.). Onların əsərləri, arxeoloji qazıntılar, yazılı mənbələr əsasında apardıqları elmi tədqiqatları həm bütövlükdə tarixşünaslıq, həm də Azərbaycan şəhərlərinin öyrənilməsi baxımından böyük əhəmiyyətə malikdir. Həmin əsərlər sırasına daxil olan İ.M.Cəfərzadənin «Köhnə Gəncənin tarixi-arxeoloji oçerki», İ.H.Əliyev və F.V.Qədirovun «Qəbələ», H.Ə.Ciddinin «Orta əsr Şamaxı şəhəri IX-XVII əsrlərdə», R.M.Vahidovun «Mingəçevir

III-VIII əsrlərdə», M.X.Heydərovun «Şəhərlər və şəhər sənətkarlığı», «XIII-XVII əsrlərdə Azərbaycan şəhərlərində sosial-iqtisadi münasibət və sənətkarlıq təşkilatları», S.B.Aşurbəylinin «Bakı şəhərinin tarixi», Q.M.Əhmədovun «Orta əsr Beyləqan şəhəri», «Qədim Beyləqan», S.M.Onullahinin «XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi», İ.B.Babayevin «Qafqaz Albaniyasının antik şəhərləri», V.H.Əliyevin «Qədim Naxçıvan», R.İ.Məmmədovun «Naxçıvan şəhərnin tarixi oçerki», F.Ə.Əliyevin «XVIII əsrin ikinci yarısında Azərbaycan şəhərləri» və Ş.F.Fərzəlibəylinin «Quba tarixi» Azərbaycan tarixşünaslığında mühüm yer tutur (adı çəkilən əsərlərə dair mənbə və ədəbiyyat göstəricisində kifayət qədər məlumat verilmişdir).

Bərdə şəhərinin tarixinin problem olaraq tarixşünaslığını araşdırmağa başlamamışdan öncə əvvəldə qeyd etdiyimiz bir məsələni təkrarən diqqət mərkəzinə çəkmək istərdik. Bu da ondan ibarətdir ki, son vaxtlara qədər yazılı mənbələrin azlığı və arxeoloji tədqiqatların kifayət qədər aparılmaması səbəbindən Bərdə şəhərinin tarixi dərindən öyrənilməmiş, elə bu səbəbdən də Bərdə elmi ədəbiyyatda orta əsr şəhəri kimi təqdim edilmişdir. Odur ki, biz problemin öyrənilmə dərəcəsini təhlil edərkən tarixşünaslığın araşdırılmasında təkcə yazılı mənbələrlə kifayətlənməmiş, təhlili ilk dəfə olaraq yazılı mənbələrdə əldə edilən məlumatlardan, Bərdə şəhərinin arxeoloji materiallarından və qlobal şəhər probleminin öyrənilməsi təcrübəsindən istifadə etməklə aparmışıq. Bu baxımdan monoqrafiyada təkcə Azərbaycanın deyil, keçmiş SSRİ məkanına daxil olan şəhərlərin, eləcə də Asiya və Avropanın bir çox şəhərlərinin tarixinə dair əsərlərə, o cümlədən Yaxın və Orta Şərq ölkələrinin şəhər problemlərinə dair elmi ədəbiyyata geniş nəzər yetirilmişdir.

Bərdənin tarixinin öyrənilməsinə son dövrlərdə təşəbbüslər göstərilsə də hərtərəfli tədqiqatlar aparılmamış, yalnız müxtəlif səpkidə kiçik həcmli bir sıra əsərlər çap edilmişdir. Həmin əsərlər şəhərin arxeoloji tədqiqinə həsr edilmiş kitab (322), tarixi-arxeoloji oçerk (154) və orta əsrlər dövrünə aid dərs vəsaitindən (90) ibarətdir. Bərdə şəhərinin tarixi probleminə bir namizədlik dissertasiyası həsr edilmişdir ki, burada da əsasən şəhərin gil qab məmulatı öyrənilmişdir (9). A.B.Nuriyevin «Orta əsr Bərdə şəhəri» kitabı Bərdə şəhərində 1984-1985-ci illərdə arxeoloqun özünün rəhbərlik etdiyi arxeoloji ekspedisiyanın aşkarladığı materiallar əsasında yazılmışdır (322). Həmin kitabda Bərdənin orta əsrlər tarixinə qısa şəkildə toxunulmuş, əsasən qazıntı zamanı müxtəlif mədəni təbəqədən aşkar edilmiş arxeoloji məmulatların təsnifatı verilmişdir. Bərdənin sonuncu arxeoloji tədqiqatlarına həsr edilmiş əsər A.B. Nuriyev və Ə.H.Babayevin birgə yazdıqları «Bərdə şəhərinin tarixi-arxeoloji oçerki»dir (2001-ci il). Əsər Bərdənin arxeoloji tədqiqini əks etdirmək baxımından əhəmiyyətlidir (136).

Son dövrlərdə özlərinə vətən tarixi yaratmaq istəyən erməni «tarixçiləri» Bərdəni də uydurma «böyük Ermənistan»a, «Şərqi Ermənistan»a daxil etmiş, guya onlara məxsus qədim yaşayış məskəni olması barədə iddialar irəli sürmüşlər.

2006-cı ilin iyun ayında yaradılmış ekspedisya (bax: səh.8-9) Bərdə şəhərinin qədim yeri hesab edilən «Şortəpə» abidəsində arxeoloji tədqiqat işləri apardı. 100 kv.m sahədə aparılan qazıntı 5 metr dərinliyə qədər davam etdirilərək mədəni təbəqənin stratiqrafiyasını müəyyənləşdirdi. Arxeoloji tədqiqat işləri zamanı Bərdə şəhərinin antik dövr tarixini öyrənmək baxımından maraqlı maddi mədəniyyət materialları aşkar edildi. Belə ki, qədim dövrə aid təbəqədə

çay daşı və çiy kərpiclə tikilmiş divar qalıqları açıldı. Həmçinin müxtəlif təyinatlı və rəngarəng saxsı məmulatı, o cümlədən küp, kuzə tipli qab, bardaq, kasa, döyrə, boşqab tipli təsərrüfat, məişət və süfrə qabları, həmçinin kiçik həcmli metal əşya və şüşə qırıqları, eləcə də kirəmit, dən daşları, metal ərintisi, ocaq yerləri, habelə təsərrüfat məhsullarının (arpa, buğda, darı) çürüntüləri və s. aşkar edildi (15). Bərdə şəhərinin qədim tarixinin öyrənilməsində xüsusi əhəmiyyətə malik olan bu maddi materiallar, qeyd etdiyimiz kimi, şəhərin tarixinin 2500 il olduğunu sübutlarla təsdiqlədi.

Beləliklə, təqdim olunan bu əsər eyni zamanda Azərbaycanın bir çox şəhərləri, o cümlədən Bərdə haqqında əsassız iddialara, yəni Bərdə şəhərinin guya nə vaxtsa ermənilərə məxsus olmasına dair saxta tədqiqatlara cavabdır.

Azərbaycan tarixinin şəhər tarixi ilə bağlı problemlərinin həllinin xüsusi əhəmiyyəti məsələsinə qayıdaraq bir daha qeyd edirik: Respublikamız yenidən müstəqilliyini əldə etdi. Tarixi təhriflərin, çatışmazlıqların aradan qaldırılması üçün əlverişli şəraitin yarandığı bir dövr başlandı. Belə bir şəraitdə xalqımızın formalaşmasında, onun ictimai-iqtisadi, siyasi və mənəvi varlığının möhkəmləndirilməsi və inkişaf etdirilməsində mühüm rol oynamış qədim şəhərlərin tarixinin öyrənilməsi, o cümlədən Azərbaycan torpaqlarının tarixi taleyinin böyük bir dövrünü özündə qoruyub saxlamış Bərdə şəhərinin tarixinin elmi əsaslarla, hərtərəfli, kompleks öyrənilməsi, fikrimizcə, bir çox mürəkkəb və az tədqiq olunmuş problemlərin, Azərbaycanda yaranmış ictimai quruluşların, dövlətçilik formalarının müfəssəl və dərindən öyrənilməsini, diyarın daxili bazar münasibətlərinin formalaşması prosesini, azərbaycanlıların digər xalqların nümayəndələri ilə qonşuluq, iqtisadi

və mədəni əlaqələrinin mənbəyini və s. aydınlaşdırmağa zəmin yaradır.

Eyni zamanda doğma diyarın təbiəti, tarixi abidələri, xalqın iqtisadiyyat və mədəniyyətdə nailiyyətləri ilə tanışlıq insanlarda Vətənə məhəbbəti, xalqımızın mübariz ənənələrinə sədaqəti şərtləndirir. Tədqiqat əsasında elmi dövriyyəyə daxil edilmiş materiallar, milli özünüdərkin, milli iqtisadi, sosial və siyasi təfəkkürün formalaşmasında faydalı ola bilər.

Bunlarla yanaşı, daha bir qeyd: müəllif Bərdə şəhərinin tarixinin təqdim edilən əsərdə birdəfəlik və tam şəkildə öyrənildiyini iddia etmir. Bərdə şəhəri geniş miqyaslı arxeoloji tədqiqini hələ gözləyir.

# I FƏSİL

# BƏRDƏ ŞƏHƏRİNİN TARİXİ ƏRAZİSİ, TƏŞƏKKÜLÜ VƏ ADININ ETİMOLOGİYASI

## 1.1. Bərdənin yerləşdiyi tarixi ərazi və onun təbii-coğrafi xüsusiyyətləri.

Bərdə şəhəri dünyanın ən qədim insan məskənlərindən olan Azıx yaşayış məskəninə yaxın bir ərazidə – Kür və Tərtər çayları arasında salınmşdır.

Bərdə ərazisinin coğrafi təsviri haqqında ilkin məlumata yunan və latın mənbələrində – Strabonun coğrafi təsvirində (354), Ptolemeyin «Coğrafiya dərsliyi»ndə (286), Böyük Pliniyin «Təbiət tarixi»ndə (342) rast gəlinir. Albaniyaya aid həmin təbii-coğrafi təsvirlər, şərhlər qədim Bərdə ərazisinin təbii-coğrafi şəraiti və eyni zamanda təbiətinin özünəməxsus xüsusiyyətləri haqqında ümumi nəticə çıxarmağa imkan verir. Bu baxımdan Strabonun (e.ə. 64/63 – b.e. 23/24) «Coğrafiya» əsərindəki Albaniya ərazisinin etnonim, toponim, oronim və hidronimlərinə aid məlumatlar böyük maraq doğurur (354, k.11).

I əsrdə yaşamış yunan alimi Strabon Kür çayı haqqında danışarkən qeyd edir: «Çay suları daşarkən sahilləri daşlarla doldururdu» (354, k.11. b.4). Çox güman ki, həmin

fikir Kür çayının yuxarı axını boyuna aiddir. Arxeoloci qazıntılar zamanı məlum olur ki, Bərdəyə yaxın ərazidə su selinin yuduğu yerlərdə yarğanlar əmələ gəlmiş və çay qumu təbəqələri əraziyə yayılmışdır (149).

Kür çayı sahilinin yaşayış üçün təbii cəhətdən tarixən daha əlverişli olduğu məlumdur. O da məlumdur ki, Kür çayı daşarkən sahillərinin subasması bir neçə kilometrə qədər çatırdı. Bəlkə də buna görə Bərdə şəhəri Kür çayının lap sahilində deyil, bir qədər aralıda salınmışdır. Bu barədə müəyyən mülahizələr söyləmək mümkündür. Ərazinin hidronomiyası və digər təbii xüsusiyyətləri göstərir ki, Kür tarixən bol sulu, coşqun axan çay olmuşdur. Mənbəyini uzaqlardan götürən, sürətlə axan bu çay düzən ərazilərdə məcrasından çıxaraq sahillərindəki meşəlik və kolluqları yuyub aparır, yerində göllər və təbii kübrələnmiş torpaqlar qalırdı. Bu da əkinçilik – taxılçılıq və bostançılıq üçün əlverişli idi. Kürün sularından təbii və süni suvarma sistemlərində istifadə etməklə təsərrüfat yaradılması əlverişli olsa da çayın düzənlik hissəsində, onun lap kənarında şəhər bünövrəsi qoymaq əlverişli deyildi.

Tərtər çayı isə mənbəyini Bərdədən çox da uzaqda olmayan Qafqaz dağlarından götürərək iti və güclü axını ilə daşları yuyub gətirən coşqun dağ çayı olmuşdur. O, daşıb sahillərini basır, bəzən məcrasını da xeyli məsafədə birdəfəlik dəyişirdi. Çayın yatağı ətrafında həmin izlər indi də qalmaqdadır. Hətta çayın yatağının və onun üzərindəki körpünün yerləşməsindən ilk baxışda çayın vaxtilə hansı istiqamətdə axdığını müəyyənləşdirmək mümkün olmur. Tərtər çayının yaz fəslində gur sulu olduğunu və sürətlə axdığnı görənlər, onun həmin vaxt daşarsa, hər hansı bir yeri – şəhər və ya kəndi bir anda yuyub apara biləcəyini təsdiq edə bilərlər. Ancaq bütün bunlarla yanaşı, hər iki çayın resurslarından geniş istifadə edildiyi güman olunur.

Roma ensiklopediyaçısı Pliniy Sekund (b.e. 23-79) Albaniyanın bir çox hidronimlərindən, o cümlədən Kür çayı və onun qollarından bəhs edir (342, k. 4). Yeni eranın II əsrində yaşamış yunan coğrafiyaşünası Klavdi Ptolemey Albaniyada 29 şəhərin və 5 çayın adını çəkir (286, k. 5).

Bu məlumatlar Bərdənin yerləşdiyi təbii-coğrafi ərazi haqqında tarixi mənbədə verilən ilkin və qiymətli məlumatlardır. Bərdə şəhəri yaxınlığında yerləşən Kalankat kəndindən olan VII əsrdə yaşamış alban tarixçisi Musa Kalankatlı Bərdə ərazisi haqqında daha geniş, tarixi əhəmiyyətli və maraqlı məlumatlar verir. Əsərinin əvvəlində Albaniyanın coğrafi yeri və təbiətindən bəhs edən M.Kalankatlı göstərir ki, bu ölkənin paytaxtı Bərdə şəhəridir (136, k.1, f.4). M.Kalankatlı əsərinin sonrakı bölmələrində də bəzi hadisələri şərh edərkən Bərdə ərazisinin təbiəti haqqında geniş təsəvvür yaradır. Məsələn, o, III Vaçaqan dövründə Kürsahili qalın meşələr, şəhərətrafı bağlar, istirahət və ov yerləri haqqında, həmçinin Kür çayının təbii xüsusiyyətləri, onun sahillərinin vətəgələr üçün yararlılığı barədə, bölgənin təbii şəraiti, sərvətləri və təsərrüfatı haqqında məlumatlar verir (136, k.1). M.Kalankatlı yazır: «Dağlararası düzləri keçib (Viro və digərləri nəzərdə tutulur – Q.H.) Uti vilayətinin gözəl, hamar və bərəkətli düzənliklərinə enəndə,...» (136, k.2, f.14). Burada verilən təbii-coğrafi ərazi təsviri Bərdə ərazisinin təsviridir. Bərdənin təbii şəraiti haqqında buna bənzər məlumatlara əsərin başqa yerlərində də rast gəlinir.

Bərdə ərazisinin təbii xüsusiyyətləri haqqında yunan, latın və alban mənbələrində olduğu kimi, ərəb, fars və türk dilində olan mənbələrdə də dəyərli məlumatlar vardır. Həmin mənbələr əsasən coğrafiyaşünasların və səyyahların əsərləri olduğundan, onlardan da Bərdənin təbii-coğrafi xüsusiyyətlərinə dair məlumat almaq mümkündür. Fars

dilində yazılmış «Hüdud-əl-aləm»də bildirilir ki, «...Bərdə böyük və zəngin şəhərdir. O, Arranın paytaxtı və bu əyalətin şahının daimi iqamətgahıdır. Orada, onun ətrafında meyvə və taxılla zəngin olan geniş, çiçəklənən əkinlər var. Orada tut ağacları çoxdur» (97, s. 36).

Ərəb müəllifləri də Bərdənin təbii-coğrafi ərazisi və s. barədə maraqlı məlumatlar verirlər. Məsudi bildirir ki, «Kür çayı Tiflis ölkəsindən və Curzan torpaqlarından, Suqdəbil şəhərindən, sonra isə Bərdə vilayətindən axır» (302, s.33). O, daha sonra qeyd edir ki, «Kür öz yolunu Bərdənin üç milliyindən (1 coğrafi mil 7640 m.-ə, 1 mil 2-3 km-ə bərabərdir – Q.H.) davam etdirir və onun əyalətlərindən biri olan Beyləqanın yanından keçir» (302, s.58). Əbu-Duləf Bərdədə müalicə əhəmiyyətli isti su bulaqlarından danışır (173, s.75-85). Əl-Fəqih Bərdənin təbii sərvətlərindən bəhs edərək yazır: «Arranda civə, mis kuprosu, mis və gümüş-qurğuşun yatağı vardır. Ora yerli fıstıq, şabalıd və çox gözəl şeylər düzəldilən tozağacı ağacları ilə zəngindir; həmin tozağacı ağacları Bərdə ölkəsindəki ağac və kollarla zəngin olan qalın meşələrdədir. Ər-Rəhman adlanan bu meşə Xəzərə qədər uzanır və Xavarəzm ölkəsinə daxil olur» (267, s.39). İbn Rusta isə qısaca olaraq qeyd edir ki, «Kür çayı Alanlar ölkəsindən axır, Tiflis və Bərdənin yanından keçir, Təbəristan dənizinə tökülür» (266, s.35). İstəxri Bərdənin təbii xüsusiyyətlərinə görə digər şəhərlərdən fərqləndiyini qeyd edərək yazır ki, «Arranda Bərdə, Bab əl-Əbvab və Tiflisdən böyük şəhər yoxdur (173, s.89). Beyləqan, Varsan, Bərdinc, Bərzənc, Şamaxı, Şirvan, Abxaz, Şabran, Qəbələ, Şəkki, Cənzə, Şəmkir, Xunan böyüklüyünə, çiçəklənməsinə və məhsullarına görə çox da diqqəti cəlb edən şəhərlər deyil. Kür çayının suyu şirin, sağlam və yüngüldür» (8, s.110-117; 173, s.85-102; 270, s.21). İstəxri xüsusi olaraq bildirir ki, Bərdə «sağlam iqlimli,

münbit, çoxlu əkin sahəsi və bol meyvəsi olan yerdir. İraqla Xorasan arasında Rey və İsfahandan sonra Bərdədən daha münbit (torpaqlı), əlverişli mövqe tutan bir şəhər yoxdur. Buradan (Bərdədən – Q.H.) bir fərsəxdən də az məsafədə, onunla yaxşı münasibətdə olan əl-Əndərab adlanan yer vardır. Bura Kərnə,Ləsub və Yəqtan arasındadır və sahəsi bir günlük yol ərazisini tutur. Bura hər cür meyvəli bostan və bağlarla doludur» (173, s.88; 147, s.151; 270, s.9). İbn Hövqəl Bərdənin təbii şəraiti və ərazisinin təbii xüsusiyyətləri haqqında belə məlu-mat verir: «Bərdə şəhərinə gəldikdə, bura Ümmu-l Randır (Arranın anası) (paytaxtı) və bu yerlərin ən yaxşısıdır... Bura parlaq vəziyyətdə və çox yaxşı haldadır. Bu isə onun saf havasından, məhsuldarlığından, əkinlərin, meyvə ağaclarının və çayların çoxluğundan irəli gəlir. Rey və İsfahandan sonra İraqla Təbəristan arasında Bərdətək böyük və məhsuldar, tutduğu mövqe və xəzinəyə verdiyi gəlirə görə yaxşı yer yoxdur» (173, s.108; 181, s.86). Müqəddəsinin məlumatı: «O ki qaldı Arrana, o, vilayətin üç hissəsini, Arras çayı ilə dəniz arasındakı yarımadanı tutur, Məlik (Kür) çayı vilayəti ortadan bölür. Onun paytaxtı Bərdə şəhəridir. Bərdə baş şəhərdir... Bərdədə şəhəri kəsib keçən çay var, Kür çayı isə şəhərdən iki fərsənglikdədir. Bərdə gözəl şəhərdir» (173, s.125-140; 302, s.7). İstəxri və İbn-Xordadbeh Arran və Kürlə bərabər Kərnə (Gərnə) sözlərini işlədir ki, bu da Bərdənin toponimlərinə aid məlumatı zənginləşdirir (173, s.88; 269, s.11).

Bərdənin coğrafi yeri haqqında İbn Rusta bildirir ki, «Adərbaycan: … Bərdaa, Nəşəva, Sisacan, Arzan, Xilat beşinci iqlimdədir» (266, s.43).

Yaqut əl-Həməvinin yazdığına görə, «Kitab əl məlhəmə» əsərinin müəllifi danışıb ki, Bərdə şəhəri yetmiş doqquz dərəcə otuz dəqiqə uzunluq, qırx beş dərəcə en

dairəsində, altıncı iqlimdə yerləşir. Əbu Avn isə öz astronomik cədvəlində Bərdəni beşinci iqlimin yetmiş dərəcə uzunluq və qırx üç dərəcə endə göstərir (40, s.150-154; 382, s.134). Əl-Biruni (X-XI əsrlər) «Məsud cədvəli»ndə Bərdəni beşinci iqlimdə göstərir və qeyd edir ki, Bərdə Kür çayı yaxınlığındadır (8, s.146).

Əl-İdrisi coğrafi ərazilər haqqında danışarkən qeyd edir ki, «Beşinci iqlimin altıncı hissəsinin əhatə etdiyi yerlərə... Azərbaycanın bəzi şəhərləri və bütün Arran daxildir. Biz buna Bərdə şəhərinin təsviri ilə başlayırıq. Çünki bura Arran ölkəsinin paytaxtıdır. Bu şəhər çox böyükdür, onun uzunluğu 3 milə qədərdir, eni də bundan az deyildir» (173, s.150).

Həmdullah Qəzvini də Bərdəni beşinci iqlimə aid edir və göstərir ki, Bərdənin «yerləşdiyi coğrafi yer uzunluğu 80, eni 40 dərəcə 20 dəqiqədədir...» Sonra müəllif yazır: «Suyu kiçik çay-dan götürürlər ki, o da Tərtər (adı ilə) tanınır» (370, s.22). Həmdullah Qəzvini Bərdə şəhərinə məxsus olan yay iqamətgahından da bəhs edir: «Hərik – Bərdəyə yaylaq (yay iqamətgahı) kimi qulluq edir və o çox cazibədar və gözəl yerdir, bulaq suları, zəngin yaşıllıq və ov üçün yerlərlə zəngindir. Bərdə əhalisi yayda oraya gedir, qışda isə şəhərə qayıdır» (370, s.22).

Məcdəddin əl-Hüseyni (Məcidi) də (XVI əsr) Bərdənin beşinci iqlimə aid olduğunu qeyd edir (399, s.104).

Bərdənin koordinatları Nəsirəddin Tusinin və Uluqbəyin astronomik bölgülərə aid cədvəlində də verilmişdir (8, s.20).

Bərdə şəhərinin gözəlliyinin təsvirinə Nizami Gəncəvinin «İskəndərnamə» poemasında da rast gəlirik:

«Bərdə nə gözəldir, necə qəşəngdir,
Yazı da, qışı da güldür, çiçəkdir.

İyulda dağları lalələr səpər,
Qışını baharın nəsimi öpər.
O yaşıl meşəsi cənnətə bənzər,
Şən ətəklərinə bağlamış kövsər.
Söyüdlük çöllərə vermişdir zinət,
Ağ bağı elə bil həqiqi cənnət.
Qırqovul yuvası hər sərv ağacı,
Oxuyur kəkliyi, ötür turacı.
Səssizlik içində dincəlir gülşən,
Torpağı silinmiş qayğı, kədərdən.
Reyhanı yaşıldır illər uzunu,
Hər çeşid naz-nemət bürümüş onu.
Yem üçün quş gələr bu gözəl yurda,
İstəsən «quş südü» taparsan burda.
Torpağı yoğrulmuş qızıl suyundan,
Elə bil hər yanda bitmiş zəfəran.
O yaşıl yerləri dolaşıb gəzsən,
Şənlikdən başqa bir xəyal görməzsən»
(147, s.372).

Bərdəni tərənnüm edən ulu şair bu zəngin şəhərin yerləşdiyi məkanın bənzətmə və poetik ümumiləşdirmələrlə mənzərəsini yaratmışdır.

Nisbətən son dövrün mənbələrində də Bərdə haqqında məlumatlar verilmişdir. Məsələn, Abbasqulu ağa Bakıxanov Bərdənin öz dövründəki görkəmi və vəziyyəti haqqında qısa məlumat verməşdır (208, s.49).

Yusif Vəzir Çəmənzəminli qeyd etmişdir ki, «min sənə əvvəl Bərdə bağlı-bağçalı, gözəl bir şəhər idi. Çoxlu hamamlar, karvansaralar, bazarlar şəhəri zinətləndirirdi...» (20, s.27).

Qədim tarixi mənbələrin və tədqiqat əsərlərinin araşdırılması nəticəsində belə bir qənaətə gəlmək olur ki, Bərdə

Qafqaz Albaniyasının geniş düzənlik əraziyə, əkinə yararlı torpaqlara, təbii və süni su hövzələrinə, malik olan Uti nahiyəsində, Kür çayı ilə Tərtər çayının arasında yerləşmişdir. İki tərəfdən çaylar, digər tərəflərdən böyük göl və ucsuz-bucaqsız meşələr, otlaqlar, əkinlər və bağlarla əhatə olunan Bərdə Uti nahiyəsinin, eyni zamanda Albaniyanın mərkəzində yerləşmiş, ətrafda olan həm düzənlik, həm də dağlıq hissələrin təbii sərvətləri ilə əhatədə olmuş, əhali qeyd edilən təbii şərait və sərvətlərdən bəhrələnmişdir. Ərazicə beşinci iqlimdə yerləşən, təbii-coğrafi cəhətdən özünəməxsus müsbət xüsusiyyətlərə malik olan Bərdədə müxtəlif təsərrüfat növləri inkişaf etmiş, burada sənətkarlığın meydana çıxmasına zəmin yaranmış və bütün bunlar şəhərin əmələ gəlməsi və inkişafında mühüm rol oynamışdır.

Beləliklə, əlverişli təbii şəraitə və strateji mövqeyə malik olan Bərdə ərazisində təsərrüfatın, sənətin yüksək inkişafı zəminində şəhər əmələ gəlmişdir (31, s.25; 44, s.149; 51, s.45; 96; 112, s.15; 206, s.18; 241, s.12; 279, s.14; 294, s.15; 342). İindiki Bərdə şəhərinin şimal-qərbində yerləşən «Şortəpə» e.ə. III minillikdə yaşayış məskəni, e.ə. IV əsrdən etibarən şəhər olmuşdur.

## 1.2. Şəhərin adının etimologiyası.

Tarixən qədim olan hər bir şəhərin adının etimologiyası tədqiqat obyekti kimi böyük maraq doğurur. Bu baxımdan Bərdə şəhəri də diqqəti cəlb edən obyektdir. Bərdənin adının tarixi mənbələrdə çəkilməsi ilə əlaqədar araşdırmalarımızı, «Bərdə» toponimi və adın etimologiyası

ilə bağlı mənbə məlumatlarını və tədqiqatçıların fikirlərini müqayisəli şəkildə təqdim edirik.

Fikrimizcə, özündə şəhərin tarixi keçmişini əks etdirən Bərdə adının zaman-zaman inkişaf və tənəzzüllə bağlı məruz qaldığı dəyişikliyi, adın mənasını öyrənməklə tarixi adın səciyyəvi xüsusiyyətini, müasirlikdə rolunu qiymətləndirməyin tədqiqat üçün əhəmiyyəti olacaq.

Bərdə şəhərinin adı ilə bağlı ən qədim yazılı məlumat ilk orta əsrlərə aid olan alban, erməni və gürcü mənbələrində saxlanmışdır (136, k.1, f.5; 244. s.32; 295, s. 62).

M.Kalankatlının Albaniya tarixi əsərində Bərdənin (Partav) adı daha çox çəkilir, onun tarixi coğrafiyasına, siyasi, iqtisadi, mədəni həyatına dair geniş məlumatlar verilir (136, k.1, f.2, 3), lakin Bərdə sözünün etimologiyası haqqında məlumata rast gəlinmir. Bərdənin adı ilk olaraq orta əsr (V-VIII əsr) gürcü mənbələrində qədim gürcü əfsanələri əsasında şərh edilir. Gürcü tarixçisi Leonti Mrovelinin «Kartli çarlarının həyatı» adlı xronikasında Bardos haqqında söylənilən rəvayətin Bardiyaya (Bərdəyə) aid olduğu qeyd edilir (315, s. 22).

Bərdənin adı ulu dastanımız Dədə Qorqud əsərində də çəkilir (17; 388, s.28). Doqquzuncu Oğuznamədə deyilir: «… Qorqud Begil adında bəyi razı saldı, özü ona qılınc verdi, barmağına qolçaq taxdı, əmr etdi cəsur at gətirdilər, onun yurtunu çıxardı və bəyi Bərdə və Gəncəyə göndərdi ki, oğuz ilini (elini-müəllif) qorusun» (181, s.365; 289, s.143).

Orta əsrlər ərəb və fars mənbələrində Bərdənin adı dəfələrlə çəkilir, lakin onlarda da «Bərdə» toponimi izahını tapmır (8, s.67, 77, 110, 137, 164, 169, 179; 173; 318). Yalnız Yaqut əl-Həməvi üç yerdə «Bərdə» adlı məntəqənin olduğunu qeyd edir və «Bərdə» toponiminin etimologiyasını açmağa səy göstərir. O, «Bərdə» sözünün fars mənşəli

«Bərdədar» olub, «əsir etmə yeri» mənası verdiyini bildirir. Sonra şərh edir ki, hökmdarlar ətraf yerlərdən tutduqları əsirləri dustaq kimi burada saxlayırdılar (40, s.88; 382, s.12). Hətta bəziləri bu fikri ifratlaşdırıb yazır ki, «əyalətlərdən tutduqları əsirləri gətirib burada məskun edirdilər» (400, s.153). Əvvəla, Yaqut əl-Həməvidən əvvəl və sonra heç bir müəllif «Bərdə» toponimini dustaq saxlanılan yer kimi qeyd etmir. Eyni zamanda, Bərdənin yerləşdiyi ərazi yalnız həbsxana üçün əlverişli yer ola bilməzdi ki, şəhərin adlandırıla bilinəcək başqa əlamətlərini üstələyə bilsin. Bu da istisna deyildir ki, qədim şəhərlərin hər birinin, o cümlədən Bərdənin dustaq saxlanılan həbsxanası olmuşdur (2, s.80; 51; 309, s.61; 382). Tarixən möhkəm mühafizəli həbsxanası ilə məşhur olan şəhərlər də məlumdur (27, s.22; 208, s.36; 359, s.12, 28), lakin «Bərdə» toponiminin etimologiyasını bununla bağlamaq üçün əsas yoxdur.

Bərdə sözünün fars dilində olan hərfi tərcüməsi qul, kölə olsa da, «bərdədar» bar verən, bol məhsul verən, həmçinin xeyir verən, mənfəət verən mənasında işlədilir. Onu da qeyd etmək lazımdır ki, Bərdə sözünün fonetik kökü «bərd» ərəbcə bir mənada daş, ikinci mənada soyuq, sərin sözündən ibarətdir (43, s.52).

Orta əsr tarixçi və coğrafiyaşünası Əbd-ər-Rəşid əl-Bakuvinin «Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri» əsərində də «Bərdə» toponimi haqqında məlumat verilir (32, s.118).

Qeyd etmək lazımdır ki, adları çəkilən mənbələrdə Bərdə adının etimologiyası haqqında məlumat verilməməsi müxtəlif mülahizə və fikirlərin meydana çıxmasına səbəb olmuşdur. Burada Bərdə adının etimologiyası ilə bağlı maraqlı araşdırmaların məğzini tarixi ardıcıllıqla təqdim etməyi məqsədəuyğun sayırıq.

Mənbələrdə qədim dövrdə şəhərin necə adlandırıldığı barədə məlumat verilmir. Orta əsrlərdə isə şəhər zaman-zaman Firuzabad, Partav, Bərdaa, nəhayət, Bərdə adlandırılmışdır. Qeyd edək ki, qonşu xalqların dilində bu adlar müxtəlif formalarda işlədilmiş, mənbələrdə də həmin formada saxlanmışdır. Məsələn: farsca Partav və Perozapat (Firuzabad), erməni dilində də Partav, gürcü dilində Bardos, ərəbcə Bərdaa adlandırılmışdır (136, k.1, f.8; 40, s.88; 239, s.12; 295, s.10; 296, s.62; 312, s.41; 315, s.22).

Bərdənin adı və onun etimologiyasının öyrənilməsində tarixi və coğrafi əsərlərdən başqa özündə tarixi hadisələri, toponimləri əks etdirən şifahi xalq yaradıcılığı nümunələri, yazılı ədəbi-bədii əsərlər və etnoqrafik məlumatlardan da faydalanmaq mümkündür (30, s.7-16; 318).

Nizami Gəncəvi «İskəndərnamə» poemasında yazır:

Harun (Hurum) adlanırdı bu yurd hər yerdə,
İndisə adına deyirlər Bərdə.
(147, s.195)

Maraqlıdır ki, Nizami Gəncəvidən başqa heç kim Bərdənin «Harun» adlandırıldığını qeyd etmir. Bununla belə, o da çox maraqlıdır ki, XVIII əsrdə tərtib olunmuş «Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri»ndə Bərdə nahiyəsinin kəndləri sırasında «Harun» adlı kəndin adı çəkilir. Həmin kəndin Tərtər çayının kənarında yerləşdiyi, eyni zamanda orada yaşayış olmadığı bildirilir (49, s.300).

Demək olar ki, qaynaqlarda, Yaqut əl-Həməvinin qeydləri istisna olmaqla, «Bərdə» toponiminin mənşəyi və mənası haqqında məlumat verilmir (40, s. 88; 382, s.14).

Adının sonuncu deyiliş və yazılış formasını, qismən dəyişməklə, son dövrlərədək saxlayan «Bərdə»nin etimologiyası haqqında fikirlərə keçən əsrin axırlarında və son

dövrlərdə müraciət edilmişdir. Həmin tədqiqatçıların fikirlərini ardıcıllıqla təqdim etməklə onlara öz münasibətimizi də bildirək. İ.Şopen (1894-cü il) «Bərdə» sözünün mənasını yunan dilində axtarır (375, s.384). Q.Osipov, qəribə də olsa, «Bərdə» sözünün mənasının erməni dilində «qovaqlı yer» mənası verdiyini yazır. V.Sısoyev əl-Həməviyə əsaslanaraq «Bərdə»ni «qul yeri – qul saxlanan yer» hesab edir (355, s.57). Qrum-Qrcimalo Orta Asiyada, Sakistan vilayətində «Bərdə» adlı şəhərin mövcudluğunu və Bərdə şəhərinin adının da onunla bağlı olduğunu qeyd edir (240). Y.Paxomov gürcü mənbələrində olan rəvayətlərə və erməni dilində şərhlərə öz münasibətini bildirərək «Bərdə» toponimini Qafqaz dillərində axtarmamaq qərarına gəlir, yəni «Bərdə» toponiminin Qafqazda yaşayan xalqlara deyil, başqa xalqa mənsub olduğunu qeyd edir (332, s.81). M.S.Ordubadi ərəb mənbələrinə əsaslanaraq «Bərdə» toponimi haqqında «dustaqların saxlandığı həbsxana», «dustaq düşərgəsi» fikrinə tərəfdar çıxır (157, s.112). Q.Melikişvili Bərdə ilə e.ə. VIII əsrdə Mannada olan «Parda» arasında əlaqə olduğunu göstərir (305, s.5). M.Minorski şəhərin adının «palan» mənası verdiyini hesab edir, lakin bunu heç cür şərh etmir (309, s.11). A.Məmmədov Bərdə şəhərinin adını Firuz, Peroz, Barda, Partav və Bərdə kimi qeyd edir (121, s.33). R.Yüzbaşov «Bərdə» toponimini tayfa adı kimi qəbul edir (177, s.67). T.Səlimov «Bərdə»nin farsdilli söz olub, «qız şəhəri» mənasını verdiyini yazır (348, s.74-75). N.Nəbiyev isə V.Sısoyevin fikri ilə razılaşdığını bildirir (140, s.38). A.Axundov göstərir ki, Bərdə türk mənşəli «berdi» sözündən olub, «qab, piyalə, kuzə» mənasını verən toponimdir (1, s.99). E.Əzizova görə, Bərdə «Berdi» (ipək sap – E. Ə.) sözü olub, «ensiz çay, qol, tel» mənasındadır (44). Q.Qeybullayev «Bərdə» toponiminin Urmiya gölü sahilindəki Parda

şəhərinin adı ilə əlaqədar olduğunu qeyd edir (108, s.125; 229). T.Rəsuloğlu (Əliyev) «Bərdə» adının Əhəməni hökmdarı Kirin (e.ə.VI) oğlanlarından birinin adı ilə- Bisütun qayalarında yazılmış «Bardiya» ilə əlaqədar olduğunu bildirir (164, s.72-73).

Qeyd etmək lazımdır ki, son dövrlərdə yaşayış məskəni adlarını tayfa adları ilə izah etməyə maraq artmışdır (30; 31; 90; 108; 112; 163; 229). Bu, ilk növbədə bir vaxtlar müəyyən təsirlərə, tarixi təhriflərə məruz qalmış həqiqətlərin bərpası kimi qəbul edilir. Bu, çox təqdirəlayiq haldır. Lakin unutmaq olmaz ki, heç bir elmi mülahizə tarixi həqiqətləri kölgədə qoymamalıdır. Faktsız, elmi cəhətdən əsaslandırılmamış, tələsik fikirlər söyləməkdənsə, susmaq daha dürüstdür.

Qaynaqlarda və tədqiqat əsərlərində sakların e.ə. VIII-VII əsrlərdə Azərbaycana gəlməsi və Kür-Araz ovalığında yerləşməsi barədə məlumat verilir (112; 185; 379). Bildirilir ki, saklar indiki Bərdə şəhərindən Qafqaz dağlarına qədər böyük bir ərazini tutmuşdular. Həmin sak tayfaları içərisində «bərdor» adlı tayfanın mövcud olduğundan bəhs edilir (11; 252; 379). Bərdənin adına və onun etimologiyasına bu nöqteyi-nəzərdən yanaşmalar da vardır. Ə.Haqverdiyev Bərdənin adının eradan əvvəl Cənubi Qafqaza gəlmiş saklar içərisindəki bərdorların adından götürüldüyünü yazır (90, s.16-17).

Məhərrəm Bayar göstərir ki, «saklar (albanlar, sakasenlər, gögərənlər, taoklar, phasianlar, pakturlar və konduklar) türkmən uluslarındandır» (119).

M.Bayara görə, sak (iskit) türklərinə assuriyalılar «aşkuzan\işkuza», yəhudilər Tövratda «aşkenaz», yunanlar «skcuthe», farslar «saki», hindlilər «sakya» deyirdilər» (119).

A.Zəki Vəlidi Toğan apardığı araşdırmalarda G.Nemet, Qutşmidt, O.Franke, N.Aristov, Edvard, Meyer, Mortmann kimi görkəmli türkoloqların sakların türk olduğunu qəbul etdiklərini bildirir (394).

Herodotun yazdığına görə, Qaqunun oğlu Parati Anadolunu, Fələstini, Suriyanı almış və e.ə. 634-cü ildə Misirə hücum etmişdi. Strabona görə, Qaqu və Gögün (Assuriya mənbələrində Lu kimi də adı çəkilir) rəhbərliyi ilə saklar Arandan cənuba yenərək Xram suyu və yuxarı Kür boylarını da tutmuşdular (119; 259, I).

Saklar Xəzər dənizinin şimalından keçərək Qafqazı almışdılar. İndiki Qarabağ bölgəsində binələyən sak (iskit) kraliçası Tomris e.ə. 529-cu ildə Xəzər dənizinin cənubunda İran hökmdarı Kuruşu məğlubiyyətə uğratmışdı (119; 259, I).

Bərdə şəhərinin tarixi ədəbiyyatda məlum olan adları və qədim dövrdə adlandırıldığı gümanları nəzərdə tutaraq apardığımız araşdırmalar müəyyən nəticələr çıxarmağa imkan verir. Belə ki, e.ə. VIII əsrdə Zikertu vilayətinin indiki Mianə-Ərdəbil bölgəsində yerləşdiyi bildirilir və vilayətin paytaxt şəhərinin Parda (bu ad sonrakı Bərdə şəhərinin adı ilə səsləşir) olduğu qeyd edilir. Göstərilir ki, İşquz vilayəti Marağa ətrafı torpaqlarda yerləşirdi. Ondan quzeyə doğru Urmu gölünün gündoğan tərəfində Subi və Bari adlanan daha iki qonşu vilayət vardı; yaxşı möhkəmləndirilmiş Tarui və Tarmakisa (indiki Təbriz) adlı zəngin qalalar Bari vilayətində idilər. Onun gündoğan səmtində indiki Qarabağ bölgəsində Puluadi vilayətinin paytaxtı Libliuni şəhəri (hazırkı Varsağan inzibati mərkəzi yaxınlığında) yerləşirdi (183, s.53-54; 233, 1). Tarixi mənbələrə əsaslanan ədəbiyyatda göstərilir ki, «I Rusa ilə savaşı tezləşdirmək üçün Sarqon Zikertuya yollandı. O, Mannada Urartupərəst müxalifət ocaqlarını dağıtmaq istəyirdi. O,

İştaraura çayını keçib Parda şəhərində oturan Metatti üzərinə gəldi. Çünki sonuncu öz hərbi qüvvələrini kömək üçün I Rusanın sərəncamına göndərmişdi» (5, s.61; 233, 1). Manna hökmdarı ilə müqavilə üzrə Assur çarı Urartudan alıb Assuriyaya qatdığı iyirmi iki qalanı, üstəlik bərkidilmiş Uşkaya və Parda şəhərlərini Mannaya qaytarmalı oldu (5, s.61; 233, 1). E.ə. 674-cü ildə Manna hökmdarı Ahşeri «mannalıların ölkəsindəki vilayətdə» gəlib məskunlaşan iskitlərlə Assuriyaya qarşı ittifaqa girdi. Bu ittifaqa midiyalılar da qoşuldu. Öz yürüşləri ilə Ön Asiyanı qorxu içində saxlayan iskitlər ilə müqavilə bağladı (5, s.63). Hasaraddon o ittifaqı pozmağa maraq göstərdi. Təxminən 672-ci ildə «işqus (iskit) ölkəsinin çarı» Partatua ilə yaxınlaşıb danışığa başladı (5, s.63; 233, 1). Herodota görə (119; 233, 1), skif-sakların bir başçısının adı Prototiy (Assur mənbələrində Partatua) idi (109, s.96). Partatua adını qədim fars dilindəki tava «güc», «qüvvət» («tab» sözü də buradandır) sözü ilə bağlayır və onun «Avesta» dilindəki Partava – «döyüş», «vuruşma» sözü ilə əlaqələndirirlər (109, s.96; 238, s.103).

M.N.Poqrebova yazır: «Hesab edirlər ki, Partatua (Partatua da «İşquzlar ölkəsinin çarı» adlandırılır) Prototiy formasında Herodotda skif çarı Madyanın atası kimi xatırlanır» (277, s.48)

İqrar Əliyev «Midiya tarixi»ndə Bardiya haqqında ətraflı məlumat verir (183). Həmin Bardiyanın Bərdə ilə nə dərəcədə əlaqəsi olmasını müəyyənləşdirməyə də maraq yaranır.

Məmmədtağı Zöhtabi «İran türklərinin əski tarixi»ndə Qaumat-Bardiya-Zöhhak haqqında şərhlər verir, Bardiyanın (Qaumata) qiyamından xüsusi bəhs edir (397, s.643-657).

Bunlardan əlavə, tarixi ədəbiyyatda Makedoniyalı İskəndərin Şərqə doğru yürüşləri ilə bağlı bəzi maraqlı faktlar da öz əksini tapır. Baryaks adlı birisi makedoniyalıların hakimiyyətinə qarşı üsyan qaldırıb özünü Parsa və Madanın çarı elan edir. Atropat öz gücü ilə Baryaksın üsyanını yatırır. Üsyançını əsir edib, makedoniyalılara verirlər. Baryaks Pasarqadda qətlə yetirilir (183, s.79).

Görünür Nizaminin «İskəndərnamə» poemasındakı Bərdə hökmdarı (Nüşabə) surəti də İsgəndərin müasiri olmuş Alban çarı haqqında antik müəlliflərin verdikləri məlumatlara söykənir (183, s.92).

Skiflərin Şimali Azərbaycan ərazisində yayılması yeni tədqiqatlarda çox mühüm yer tutur. Burada skif mədəniyyətinin izlərinin tarixi-arxeoloji öyrənilməsi indiyə qədər qaranlıq qalan problemlərin həllinə imkan verir (16; 94; 250; 117; 300; 369).

Skiflər haqqında qiymətli tədqiqatlardan biri olan Azər Həsənovun "Çar skiflər" adlı monoqrafiyasında qeyd edilir ki, "Skiflərin adı ən ilkin olaraq Assuriya çarı Asarxaddonun yazılarında (e.ə. VII əsrin 70-ci illəri) çəkilir" (94, s.29). Burada Assuriyaya qarşı mübarizə aparan skiflərin çarlarından birinin adı Partatua olduğu bildirilir, Asarxaddonun diplomatiyaya əl ataraq qızını Partatuaya ərə verməklə skiflərlə ittifaq bağlamasından bəhs edilir (94, s.30).

Tarixən bir tayfa ittifaqının da şəhər yaratmaq imkanı olduğunu və onlar «tayfa şəhərləri» hesab edilmiş, tayfanın və ya tayfa başçılarının birinin adı ilə adlandırılmışlar. Bərdə şəhərinin adı onun siyasi-inzibati həyatında baş verən dəyişikliklərlə əlaqədar olaraq dəyişmiş, eləcə də başqa xalqların dilindəki sözlərə uyğun şəkildə fonetik cəhətdən müxtəlif şəkildə ifadə edilmiş, sonuncu şəklini – Bərdə – saxlamışdır. Belə ki, bu ad e.ə. VII əsrdən tarixə

məlum olan Partatuadan götürülmüş sonrakı dövrlərdə Partav, Bərdaa və nəhayət Bərdə şəklinə düşmüşdür.

# II FƏSİL

# BƏRDƏ ANTİK DÖVR VƏ ERKƏN ORTA ƏSRLƏRDƏ (e.ə. IV əsr - b.e.VII əsri)

## 2 .1. Bərdə alban arşakların hakimiyyəti dövründə

Bərdə şəhərinin tarixinin qədim dövrünə aid dəyərli mənbə materialları olmadığından və iqtisadi, mədəni tarixdən fərqli olaraq **s i y a s i** tarixin öyrənilməsində arxeoloji qazıntıların mühüm rol oynaya bilməməsi səbəbindən şəhərin tarixinin bu aspektdən tədqiqatına ilk orta əsrlər dövründən – qaynaqlarda Bərdə (Partav) şəhərinə aid ilk məlumatların mövcud olduğu dövrdən (V əsrdən) – başlamalı oluruq.

Albaniyada baş vermiş siyasi hadisələri «Albaniya tarixi»ndə, erməni, gürcü yazılı mənbələrində, müasir tədqiqatlarda və tarixi ədəbiyyatda əksini tapmış məlumatlara əsasən vaxtilə Albaniya dövlətinin paytaxtlarından biri olmuş Bərdə ilə bilavasitə bağlı şəkildə izləmək

mümkündür (15, s.98-120; 106, s.18-125; 220; 244; 295, s.30-41; 296, s.143-177).

Ölkədə cərəyan edən siyasi proseslər Bərdə şəhərinin özündə və yaxud paytaxtı olduğu Albaniyanın vilayətlərində baş verdiyindən Bərdənin siyasi taleyi ilə bağlı olmuş, buna görə də tarixçi və salnaməçilərin diqqətini daha çox cəlb etmiş, kifayət qədər yazılı mənbə materialı yaranmışdır. Qaynaqlar içərisində mötəbər mənbələrdən biri olan M.Kalankatlının «Albaniya tarixi» əsərində bildirilir ki, «Ölkənin paytaxtı əzəmətli Bərdə şəhəridir» (136, k.1, f.4; 15, s.61). Şübhə yoxdur ki, ölkədə baş vermiş bütün siyasi proseslər onun paytaxtı ilə bağlı olmuşdur. Bərdənin siyasi tarixi də məhz bu bağlılıqda öyrənilməlidir.

Mənbələrdə Qafqaz albanları ilk dəfə e.ə. IV əsr hadisələri ilə əlaqədar xatırlanır (195, III, 8, 4). Qafqaz Albaniyası dövləti e.ə. IV-III əsrlərin qovşağında meydana çıxmışdır. B.e. I əsrində Albaniyanı Arşakilər soyu idarə etmişdir. Alban və erməni müəllifləri məlumat verir ki, Albaniyanın cənub sərhəddi bu dövrdə Araz çayı boyunca keçmişdir (136, k.1, f.4; 314, k.2, 8), başqa sözlə bütünlüklə Kür və Araz çayları arası Albaniya çarlığının tərkibinə daxil olmuşdur. Qardman, Sakasena, Uti, Ərsak, Paytakaran, Sisakan Qarabağın tarixi torpaqları idi (136, k.4. f. 50; 6, c.2, s.15-21).

Azərbaycanın dilçi alimləri Ərsak (Artsak) toponiminin "ar" və "saq, (şaq)//saq"-dan yaranan Arsaq (Arşaq//Arsaq) sözünün öncə şəxs adı kimi işləndiyini, sonralar onun sülaləsinin və yaşadığı yerin adının da belə adlandırıldığını, iki tərkib hissədən ibarət olan "Ərsaq" sözünün birinci hissəsinin – "ar//ər", demək olar ki, bütün türk dillərində "igid", "kişi", "qırmızı", ikinci hissəsinin isə qəbiləbirləşməsi adı Saq (166, s.43), həmçinin türkcə art – "dağlıq ərazi", "yüksəliş" və "sak" sözlərindən ibarət

olub "sak dağlıq ərazisi" mənası verdiyini bildirirlər (105, s.331, 338). Rus müəllifi A.Xazanov təsdiq edirdi ki, «Qarabağ əyalətlərindən biri olan Arsak öz adını sakların «cəsarətli» və «kişi» sözündən götürülmüş-dür».

M.Xorenlinin bildirdiyinə görə: «… irsi olaraq bütün Alban düzənliyi onun dağlıq hissəsi ilə birlikdə, Araks (Araz – müəllif) çayından başlayaraq Hunarakert adlanan qalayadək (Ağstafa zonası – müəllif) girdmanlar, savdeylər və qarqarların ərazisi idi» (314, k.2, 8). Bu məlumatı alban tarixçisi M.Kalankatlı da təsdiq edir (136, k.1, f.4; 126, s.56, 57). Aydındır ki, «…parfiyalı Valarşak (yəqin ki, I Vologez (51/52-79/80) cəsur Aranı ölkənin (b.s. Albaniyanın) hakimi təyin etmişdi» deyilərkən söhbət e. ə. I əsr hadisələrindən gedir. Maraqlıdır ki, albanların «daim yalançılıq edən adamlar» olması məlumatını da Moisey Xorenli vermişdir (314, k.3, 3; 126, s.56). Alban tayfalarından utilər, sovdeylər və qarqarlar Qarabağda yerləşirdilər. Göründüyü kimi, bütünlüklə Kürün sağ sahili boyu, Araz çayından Ağstafaya qədər alban tayfaları yayılmışdı. Beləliklə, qaynaqlar Qarabağ bölgəsinin tayfalarının türk mənşəli olması və bu ərazinin Albaniya dövlətinə məxsus olmasını təsdiq edir.

Qarabağ torpaqları heç cür Ermənistanın «əzəli» torpağı, tarixi ərazisi ola bilməzdi. Bu, mifologiya orta əsr erməni müəlliflərinin uydurmasıdır və indiyə qədər erməni tarixşünaslığına daxil edilmişdir (184, s.16). Bu, ermənilərin öz tədqiqatlarından da məlumdur: Ermənilərin vətəni – Balkanlar, tarixi Frakiya vilayətidir; ilk erməni dövləti Kiçik Asiyada yaranmışdır; Qafqaza ermənilər XIX əsrin əvvəllərində gəlmişlər.

Buna görə də Qarabağ ərazisinin e.ə. IV-I əsrlərdə «Ermənistanın» tərkibinə daxil olmasını düşünməyin hər hansı bir əsas yoxdur. Əvvəla, əgər bu belə olsa idi, onda

Midiya satrapı Atropat Kür və Tərtər çayları arasında yerləşən sakasenlərə başçılıq etmək imkanına malik olmazdı. Bununla bərabər, yaxşı məlumdur ki, Qavqamela döyüşündə (e.ə. IV əsrin sonları) midiyalılar, Atropatın başçılıq etdiyi kadusilər, albanlar və sakasenlər ilə «birləşmişdilər». Üçüncüsü, həmin dövrdə nəinki erməni «mərkəzləşmiş quldarlıq dövləti», ümumiyyətlə heç bir erməni dövləti olmamışdır (184, s.16).

I-IV əsrlərdə Albaniyanın vəziyyəti Qafqazda son dərəcə yaxşı olmuşdur. Gah romalıların, gah da parfiyalıların təsiri altında olan digər dövlətlərdən fərqli olaraq Albaniya müstəqilliyni itirməmişdir, bunu alban sikkələri də təsdiq edir (329, s. 81-96).

Albaniyanı əyalət kimi Roma imperiyasının tərkibinə daxil etmək romalılara müyəssər olmamışdır (363, s.121). II əsrin əvvəllərində bütün Qafqaz Romadan asılı olanda da təkcə Albaniya müstəqil qalmışdır (363, s.129). Albaniya III əsrin ikinci yarısında qonşularından fərqli olaraq o dərəcədə müstəqil idi ki, albanlar Sasani şahı I Şapurdan «məktubu qəbul etməyi» özünə sığışdırmamışdı (363, s. 134). Beləliklə, antik dövrdə Bərdə ərazisi müstəqil Albaniya dövlətinin Uti-Alban etnik və siyasi hissəsi olaraq qalmışdı.

Qafqaz Albaniyasının, o cümlədən onun mərkəzində yerləşən Bərdənin iqtisadi və mədəni tarixi başlıca olaraq öz əksini antik yazıçıların əsərlərində və arxeoloji materiallarda tapmışdır.

Strabonun «Coğrafiya», Böyük Pliniyin «Təbiətin tarixi», Pomponiya Melin «Yerin təsviri», Plutarxın «Paralel canlı təsvir», Korneliya Tatsitin «Annallar», Ptolomeyin «Coğrafiya dərsliyi» əsərləri, Appianın yaradıcılığından, Dion Kassinin «Roma tarixi», Klavdi Elianın «Canlılar haqqında», Kurtsi Rufun, Flaviya Arrianın və Yuli Solinin

əsərlərindən Albaniyanın tarixi coğrafiyası, əhalisi, təsərrüfatı və ticarəti, ictimai quruluş və mədəniyyəti barədə məlumat almaq üçün çox mühüm mənbədir.

Bu məsələyə bir daha toxunmaq lazımdır ki, «Böyük Ermənistan» barədə yazanlar Favstos Buzand, M.Xorenli kimi ilk orta əsr erməni tarixçilərinin əsərlərinə əsaslanırlar. Bu zaman onlar son dərəcə vacib bir cəhəti unudurlar ki, Favstos Buzandın, yaxud Moisey Xorenlinin yaratdığı görüntü – «onların (güya Ermənistanın? -müəllif) əsas ideyaları – yalnız zərdüşt İranının təhlükəsinə qarşı Ermənistanı birləşdirməkdir» fikri həqiqəti əks etdirmir (184, s. 49). Tamamilə şübhəsizdir ki, bu görüntü həqiqətdən çox uzaqdır. Məsələn, Ermənistan IV əsrdə, N.Q.Qarsoyanın qeyd etdiyi kimi, «nə bütöv olmamış, nə də birləşdirilməmişdir» (184, s.49).

Orta əsr erməni müəlliflərinin uydurmalarına əsaslanan «Böyük Ermənistan» mifi Aralıq–Qara–Xəzər dənizləri arasındakı üçbucaqdakı torpaqlarda ermənininkindən başqa hər hansı dövləti tamamilə inkar edir (184, s.48). Ancaq bu zaman ermənilərin bu ərazilərdə avtoxtonluğu kimi xırdalıqlar «unudulur», hansı ki, onların əcdadları bir vaxtlar uzaq Balkanlardakı Frakiyadan gəlmişlər. Qafqaz Albaniyası isə ilk orta əsrlərdə geniş əraziyə malik idi. O, şimaldan Böyük Qafqaz dağlarına, cənubdan Araz çayına, şərqdən Xəzər dənizinə, qərbdən İberiyaya qədər torpaqları əhatə edirdi.

Albaniya dövlətində 11 tarixi vilayət yerləşirdi: Çola (Cənubi Dağıstanda), Lipina (Samur çayının cənubunda), Kambisena (İberiyaya qədər olan sərhəddə), Qəbələ (müasir Qəbələ rayonunda), Əcəri (Qəbələnin cənubunda), Şəki (Şəki – Zaqatala Balakən bölgəsində), Paytakaran, yaxud Kaspiana, yaxud Bəlasakan (Mil və Muğan çölündə), Uti, Girdman, Ərsak (indiki Yuxarı Qarabağ və Mil düzünün

bir hissəsində), Sünik, yaxud Sisakan, yaxud Zəngəzur (6, c.2, f.1; 126, s.63; 224, s.11-13).

Tarixi Qarabağ ərazisi Kür və Araz çayları arasında Uti, Girdman, Sakasena, Ərsak, Sünik, Paytakaran vilayətlərini əhatə edirdi.

Heç bir şübhə yoxdur ki, Albaniyanın digər əraziləri kimi Qarabağ bölgəsinin, o cümlədən Bərdə əhalisinin də etnik komponentlərindən biri türk tayfaları idi (296, s.178-179; 99, s.16-19). Burada türk etnosları hələ e.ə. III-II minillikdən yaşamışlar. Bu dövrdə Albaniyada yerli tayfalar arasında, gəlmə tayfalar arasında, gəlmələr və yerli tayfalar arasında assimiliya-siya prosesi də baş vermişdir. Aparıcı tayfalar türk mənşəli olmuşdur (296, s.178-179; 99, s.16-19).

Yunan – Bizans, alban, gürcü, erməni, Suriya və ərəb mənbələrinin tədqiqi göstərir ki, Albaniyanın yerli əhalisi albanlar, utilər, lipinalılar, kaspilər, çilblər, qarqarlar, leqlər, girdmanlar, savdeylər olmuşlar. Uti, Paytakaran və Ərsakda əsasən utilər, qarqarlar və savdeylər yaşamışlar. Həmçinin yazılı mənbələrdə bütün Qafqazda, o cümlədən Qafqaz Albaniyasında, habelə onun mərkəzində - Qarabağ ərazisində köçəri tayfaların yerləşməsi haqqında da qeydlər vardır. Onların maskutlar, saklar və gellərdən ibarət olduğu bildirilir (126, s.41; 224, 18).

Bu prosesin mənbəyi xeyli qədimlərdən başlanır. E.ə. VII-VI əsrlərdə Azərbaycan ərazisində türklərin yaratdıqları kimmer-iskit-sak padşaşlığı mövcud olmuşdur (5, s.104-105). Bu fakt Heredotun (e.ə. V əsr), Miletli Heqateyin (e.ə. V-IV əsrlər) və başqalarının əsərlərində təsdiq olunur. Herodota görə, saklar öz qonşuları kaspilərlə birlikdə Əhəməni imperiyasının XV satraplığına daxil idilər (233, 3, 93). Qədim Şərq mixi yazılarında sak mənşəli tayfaların e.ə. VII əsrdə Cənubi Qafqaz-da, o cümlədən, Qarabağ

ərazisində məskunlaşması, həmçinin sakların və kutilərin hökmdarı (Tuqdammi və onun oğlu Sandakşatrunun – e.ə. VII əsrin ortaları) xatırlanır. Qarabağ düzündə e.ə. VII əsrə aid at dəfn edilən ağac konstruksiyalı kurqanların (251, s.15) yayılması bir daha təsdiq edir ki, iskit-saklar Cənubi Qafqazda özlərinə qohum olan və onlardan əvvəl burada yaşayan etnik qurupların ərazilərində məskunlaşmağa səy göstərirdilər. Bunu həmin ərazidə aşkar edilmiş iskit silah nümunələri və digər arxeoloji materiallar də təsdiq edir (277, s. 23; 251, s.15).

E.ə. IV əsrdə tarix səhnəsinə albanlar çıxmış, bununla da, Qarabağın etno-mədəni inkişafının alban mərhələsi başlanmışdır. Bir sıra mühüm dəlillər alban mərhələsinin etnogenez nöqteyi-nəzərindən iskit mərhələsi ilə varislik əlaqələrinə malik olduğunu göstərir (369, s.14). Qədim yunan müəlliflərinin məlumatlarında albanların iskitlərlə və ya massagetlərlə qohum olduğu bildirilir. Məsələn, Strabon yazır ki, şimal köçəriləri albanlara və İberiya əhalisinin bir hissəsinə «eyni səbəblərə görə» hərbi yardım göstərirlər (354, k.11, 3, § 5). Bu qohumluq və qonşuluqdan ibarət səbəblərin olmasından xəbər verir (354, k.11, 3, § 3; 369, s.14-17). Beləliklə, aydın olur ki, saklar albanlarla qohum və qonşu olduqları üçün onlara müharibə zamanı kömək edirdilər. Digər müəllif Dion Kassi (II-III əsrlər) albanların iskitlərə qohum olan massagetlərdən törəndiklərini göstərir (254, 49, 15; 369, s.14-17). «Albaniya tarixi»ndə albanların şimal xalqlar ilə qohumluğu qeyd edilir (136, k.1; 126, s.67).

Strabon yalnız albanların deyil, sonralar – ilk orta əsrlərdə – onlara hökmdarlıq etmiş Arşakilər (Ərsakilər) sülaləsinin də iskit mənşəli olduğunu göstərir. O öz zamanında mövcud olmuş belə bir fikri önə çəkir ki, Böyük Arşakilər

sülaləsinin banisi Arşak iskit-sak mənşəli idi (354, 11, 3, § 2-3; 369, s.14-17).

V əsrdə Cənubi Qafqazda siyasi-inzibati cəhətdən fərqli vəziyyət mövcud idi. Albaniyanın Bizans dövlətindən uzaqda yerləşməsi və coğrafi şəraitinin əlverişli olması Sasaniləri mühüm strateji əhəmiyyətə malik olan Dərbəndi və Böyük Qafqazın digər dar keçidlərini əldə saxlamağa sövq edirdi. Bu, Sasaniləri də, müəyyən mənada Albaniyanı da təmin edirdi. Çünki hər iki dövlət ilk növbədə öz sərhədlərinin təhlükəsizliyini təmin edir, ikincisi, göstərilən keçidləri əlində saxlamaqla ölkənin daxili və xarici məsələlərində özlərinə fəaliyyət meydanı qazanırdı (126, s.67).

Alban Arsakiləri sülaləsindən olan Asuagenin oğlu (Asuagenin arvadı Sasani şahı II Yezdəgirdin bacısı idi) II Vaçe 444-cü ildə Albaniyada hakimiyyət başına gəldi (136, k.1; 296, s.42).

Azərbaycan alimləri tədqiqatlarında faktlara əsaslanaraq göstərirlər ki, Arsaki və Sasani sülalələrinin bir-birinə yaxın və qohumluq sülalə nigahları ilə möhkəmləndirilən münasibətləri var idi. Bu, onların hakimiyyətdə birinin digərinə təsir göstərə bilməsi üçün mühüm rol oynayan amillərdən idi.

Sasani şahı Firuzun dövründə Albaniya çarı II Vaçe Bərdəni ölkənin paytaxtına çevirdi. Paytaxtın Qəbələdən Bərdəyə köçürülməsi daxili siyasətdəki dəyişikliklərlə bağlı idi. Şimali Qafqaz xalqlarının yürüşləri ilə əlaqədar olaraq ölkənin siyasi mərkəzi Kür çayının sol sahilindən sağ sahilinə keçirildi (136, k.1; 126, s.151).

V əsrin ortalarında Şimali Qafqaz xalqlarının tez-tez baş verən yürüşləri ilə əlaqədar, eləcə də Bizansın Atilla ilə müharibəyə və kilsə çəkişmələrinə başının qarışmasından istifadə edən Sasanilər Albaniyanın və İberiyanın müstəqilliyinə son qoymaq, onları öz əyalətinə çevirmək məqsədilə

açıq-aşkar qəti tədbirlərə əl atdılar. II Yezdəgird (438-457) hər şeydən əvvəl Cənubi Qafqaz ölkələrinin silahlı qüvvələrini səfərbərliyə aldı, onları öz dövlətinin şimali-şərqində hunlarla müharibəyə cəlb etdi və bununla onların müqavimətini zəiflətdi (136).

Hələ V əsrin əvvəllərində Albaniya feodallarının və ruhanilərinin xüsusi imtiyazları, müstəqil daxili, bəzən isə xarici siyasət yürüdən alban Arsakilərinin simasında dövlət quruluşu saxlanmışdı. Alban hökmdarlarının separatçılıq meylləri Sasanilərin mərkəzi hökumətini narahat edirdi (136; 126). II Yezdəgird yalnız kəndlilərdən yox, şəhər əhalisindən, habelə əvvəllər azatlarla bərabər tutulan və ancaq torpaq vergisi verən ruhanilərdən də ağır vergi alırdı. Becərilən bütün torpaqlardan vergi tutulmağa başlanmışdı (136; 295, s.99).

M.Kalankatlı yazırdı: Sasani «şahları Qafqaz sıra dağları ilə nəhəng şərq dənizi arasında ucalan bu möhtəşəm qala divarlarını (söhbət Albaniyanın şimal müdafiə sədlərindən gedir – Q.H.) tikmək üçün memarlar yığmaq, müxtəlif inşaat materialları toplamaqla ölkəmizi əldən salmışdılar» (136, k.2, f.11;126, s.126).

Sasanilər albanları, gürcüləri və digərlərini zorla məzdəki məzhəbinə boyun əyməyə məcbur etməklə onların mədəni-ideoloci assimiliyasiyasına çalışırdılar. Məzhəb məsələləri sırf dini məsələ deyildi. O, həm də mühüm siyasi mahiyyət daşıyırdı. Dini assimiliyasiyanın məqsədi mərkəzi siyasi hakimiyyəti möhkəmləndirmək, əyilməz xalqları tam itaətə məcbur etmək, milli azadlıq mübarizələrində Bizansın köməyinə arxalanmalarının qarşısını almaq üçün onları Bizans dövlətindən ayrı salmaq idi. Cənubi Qafqaz xalqları həmin vaxtdan dini müttəfiq oldular (136, k.1, f.10; 126, s.188-189; 317, s.43).

Bərdənin siyasi tarixinin ilk dövrü məhz qədim Albaniya dövlətinin gərgin siyasi hadisələrlə dolu tarixi taleyinin mürəkkəb dövrlərinə təsadüf edir. Yəni, yuxarıda qeyd etdiyimiz kimi, Albaniya dövlətinin paytaxtı Qəbələdən Bərdəyə köçürülmüş (446-cı ildə), Bərdə ölkənin inzibati və siyasi mərkəzinə çevrilmişdi (136, k.1, f.4; 126, s.134).

M.Kalankatlı özündən əvvəl yaşamış müəlliflərin məlumatlarına istinadən bildirir ki, «Aran Araz çayından başlayaraq Hunan qalasına qədər uzanan Alban ölkəsinin düzənliklərini və dağlarını miras olaraq almışdır. Deyilənə görə, Aranın nəslindən olan məşhur və cəsur ərlərin çoxunu çar Valagez özü hakim təyin etmişdir. Uti, Girdman, Tsovd və Qarqar da həmin Aranın oğullarının nəslindəndir» (136, k.1, f.5).

Mənbələrdə ilk alban çarları haqqında məlumat olmadığına görə, yalnız onların adları və hakimiyyət dövrləri haqqında müəyyən qeydlər verilir. M.Kalankatlı göstərir ki, «Arandan əzəmətli Arşakilər nəslindən olan Cəsur I Vaçaqana qədər neçə vaxtlar keçib, qəti müəyyən deyil, amma Arandan sonra Albaniyada çar olanların adları budur: Cəsur I Vaçaqan, I Vaçe, Urnayr, II Vaçaqan, Mehravan, Satoy, Asoy, Arsvagen, II Vaçe və ondan sonra Alban çarı Mömin III Vaçaqan. Bunların çoxu səxavətli həyat keçirib, hərəsi öz vaxtında vəfat edib… Firuzabad kimi əzəmətli şəhəri də … Firuzun əmrilə II Vaçe tikdirmişdir. İndi bu şəhərin adı Bərdədir» (136, k.1, f.8).

M.Kalankatlı «Albaniya tarixi» əsərində Albaniyanın öz dövründən əvvəlki hökmdarlarını xatırlatmaqla ölkənin Bərdə şəhəri mərkəz olana qədərki siyasi tarixini əks etdirmişdir.

Bəzi tədqiqatlarda Albaniyanın Sasani hakimiyyətinə tam tabe olduğu (15, s.39-44; 363, s.48), bəzilərində isə bunun əksinə, yəni Albaniyanın Sasanilərə tabe olmadığı (295, s.30; 296, s.178), müstəqil və ya yarımvassal dövlət olduğu bildirilir. Tarixi mənbədə Albaniyanın Sasanilərin hakimiyyəti altında olması və Sasani mərzbanı iqamətgahının Bərdədə yerləşməsi və ölkənin Sasani mərzbanları tərəfindən idarə edilməsi haqqında da məlumat verilir (136, k.2, f.8, 14, 21, 23).

Mənbədə bildirilir ki, Sasanilər dövlətində hakimiyyət uğrunda çəkişmələr başlandığı bir dövrdə Alban dövlətinin daxili və xarici siyasətində yeni münasibətlər özünü göstərdi. II Yezdəgird öldükdən (438-457) sonra onun iki oğlu – III Hörmüz (457-459) və Firuz (459-484) bir-birinə düşmən olub hakimiyyət uğrunda mübarizə apararkən, Albaniya çarı II Vaçe Sasanilər əleyhinə mübarizəyə qalxdı (457-ci ildə) (136, k.1, f.21; 15; 126, s.244). M.Kalankatlı göstərir ki, «II Vaçenin mübarizəsinin əsas səbəbi onun Sasanilərin hakimiyyəti tərəfindən məcus (çoxallahlılıq) dininə itaət etməyə məcbur edilməsinə etiraz idi» (136, k.1, f.21).

İlk orta əsr mənbələrinə əsaslanan K.V.Trever öz əsərlərində II Vaçenin üsyanına münasibət bildirərək göstərir ki, üsyanın əsas səbəbi maqların ölkədə özbaşınalıq etməsi, vergilərin artırılması, eftalitlərə qarşı uğursuz müharibələr aparması ilə bağlı idi (363, s.214). Tədqiqatçı, bündan əlavə, həmin dövrün siyasi hadisələrini izah edir, lakin müəyyən yanlışlıqlara yol verir. Müəyyən mənada Albaniyanın Sasani dövləti ilə qonşu dövlət kimi münasibəti göstərildiyi halda, artıq, daxili siyasətində mühüm təsiri olduğunu söyləməyə ehtiyac qalmır. Burada söhbət

qarşılıqlı siyasi təsirdən, dini zəmində müdaxilədən gedə bilər (363, s.214).

Maraqlıdır ki, K.V.Trever başqa bir yerdə Yegişeyə istinad edərək Albaniya çarı ilə Sasani dövlətinin bağladığı sülhü necə pozduqları barədə şərh verir və bildirir ki, «Sasani şahı tabe olmaq üçün ikinci dəfə təkid edəndə (459-cu ildən sonra) Vaçe xəzərlərlə danışıqlar apararaq onları Albaniyaya dəvət etdi. O, Çora darvazalarını açdı və məskutları ölkəyə buraxdı, sonra dağlı qəbilələrdən olan on bir çarla (rəhbərlə) birləşib Sasaniləri məğlub etdi» (363, s. 50). Ancaq bunun başqa səbəbləri olduğu da istisna deyildir.

M.Kalankatlı Albaniya dövlətinin müstəqilliyini saxlamağa və möhkəmləndirməyə çalışan II Vaçenin Sasani hakimiyyətinin tələblərinə məhəl qoymadığı haqqında yazır ki, «dəfələrlə Sasanilərin Vaçeyə müraciəti cavabsız qaldı» (136, k.1, f.21).

Sasanilər əleyhinə Cənubi Qafqaz xalqlarının 450-451-ci illərdə apardığı mübarizə (bu mübarizədə II Vaçe bilavasitə iştirak etmirdi) və II Vaçenin başçılığı ilə Albaniyada 457-463-cü illərdə baş vermiş üsyan həmin dövrün mühüm siyasi hadisələri idi. Cənubi Qafqaz xalqlarını, eləcə də Albaniya əhalisini Sasanilər əleyhinə mübarizəyə qalxmağa məcbur edən səbəb siyasi-iqtisadi və mənəvi zülm ilə əlaqədar idi (126).

Hadisələrin mahiyyətini və başvermə səbəblərini göstərən M.Kalankatlı bildirir ki, Sasani şahı Firuz Alan qapıları yaxınlığında haylandur tayfaları ilə danışıqlar apararaq onları müharibəyə cəlb etdi və onların köməyi ilə uzun müddət Albaniyanı gərgin vəziyyətdə saxladı. Albaniya böyük itkilərə və məhrumiyyətlərə məruz qaldı.

Alban dövləti müstəqilliyini itirdi. Ancaq Firuzun Vaçeyə qarşı apardığı müharibə beş il- 463-cü ildən onun (Firuzun) öldürülməsinədək davam etdi (136, k.1, f.21; 126).

Albaniyada Sasanilər əleyhinə gedən əvvəlki üsyanlarda, qeyd edildiyi kimi, II Vaçe şəxsən iştirak etmirdi. M.Kalankatlı göstərir ki, «atası kimi II Vaçe milli ənənəyə görə xristian idi, lakin qanunpozan II Yezdəgird ona zorla məcus dinini qəbul etdirdi» (136, k.1, f.21; 126). Müəllifin bildirdiyinə görə, II Vaçe özü üsyana rəhbərlik etmiş, məğlubiyyətə düçar olduqdan sonra hakimyyətdən də getmişdir (136, k.1, f.21; 126, s.171). Firuz şahın onoqurlarla bağladığı müqavilə əsasında Albaniyaya qarşı apardığı müharibə II Vaçenin qələbəsi ilə nəticələndi. Lakin Sasanilərin güclənməsi ilə əlaqədar olaraq II Vaçe hakimiyyətdən könüllü getdi və bununla əlaqədar olaraq 463-cü ildən etibarən Albaniya 30 il Sasani canişinləri tərəfindən idarə olundu. M.Kalankatlı bildirir ki, «II Vaçe uzun müddət Sasanilərə qarşı mübarizə apardı, Albaniyanın nəinki siyasi, hətta dini müstəqilliyini də qorudu, özü ömrünün axırına yaxın hakimiyyətdən gedərək rahib kimi həyatının sonuna qədər yaşadı» (136, k.1, f.21).

II Vaçenin apardığı mübarizə yatırıldıqdan sonra Sasanilər bir müddət (463-487) Albaniyanın dövlət müstəqilliyinə imkan vermədilər. M.Kalankatlı bildirir ki, «otuz il ərzində – II Vaçedən Mömin Vaçaqana qədər Alban ölkəsi çarsız qaldı. Bunun səbəbi o idi ki, Sasanilərin …rəhmsiz şahı Firuz … qəzəblənib özündən çıxaraq yer üzündə bütün başqa məmləkətləri özünə tabe etmək, kilsələri dağıtmaq, xristian dinini ləğv etmək və bütün ondan asılı olan torpaqlarda ağılsız bütpərəstliyi bərqərar etmək istəyirdi» (136, k.1, f.23). Siyasi mübarizə yenidən gücləndi. Sasani dövlətində daxili çəkişmələr və hakimiyyət uğrunda gedən mübarizənin gərginləşdiyi bir zamanda Albaniyada

dövlət müstəqilliyi bərpa edildi. II Vaçenin qardaşı oğlu Mömin III Vaçaqan Albaniya hökmdarı seçildi (487-510) (136, k.1, f.23; 126, s.173).

M.Kalankatlı məlumat verir ki, «Vaçaqan çox səxavətli və sülhsevər insan idi. O, quruculuqla məşğul olub öz ölkəsinin əvvəllər kinli Firuz şahın qəsb etdiyi bütün diyarlarına hakimiyyətinin bərpa olunmasından xəbərdar olsunlar deyə fərmanlar göndərdi və Firuzun dövründə təqib edilmiş ölkə əyanlarının ata-baba mülkləririni qaytardı. Bundan sonra … çar taxtına şah nəslindən olan Vaçaqanı məsləhət gördülər. O, böyük şücaətə malik, müdrik, düşüncəli, fiziki cəhətdən sağlam və gümrah bir adam idi. O, Yezdəgirdin oğlu və Alban çarı Vaçenin qardaşı idi» (136, k.1, f.24).

M.Kalankatlı məlumat verir ki, «ancaq bunların (Arşakilər nəslindən olanların –Q.H.) sonuncusuna, Alban çarı Mömin III Vaçaqana ilahi sərvət zühur edib və bu ilahi sərvət yalnız ona təqdim olunmuşdu» (136, k.1, f.8).

Mənbə bildirir ki, III Vaçaqan Sasani şahı Balaşın (Valarş) vasitəçiliyi ilə çar taxtına layiq görüldü. O, xristianlığa böyük rəğbət bəsləyirdi. Bu məqsədlə Sasani hökmdarı Balaşın əqlinə təsir edərək ölkədə hər kəsin öz istədiyi dini ibadətə icazəyə dair əmr verilməsinə nail oldu (136, k.1, f.24; 126, s.174).

Alban Arşakilərinin sonuncu hökmdarı Mömin Vaçaqan (487-510) müstəqil daxili və xarici siyasət yeridərək ölkənin siyasi və iqtisadi qüdrətini artırmaq üçün böyük işlər görmüşdür (136, k.1, f.25-34, k.2, f.1-9).

İlk dəfə olaraq V əsrdə Albaniyada dini qanunlar qəbul edilmişdir. Bu, tarixi ədəbiyyatda «Albaniya çarı Vaçaqanın elan edilən qanunları» adı ilə tanınır. Aquendə çağırılmış dini məclisdə (488-ci il) həmin qanunların müzakirə və qəbul edilməsini M.Kalankatlı aşağıdakı kimi

təsvir edir: «Albaniya çarı Vaçaqanın hakimiyyəti dövründə əhali, yepiskoplar, keşişlər, əyanlar və rəiyyət arasında çoxlu mübahisələr baş verirdi. Buna görə, çar qərara gəldi ki, Mareri ayının on üçündə Aquendə böyük məclis çağırılsın ...» (136, k.1, f.33; 126, s.174).

III Vaçaqan Albaniyada məktəblər açdırdı (136, k.1, f.25-33; 236, s.161; 296, s.100). (Bu barədə ətraflı mədəniyyət bölməsində bəhs olunacaq).

Dövrün mühüm siyasi hadisələrindən biri Bərdənin Alban xristian katolikosluğunun mərkəzinə çevrilməsi idi. M.Kalankatlı yazır: «Çar Vaçaqanın dövründə bütpərəstlik əleyhinə ciddi tədbirlər görüldü, xristianlıq dini xeyli möhkəmləndirildi və genişləndi» (136, k.1, f.25-33; 296, s.118). M.Kalankatlı bildirir ki, «Albaniya katolikosluğunun taxtı Çola şəhərindən ölkənin paytaxtı olan Bərdə şəhərinə köçürüldü» (552-ci ildə). Böyük Aran vilayətindən olan Abas katolikos seçildi. O, katolikos taxtında qırx dörd il oturduqdan və müqəddəs ömür sürdükdən sonra əbədiyyətə qovuşdu» (136, k.2, f.1;15, s.43; 236, s.43; 296, s.127).

Albaniya katolikosu Abasın Bərdəyə gəlməsi ərəfəsində ölkədə xristianlığın xalkedonçuluq təbliğatının güclənməsi ruhanilər arasında böyük siyasi çaxnaşmalara səbəb olurdu. Rəsmi kilsə – Alban katolikosluğu Bərdəyə köçürülən kimi, genişlənməkdə olan həmin əhkamın tərəfdarlarını sıxışdıraraq ölkədən ucqarlara qovdu. Ruhanilər arasında normal münasibətlər bərpa edildi (136, k.2, f, 1; 296, s.116). Albaniyanın siyasi, iqtisadi və mədəni mərkəzi olan Bərdə şəhəri ölkədə genişlənən xristianlıq dininin də mərkəzinə çevrildi (136, k.1, f.33).

Mənbələrin verdiyi məlumata görə, həmin tədbirlərin heç biri Albaniyanı müdaxilələrdən xilas edə bilmədi (136, k.2, f.1; 126, s.206). M.Kalankatlı yazır ki, «bu hadisələrdən

sonra xəzərlər Albaniya ölkəsini əsarət altına aldılar…» (136, k.2, f.5).

Albaniyanın VI əsr siyasi tarixi Sasani-Bizans-Xəzər müharibələri, münaqişələr və digər mürəkkəb hadisələrlə səciyyələnir.

Dövrün əsas siyasi böhranı yenə də Bizansla Sasanilər arasında gedən müharibələr və Xəzər dənizinin şimalından tez-tez Albaniyaya daxil olan müxtəlif tayfaların hücumları ilə bağlı idi. Ölkənin şimalını qorumaq mümkün deyildi (136, k.1, f.10-12). Həmçinin, iri dövlətlərin – Bizans və Sasani dövlətlərinin apardığı müharibələrin döyüş meydanları çox vaxt imperiyaların öz ərazilərindən kənarda, işğal etdikləri və yaxud işğal etmək istədikləri ərazilərdə, o cümlədən Albaniya torpaqlarında olurdu.

Albaniya Sasani şahı I Xosrov Ənuşirəvanın (531-579) hakimiyyəti dövründə həm ictimai-siyasi, həm də hərbi-inzibati cəhətdən gərgin hadisələrlə üzləşdi (136, k.2, f.12; 126, s.249). Ölkə hər tərəfdən olan hücumların təsiri altında idi. Buna baxmayaraq alban arşakilər sülaləsi ölkənin siyasi, iqtisadi və mədəni cəhətdən inkişafı ilə bağlı mühüm işlər görə bilmişdir (136, k.2, f.12). Həmin dövrdə hökmdar ölkənin qanunverici şəxsi və baş hakimi idi. O, mülki və dini hakimiyyətin qanunverici və məşvərətçi orqanlarına başçılıq, eləcə də ölkənin bütün silahlı qüvvələrinə komandanlıq edirdi (15, s.138-139; 295, s.30-41; 296, s.143). Şəhərlərin salınması, bərpası, əmin-amanlığının təşkili də hökmdarların səlahiyyətinə aid idi (295, s. 30-41; 296, s. 62).

Albaniya dövləti alban Arsakilərinin hakimiyyəti dövründə qədim Albaniyanın ənənələrini davam etdirirdi. Həmin dövrdə Albaniya öz müstəqilliyini qoruyub saxlayan suveren dövlət idi (126, s.250; 295, s.30-41). Sasanilərlə

Bizans arasında davam edən müharibə (571-591) 591-ci il müqaviləsi ilə başa çatdı (136, k.2, f.7).

Sasanilər VI əsrdə Albaniyada yerli çar sülaləsinin hakimiyyətini ləğv etdilər. I Xosrov Ənuşirəvanın inzibati islahatı nəticəsində Sasanilər imperiyası dörd canişinliyə bölündü. Cənubi Qafqaz, eləcə də Albaniya şimal canişinliyinə – Qafqaz qrupuna daxil edildilər. Bundan sonra Albaniya bir müddət (510-629) Sasanilərin mərzbanları (canişinləri) tərəfindən idarə olundu (136, k.2, f.12; 126).

VII əsrin əvvəllərində (603-629) Sasani və Bizans imperiyaları arasında müharibə yenidən başlandı. Bu müharibəyə Albaniya da cəlb edilmişdi (136, k.2, f.12; 126). Fasilələrlə 26 ilə qədər (602-628) davam etmiş bu müharibədə ölkə talan edildi. Bərdəyə böyük ziyan dəydi (136, k.2, f.9, 10). Hətta şəhərin qala divarı dağıdıldı (628-ci ildə), (136, k.2, 9, 10; 23, s.43; 126, s.129).

Albanlar Sasanilərlə Bizans arasında gedən müharibədən istifadə xalqına divan tutdu (15, s.46-49). Onun rəhbəri Viro Sasanilərin paytaxtına aparıldı (136, k.2, f.14; 15, s.46; 126; 218).

Sasani dövləti ərazisinə 622-ci ildə yenidən növbəti yürüş təşkil etdi (136, k. 2, f.10). Xosrov şahla müharibəyə ciddi hazırlaşan Bizans imperatoru ordusuna şəxsən rəhbərlik edirdi. Araz çayına doğru irəliləyən Xosrovun üzərinə qəflətən hücum etmək istəyən İrakli Atropatenaya daxil olub Qazaka şəhərini tutdu, ölkəni talan edib əhalisini əsir aldı, oradan qayıdaraq qışı İberiya və Albaniyada keçirmək istədi (623-624) (136, k.2, f.10; 15, s.45-46; 126, s.251).

M.Kalankatlı məlumat verir ki, buna görə İrakli bu ölkələrin hakim və əyanlarına məktublar yazıb onların könüllü olaraq onu qarşılanmalarını və bütün qış boyu onun özünə və ordusuna xidmətlərini tələb etdi. «Əgər bu

tələblərə əməl etməsələr, onları bütpərəst hesab edəcək və ordularına əmr edəcək ki, bu ölkələrin qalalarını alıb torpaqlarını viran etsinlər» (136, k.2, f.10; 296, s.143). Müəllif sonra yazır ki, «bunları eşidən Albaniyanın sahib və əyanları Böyük Bərdə şəhərini tərk edib müxtəlif yerlərdə istehkam qurub yerləşdilər. Amma Bərdənin xaçpərəst və bütpərəst sakinlərinin çoxu, o cümlədən sənətkarları xəstəliyə və başqa səbəblərə görə, şəhərdən çıxıb qaça bilmədiyindən evlərində qaldılar» (136, k.2, f.10). İraklinin hücumları zamanı Sasani hakimiyyətindən kömək görə bilməyən Bərdə əhalisi Bizans qoşunlarına qarşı müqavimət göstərmək üçün hamılıqla silaha sarılmışdı. Yalnız vuruşmaq imkanı olmayan xəstələr evlərində qalmışdılar (136, k.2, f.10; 296, s.143).

M.Kalankatlı yazır ki, «Bərdə kilsəsinin Zəkəriyyə adlı yumşaq xasiyyətli keşişi şəhər sakinlərinin nicatı üçün öz həyatını belə əsirgəmirdi. Andla, ibadətlə və müxtəlif tədbirlərlə o, xaçpərəstlərin çoxunu əsirlikdən qurtardı» (136, k.2, f.10).

M.Kalankatlı bildirir ki, «saysız-hesabsız Bizans orduları öz düşərgələrini Kalankat kəndinin yanında, axan çayın sahilində saldılar. Yanlarından keçdikləri kəndləri, gözəl bağ və üzümlükləri tapdayıb xaraba qoydular. Sonra onlar yerlərini dəyişib, düşərgələrini Tərtərçayın sahilində, Divtəkin kəndinin yanında yerləşdirdilər» (136, k.2, f.10).

M.Kalankatlının yazdığına görə, öz qüvvəsini toplamış Sasani qoşunu yeni qüvvələrin köməyi ilə Bizans ordusunu qovub ölkədən çıxardı və onların bir çox şəhərlərini də əllərindən aldı (136, k.2, f.10; 15, s.46; 295, s.30; 296, s.143).

II Xosrov Bizans imperatoru ilə müharibə apardığı dövrdə Xəzər orduları Albaniyaya hücum etdi (136, k.2, f.10; 296, s.143).

M.Kalankatlı yazır: «İraklinin təhriki ilə saysız-hesabsız Xəzər orduları ölkəmizə soxulub onu talan etməyə başladılar» (136, k.2, f.11). Müəllif qeyd edir ki «Xəzərlərin hücumunun qarşısını almaq üçün Xosrov şah onlara hədələr dolu məktub göndərdi. Xəzərlər Dərbənd keçidi ilə geriyə çəkildilər. Onlar Sasani şahı Xosrovun qətlə yetirildiyi ildə ölkəyə yenidən hücum etdilər» (136, k.2, f.11). Xəzərlərin növbəti hücumunda Dərbənd keçidindən birbaşa Bərdəyə qədər irəliləmək nəzərdə tutulmuşdu. M.Kalankatlı bu barədə də məlumat verərək yazır ki, «bu dəhşətli və qəmli xəbər Albanlar ölkəsinə çatanda böyük paytaxt və qala olan Bərdədə ölkəmizin möhkəmləndirilməsi haqqında qərar çıxardılar. Qərar Xosrov şahın bu ölkənin valiliyinə təyin etdiyi Qayşaq adlı şəxs tərəfindən verilmişdi. O, şəhərdə ətraf vilayətlərin əhalisinin çoxunu saxlayaraq, xəzərlərə müqavimət göstərmək qərarına gəldi və ölkənin əyanları və şəhər əhalisi ilə ittifaq bağlayaraq öz mövqeyini möhkəmlətməyə çalışdı. O, böyük Çola şəhərinin müdafiəçiləri və onun həddindən artıq möhkəm divarlarını qoruyan döyüşçüləri ilə nə ola biləcəyinə diqqət etməyə hazırlaşdı» (136, k.2, f.11). M.Kalankatlı bildirir: «Dəhşətli qırğınlarla başlanmış hücum xəbəri ölkənin paytaxtı Bərdəyə çatdırıldı» (136, k.2, f.11). Bu zaman Bərdədə baş verənləri M.Kalankatlı aşağıdakı kimi təsvir edir: «Bu xəbər Bərdə şəhərinə sahib olan və onu idarə edən bizim ağamıza Cavanşirə – Q.H.) çatanda o, yaxınlaşan böyük təhlükədən çıxış yolu axtarmaq üçün qorxudan şəhərin İç qalasına sığınan qoşunlarla məsləhətləşmək istədi. Amma o, danışmaq üçün ağzını açmaq istəyəndə onu elə dəhşət bürüdü ki, dizləri bir-birinə dəyib, elə əsdi ki, bir kəlmə belə ağzından çıxara bilmədi» (136, k.2, f.10).

M.Kalankatlı məlumat verir ki, sürətli hücumla bütün Uti vilayətinə yayılmış xəzərlər qaçanları da haqlayıb

geri qaytardılar, bir qədər əhali və «Qayşaq və onun ailəsi Arsaxın dağ yolları ilə qaçıb … xilas oldular. Özü isə bundan sonra bu yerlərdə keçmiş vəzifəsini daha qaytara bilmədi» (136, k.2, f.10).

Bundan sonra xəzərlər gürcülərin torpaqlarına doğru yayıldılar və Tiflis şəhərini mühasirəyə aldılar. Bunu eşidən İrakli bütün ordularını səfərbərliyə alıb öz müttəfiqi ilə birləşdi. Tiflisi tutmaq üçün ciddi-cəhd göstərən müttəfiqlər qələbə qazana bilməyərək geri çəkildilər. Onlar Sasanilər üzərinə hücuma hazırlaşdılar (136, k.2, f.11; 15, s.46; 295, s.30; 296, s.143).

M.Kalankatlının məlumatına görə, 625-ci ildə imperator İrakli əvvəlki imkanlarını bərpa etmək üçün yenidən müharibəyə hazırlaşmağa başladı. İmperiya ərazisindən yeni, güclü qoşun toplamaqla məşğul olan İrakli Sasani şahı Xosrova qalib gəlməyin asan olmayacağını bildiyindən, xəzərlərin yanına qasid göndərib Sasanilərlə müharibədə onlara kömək edərsə, böyük ənamlar verəcəyini vəd etdi. Xəzər hökmdarı Sasani şahını məğlub etməyi üstün tutduğundan təklifi şərtsiz qəbul etdi. Xəzərlər müttəfiqi olan Bizansla birgə hərəkətin əhəmiyyətini məqsədəuyğun hesab etdiyi üçün, Şad qısa bir müddətdə Dərbənd keçidini keçərək, Kür çayı sahilinə gəldi, sonra Bizansa tabe olan ərazilərlə Konstantinopola (İstanbula) getdi, İrakli ilə razılaşdıqdan sonra geriyə qayıdıb Araz çayının sahilində düşərgə saldı (136, k.2, f.11; 296). Mənbədə göstərilir ki, «626-cı ildə xəzərlərin xaqanı şahlıq rütbəsinə görə Şad adlanan qardaşı oğlunun başçılığı altında vəd etdiyi ordunu Albaniyaya göndərdi. O, Albaniyanın bütün vilayətlərini və Atropatenanın bir hissəsini yağmalayıb çoxlu xristian və bütpərəstləri qılıncdan keçirdi, geri qayıdarkən özləri ilə çoxlu əsir apardı» (136, k.2, f.11; 296, s.143).

Həmin dövrün tarixi proseslərindən və M.Kalankatlının geniş şərhlərindən məlum olur ki, Şad Albaniyanı qarət etməyə göndərilməmişdi. Mətnin özündən aydın olur ki, xəzərlər həmin vaxt, Bizansın təsiri altında olan ərazilərdə etdiyi hərəkətlərə görə, Sasani şahına qarşı müqavimətdə iştirak etmişdi. Müstəqil Albaniya və Atropatena ərazisindən keçərkən dəymiş zərərin şişirdilməsi və onun basqın, qarət kimi qələmə verilməsi də təbiidir (317), çünki dəfələrlə erməni dilində üzü köçürülmüş əsərdə xəzərlərin hərəkətlərinə müsbət məna verilməzdi.

Xosrov şahın xəzərlərə göndərdiyi məktub çox maraqlıdır: «Get, öz çarına və bizim qardaşımıza de ki, sizin sülaləniz mənim cədlərim və mənim tərəfimdən əsrlər boyu həmişə hörmətlə, sevimli qardaşın sülaləsi kimi qarşılanırdı və biz oğul-qızlarımız vasitəsilə bir-birimizlə qohum olmuşuq. İndi sənə heç yaraşmaz ki, sən mənim azmış bizans qulumun sözlərinə məhəl qoyasan» (136, k.2, f.11).

Xosrov şahın Xəzər padşahına «qardaş» deyə müraciət edərək yazdığı məktubdan sonra «türkan (tarxan) öz ölkəsinə qayıtdı». İmperator İrakli isə Sasanilərə qarşı hücumu davam etdirdi (136, k.2, f.11; 15, s.46; 295, s.30; 296, s.143).

Sasani tax-tacı uğrunda davam edən uzunmüddətli mübarizədən sonra Xosrov öldürüldü və hakimiyyətə II Qubad (628-ci ildə) gətirildi (136, k.2, f.12). M.Kalankatlı yazır ki, «bu hökmranlıq çox davam etmədi. Yeddi aydan sonra onun da həyatı sona yetdi, padşahlıq Sasan oğullarının əllərindən alınıb İsmayılın oğullarına verildi» (136, k.2, f.12). (Burada söhbət ərəb qoşunları tərəfindən Sasani ərazisinə edilmiş hücumlardan və Sasani torpaqlarının Xilafətin hakimiyyəti altına keçməsindən gedir).

A.A.Bakıxanov «Ruzət us-səfa» əsərinə əsaslanaraq yazır ki, «Hörmüzün vaxtında xəzərlər Dərbənddən keçərək …

Azərbaycanı qarət etdilər. «Danvil»in sözünə görə, bu 626-cı ildə imperator İraklinin fitvası ilə baş vermişdi. «Quzidə»də və başqa kitablarda göstərilir ki, Hörmüzün (A.Bakıxanov yazır ki, onu Türkzadə adlandırırdılar – Q.H.) zülmündən təngə gələn xalq hiddətlənmiş və atasından ehtiyat edərək Azərbaycana kənarlaşdırılmış Xosrov Pərvizin adına pul zərb edilməyə başlanmışdı. O, Bəcrəvana gələrkən onu Bərdə hökümdarı Mahunbanu qarşılamış və qonaq dəvət etmişdi. Xosrov orada onun bacısı qızı Şirinə vurulmuş, nəhayət onunla evlənmişdi» (208, s.47).

A.A.Bakıxanov qeyd edir ki, həmin vaxtlar İran (Sasasni – Q.H.) dövlətində artıq intizam, əsayiş pozulmuşdu. Xəzərlərin vaxtaşırı hücumları davam edirdi (208, s.47).

Yeri gəlmişkən, Alban katolikosu V i r o (596-630) və onun Bərdə tarixi ilə əlaqədar fəaliyyəti üzərində ətraflı dayanmaq maraqlı olardı.

M.Kalankatlı Vironun şəxsiyyəti və siyasi fəaliyyəti haqqında maraqlı məlumat verir (136, k.2, f.14). Viro Xosrov tərəfindən siyasi baxışına, müstəqilliyə olan meylinə və mübarizliyinə görə əsir alınmışdı. 25 il şah sarayında məhbus kimi saxlanmış, II Qubad hakimiyyətə gəldikdən sonra azad edilmişdir (136, k.2, f.14; 15, s.46; 295, s.72; 296, s.143).

Vironun şah sarayına aparılmasını və orada saxlanılmasını müxtəlif şəkildə şərh edirlər. Əsir kimi aparılaraq şah zindanına salınmış Vironun sağ qalmasının səbəbini Bərdə hökmdarının qardaşı qızı Şirinin Xosrovdan xahiş etməsi ilə, digər səbəbini isə Vironun öz şəxsi keyfiyyətləri ilə əlaqədar izah edirlər (136, k.2, f.14; 15, s.48; 236, s.45). M.Kalankatlı bu barədə yazır: «Bütün canilər, dustaqlar və böyük sarayın zindanlarında olan bütün başqa adamlar, öz vətənlərinə və doğma yurdlarına qayıtmağa ümidlərini itirənlərin hamısı, yeni şah – II Qubad tərəfindən əfv

ediləRək hədiyyələrlə yola salındı və hamı böyük sevinclə öz vətənlərinə qayıtdı. Bunların arasında böyük Albaniya şahlığının Viro adlı katolikosu da var idi» (136, k.2, f.14; 15, s.46, 49; 274, s.104; 296, s.72).

M.Kalankatlının verdiyi məlumatda bildirilir ki, Viro «dahi və müdrik insan olub, fəlsəfənin yaxşı bilicisi idi. Böyük və şahanə işlərdə müdrik məsləhətlər verməkdə onun dili sürətlə yazan bir qələm kimi idi. Onun çox mülayim danışığı sadə adamların və xalqın xoşuna gəlirdi. O, filosof kimi danışar və çoxlu hikmətli sözlər deyərdi; mirvari saf qızıl sapına düzüldüyü kimi, onun ağzından bir-birinin ardınca hikmətli sözlər tökülürdü. O, fars dilində tərcümə işində xüsusilə mahir idi, çünki Xosrovun saray zindanında Sasanilərə qarşı üsyan etmiş Albaniyanın böyük əyyanları ilə birlikdə iyirmi beş il həbsdə olarkən bu dili mükəmməl öyrənmişdi. Bu əyyanların çoxu həlak oldu. Lakin Vironun bəxti gətirib şahın sarayına yol açdı və onu şah xanımının – Şirinin iqamətgahına gətirdi. Şirinin səyləri nəticəsində şah Vironun həyatını ona bağışladı. Lakin şah qəti and verdi ki, nə qədər ki, özü sağdır, Viro heç vaxt ölkəsinə qayıtmayıb sarayda həbsdə olacaq, amma katolikos rütbəsi ondan alınmayacaq və onun mülkü müsadirə olunmayacaq» (136, k.2, f.14; 236, s.45; 15, s.48; 296, s.140).

Müəllif qeyd edir ki, «Viro uzunmüddətli əsirlikdən azad olub vətəninə qayıtdı. Çox keçməmişdi ki, o, xəzərlərin şimaldan hücum xəbərini eşitdi. Xəzərlər Tiflis şəhərini mühasirə edib aldıqdan sonra əhaliyə güclü divan tutdular. Şəhəri talan və qarət edib Alban ölkəsinə üz çevirdilər. Şadın ordusu Alban ölkəsinə gəlib Sasani şahının canişini olan Albaniyanın Sema Vişnasp adlı mərzbanına və Albaniyanın katolikosu Viroya elçilər göndərdi. Sasani mərzbanı onları qəbul etməyib özü ilə bir çox qiymətli şeyləri

də götürüb Şahlığa qaçdı» (136, k.2, f.14; 15, s.51; 295, s.30-41; 296, s.143).

M.Kalankatlı məlumat verir ki, «Albaniyanın patriarxı Viro isə ölkənin boynuna ağır boyunduruğun geyindirilməsini başa düşüb narahat oldu. O, Sasani şahına inanmır, ondan qorxurdu, çünki elə bu ittihamla üsyankarlıqda təqsirləndirilib uzun illər boyu sürgünə məruz qalmışdı» (136, k.2, f.14). Buna görə də, Viro Sasani hökmdarının yanına göndərdiyi qasidin cavab gətirməsini gözləyirdi. Həmin vaxt xəzər qoşunları sürətlə hücum edərək ölkənin hər yerini bürüdülər. Katolikos Viro ölkənin bütün adlı-sanlı adamlarını, çar nəslindən olan bütün zadəganları, vilayət valilərini, kəndxudaları, keşişləri və məmurları Craberd qalasına çağırıb onlarla məsləhətləşdi. Razılığa gəldilər ki, böyük pay və ənamlarla Şadın qərərgahına getsinlər və onların şərtləri ilə razılaşsınlar (136, k.2, f.14; 15, s.46; 295, s.30; 296, s.143).

M.Kalankatuklu yazır: «Onlar yerlərindən tərpənib yola düşdülər. Dağlararası düzləri keçib Uti vilayətinin gözəl, hamar və bərəkətli düzənliklərinə enəndə, orada Şadın o qədər əsgərləri var idi ki, onlar doğma yerləri tanıya bilmədilər. Onlar şahzadəni vilayətin şimal tərəfində, böyük Bərdə şəhərinin, gur suların yanında salınmış düşərgəsində tapdılar. Şadın yanına çatanda onlar gördülər ki, o öz əyan və sərkərdələri arasındadır… Şad katolikosu hörmətlə qarşıladı…» (136, k.2, f.14).

M.Kalankatlı Vironun xəzər tarxanı tərəfindən yaxşı qarşılandığını xüsusi qeyd edir: «Şad Vironun ağıllı məsləhətinə qulaq asaraq bütün yerlərə xəbər göndərdi ki, vahiməyə düşmüş, qorxub qaçmış bütün insanlar qayıdıb öz yerlərinə gəlsinlər, yaşayıb dinc əməklə məşğul olsunlar. Bunun əvəzində Viro söz verdi ki, indiyə qədər Sasanilərə etdiyimiz xidməti indi də sizə edərik. Viro ağıllı məsləhətlərlə

xəzərlərin aldıqları əsirləri də xilas etdi» (136, k.2, f.14).

VII əsrin ortalarında ölkədə baş vermiş qarətçi hücumların təkrar olunduğu bir dövrdə dəhşətli aclıq və epidemiya əhalini taqətdən saldı. 630-cu ilin yazında, M.Kalankatlı qeyd etdiyi kimi, «üç sərkərdə – aclıq, qılınc və onların köməkçisi ölüm Albaniyanı yaxaladılar» (136, k.1, f.15; 15, s.53). Katolikos Viro da 630-cu ildəki epidemiyadan öldü (15, s.54; 126, s.257).

Beləliklə, tədqiqat göstərir ki, Bərdə şəhəri erkən orta əsrlərdə ölkənin paytaxtı kimi mühüm siyasi hadisələrin mərkəzində dayanmışdır.

Albaniya həmin tarixi dövrdə Sasanilərin, bizanslıların və d. ağır döyüşləri və talançı, qarətçi hücumlarının meydanı olmuş, bununla belə, öz siyasi müstəqilliyini qoruyub saxlaya bilmişdir (295, s.33; 296, s.163-164). Müəyyən dövrlərdə dövlətçilik təhlükə altına düşsə də, mübarizə heç vaxt səngiməmiş, xalqın içərisindən çıxmış şəxsiyyətlər (II Vaçe, III Vaçaqan və Viro) xalqın iradəsinə və mənəvi birliyinə arxalanaraq, siyasi müstəqilliyi qoruyub saxlamağa çalışmış və buna əsasən nail olmuşlar.

## 2.2. Bərdə Mehranilərin hakimiyyəti dövründə.

Azərbaycanın (Albaniyanın), o cümlədən Bərdə şəhərinin tarixinin mühüm bir dövrü (VII əsr) Mehranilər sülaləsinin hakimiyyəti ilə bağlıdır. Sasanilər imperiyasının bir hissəsi olan Azərbaycan (Cənubi Azərbaycan) ərəblər tərəfindən işğal edildiyi zaman, Azərbaycanın şimalında (Albaniyada) Mehranilər nəslinin idarə etdiyi müstəqil dövlət var idi. (136, k.2, f.13).

Mənbələrdə və tarixi ədəbiyyatda Mehranilərin Albaniyaya gəlməsinin səbəbi və digər hadisələr barədə müxtəlif fikirlər mövcuddur (15; 96; 296). Bu barədə M.Kalankatlının məlumatı: «Xosrovun qohumu Mehran qaçıb ona sadiq olan ölkənin vilayətlərini öz hakimiyyəti altına keçirdi və Albaniyaya getdi. O, özü ilə 30 min ailə aparıb böyük Bərdə şəhərinin yaxınlığında Uti vilayətinə daxil oldu və sonra xəzərlərin ölkəsinə gedərək, Sasanilərin bu düşmənlərinə qoşulmaq istədi» (136, k.2, f.13; 15, s.46; 295, s.30).

Tarixi mənbələrə görə, Sasani şahı öz düşmənlərinin köməyindən istifadə etmək məqsədilə ölkənin şimalına doğru hərəkət edən Mehranı əldən buraxmamaq üçün istədiyi ərazidə qalmağa razılıq verən məktub göndərərək onun Albaniyada yerləşməsinə icazə vermişdir (136, k.2, f.13). Mənbə məlumatına görə, Mehran məktubun ona çatdığı yerdə qalaraq Mehrəvan şəhərini saldırmişdı. Sonra isə Mehranilər Girdman vilayətini ələ keçirmiş, orada Girdman qalasını tikdirmişlər (600-615) (136, k.2, f.13).

Mehranilərin Albaniya ərazisinə gəlmə səbəbi barədə belə fikir də mövcuddur ki, Sasani hökmdarları ölkənin daxilində siyasi böhranın dərinləşməsinə baxmayaraq şimal əyalətini – Albaniyanı əldən buraxmaq istəmədiyinə görə Mehraniləri şimal torpaqlarına göndərmişdilər (15 s.72).

M.Kalankatlı yazır: Mehran «ürəyinə vəfasızlıq salaraq yuxarıda haqlarında tariximizdə yazdığımız qədim yerli Aranşahları guya qonaqlığa dəvət etdi. O, orada onlar üçün ölüm yeməyi hazırlayıb öz qanları ilə birlikdə onlara yedizdirdi. Onlardan altmışının boynunu vurdurub yalnız birini – öz qohumunun qızının ərini, Aranşah Zərmehri sağ buraxdı» (136, k.2, f.13; 15). Beləliklə, Mehranilər Albaniyada yerləşərək ölkənin hakimləri oldular. Mehrani

Varaz-Qriqor 630-cu ildə Albaniyanın şahı elan edildi. Mehranilərin iqamətgahı Girdmandan Bərdəyə köçürüldü (136, k.2, f.13; 295).

M.Kalankatlı qeyd edir ki, Mehranilər «Albaniyaya hakim oldular… Mehranın nəslindən olan Alban şahı Varaz-Qriqorun oğlu Cavanşir dünyaya gəldi. O, gənc yaşlarından öz məharəti və ağlı ilə fərqlənirdi» (136, k.2, f.13; 15, s.72-78; 296, s.96).

M.Kalankatlı Cavanşiri belə təsvir edir: «Varaz Qriqor…məğrur, əzəmətli və gözəl bir gənc olan ikinci oğlu Cavanşirə nəzər saldı. Üzünə təzəcə tük gələn, atasının sevimlisi, silahdan yaxşı baş çıxaran, şahin kimi çevik, hər işi bacaran, atasının dayağı olan Cavanşir idarə işlərində ona kömək etmək, görkəmli adamların cərgəsinə çıxmaq və həmişə şahlarla bir yerdə olmaq arzusunda idi» (136, k.2, f.18).

II Xosrov şahın ölümündən sonra onun nəvəsi III Yezdəgird (632-652) hakimiyyətə gəlmişdi. Onun hakimiyyəti illərində ərəblərin yürüşləri başlandı (136, k.2, f.18). Sasani dövləti ilə Albaniya ümumi düşmənə qarşı mübarizədə iştirak etməyə borclu olduğundan Alban şahları müdafiə üçün öz ölkələrinin taleyini də onlarla əlaqəli şəkildə həll edirdilər. Xilafət qoşunlarına qarşı vuruşmaq üçün Alban hökmdarı Varaz-Qriqor ikinci oğlu, cəsur, görkəmli və qabiliyyətli Cavanşiri Sasani şahının sarayına göndərmişdi. Orada Cavanşirin məşhur sərkərdə Rüstəmlə dostlaşması onun siyasi, dünyəvi qüdrətinin formalaşmasına müsbət təsir göstərdi (136, k.2, f.18).

Mənbədə qeyd edilir ki, Xilafət ordularının hücumları zamanı Cavanşir onlara qarşı dəfələrlə döyüşə girmiş, hər dəfə uğurla çıxmışdı (136, k.2, f.18). M.Kalankatlı Cavanşirin başçılığı ilə albaniya qoşununun ərəblərə qarşı vuruşmasını belə təsvir edir: «Onlara (ərəblərə) qarşı 30 000

atlı və 20 000 piyada hücuma keçdi. Katşandan (Qadisiyyə) gələnlər (ərəblər) çoxlu atlı və 20 000 piyada qalxan taxmış halda irəliyə atılaraq Sasani ordusu ilə vuruşmağa başladılar. Aran Sparapeti (Cavanşir) öz igid nəfərləri ilə onların (ərəblərin) cərgələri içərisinə hücum etdi, öz düşmənlərindən ikisini yerə sərdi və özü də bir neçə yerdən ağır yaralandı. Düşmən onu quduz bir kinlə çayadək təqib etdi, o isə həmlələri dəf edə-edə çayı üzüb keçdi» (136, k.2, f.18; 15, s.72).

Sasani şahı III Yezdəgird Cavanşirə çox qiymətli hədiyyələr və rütbə verdi (136, k.2, f.18; 15, s.72). M.Kalankatlı yazır ki, «şah onu sərkərdəyə layiq olan mükafatlarla mükafatlandırdı, o cümlədən sərkərdə gəranayları, iki qızıl nizə və iki qızılla süslənmiş qalxanla fərqləndirdi. Bu qalxanları bundan sonra Cavanşiri o biri sərkərdələrdən fərqləndirən şan-şöhrət əlaməti kimi həmişə onun önündə aparırdılar. Şah onun belinə mirvari ilə işlənmiş qızıl kəmər və qızıl dəstəkli qılınc bağladı, qollarına qolbaqlar saldırdı, başının üstünə isə qaş-daşlı tac qoydurdu. Onun boynuna ağır mirvari boyunbağı asdılar, çiyninə taftadan tikilmiş şah geyimi saldılar və zərli ipək parçasından tikilmiş dörd qotazlı, mavi rəngli şalvar geyindirdilər» (136, k.2, f.18).

M.Kalankatlı Cavanşirin şücaətlərindən bəhs edərək yazır ki, «sərkərdələr və pəhləvanlar arasında həm fiziki, həm də zehni qabiliyyəti ilə böyük hörmət qazanmış Cavanşir ərəblərə qarşı döyüşlərdə igidlik göstərdi. Sasani şahı Yezdəgirdi xilas edərək mühafizəsini təşkil etdi. Cavanşir artıq həmin vaxt Rüstəm və Xorazad kimi məşhur sərkərdələrdən yüksək səviyyədə dayanırdı» (136, k.2, f.18; 296, s.96).

Sasani qoşunu məğlub olub darmadağın edildiyinə baxmayaraq, Cavanşir ərəblərə qarşı uzun müddət müqavimət

göstərərək onların hücumlarının qarşısını aldı. Bu barədə M.Kalankatlı yazır: «Cəsur Cavanşir yeddi il dalbadal bu ağır döyüşlərdə iştirak edib, on bir dəfə ağır yaralar almışdı» (136, k.2, f.19; 295, s.31; 296, s.158).

Mənbənin verdiyi məlumata görə, Cavanşir böyük şan-şöhrətlə vətəninə qayıtdı. Bərdə şəhərində həsrətlə gözləyən atası onu böyük sevinc və təntənə ilə qarşıladı (136, k.2, f.19; 296, s.158).

M.Kalankatlı məlumat verir ki, «müharibələrdən şöhrətlə qayıtmış Cavanşir çarın (Alban çarı Varaz-Qriqorun – Q.H.) sərəncamı ilə Albaniyanın bütün işlərinə rəhbərlik edirdi. O, qoşununu götürüb atası ilə birlikdə Bərdə şəhərindən çıxaraq şimal tərəfə çəkildi. Cavanşirin üsyanı haqda xəbər Sasanilərə çatanda onların qoşunları bizim ölkəyə soxuldular. Düşmən qoşunlarının ön dəstələri tezliklə bu vilayətin cənub dairələrinə girən zaman Cavanşir yaxşı silahlanmış dəstəsilə sürətlə onların qabağına çıxıb Deyləm mənşəli başçılarını vurdu. Cavanşir və onun döyüşçüləri onların çoxlarını qılıncdan keçirib, bir qismini də əsir aldılar. Onlar böyük qənimət, o cümlədən at və qatırlar ələ keçirərək geriyə döndülər. Lakin buna baxmayaraq, Sasani qoşunları onları təqib etməkdən əl çəkmədilər. Onlarla ikinci döyüş dağlıq yerdə baş verdi. O günü də Cavanşir qələbə qazandı və o, Allahın köməyilə düşməni darmadağın etdi. Amma elə bu vaxt ona xəbər çatdı ki, sasanilər Bərdəyə daxil olub anasını və qardaşlarını əsir almışlar» (136, k.2, f.19; 296, s.158).

Cavanşir öz qüvvələrini səfərbər edərək Kürün sahilində Sasani qoşunlarını qılıncdan keçirmiş, anasını, qardaşlarını və ərazini azad etmişdir. Bu barədə M.Kalankatlı yazır: «O, iranlıların hamısını öz qış iqamətgahı olan Bərdə şəhərini azad edəndə də qırdı» (136, k.2, f.19; 296, s.158).

Cavanşirin vuruşmalarını əks etdirən məlumatı M.Kalankatlı belə göstərir: «Cavanşirin əldə qılınc başqa döyüşlərdə nə qədər düşməni öldürməsi haqqında danışmağımız burada artıq olar və buna heç ehtiyac da yoxdur» (136, k.2, f.19; 296, s.158).

M.Kalankatlı göstərir ki, «Cavanşirin qələbələrini görüb, eşitmiş … gürcü əyanları öz nəsillərindən qız seçib onunla qohum olmaq istədilər. Sasani sərkərdəsinə gəldikdə o, Cavanşirə vasitəçi ilə məktub göndərib qohum olmağı, ittifaq bağlamağı xahiş etdi» (136, k.2, f.19). Bu zaman Sasani taxt-tacı uğrunda çəkişmələri və hakimiyyətin zəifləməsini görən, dövrün hadisələrini uzaqgörənliklə dərk edən Cavanşir müstəqilliyin əhəmiyyətini və vacibliyini qiymətləndirərək üsyan qaldırdı (136, k.2, f.19; 296, s.158-159).

M.Kalankatlının daha bir qeydi: «Cavanşir böyük Sasani şahlığının tənəzzülü haqqında fikirləşərək və keçmiş Şərq şahlarının müstəbid olmalarını yada salaraq öz şəxsiyyətinə xüsusi təmtəraq verdi, belə qənaətə gəldi ki, bundan sonra öz hakimiyyətini heç kəsə tabe etməsin» (136, k.2, f. 19; 296, s.143).

Qardaşları ilə birlikdə ata-baba yurduna getmiş Cavanşir atasının Sasanilər tərəfindən girov saxlandığını eşidərək geri qayıtdı, vuruşaraq onu azad etdi. M.Kalankatlı bu barədə belə yazır: «İndi cəsur Cavanşir və onun böyük qardaşı nə edə bilərdilər? Atalarının intiqamını almaq üçün onlar silahlandılar, yorğa atlarına minib uzun yolu qısaldaraq gəlib Firuzabad (Bərdə) şəhərinə çatdılar, …şir balaları kimi şəhərə hücum edib ona sahib oldular. Şəhərdə və onun ətrafında Sasani sərkərdəsinin döyüşçülərindən kimi tapıb gördülərsə, hamısının cəzasını verdilər. Qardaşların yaxşı silahlanmış dəstələri atalarını buraxmağa məcbur

edənə qədər düşməni qırdılar» (136, k.2, f.19; 296, s.159).

Bu zaman ərəblərin hücumları davam edirdi. Onların hücumu ilə III Yezdəgirdin hakimiyyəti (630-651) dövründə Sasani şahlığı tamamilə məhv edildi (651-ci ildə) (136, k.2, f.19). Bu, Sasani imperiyasının süqutu idi (136, k.2, f.19; 15, s.74; 296, s.161).

Ərəblərin Şimal və Şərq ölkələrinə doğru işğalçı hücumları Albaniyada, Bərdədə də gərgin vəziyyət yaratdı. Cavanşir ərəblərə qarşı müqavimət göstərdi. Lakin ərəb qoşunları ilə qarşılaşdıqdan sonra onlara qalib gəlməyin çətin olduğunu hiss etdi. O, təslim olmaq, könüllü olaraq hakimiyyəti vermək istəmədi. M.Kalankatlı yazır ki, «ərəblərin amansız olduğunu görmüş Cavanşir onlara tabe olmayıb Kür çayının o biri sahilinə keçdi» (136, k.2, f.20).

Qeyd etmək lazımdır ki, M.Kalankatlı ərəblərin Bərdəyə müdaxiləsi, orada Cavanşirin və ya hər hansı bir hökmdarın fəaliyyəti barədə heç bir məlumat vermir. Lakin əsərinin başqa bir yerində yazır ki, Cavanşir yadellilərin hakimiyyətinə bir daha boyun əyməmək üçün öz döyüşçülərini də götürüb Kürün o biri sahilinə keçdi, ata yurdunda məskən saldı (136, k.2, f.20).

Müəllif yazır ki, Cavanşir «bir qədər orada qaldıqdan sonra yenə də ürəyinin atəşini söndürmək üçün ərəblərlə döyüşə yenidən başlamaq və atasını azad etmək istədi. Lakin atası onu bu fikirdən daşındırdı və könüllü olaraq düşmənə təslim oldu» (136, k.2, f.20).

Hadisələrin sonrakı gedişi göstərir ki, Cavanşirin atasının (Varaz-Qriqorun) yaranmış vəziyyəti yaxşı başa düşdüyündən qəbul etdiyi qərar, yeganə düzgün qərar idi. Cavanşir isə imperator II Konstanta (641-668) meyl göstərdi (136, k.2; 23; 126, s.166).

Alban hökmdarı öz dövlətinin iqtisadi-siyasi qüdrətini qorumaq, xalqı uzun müddət davam edən üzücü müharibələrdən xilas etmək üçün o dövrdə böyük gücə malik Bizans imperiyasına arxalanmağı üstün tutdu. O, Bizans imperatoru Konstant Avqusta məktub göndərdi, onunla ittifaq bağladı. Bu uzaqgörən siyasət Bizansın gələcəkdə Albaniya üzərinə basqın etmək ehtimalını da aradan qaldırdı (136, k.2, f.22).

Həmin dövrün siyasi hadisələrinin mürəkkəbliyini nəzərə çatdıran M.Kalankatlı yazır: «Cavanşir erməni sərkərdəsi ilə ittifaq bağlayıb onu Bizans imperatoruna tabe olmağa razı saldı. Sonra müttəfiq olduğu Bizans imperatoruna məktub göndərdi» (136, k.2, f.12).

Cavanşirin Bizans imperatoru Konstanta göndərdiyi məktubuna böyük maraq göstərən imperator «Sənə – hökmdar Cavanşirə, Girdman sahibinə və Albaniya şahına – apoipata və proton patrikə və Şərqin hökmdarına» – sözləri ilə başlayan cavab məktubu göndərərək, ona böyük rütbə və ənam verdi (136, k.2, f.13; 126, s.166). Beləliklə, Albaniyanın çarı kimi Cavanşir İberiya sərhədlərindən Dərbəndə və Araz çayına qədər olan torpaqların hamısını idarə edirdi (136, k.2, f.13).

Cavanşir Bizans imperatoru II Konstant ilə iki dəfə – 654-cü ildə (indiki İran ərazisində) və 660-cı ildə (Vaqarşapat şəhərində) görüşmüş, hər dəfə də onun tərəfindən imperatorlara layiq bir şəkildə qarşılanmışdır (136, k.2, f.13; 15, s.75; 126).

Cavanşir imperator İraklinin oğlu Konstantın hakimiyyəti illərində Bizansla əlaqələr saxlayaraq öz torpaqlarının bütövlüyünü və hakimiyyətini saxlaya bildi. Sasani imperiyasına qarşı daim mübarizə aparan şimal ölkələri ilə əlaqəni kəsməmək, Cavanşir kimi uzaqgörən və tədbirli dövlət xadimi xüsusiyyətlərinə malik müttəfiqlə əlaqələri

itirməmək üçün Bizans imperatorları Alban hökmdarına həddindən artıq yaxınlıq göstərirdilər (136, k.2, f.13; 15, s.75; 126, s.266). M.Kalankatlı yazır ki, Cavanşir «imperator kimi təntənə ilə Konstansın sarayına daxil oldu. Cavanşiri görən kimi, Konstans onu qucaqladı və bütün əyanlarından yuxarıda əyləşdirdi. Bu gün başqa günlər içərisində onun üçün daha uğurlu oldu, hər yan təmtaraqlı olub, qızıl və gümüş içində par-par parıldayırdı. İmperator əmr etdi ki, Cavanşirin qabağına çara layiq olan süfrə açsınlar. Bundan başqa, imperator Cavanşirin belinə öz babası İraklinin və ulu nənəsi Niketanın çar kəmərini bağladı, çiyninə öz əbasını saldı və iki bayraq bağışladı, Cavanşirin iki gənc oğlunu da patrik rütbəsinə layiq gördü. O, Albaniyanın ilk çarlarına məxsus bütün kənd və mülklərini Cavanşirə irsən, nəsildən-nəsilə keçmək şərtilə bağışladı və çar kimi bütün Şərq xalqına hökmran təyin etdi. Belə bir imkana malik olan Cavanşir ölkədə «xalqın tikmək, əkmək, əmin-amanlıqda yaşaması üçün əmrlər verdi. Özü çoxlu saraylar tikdirdi» (136, k.2, f.13).

M.Kalankatlı qeyd edir ki, «hətta Türküstan çarı da ondan əmin-amanlıq və dostluq gözləyirdi. Cavanşirə hədiyyə olaraq seçmə atlar, nökər və xadimlər və sürünən heyvanların gönünü göndərirdi. Suriyadan, Atropatakandan, İberiyadan və hətta Hindistandan adamlar gəlirdi ki, ona baxıb, onun səsini eşitsinlər» (136, k.2, f.13).

Xilafət mərkəzində hakimiyyət uğrunda (Əməvilərin hakimiyəti ələ keçirməsi) gedən mübarizə ilə əlaqədar yaranmış vəziyyətdən istifadə edən xəzərlər 661/62-ci ildə Albaniya ərazisinə daxil oldular. Cavanşir Kür çayını keçərək xəzərlərə hücum etdi və döyüşdə qalib gələrək onları geri çəkilməyə məcbur etdi (136, k.2; 15, s.76; 126, s.267).

M.Kalankatlı yazır ki, Cavanşir «özü ilə katolikosu, onun yepiskoplarını və öz əyanlarını götürüb, onlarla birlikdə

Firuz-Qubad şəhərindən şimalda, bir günlük yolda yerləşən vəngə gəldi… Bundan sonra Cavanşir gözəl və ilahi təbriklərlə öz qış iqamətgahı olan Firuz-Qubad (Bərdə) şəhərinə qayıdıb orada bütün ili əmin-amanlıqda keçirdi» (136, k.2, f.28). Cavanşir yaranmış nisbi sakitlikdən istifadə edərək Bərdədə iki il müddətinə böyük bir kilsə tikdirdi (136, k.2, f.26).

664-cü ilin qışında xəzərlər yenidən Albaniyaya gəldilər. Onlar Kür çayının o biri tayına keçib Albaniyada və Sünikdə xeyli qoyun və mal-qara sürülərini öz düşərgələrinə apardılar (136, k.2, f.29). M.Kalankatlı bildirir ki, «bundan sonra hunlar çarı (Xəzər xaqanı – Q.H.) Cavanşiri görmək istədi və Cavanşirin yanına öz qardaşlarını göndərərək, onların vasitəsilə görüş istədi ki, aralarında qardaş məhəbbəti yaransın» (136, k.2, f.29).

M.Kalankatlı Cavanşirin qüdrət və şücaətindən danışaraq qeyd edir ki, «bu vaxtadək heç bir Sasani hökmdarı Türküstan çarı ilə üzbəüz çıxmağa cəsarət etmirdi, lakin igid və mərd Cavanşir ondan heç qorxmadı, …bütün əyanları ilə onun yanına getdi. Hunlar çarı da qayıqla çayın (Kür – Q.H.) sərin suları ilə bu sahilə gələrək Cavanşirin qabağına çıxdı. Onlar öz aralarında sülh sazişinə gələrək, ixtilaflara son qoyub qardaşlıq, dostluq haqda razılaşdılar. Müqavilə imzalayıb hər ikisi öz evinə qayıtdı» (136, k.2, f.29; 15, s.77).

Lakin xəzərlərin basqın etmək təhlükəsi aradan qalxmamışdı. Cavanşir Xəzər xaqanı Alp İlitverin qızı ilə evlənməklə bu təhlükədən ölkəni xilas etdi. Ərəblərə qarşı mübarizə aparmağın çətin olacağını görən Cavanşir xəzərlərlə müqavilə bağlayaraq şimal qonşusunun təhlükəsindən xilas olmaq üçün bu addımı atmışdı (136, k.2, f.29; 15, s.77). Bu barədə M.Kalankatlı məlumat verir: «Amma görün mənim igid sahibim ertəsi gün necə hünər göstərdi!

On yeddi döyüşçü ilə o, çayın o biri sahilinə keçib Hunların düşərgəsinə gəldi və burada çarın qızını aldı, əsarətdən 120 min baş qoyun, 8 min at və öküz qurtardı və 1200 əsiri azad etdi» (136, k.2, f.29; 15, s.76; 296, s.158). O, sonra əlavə edir ki, «bütün bunlar Cavanşirin hakimiyyətinin iyirmi səkkizinci ilində baş vermişdir. Bu, onun otuz illik hökmranlığı dövründə olmuş və bütün bu illər ərzində o, gənc yaşlarından yetkinləşməsinə qədər hakim sipəhsalar kimi bir çox hallarda ləyaqətli qəhrəmanlıqlar göstərmişdir. Hakimiyyət illərinin dörddə üçünü əvvəlcə Sasanidə, sonra da Hunlar (Xəzərlər – Q.H.) darvazası ətrafında keçirmişdir. Bu rəşadəti onu bütün dünyaya tanıtmış və haqqında olan xəbərlər uzaqlara – şərqdən qərbə və şimaldan cənuba qədər, arilər və qeyri-arilər arasında geniş yayılmışdır» (136, k.2, f.29).

Bir sıra tədqiqatlarda Cavanşirin Xəzər xaqanının qızını almaqla xəzərlərdən asılı vəziyyətə düşdüyü bildirilir (15, s.76; 23; 100). Hər halda xəzərlərin təxminən yüz il ərzində Azərbaycan torpaqlarına hücumları və ona qarşı müxtəlif formada aparılmış mübarizə haqqında xeyli məlumat verilir (136, k.2, f.29). M.Kalankatlı bildirir ki, sülh bağlandığına baxmayaraq xəzərlər sonralar Albaniyaya dəfələrlə yürüş etdilər (136, k.2, f.29). Yeri gəlmişkən, elmi ədəbiyyatda Xəzər-Alban münasibətlərinə dair məsələlərdə xeyli anlaşılmazlıqlar mövcuddur. Bu problemin geniş şəkildə və obyektiv tədqiqinə ehtiyac olduğunu düşünürük.

Burada xatırlatmaq lazımdır ki, ərəblərin Sasani torpaqlarına hücum etdiyi ilk dövrlərdə Cavanşir yeddi il Sasani ordusu ilə birgə Xilafət ordusuna qarşı vuruşmuşdur. M.Kalankatlının məlumatına görə Sasani hakimiyyətinin Xilafət hücumları qarşısında dura bilməyəcəyini başa düşən Cavanşir geri çəkilərək Albaniya ərazisində hakimiyyətini möhkəmlətməklə məşğul olmağa başladı. Böyük

məğlubiyyətdən sonra (651-ci ildə) Sasanilərin bir hissəsi şimala doğru hərəkət edərək Albaniyada möhkəmlənmək istərkən Cavanşirin müqavimətinə rast gəldi. Cavanşir İberiya (Gürcüstan) hökmdarı Aternerseh ilə razılığa gəlib onları ölkədən çıxardı (136, k.2, f.25). Bu dövrdə atası Varaz-Qriqordan fərqli olaraq Cavanşir öz hakimiyyətinin müstəqilliyini qorumaq üçün hələ ərəblərin hakimiyyəti güclənməmiş Bizans imperiyası ilə əlaqələri yaxşılaşdırmaq və ölkəni bizanslıların hücumlarından qorumaq üçün Konstansla Albaniyanı təbəəliyə götürməsi üçün danışıqlar aparırdı. Lakin ərəblərin Albaniyanı əhatə edən bütün əraziləri tutması Cavanşiri Bizansla danışıqları kəsib Xilafətlə hesablaşmağa məcbur etdi. Bu zaman ərəbləri Bələncər yaxınlığında (653-cü ildə) məğlub etmiş xəzərlərin Albaniyaya hücumları yenidən başlandı. Cavanşir 662-ci ildə xəzərlərin hücumlarının qarşısını aldı. Xəzərlərin iki il ondan sonrakı hücumu (664-cü ildə) Cavanşirin Xəzər xaqanının qızını alaraq onların təbəəliyini qəbul etməklə başa çatdı (136, k.2, f.29; 15, s.76; 174, s.30).

Xilafət qarşısında digər dövlətlərin (Bizans, Xəzər və s.) aciz qaldığını görən Cavanşir çıxış yolunu çevik siyasət yeritməkdə gördü. O, 667-ci ildə xəlifə Müaviyənin yeni hücumlarından ehtiyat edərək Şama (Dəməşqə), onun yanına getdi və Albaniyanın Xilafətin tam təbəəliyinə keçdiyini elan edərək, az miqdarda vergi alınması razılığını əldə edib Bərdəyə qayıtdı. Üç il sonra (670-ci ildə) Xəlifənin dəvətilə Cavanşir yenidən Şama (Dəməşqə) getmişdi. Çətinliklə olsa da, o, Albaniyanın müstəqilliyini qoruyub saxlaya bilmişdi (136, k.2, f.30).

M.Kalankatlı bunu yığcam şəkildə belə təsvir edir: «Cənub hökmdarı (Xəlifə – Q.H) eşitmişdi ki, bizim şahımızın (Cavanşir – Q.H.) Bizans imperatoruna qarşı meyli var və o, Türküstan qəbilələri ilə qohumluğu sayəsində onları

itaətdə saxlayıb, istədiyi vaxt yürüşə çağıra və ya yürüşdən saxlaya bilərdi. Buna görə məğrur dünya fatehinin beynində həsəd əmələ gəldi və o, inanılmış adamlar ilə Cavanşiri öz böyük andları və hesabsız mükafatları ilə birlikdə öz yanına dəvət etdi. Cavanşir çoxlu hədiyyələrlə kainat hökmdarının yanına getdi» (136, k.2, f.30).

Cavanşir öz hakimiyyəti dövründə iki dəfə (667 və 670-ci illərdə) Xilafət mərkəzinə – Müaviyənin yanına getmiş (ikincidə dəvət olunmuşdu), hər ikisində də yüksək səviyyədə qarşılanmış və hörmətlə yola salınmışdı (136, k.2, f.29, 31; 15, s.77; 126).

Xəlifə Müaviyə həm Albaniyanın təbii-coğrafi və strateji üstünlüyünü, həm də Cavanşirin şəxsi nüfuzunu nəzərə alaraq onu Xilafətin paytaxtına – Şama dəvət etmişdi. Cavanşir bundan istifadə edərək birinci gedişində (667-ci ildə) Xilafətin təbəəliyini qəbul etməklə Albaniyanı ərəb qoşunlarının qarətindən xilas etdi. O, bəzi güzəştlər alaraq ölkənin nisbətən əmin-amanlığını təmin edə bildi (136, k.2, f.31; 15, s.78; 126, s.164).

Ərəb xəlifəsi ilə ilk görüşdə yüksək rəğbət və hörmətlə qarşılanıb geri döndükdən sonra «Cavanşir üç il dalbadal (667-670) özünü Cənub hökmdarının sadiq təbəəsi kimi göstərdi» (136, k.2, f.31).

Ərəb Xilafətinin qərbə doğru genişləndiyi bir vaxtda Cavanşirin ağıllı məsləhətlərini qiymətləndirən xəlifə ikinci dəfə (670- ci ildə) onu öz yanına dəvət etdi, daha böyük ərazilərin hakimiyyətini – Süniki, Arazın o biri sahilində yaşayan atropatenalıların ixtiyarını da ona verdi. Şöhrətpərəsliyi sevməyən Cavanşir bu böyük ərazinin hakimiyyəti əvəzində öz ölkəsinin əmin-amanlığı, tikinti və abadlıq işləri ilə məşğul olmağı üstün tutdu (136, k.2, f.31; 126, s.125). İkinci görüşündə o, xəlifədən xahiş edərək ölkədən alınan verginin miqdarını xeyli azaltdırdı. M.Kalankatlı

qeyd edir ki, «cənubun hökmdarı … əmr etdi ki, vergi onun üçdə biri qədər yüngülləşdirilsin» (136, k.2, f.31).

Xəlifə Cavanşiri böyük hörmət və qiymətli hədiyyələrlə yola saldı: «Cənubun hökmdarı Şərqin hakimini başına tac qoyulmuş padşah kimi, daha da yüksək təriflərə layiq gördü və əmr etdi ki, ona Hindistandan gətirilmiş və yaxşı öyrədilmiş nəhəng fil bağışlasınlar … sonra xəlifə Cavanşirə quşların ən gözəlini – tutuquşunu bağışladı. Bundan əlavə, xəlifə ona başqa hədiyyələr də bəxş etdi: qızıl qınlı polad qılınc, mirvari ilə süslənmiş kaftan, qızıl xaçlar, ipək parçalar, əba və cürbəcür qiymətli geyimlər. Bundan başqa, ona özü mindiyi atlardan əlli ikisini bağışladı» (136, k.2, f.31).

Cavanşir böyük ənamları ilə birlikdə geri qayıdaraq Bərdəyə gəldi və xəlifədən aldığı imtiyazları elan etmək üçün məclis çağırdı. M.Kalankatlı: Cavanşir «öz qış iqamətgahı olan ölkə paytaxtına (Bərdəyə – Q.H.) getdi və burada ümumxalq məclisini çağırdı» (136, k.2, f.31).

M.Kalankatlı Cavanşirin yeni libasda çar kimi hərəkətlərindən, geyimindən, dövlət idarəçiliyindən, çar sarayının görünüşündən, nəhəng filin əzəmətindən, tutuquşunun qəribə təsirindən, qızıl yəhər-yüyənli ərəb atlarından bəhs edir (136, k.2, f.31).

Beləliklə, öz hakimiyyəti dövründə Albaniya hökmdarı Cavanşir ölkəsini Bizans və ərəblərlə mübarizədə qoruyub saxlaya bildi. O, bir sərkərdə, hökmdar, mahir diplomat, siyasətçi kimi ölkənin siyasi-iqtisadi mövqeyinin möhkəmləndirilməsilə, xalqın sosial vəziyyətinin və mədəni həyatının yaxşılaşdırılmasına və inkişafına geniş şərait yaratdı. «O, dörd xalqın hakim padşahlarının hörmət və iftixarını qazanmışdı» (136, k.2, f.31; 15, s.76). Lakin Cavanşirin xəzərlərlə münasibətləri normal məcraya saldıqdan sonra Bizansın Xilafətlə apardığı müharibələrdə

zəifləməsindən istifadə edərək Xilafətlə münasibətlərə üstünlük verməsi və qazandığı uğurlar ona qarşı düşmən ünsürlərin baş qaldırmasına səbəb oldu.

Albaniya dövlətinin qüdrətli hökmdarı Cavanşir 681-ci ildə sui-qəsd nəticəsində qəflətən öldürüldü (125, s.161).

M.Kalankatlı Cavanşirin öldürülməsi barədə aşağıdakı məlumatı verir: «İstirahətini Uti vilayətinin yaylaqlarında keçirən Cavanşir Bərdə şəhərinə qayıdaraq xaçqaldırma bayramını özü tikdirdiyi kilsədə keçirmək istədi. Gecənin birində öyrədilmiş cani – Arcahunik mahalından olan Varazo hazırlıq tədbirləri görərək gecə Cavanşiri öldürdü» (136, k.2, f. 36; 15; 296). Z.M.Bünyadovun fikrincə, Cavanşir təxminən 681-ci ildə bizanspərəstlərin gizli qəsdi nəticəsində öldürülmüşdür (15, s.100). M.Kalankatlı bildirir ki, «Cavanşirin faciəli ölümü və qəflətən öldürülməsi ölkədə çox narahatlıq yaratdı, dolaşıq hadisələrə səbəb oldu» (136, k.2, f.36).

Qeyd etmək lazımdır ki, M.Kalankatlının «Albaniya tarix-i» əsərindən Cavanşirin öldürülməsi dövrün hakimiyyət mübarizəsi, dövlətlərin düşmən münasibətindən çox xainlik, paxıllıq, xəyanətkarlıq xislətindən yaranan bir qəsd kimi anlaşılır. Dövrün mürəkkəb hadisələrlə zənginliyi və M.Kalankatlının qeyd etdiyi kimi, erməni əyanları və kilsə başçılarının Cavanşirin şöhrətinə həsədi, paxıllığı haqqında məlumat onun öldürülməsinin nə ilə bağlı olduğundan xəbər verir (136, k.2, f.36). Cavanşirin öldürülməsi haqqında M. M.Kalankatlının mətnindəki məlumatları təhlil edən K.V.Trever Knyazın öldürülməsinin əsl səbəbinin müəmmalı qalması qənaətinə gəlir (363, s.249). Tədqiqatçı o dövrün erməni müəlliflərinin də bu məsələnin üstündən sükutla keçdiyini xüsusi qeyd edir. M.Kalankatlı isə «böyük faciə» adlandırdığı, «ölümünə bütün ölkənin yas tutduğu» Cavanşirin öldürülməsinə

səbəb olan qüvvələr haqqında konkret heç nə yazmır (363, s.249). İnanmaq olmur ki, dövrün tarixçisi M.Kalankatlı hökmdar Cavanşirə dair hər bir məsələyə diqqətlə yanaşdığı, hər incəliyi qeyd etdiyi halda, Cavanşirin ölümünün səbəbini bilməsin və ya sadəcə, buna laqeyd qalsın. Bəlkə də bu məqam tarixçinin əsərinin bu hissəsi tərcümə edilərkən (erməni dilinə) sonradan yox edilmişdir.

M.Kalankatlı Bizans imperatorunun Cavanşiri yanına dəvət edib, onu hörmətlə qarşılamasından və ona hədiyyələr verməsindən bəhs edərkən yazır ki, «belə səməvi hədiyyələri almış Cavanşiri gördükdə erməni əyanları və sərkərdə Hamazasp ona paxıllıq etdilər, lakin o, buna heç əhəmiyyət vermədi» (136, k.2, f.36). Tarixdə belə halların dəfələrlə təkrarlanması göstərir ki, ermənilərdə paxıllıqdan güclü hiss yoxdur. Erməni məkrinə fikir verməmək, onların hiyləsinə məhəl qoymamaq, unutqanlıq belə hadisələrin tarixdə dəfələrlə təkrarına səbəb olmuşdur. Cavanşirin, katolikos Nersesin öldürülməsi, Xaqan qızına qəsd və s. hələ ilk orta əsrlərdə baş verənlər idi (136, k.2).

M.Kalankatlı Cavanşirin Şamda Xəlifə ilə görüşdən təntənə ilə geri qayıtdığını təsvir edərkən bildirir ki, «…Cavanşiri böyük şan-şöhrətlə yola saldılar. Ayrarat vilayətinə gəldikdə onu Mamikonlar nəslindən olan Qriqor və onun əyyanları qarşıladılar. Qriqor onu öz Aruc şəhərciyinə apardı. Buraya katolikos bakirə Anastas (666-667-ci illərdə katolikos olub) da gəldi. Cavanşir ona salam verdi və təzim etdi, katolikos da ona xeyir-dua verdi» (136, k.2, f.30). Təəssüf ki, mənbədə bu xeyir-duaların Cavanşirin taleyində göstərdiyi nəticə əlaqələndirilmir, başqa sözlə, bu barədə aydın məlumat verilmir. Cavanşirə sui-qəsd edilməsinin əsl səbəbinin bu baxımdan araşdırılması düzgün olardı. Çünki həmin qəbildən olan faciələr sonrakı tariximizdə dəfələrlə təkrar edildiyindən bu fikir şübhə doğurmamalıdır.

Hadisələrin sonrakı gedişi zamanı Albaniya taxt-tacının mərkəzi iqamətgahı olan Bərdədə baş vermiş hadisələr – erməni katolikosunun satqınlığı və araqarışdırması ilə Xəlifə Əbdü-l-Məlik tərəfindən törədilmiş hadisələr göstərir ki, bunların heç biri təsadüfi olmayıb – əvvəlcədən hazırlanıb razılaşdırılmış və ardıcıl həyata keçirilmiş planlı hərəkətlərin nəticəsidir.

Cavanşir Azərbaycan tarixində xüsusi yeri olan sərkərdə, hökmdar və tarixi qəhrəman olduğu halda, uzun müddət onun haqqında əsaslı tədqiqatların aparılmamasından hakimiyyəti və şəxsiyyəti haqqında obyektiv mühakimə yürütmək mümkün olmamışdır. Azərbaycan tarixçilərinin dövrün hadisələrini təhlil etmək imkanının məhdud olmasından istifadə edən, «avtoxtonluq», «böyüklük» xəstəliyinə tutulmuş ermənilər, özlərinə «tarix» yazarkən ona da (Cavanşirə) «sahib çıxmaq» fikrinə düşmüşlər.

Beləliklə, yuxarıda göstərilənlərdən ümumi bir nəticəyə gəlirik ki, Azərbaycan tarixinin Mehranilər dövrünün (VII əsr) görkəmli hökmdarı Cavanşir böyük sərkərdə, uzaqgörən siyasətçi, müdrik hökmdar kimi tarixi şöhrət qazanmışdır. Cavanşir çevik və uzaqgörən siyasəti ilə ölkəni bizanslıların, Sasanilərin, ərəblərin, şimaldan gələn tayfaların basqınlarından, talanlarından xilas etmiş, onun müstəqilliyini qoruyub saxlamışdır. Cavanşir daxildə iqtisadiyyatın dirçəlməsinə, təsərrüfatın, sənətkarlığın, ticarətin, mədəniyyətin inkişafına şərait yaratmışdır. Alimləri, şairləri, memarları, mahir sənətkarları öz sarayına toplamış, ölkənin, o cümlədən Bərdənin inkişafına nail olmuşdur. Bərdə Cavanşirin hakimiyyəti dövründə strateji cəhətdən möhkəmlənmiş, iqtisadi cəhətdən inkişaf etmiş, eyni zamanda siyasi baxımdan əhəmiyyətli bir şəhərə çevrilmişdir.

Cavanşirin qəfləti ölümü ölkədə vəziyyəti xeyli gərginləşdirsə də çox keçmədən ölkənin ağsaqqalları, valiləri, hakimləri və əyanları hakimiyyətə Cavanşirin Bizans imperatoru tərəfindən konsul və patrik rütbələrinə layiq görülmüş Varaz-Peroz adlı qardaşının oğlu knyaz Varaz-Trdatı (681-688) seçdilər (136, k.2, f.38; 295, s.41).

M.Kalankatlı bildirir ki, «öz müdrikliyi, ağlı, qayğıkeşliyi ilə tanınmış Varaz-Trdat ölkəni sərhədləri daxilində özünə tabe etdi və «şanlı paytaxtını» – Bərdəni ələ keçirdi» (136, k.2, f.38). Akademik Z.M.Bünyadov mənbəyə əsaslanaraq qeyd edir ki, Varaz-Trdat Albaniya taxtına xəzərlərin 681-ci ilin yayındakı hücumu vaxtında (680 və ya 681-ci ildən 688-ci ilə qədər), ehtimal ki, 681-ci ildə sahib olmuşdur (bax136, s.225).

Qaynağın məlumatına görə, hün sərkərdəsi Alp İlitver Cavanşirin qəsdən öldürüldüyünü nəzərdə tutaraq intiqam almaq məqsədilə Qafqaz dağı ətəklərindəki vilayətləri talan etmişdir. M.Kalankatlıya görə, «O (Alp İlitver – Q.H.), öz böyük, şəxsi dəstəsilə düzənlikləri aşaraq Kür çayını keçdi və Uti vilayətinə daxil olaraq, buradakı insanları öz mal-qarası ilə birlikdə əsarətə aldı. Sonra onlar qayıtdılar və Lping yaxınlığında olan düzənlikdə düşərgə saldılar» (136, k.2, f.38).

M.Kalankatlı bu barədə məlumat verir: «böyük katolikos Yelizarı hunlar padşahının yanına göndərdi ki, onun vasitəsilə padşaha öz həqiqi itaətini və məhəbbətini bildirsin və desin ki, o, bu məhəbbəti ona sevimli qardaş olduğu üçün bəsləyir, ona çatdırsın ki, biz albanların Cavanşirin ölümü ilə əlaqəsi yoxdur və bu ağır cinayət alçaq və mənfur bir adamın əlilə icra olunub» (136, k.2, f.38). Beləliklə, Yelizar Xəzər xaqanını inandırdı, Xəzər qoşunlarının Albaniya ərazisindən çıxıb öz ölkələrinə qayıtmasına nail oldu (136, k.2, f.38).

M.Kalankatlı yazır:«Bu vaxtdan mömin şah Varaz-Trdatın nüfuzu gündən-günə etibarlı oldu. O, ərəblərin qüdrətli və əzəmətli hökmdarlarından ən yüksək rütbələrə layiq görülüb, onun tərəfindən Şərq diyarlarının canişini, bütün Albaniyanın və Uti vilayətinin hökmdarı hüququnu almışdır. Varaz-Trdat hamıya qalib gəlib və hamını özünə tabe edib, ona tabe olan torpaqları həvəslə və əzmlə idarə edirdi» (136, k.2, f.38).

Belə bir vəziyyətdə hunlarla münasibətləri qaydaya salmağa böyük ehtiyac var idi. Buna görə də Albaniyanın şahı Varaz-Trdat yepiskop İsraili hunlar ölkəsinə elçi göndərdi. M.Kalankatlı yazır ki, İsrail və onunla getmiş şəxs «Firuz-Qubad (Bərdə – Q.H.) şəhərindən çıxaraq, Kür çayını keçib Albaniyanın sərhəddini aşdılar və səfərin on ikinci günündə Lpinq şəhərinə çatdılar…» (136, k.2, f.41).

Din xadiminin orada yaxşı qarşılanması və göstərilmiş münasibət səfərin əsas məqsədini həll etdi. Albaniyada nisbi sakitlik yarandı. Xristianlığa rəğbət göstərən Hunlarla dini əlaqələr yaradılaraq yalnız vergi toplamaqla kifayətlənmək üçün razılıq əldə edildi (136, k.2, f.42; 295).

M.Kalankatlı göstərir ki, «Xursanın Albaniyaya qayıdan il-tiqini və Çat Xəzər ölkə paytaxtı Bərdə şəhərinə gəldikdə Varaz-Trdat və katolikos Yelizarla görüşüb yenə də xahiş etdilər ki, yepiskop İsraili onların ölkəsinə buraxsınlar… «(136, k.2, f.47). Beləliklə, Varaz-Trdat İsrailə Xəzər xaqanlığı ilə Albaniya arasında vasitəçi olmağa icazə vermişdi (136, k.2, f.43).

Aparılmış danışıqlar və alınmış nəticələr əsərdə dini münasibətlər və bir qədər şişirtmələrlə izah edilsə də, hər halda məlum olur ki, Albaniya hökmdarları ağıllı siyasət yeritməklə ölkəni bir çox fəlakətlərdən xilas etməyə çalışır, çox vaxt buna nail olurdular.

Artıq VII əsrin axırlarında Albaniyanın ümumi siyasi vəziyyəti gərgin idi. Ərəblərin qoyduğu ağır vergilər, xəzərlərin ölkə daxilinə tez-tez müdaxiləsi, bizanslıların hərbi yürüşləri həmin dövrün siyasi səciyyəsidir.

Xəlifə Əbdü-l-Məlik ibn Mərvanın (685-705) canişini Albaniya şahlarının rütbələri əsasında siyahı düzəldib xəlifə divanına təhvil vermişdi (136, k.2, f.8).

M.Kalankatlının verdiyi məlumata görə, «Sasani şahlığı tamamilə tənəzzülə uğradıqdan və Cənubi taciklər (ərəblər) qəbiləsinin qüvvətlənməsindən sonra, onların qoyduğu vergilər bütün dünya üçün, xüsusən Şərq ölkələri üçün çox ağır oldu. Şah Varaz-Trdat vergini üç dövlətə – xəzərlərə, taciklərə (ərəblərə) və romalılara (bizanslılara) verirdi. Lakin ən ağır boyunduruq romalılar tərəfindən idi, çünki Varaz-Trdat üç oğlu ilə birlikdə imperator tərəfindən çar paytaxtı Konstantinopolda saxlanmışdı» (136, k.2I, f.8).

İmperator II Yustinian və xəlifə Əbdü-l-Məlik arasında təxminən 685-ci ildə bağlanılmış sazişə görə, Qafqaz ölkələrindən yığılan vergilər Xilafətlə Bizans imperiyası arasında bölünürdü (136, k.2, f.10; 15; 126; 174).

Varaz-Trdatın hakimiyyət illərindən başlayaraq Albaniya da başqa Şərq ölkələri kimi, vergiləri ərəblərə verməyə başladılar (136, k.2, f.10). Bu, ərəb işğallarının başa çatdırılması ilə əlaqədar idi. Z.M.Bünyadov qeyd edir ki, «əhali ərəb istilaçılarının Azərbaycana gəlməsini illər boyu davam edən zülm və əzablardan xilas olmaq imkanı hesab edirdi. Ərəblər dövründə (hər halda Əməvilər hakimiyyəti başlayanadək) kəndlilərin vəziyyəti əvvəlkinə nisbətən, bir qədər yaxşılaşmışdı, çünki ərəblər yalnız vergi və töycüləri yığır, ölkələrin daxili həyatına qarışmırdılar, öz dini əqidələrində və dini ayinlərini icra etməkdə onlara sərbəstlik verirdilər» (15, s.86).

Digər tədqiqatçılar (N.V.Piqulevskaya, P.K. Cuze) göstərirlər ki, ərəblərin işğal etdikləri ölkələrdə sonrakı onilliklərdə ağır vergi yükü azaldılmış, dini əqidəyə görə təqiblər dayandırılmışdı (260; 338).

Xilafət mərkəzində hakimiyyət uğrunda çəkişmələrin artması ilə şimal əyalətlərində, o cümlədən Albaniyada nəzarətin zəifləməsindən istifadə edən Xəzərlər 685-ci ildə yenidən Albaniyaya hücum etdilər. Belə bir mürəkkəb dövrdə Albaniya Xilafətdə hakimiyyətə gəlmiş Əməvilərin, bizanslıların və xəzərlərin döyüş meydanına çevrildi (136, k.2, f.16; 15, s.112).

Beləliklə, demək olar ki, VII əsrin axırında Albaniyada siyasi vəziyyət mürəkkəb idi. Cavanşir öldürüldükdən sonra xəzərlərin Albaniyaya diqqəti artmışdı. Ərəblər şimaldan olan hücumların qarşısını almaq planlarını həll edə bilməmişdilər (15; 174, s.40). Xəzərlərin Cənubi Qafqazda üstünlüyə malik olduğu belə bir vaxtda Xilafət mərkəzində hakimiyyət uğrunda kəskin mübarizə gedirdi. Əməvilərin VII əsrin 50-ci illərindən başlanmış hakimiyyət mübarizəsi onların 661-ci ildə Kufə şəhərini tutduqdan sonra ələvilərin istinadgahı olan İraqı ələ keçirməklə, Xilafət hakimiyyətinə sahib olmaları ilə nəticələnmişdi.

Əbdü-l-Məlik (685-705) Xilafət ərazisində təcili iqtisadi və hərbi islahatlar keçirməklə hakimiyyətini möhkəmlədərək Bizans və Cənubi Qafqaz cəbhələrində uğurlu əməliyyatlar aparmaq üçün imkan yaratdı. Bununla da Xilafət özünün ən qüdrətli dövrünü yaşamağa başladı. Xəlifələr bundan sonra Xilafətin şimalına marağı artırdılar. Xilafət üçün iqtisadi və strateji cəhətdən əhəmiyyətli olan Albaniyada «qayda-qanun» yaratmağa başladılar (174, s.41).

# III FƏSİL

# BƏRDƏ VIII - XIX ƏSRLƏRDƏ

## 3.1. Bərdə ərəblərin hücumları dövründə.

VII əsrin əvvəllərində Şərq ölkələrinin bir çoxunu işğal etmiş ərəblər Sasani imperiyası ərazisinə daxil olmuşdular (633-cü ildə). Ardıcıl davam edən ərəb hücumları və Sasanilərlə xilafət arasında gedən döyüşlər nəticəsində 651-ci ildə Sasani dövləti süquta uğradı (136, k.1, f.20; 15, s.74; 174, s.167).

Bu qələbələrindən – Ktesifon (Mədain) (637-ci il), Ərdəbil (640-cı il), Nəhavənd (642-ci il) və digər döyüşləri – sonra ərəb orduları Qafqaza doğru hərəkət etdilər (136, k.2; 41). Xəlifə Ömərin (634-644) göstərişi ilə ərəblər Şimali Azərbaycanın cənub ərazilərini, Muğan torpaqları və Dərbənd də daxil olmaq-la, Xəzər sahilini işğal edib müqavilə bağladılar. Xəlifə Osman ibn Əffanın hakimiyyəti dövründə (644-656) davam etdirilən hücumlar Xəzərlərlə vuruşan Əbdü-r-Rəhman ibn Rəbiənin öldürülməsi və

ərəblərin məğlubiyyəti ilə nəticələndi (34, s.12; 15, s.81; 174, s.61; 209, s.33).

Ərəblərin Səlman ibn Rəbiənin başçılığı ilə başlanmış növbəti hücumu (646-cı ildə) Naxçıvan, Gorus, Beyləqan, Bərdə istiqamətində gəlib Albaniya-nın mərkəzinə çatmışdı (136; 1; 15; 34; 100; 174; 199; 209; 210, c. II; 356). Həmin vaxt Bərdə ərəblər tərəfindən tutuldu. Ərəb müəllifi əl-Yaqubi bu barədə bildirir ki, «Osman (644-656) Səlmanın Arran üzərində əmir təyin edilməsi barədə (fərman) verdi və o, oradan yola düşərək Beyləqana gəldi, əhali onları qarşılamağa çıxdı və onlarla sülh bağladı. O, hərəkətini davam etdirərək Bərdəyə gəldi, əhali onlar ilə məlum şərtlərlə sülh bağladı» (359, s.3).

Ərəblərin Albaniyaya hücumları haqqında ətraflı və mötəbər məlumat verən müəlliflərdən biri olan əl-Kufi yazır: «Səlman ibn Rəbiə (646-cı ildə) onunla birlikdə olan iraqlılarla … yola düşdü» (34, s.9). Ərəblərəqədərki Cənubi Qafqaz əhalisi «kilsə birliyi»ndə (15, s.92, 141; 273, s.57) olan dövrdən fərqli olaraq ərəblər dövründə bu vilayətlərin birliyi təmiz inzibati qaydada idi və onlar bir xilafət canişini tərəfindən idarə olunurdu ki, buna görə də İbn Havqəl bildirirdi: «Biz Arran və Azərbaycanı bir rayonda birləşdirdik, onları eyni bir canişin idarə edir, buna mən və mənim sələfim (başqa sözlə, əl-İstəxri) şahidik» (181, s.236; 270, s.33; 273, s.57).

Əl-Kufi ərəb hücumları ilə əlaqədar bildirirdi ki, ərəblərin onların ölkəsinə hücum etməsindən xəbər tutmuş «məliklər qaçmağa üz qoydular, dağlarda, qalalarda, dərələrdə və qalın meşələrdə möhkəmləndilər» (34, s.10).

Salman ibn Rəbiə onun ordusuna müqavimət göstərənləri məhv edir, rastına çıxan bütün şəhər və qalaları tuturdu. Artıq o, gəlib Beyləqana çatmışdı (34, s.9). Əl-Kufi yazır: «Beyləqan əhalisi onun qarşısına çıxıb aman dilədi

və ordusu üçün düşərgələr ayırdı; sonra isə pul vermək şərtilə onunla müqavilə bağladı. O da bu şərtləri qəbul etdi. Bundan sonra o, Beyləqandan çıxıb Bərdə qalasına hücum etdi. Bərdənin əhalisi onunla pul təzminatı vermək şərtilə müqavilə bağladı» (34, s.9). Əl-Kufi ilə həmdövr ərəb müəllifi əl-Bəlazuri ərəblərin hücumları barədə bir qədər də əlavələrlə məlumat verir: «Salman ibn Rəbiə xəlifə Osmanın əmri ilə Arrana doğru hərəkət etdi və o, yerli əhaliyə yaşayışlarını, şəhərin divarları və onların əmlaklarının toxunulmazlığını təmin edəcəyinə və onları can və torpaq vergisindən azad edəcəyinə söz verərək, Beyləqanı sülh yolu ilə tutdu. Sonra Salman Bərdəyə gəldi və Turtur (Tərtər) çayının sahilində şəhərdən bir fərsəxdən az məsafədə düşərgə saldı. Şəhər sakinləri darvazaları onun üzünə bağladılar və o, onlara bir neçə gün təzyiq göstərməli oldu. O, bu vaxt biçini təzə qurtarmış kəndlərin üzərinə basqınlar etdi. Onlar Beyləqan sakinləri ilə olduğu kimi sülh bağlamağa (məcbur oldular). Şəhər darvazalarını açdılar, o, şəhərə daxil oldu və orada (bir müddət) vaxt keçirdi. Sonra atlı dəstələrilə oradan hərəkət etdi, Şavşan, Masvan, Ud, Xerxilan, Tabar və Arranda digər yerləri tutdu. Bəlasacanda islamı qəbul etməyi təklif etdi, ancaq onlar ona hərblə cavab verdilər, lakin o, onları üstələdi və bir hissəsinin üzərinə baş vergisi qoydu, bir hissəsi isə islamı qəbul etdi və sədəqə – zəkat verdi. O, Bərdədə yerləşib qüvvə topladıqdan sonra ətraf yerlərə qoşun göndərdi, yaxın kənd və şəhərləri özünə tabe etdi» (209, s.16).

Özündən əvvəlki və sonrakı müəlliflərdən fərqli olaraq əl-Kufi həmin hadisələrə aid əlavə məlumatlar verir. O yazır: «Salman Bərdə və digər şəhərlərdən xeyli pul alaraq öz əsgərləri arasında payladı və bununla onları daha da şirnikləndirdi. Sonra o, özünün süvari qoşunu ilə Cürcana (Gürcüstana) hücum etdi. Oranın əhalisi onunla da

müəyyən edilmiş məbləğdə illik təzminat vermək şərtilə sülh bağladı» (34, s.18).

Mənbələrin verdiyi məlumatlardan göründüyü kimi, Ərəblər Bərdəni tutmuş və qısa bir müddətdən sonra şəhəri tərk etmişlər (645-646) (15, s.80, 82, 83; 209, s.5-16). Bərdənin ərəb orduları tərəfindən tutulmasına dair iki fikir mövcuddur. Biri odur ki, Bərdə döyüşsüz, qısa müqavimətdən sonra ərəblərə təhvil verilmiş, ikincisi – şəhər güclü müqavimət göstərmiş, hətta qala divarları dağıdılmış, çox sayda insan öldürülmüşdür (34, s.7; 100, s.17; 209, s.5). Ərəb mənbələrində ərəb canişinləri tərəfindən Bərdə şəhərinin qalasının bərpa edilməsi barədə məlumatlardan aydın olur ki, Bərdə şəhərində və qalasında həqiqətən dağıntılar olmuşdur (34, s.7). Ərəb mənbələrinə görə, Bərdənin qala divarları VII əsrdə (628-ci ildə) xəzərlərlə döyüşlər zamanı dağıdılmışdır (359, s.8).

Bərdəni tamamilə öz əllərinə keçirmiş ərəblər Kürün sağ sahilində işğallarını başa çatdırdıqdan sonra çayın sol sahilinin işğalına başladılar. Şimala doğru hərəkətdə məqsəd Şirvan və Dərbəndə qədər olan şəhər və kəndləri tutaraq tabe etmək və eyni zamanda Qafqazda ağalıq edən, Cənubi Qafqazı təsir dairəsində saxlayan xəzərlərin müqavimətini qıraraq onları qorxutmaq və həmin əraziləri öz təsiri altında saxlamaq idi (34, s.28).

Qaynaqda göstərilir ki, «Bundan sonra Salman və onun silahdaşları geriyə döndülər və Kür çayına çatıb, onun o biri sahilinə keçənədək irəlilədilər. Onlar Şirvan torpağına yetişib orada düşərgə saldılar. Sonra ərəblər Şirvanın hökmdarını dəvət etdilər və onunla təzminat ödəməsi şərtilə sülh bağladılar. Səlman Şirvandan çıxıb daha da irəliyə gedərək Şabrana, Maskata yetişdi. Bundan sonra o, oradakı hökmdarlara elçilər göndərib onları yanına dəvət etdi. Onun yanına əl-Ləkzin, Filanın və Təbər

saranın (Tabasaran) hökmdarları gəldilər. Hamı ona pul və hədiyyələr gətirdi, ildə müəyyən edilmiş təzminatı ödəməyə razılıq verdi. O da bütün bunlarla razılaşdı. Bundan sonra, Salman Bab əl-Əbvab tərəfə getdi. O, xəzərləri təqib edərək onların torpaqları ilə irəlilədi. Lakin xəzərlər xaqanın başçılığı ilə 300 min nəfərlik qoşunla hücum edib ərəb ordusunu qırdılar. Salman ibn Rəbiə və onunla olanların hamısı öldürüldü (644-cü il)» (34, s.9-10). Bununla əlaqədar Azərbaycanın çox hissəsi ərəblərin itaətindən çıxdı. Salman ibn Rəbiənin ölümündən (644-cü il) sonra Həbib ibn Məsləmənin Azərbaycana və Arrana yürüşü başlandı (34, s.11). O, altı minlik piyada və süvari ordusu ilə Xilata gəldi, Sirac Tayrdan (Şirak) keçərək Gürcüstana yaxınlaşdı, onlardan 800 min dirhəm bac almaq şərtilə sülh bağladı. Xəlifə Osman Həbib ibn Məsləməyə məktub yazıb onun yerinə Hüzeyfə ibn əl-Yəməni təyin edənədək o yerləri idarə etdi (34, s. 11). O, Arranda nisbi sakitlik yaratdı. Osman Huzeyfa ibn əl-Yəmən vali təyin edildikdən sonra o, tutulmuş şimal ərazilərini yaxşı idarə etmək üçün canişinliyin iqamətgahını Dəbildən Bərdəyə keçirdi (656-cı il) (174, s.28; 209, s.5).

Əl-Bəlazuri ərəblərin Bərdədən sonra digər şəhərlərə etdiyi yürüşlərdən bəhs edərək bildirir: «Bir neçə Bərdə sakini mənə xəbər verdi ki, Salman ibn-Rəbiə qədim şəhər sayılan Şəmkirə qoşun göndərdi, onu tutdu» (209, s. 14). O, sonra qeyd edir ki, «Salman Arrasla (Araz) Kürrün (Kürün) qarışdığı yerə – Bərdincə gəldi, Kür çayını keçərək Qəbələni tutdu. Həmin vaxt vilayətdə hakimiyyətə Hüzeyfə ibn əl-Yəmən təyin edildi (656-657). (Hüzeyfə) Bərdəyə gələrək bu şəhərlə Xalxal və eyni zamanda, Xeyzan arasında yerləşən vilayətə məmur göndərdi, ancaq tezliklə o, xəlifə Osmanın yerinə yanında olan Sıl ibn Züfəri qoyub

geriyə (Mədinəyə) qayıtmaq əmrini aldı və belə də etdi» (209, s. 15).

Bərdədən sonra ərəblər Kürün sahilindəki digər kənd və şəhərlərə də hücum etmiş, tutduqları «Qəbələnin, Şəkinin, Kambisenanın, Şirvanın, Şabranın, Maskatın, Ləkzin, Təbərsaranın (Tabasaran) hakimləri ilə müqavilə bağlamışdılar» (34, s.11; 174, s.28; 209, s.13).

Əli ibn Əbu Talibin (598-661) xəlifəliyi dövründə (656-661) əl-Əşas ibn Qeys əl-Kindi (656-cı ildə), ondan sonra Müaviyyə adından Abdullah ibn Xətim ibn Nəman ibn Əmru vali təyin edildi. Onun qardaşı Əbdü-l-Əziz ibn Xatim ibn Nəman uzun müddət Arranı idarə etdi. O, Bərdə şəhərinin bərpası və tikinti işlərinin icraçısı kimi tanınmışdır (34, s.11-12; 174, s.28; 209, s.13-15).

Bundan sonra, Yəzid ibn Əbdü-l-Məlik ibn Səffər əl-Bəhrəni, sonra onun yerinə Haris ibn Əmrunu hakim təyin etmişdi. O, «Lazlar ölkəsinə yürüşü başa çatdırıb Xasmadana qədər yerləri tutmuşdu» (359, s.8-15).

Balazuri yazır: «Əli ibn Əbu Talib əl-Əşas ibn Qeysi Azərbaycanın hakimi təyin etdi. Əl-Əşas bura yetişdikdə gördü ki, yerli əhalinin çoxu islamı qəbul etmişdi və Quran oxuyur. O, Ərdəbildə əta və divan siyahısına salınmış ərəblərdən yerləşdirdi. Buranı Azərbaycanın baş şəhəri etdi» (209, s. 16). Tarixçi qeyd edir ki, sonra oraya Kufədən, Bəsrədən, Şamdan xeyli ərəb ailəsi köçüb gəldi (174, s.28; 209, s. 16).

Cavanşir öldürüldükdən (681-ci ildə) sonra Albaniya şahlıq taxtını ələ keçirmək uğrunda ölkədə daxili çəkişmələr başlandı. Bu çəkişmələrdə knyazlar və ruhanilər, habelə «silahlı camaat» da iştirak edirdi. İğtişaşları yatırmaq, çəkişmələrə son qoymaq üçün Bərdəyə zadəganlar, hökmdarlar, canişinlər, əyanlar və knyazlar toplandılar. Vəliəhd seçmək barəsində məsləhətləşmələr yeni şahın seçilməsi

ilə başa çatdı. Onlar «razılaşdılar ki, (taxta) baş əyyanlardan birini, imperatorun verdiyi ekskonsul (apoipat) titulu dərəcəsinə yüksəldilən və patrisi rümbəsi olan bir şəxsi seçsinlər. O Cavanşirin qardaşı Varaz-Perozun oğlu Varaz-Trdat idi» (136, k.2, f.10; 15, s.100; 313, s.182).

Varaz-Trdat hökmdar seçildikdən (680-699) sonra böyük Xəzər ordusu Alp İlitverin komandanlığı altında Cavanşirin öldürülməsinin intiqamını almaq üçün Albaniyaya hücum etdi. I Varaz-Trdat Albaniyanı xilas etmək üçün Xaqanın yanına din xadimi olan Yelizarı elçi göndərdi. Bununla da knyaz xaqanı inandırıb «sülh və pozulmaz dostluq» əldə etdi (136, k.2I, f.10; 15, s.100-101; 313, s.186).

Həm alban, gürcü, həm də ərəb və fars mənbələri bildirir ki, VII əsrin axırlarında Albaniyanın siyasi həyatı Xilafətin mərkəzində baş vermiş dəyişikliklərdən asılı olaraq hər an dəyişə bilərdi. Bu zaman Xilafətdə xəlifə taxt-tacı uğrunda çəkişmə və vuruşmalar gedirdi. Xəlifə Əli ibn Əbu Talib (661-ci il) öldürüldükdən sonra, hakimiyyət Əməvilər sülaləsinin (661-750) əlinə keçdi. Xəlifə Müaviyə ibn Əbu Süfyan (661-680) və oğlu I Yəzid (680-683) dövründə ərəb işğalları daha da şiddətləndi, əmin-amanlıq pozuldu. Çox keçmədən hakimiyyət başına Mərvanilər sülaləsinin banisi I Mərvan keçdi (684-685). Sonra onun oğlu Əbdü-l-Məlik (685-705) xəlifə oldu (15, s.103). Xəlifə Əbdü-l-Məlik ilə imperator II Yustinian arasında 685-ci ildə barışıq imzalandı və bundan sonra Arrandan yığılan vergilər Xilafət ilə Bizans arasında bölüşdürülürdü (15, s.103).

VII əsrin sonlarında Albaniya «üç xalqa: xəzərlərə, taciklərə (Xilafətə) və yunanlara (Bizansa) bac verirdi» (136, k.2I, f.12; 15, s.103; 126, s.; 313, s.253).

Tədqiqatlar göstərir ki, Cavanşirin ölümündən sonra Albaniyada dövlətçilik və siyasi hakimiyyət zəifləmiş,

ərəblərin, xəzərlərin və bizanslıların hücumuna məruz qalmış (688-690) Xilafətin, Bizansın və Xəzər xaqanlığının asılılığına düşmüşdür (136, k.3; 15; 126; 174, s.32; 296, s.159).

Beləliklə, Azərbaycanın cənub hissəsi VII əsrin sonlarında Ərəb Xilafətinin tam hakimiyyəti altına keçmişdi, şimal hissəsi olan Albaniya isə Xilafətin vassalı kimi yerli hökmdarlar tərəfindən idarə olunurdu.

## 3.2. Bərdə VIII-X əsrin I yarısında (Bərdənin çiçəklənmə dövrü)

Varaz-Trdatın Albaniya üzərinə qoyulmuş vergilərin azaldılması xahişi üçün Konstantinopola gedərkən (699-cu ildə) girov kimi orada saxlanılması (704-cü ilədək) ölkəni hökmdarsız qoymuşdu. Həmin vaxt alban katolikosu Nerses Bakir erməni katolikosu İlya tərəfindən Xəlifə Əbdü-l-Məlikə verilmiş fitnəkar məlumata əsasən cəzalandırılmış, sonuncu Alban şahı Şero hakimiyyətdən kənarlaşdırılmışdı (136, k.3, f.5; 15, s.104; 174, s.32). Belə ki, Xəlifə Əbdü-l-Məlik göstərişi ilə Məhəmməd ibn Mərvan həmin vaxt Bərdəyə gəlmiş, Albaniyanın mehranilər sülaləsindən olan axırıncı hökmdarı Şeronu da özü ilə Xilafətin paytaxtı Şam şəhərinə apararaq orada edam etirmişdi (705-ci ildə). Bundan sonra ərəblər öz canişinini Bərdəyə təyin edib ölkənin idarəçiliyini ona tapşmışdı (136, k.3, f.5; 15, s.104; 174, s.33). Ərəblər Albaniyanın məxsus olduğu yarımasılılığı da ləğv edib idarəçiliyi tamamilə öz əllərinə aldılar. 705-ci ildən etibarən Albaniya siyasi müstəqilliyini itirdi, ölkəni Xilafət canişinləri idarə etməyə başladılar (136, k.3, f.5-8; 15, s.104-105; 174, s.33). Alban dövlətinin mövcudluğuna

son qoyuldu. Ərəb mənbələri və tədqiqat əsərləri göstərir ki, həmin dövrdən sonra Albaniya dövlətinin ərazisi «Arran» («ər-Ran») adlandırılmış, ərəb mənbələrində «Arran», «Azərbaycan» və s. ad altında göstərilmişdir (15, s.92; 173; 174, s.33).

Bununla da, Bərdə şəhərinin tarixində yeni dövr başlandı. Xəlifənin canişini Bərdə şəhərində yerləşdi. Bərdə şəhəri VIII əsrdən etibarən Ərəb Xilafətinin şimaldakı mərkəzi oldu.

VIII əsrin başlanğıcında Bizansın Cənubi Qafqazda mövqeyi zəifləsə də xəzərlərin üstünlüyü hələ özünü göstərirdi. Bu zaman Xilafətin paytaxtında baş vermiş hakimiyyət çəkişmələri Əməvilərin xeyrinə həll olundu (15, s.103; 174, s.33).

Qaynaqlarda məlumat verilir ki, xəlifə Əbdü-l-Məlik ibn Mərvan (685-705) qardaşı Məhəmməd ibn Mərvanı əl-Cəzirə, Azərbaycan və Arrana vali təyin etdi, güclü bir ordunu onun tabeliyinə verdi. Bundan sonra o, Übeydullah ibn Əbu Şeyx əl-Aviyyi Şam əhalisindən olan 10 minlik qoşunla Arrana göndərərək xəzərlər ilə vuruşmasını əmr etdi (34, s.12; 174; 209; 261).

Übeydullah Əbu Şeyx ordusu ilə Arran ərazisinə gəldi. Bundan xəbər tutmuş yerli əhali ərəblərə qarşı yüz minlik (bu rəqəm şübhə doğurur- Q.H) qüvvə çıxardı. Qaynaq məlumatlarına görə, onlar ərəblərin hamısını qırdılar (34, s.12-13).

Əl-Kufi yazır ki, «əhvalatdan xəbər tutan Məhəmməd ibn Mərvan (705-ci ildə) müsəlmanların (ərəblərin) başına açılmış müsibətdən kədərləndi,… Sonra isə əsgərlərinə müraciət edib, qırx min nəfərlik qoşunun başında özü yürüşə çıxdı…, onlarla amansız döyüşə girdi. Allah-Təala bütpərəstləri qaçmağa məcbur etdi, müsəlmanları isə öz himayəsi ilə möhkəmləndirdi. Müsəlmanlar onların çoxunu

qırıb əsir aldılar, ölkələrinə və əmlaklarına sahib oldular» (34, s.13;154, s.231).

Məhəmməd ibn Mərvan qardaşı oğlu Məsləmə ibn Əbdü-l-Məlik ibn Mərvanı çağırıb ordunu ona təhvil verdi və əmr etdi ki, o, Dərbəndə hücum edib oradakı xəzərlərlə vuruşsun. Dərbənddə isə bu vaxt 80 mindən çox xəzər əsgəri var idi (34, s.13). Məsləmənin Dərbəndə yürüşü şəhərin ələ keçirilməsi ilə nəticələndi (34, s.13-14).

Məsləmə Çoladan qayıtdı və Arranın ortasında olan əmisi Məhəmməd ibn Mərvanın yanına gəldi. Bundan sonra Məsləmənin orduları Bab əl-Əbvaba (Dərbəndə) hücum edib onu tutdu, əhalini talayaraq geriyə qayıtdı (15, s.81; 34, s.14-15; 174, s.78). Ərəblər Arranın mərkəzinə (Bərdəyə) qayıdarkən xəzərlər yenidən Dərbəndə daxil olub orada yerləşdilər (34, s.15).

Məhəmməd ibn Mərvan bundan sonra il ərzində su ilə əhatə olunmuş adada yerləşən Sevan qalasını mühasirəyə aldı, tutdu və orada kimə rast gəldisə hamısını qılıncdan keçirdi … (136, k.3. f.14; 199, s.15; 209; 34, s.14). Əl-Kufi yazır ki, «bu yolla o, başqa 400 nəfəri də Baş kilsədə yandırdı, qalanını isə qılıncdan keçirdi» (34, s.14)

Ərəb müəllifinin qeydinə görə, xəlifə Ömər ibn Əbdü-l-Əziz (717-720) ardıcıl olaraq Azərbaycan və Arrana canişinlər göndərirdi. Əvvəl Əbdü-l-Əziz ibn Hatim adlı bir şəxsi, sonra Adiyyə ibn əl-Kindini, onun yerinə isə əl-Haris ibn Əmr ət-Taini canişin təyin etdi (34, s.15; 209, s.17). Əl-Kufi qeyd edir ki, «əl-Haris ibn Əmr Azərbaycan ölkəsinə gəlib Bərdədə yerləşdi» (34, s.15).

Ərəb müəllifi əl-Kufi ərəb sərkərdəsi əl-Cərrahın başçılığı altında 25 minlik ərəb ordusunun xəzərlərə qarşı döyüşə başladığını bildirir. Bu döyüşlər haqqında digər müəlliflərin əsərlərində də geniş məlumat verilir (34, s.14; 100, s. 9-147; 209, s. 5-20).

Əl-Əsir xəlifə canişini əl-Cərrahın Arrana vali təyin edilməsi, Bələncərin işğalı və digər hadisələr haqqında məlumat verir (100). Əl-Əsirin yazdıqlarını Yaqut əl-Həməvi də təkrar edir: «Bundan sonra, yuxarıda deyildiyi kimi, müsəlmanların qaçması ilə əlaqədar xəzərlərdə Arranı tutmaq üçün həvəs yarandı və onlar toplaşıb ordunu güclü silahlandırdılar. Onda Yəzid ibn Əbdü-l-Məlik əl-Cərrah ibn Abdullah əl-Həkəmini … hakim təyin etdi, onu böyük ordu ilə təchiz etdi və əmr etdi ki, xəzərlər və digər düşmənlər üzərinə hücum etsin, onların ölkəsinə zorla girsin. Əl-Cərrah hərəkətə gəldi. Xəzərlər bunu eşidib geri qayıtdılar və Bab-əl Əbvabda dayandılar. Əl-Cərrah Bərdəyə gələrək öz adamları ilə orada qaldı, dincəldi, sonra isə xəzərlərə qarşı hərəkət etdi. Kürü keçib irəliləyən zaman öyrəndi ki, kim isə keçmişdə onunla birlikdə olmuş dağ sakinlərindən biri xəzər çarına əl-Cərrahın onlara qarşı hərəkət etdiyini xəbər verib. Onda əl-Cərrah əmr etdi ki, qoşunun bir neçə gün burada qalacağı barədə xəbər versinlər. Guya ki, o, burada ehtiyat qüvvə toplayacaq. Həmin adam Xəzər çarına xəbər göndərdi ki, əl-Cərrah hərəkət etmir və hücum etməməyi qərara alıb, burada qalıb qoşunun döyüşmək həvəsini artıracaq. Ancaq gecə düşən kimi əl-Cərrah hərəkət etməyi əmr etdi və həqiqətən o, elə tez gəldi ki, xəzərlərə rast gəlmədən Bab-əl-Əbvab şəhərinə çatdı. O, şəhərə daxil oldu və öz atlı dəstələrini qonşu qəbilələrin üzərinə hücuma və qarətə göndərdi, çoxlu qənimət əldə etdi və ertəsi gün geri qayıtdı» (382, s.73).

Ərəblərin siyasi dəyişikliklərlə bağlı olan hadisələrə münasibətini bildirən əl-Kufi yazır: «Xəlifə Ömər ibn Əbdü-l-Əziz (717-720) Ədiyyə ibn əl-Kindini azad edib əl-Həris ibn Əmir ət-Taini onun yerinə vali təyin etdi. Əl-Həris ibn Əmir ət-Tai Azərbaycan ölkəsinə gəlib Bərdədə yerləşdi» (34, s.15). Həmin dövrün siyasi-inzibati vəziyyətini

göstərən M.Kalankatlı da bildirir ki, «həmin ildə Həris ibn Əmr ət-Tai adamları, mal-qaranı və torpaqları siyahıya alıb ölkə üzərinə ağır vergilər qoydu» (136, k.2I, f.12).

Bütün bunlar tədqiq etdiyimiz dövrün siyasi vəziyyətini əks etdirən amillərdir ki, əl-Kufinin yazılarında daha geniş məzmunda yer almışdır: «Xəlifə II Yəzid ibn Əbdü-l-Məlik (720-724) əl-Cərrah ibn Abdullah əl-Həkəmini çağırıb ona təliqə verdi və böyük ordu ilə təmin edib əmr etdi ki, Azərbaycana yola düşsün. Əl-Cərrah ibn Abdullah çoxlu qoşunla yola çıxdı və tezliklə Azərbaycan ölkəsinə çatdı. Bu haqda xəbər Xəzərlərə yetəndə onlar Dərbəndə qayıtdılar» (34, s.15; 15, s.106).

Mənbələrin verdiyi məlumatlarda və tədqiqat əsərlərindəki şərhlərdə bildirilir ki, ərəb orduları Bərdədə yerləşərək öz qüvvələrini səfərbər etmiş, oradan şimala doğru hərəkətə başlamışlar. Həmin dövrdə Bərdədə böyük hərbi qüvvə yerləşirdi (136, k.2, f.26; 15, s.115; 100; 174, s.106; 296, s.143). Qoşunla birlikdə hərəkət edən əl-Cərrah xəzərlərin arxasınca Bərdəyə qədər gəldi, burada bir neçə gün qaldı ki, əsgərləri və atları istirahət etsin. Sonra o, Bərdədən çıxıb Kür çayını keçdi və Dərbəndə tərəf yola düşdü. Göründüyü kimi, bu, əl-Cərrahın ikinci hücumu idi. O, bu istiqamətdə yoluna davam edərək Dərbəndin iki fərsəxliyindən axan Rubas çayı sahilinə çatdı (34, s.16;15, s.105).

M.Kalankatlı bildirir: «726-cı ildə böyük aclıq oldu. Növbəti üç il ötəndən sonra (730-cu ildə) Cərrah ikinci dəfə Abxaz ölkəsindən keçib Xəzərlərə hücum etdi» (136, k.2, f.20). Həmin hücumu əl-Kufi ətraflı şərh edir: «əl-Cərrah Xəzərlərlə bir müddət döyüşlər apardı, onları əzdi, qırdı, çoxlu var-dövlət, qənimət əldə edib geri qayıtdı. Şəki vilayətinə qayıdıb qüvvə gözlədi. Hişam ibn Əbdü-l-Məlik Şamdan ona kömək gələcəyini vəd edərək məktubla əmr etdi ki, Xəzərlərlə yenidən müharibəyə başlasın. Əl-Cərrah

Şəki vilayətindən Bərdə qalasına yola düşdü. Az sonra buradan da çıxıb Beyləqan şəhərinə, oradan da Varsan şəhərinə gəldi. Bundan sonra o, Bəcrəvanı keçib Ərdəbilə çatdı və burada yerləşdi. Əl-Cərrah orada düşərgə saldıqdan sonra Muğan, Gilan və Taləqan tərəflərə hərbi dəstələr göndərdi. Dəstələr gedib döyüşür və yenidən Ərdəbilə qayıdırdılar» (34, s.20).

Xəzər xaqanı ətrafda yerləşən tayfaları toplayaraq ərəblərə qarşı hücuma hazırlaşdı (34, s.20; 174). Əl-Kufi yazır: «Barsbəy ibn Xaqan xəzərlərdən və başqa tayfalardan olan 300 minlik qoşunun başında yola düşdü. Çox keçmədən o, ordusu ilə Kürlə Arazın arasında olan yerlərə gəldi. Buradan Varsana hücum etdi, onu aldı və bütün əhalisini qırdı. Sonra o, Varsandan çıxaraq əl-Cərrahın Azərbaycan ərazisinə səpələnmiş ordu hissələrinə hücuma keçdi» (34, s.21).

Xəzərlərlə əl-Cərrahın qoşunu arasında müharibə xeyli davam etdi. Həm xəzərlərdən, həm də ərəblərdən çoxlu qırılan oldu. Böyük itki vermiş Xəzərlər əl-Cərrahın ordusunu, demək olar ki, tamamilə qırıb qurtardılar. Həmin döyüşdə əl-Cərrah da həlak oldu (34, s.21-23; 174, s.43).

Bunları əl-Əsir belə təsdiqləyir: «Əl-Cərrahın ordusu Ərdəbil yaxınlığında Xəzərlər tərəfindən məğlubiyyətə uğradıldı. Əl-Cərrah və bir çox yaxın adamları döyüşdə öldürüldülər» (100, s.94).

Həmin döyüşü əl-Kufi daha ətraflı təsvir edir: «Xəzərlər əl-Cərrahın əsgərlərinin, demək olar ki, hamısını qılıncdan keçirdilər. Yalnız Savalan dağına tərəf qaçmış 700 və bəlkə bundan da az müsəlman xilas ola bildi» (34, s.23).

Qaynaqda bildirilir ki, əl-Cərrahın ölüm xəbərini almış və vəziyyəti olduğu kimi başa düşmüş xəlifə Hişam ibn Əbdü-l-Məlik (724-743) Səid ibn Əbdü-l-Məlik əl-Həraşini

Xəzərlərlə döyüş üçün hazırlayıb Azərbaycana göndərdi. Səid əl-Həraşi əl-Cəzirə ərazisindən keçərək, özünə cihad üçün tərəfdarlar yığa-yığa yol boyu qalaları fəth edərək gəlib Bərdə şəhərinə çatdı (34, s.26; 15, s.106).

Ərəb müəllifinin qeyd etdiyinə görə, «Bərdənin mühasirəsi şəhərdə yaşayan müsəlmanları çox sevindirdi. Bu vaxt Barsbəy ibn Xaqan isə burada əhalini qırmaqla və əsir almaqla məşğul idi. Xalq hər tərəfdən əl-Həraşinin yanına axışıb cihadda iştirak etmək istəyirdi» (34, s.26).

Ərəb mənbələrindən belə məlum olur ki, xəzərlər ölkədə özbaşınalıq, vəhşilik edir, yerli əhaliyə qarşı qırğınlar törədirdilər (34, s.26; 91).

Əl-Kufi yazır: «Əl-Həraşi Bərdədən çıxıb Beyləqana gəldi. Burada möhkəmləndi…. Əl-Həraşinin hücum edəcəyini bilən Barsbəy ibn Xaqan hər yandan əsgər toplayaraq Azərbaycandakı döyüşçülərini də onlarla birləşdirdi, böyük bir ordu yaratdı» (34, s. 32). «Bunu eşidən Səid ibn Əmir əl-Həraşi Varsana, Beyləqana, Bərdəyə, Qəbələyə və Azərbaycanın başqa yerlərinə çaparlar göndərdi. Adamlar onun yanına tək-tək, dəstə-dəstə və ya başqa yolla gəlirdilər; o, nəhəng bir qoşun yığdı» (34, s.32).

Müəllif bildirir ki, Barsbəyin 190 minlik ordusu ilə əl-Həraşinin 53 minlik ordusu arasında Muğan çayının sahilində qızğın döyüş baş verdi. Qeyd etmək lazımdır ki, qoşundakı adamların sayında şişirtməyə yol verilmiş ola bilər. Mənbənin yazdığına görə, əl-Həraşinin Barsbəyə endirdiyi zərbə Xəzər ordusunu sarsıtdı, döyüş qızışdı, hər iki tərəfdən çoxlu adam həlak oldu. Bu döyüşdə ərəblər Xəzər ordusunu sıxışdıraraq dənizə tərəf çəkilməyə məcbur etdilər, onlar Kür-Araz ovalığına qədər gəlib çıxdılar (34, s.34-35; 15, s. 110).

Şamda ikən vali təyin edilməsi haqqında əmr almış Məsləmə ibn Əbdü-l-Məlik yola düşüb Bərdəyə gəldi və

burada yerləşdi. Buradan Məsləmə əl-Həraşiyə yazdı ki, Şirvandan çıxıb onun yanına gəlsin. Əl-Həraşi Bərdəyə, Məsləmənin hüzuruna yetdikdə o, əl-Həraşini xəzərlərlə müharibəyə girdiyinə görə günahlandırdı və Bərdə zindanına saldırdı. Tezliklə bu xəbər xəlifə Hişam ibn Əbdü-l-Məlikə (724-743) çatdı. O, öz qardaşı Məsləməyə çox qəzəbləndi və ona məzəmmətedici məktub yazdı (34, s.37).

Əl-Kufi bildirir ki, «Xəlifənin məktubunu oxuyub əl-Həraşiyə verdiyi zülmə görə Məsləmə peşman oldu. Onun elçisi Bərdəyə gəlib əl-Həraşini zindandan buraxdırdı. Onu Xəlifə Hişamın yanına göndərdi» (34, s.38).

Yuxarıda bəhs etdiyimiz məsələ ilə əlaqədar onu da bildirmək lazımdır ki, ərəblərin arasında baş vermiş həmin hadisələr ərəb mənbələrində birtərəfli izah edilmişdir. Tədqiqatlar isə həmin hadisələrin məğzində vəzifə, şan-şöhrət və var-dövlət hərisliyi ilə dolu münaqişələr durduğunu düşünməyə əsas verir (34, s.54; 174). Fikrimizcə, bunun əlavə sübuta ehtiyacı yoxdur.

Ərəb qoşunlarının Albaniyanın şimalına doğru hərəkətini əl-Kufi ardıcıllıqla təsvir edir: «Məsləmə ibn Əbdü-l-Məlik Şirvan torpaqları ilə irəliləyərək Heyzan qalasına çatdı, qalanın müdafiəçilərini aman verəcəyi vədlə aldadaraq hamısını öldürtdürdü, belə ki, 1000 nəfərin 999-nu öldürdü. Oradan Dərbəndə doğru hərəkət etdi». Müəllifin şərhinə görə, «gərgin döyüşlərdən sonra o, Dərbəndə yaxınlaşdı və müxtəlif üsullar-dan istifadə edərək Dərbənd şəhərini tutub ona tam sahib oldu. Bundan sonra Məsləmə əsgərlərindən Kərir ibn Süveyd əs-Sələbi adlı birisini yanına çağırıb onu əl-Bab şəhərinə vali təyin etdi» (34, s.38).

Mərvan ibn Məhəmməd (744-750) qışı Bab əl-Əbvab şəhərində keçirdi. Yazda xəlifə Mərvan ibn Məhəmmədə xəbər göndərdi ki, o, valilikdən kənar edilir və Şama qayıdıb şəxsən onun yanına gəlməlidir. Xəlifə, Səid ibn Əmir

əl-Həraşini çağırıb onu vilayətin valisi vəzifəsinə təyin etdi (34, s.39). «Səid ibn Əmir əl-Həraşi … vali sifətilə Şamdan yola düşdü. O, əl-Bab şəhərinə gələrək orada yerləşdi» (34, s.49).

Səid ibn Əmirlə xəzərlər arasında qızğın, arasıkəsilməyən vuruşmalar başlandı. Əl-Kufi bildirir ki, Səid ibn Əmir «gecə-gündüz xəzərlərə qarşı səfərlərə çıxır, atının yəhəri heç vaxt qurumurdu» (34, s.49).

Xəlifə Hişam Səid ibn Əmiri xəstələndiyinə görə, azad edib Mərvan ibn Məhəmmədi Azərbaycana vali təyin etdi və göstəriş verdi ki, o, xəzərlərlə müharibəyə başlasın (34, s.49). Əl-Kufi bildirir ki, «Mərvan Şamdan 120 minlik ordu ilə yola düşdü və tezliklə Arrana gəldi. O, Bərdədən 40 fərsəx və Tiflisdən 20 fərsəx aralı olan Qazaq (Qazax) adlı yaşayış məntəqəsində dayandı. Ərazidə olan bütün qalaları fəth etdi, … əl-Baba da xəbər göndərdi ki, əsgərlər xəzər torpaqları ilə Səməndərə doğru irəliləsinlər» (34, s.49; 174, s.44).

Mərvan ibn Məhəmmədin başçılığı ilə ərəb qoşunları şimalda geniş miqyaslı döyüşlər apardı, xəzərləri sıxışdıraraq Xəzər ölkəsindən keçib, Dunaya qədər gedib çıxdılar (34, s.49; 100, s.145).

Əl-Kufi xəzərlərlə ərəblər arasında gedən bu döyüşlərdə ərəblərin qələbələrindən və döyüşlərin nəticəsindən bəhs edərək yazır ki, «Mərvan Xəzər xaqanını öz taxtında padşahlığını idarə etmək üçün saxladı. Sonra onunla həmdəm olub din qardaşı kimi vidalaşdı və ondan hədiyyələr qəbul etdi. Mərvan geriyə – əl-Bab şəhərinə qayıtdı. Bu vaxt onunla qırx mindən artıq əsir alınmış kafir (müsəlman olmayan- Q.H.) var idi. Mərvan onları Samur çayının sahilboyu torpaqlarında və Kür çayının hər iki sahilində olan düzənliklərdə yerləşdirdi» (34, s.49). Başqa ərəb müəllifi isə həmin xəzərlərin Samur və Şabran çayları arasında

yerləşdirildiyini bildirirlər (174, s. 44; 209, s.18). Tədqiqatçılar qeyd edirlər ki, sonra öz başçılarını öldürüb qaçmaq istədikləri üçün Mərvan onların hamısını qırmışdır (174, s.49).

Ərəblərin şimaldakı qələbəsindən (737-ci ildə) sonra Arranın digər ucqarlarındakı vilayətlərə qarşı tədbirlər görüldü. Mərvanın qoşunu qışı Qazaxda qaldıqan sonra 738-ci ildə Kürü keçdi, Şəki və digər ərazilərdə xeyli qala və şəhəri ələ keçirərək dağıtdı, vuruşaraq ölkəni talan etdi (34, s.49; 174, s.44-45).

Davam edən döyüşlər, baş vermiş bütün hadisələr barədə əmir xəlifəyə xəbər verir, yığdığı qənimət və sərvətin beşdə birini də ona göndərirdi (34, s.50). Davam edən müharibələr, həm də ağır vergilər xalqı çox çətin vəziyyətə salmışdı (100, s.145; 174, s.45; 358, s.101).

Əl-Kufi yazır ki, «bu əhvalatlardan sonra Mərvan Azərbaycan (Cənubi) ərazisinə daxil olub, Muğan, Gilan, əl-Bəbr və Talaqan əhalisinə qarşı yürüş etdi. O, bu yerlərdə çoxlu adam qırdırdı və 10 mindən çox arvad-uşağı əsir etdi…. Bundan sonra o, daha irəli gedərək çox keçmədən Bərdəyə yetişdi. O, bütün Azərbaycanı və başqa bir çox yerləri fəth etdi. Amma heç kəs onun hakimiyyətinə qarşı çıxmadı» (34, s.54).

Valid ibn Yəzid (743-744) xəlifə olan zaman Məhəmməd ibn Mərvanı (744-750) Azərbaycan və Arrana vali təyin etdi (34, s.55). Lakin Xilafətin mərkəzində baş verən hadisələr Arrandakı tədbirləri müvəqqəti olaraq dayandırdı (34, s.55; 174, s.45).

Bu zaman hakimiyyətə gəlmiş Yəzid İbn Valid ibn Əbdül-Məlik Mərvan ibn Məhəmmədi Azərbaycan və Arrana vali təyin etdi (34, s.55). Xilafətdə hakimiyyətin Yəzidin qardaşı İbrahim ibn Validin (744-cü ildə) əlinə keçməsindən xəbər tutmuş Mərvan ibn Məhəmməd öz silahdaşlarından

olan Asim ibn Yəzid ibn Abdullah əl-Hilalini Azərbaycana və Arrana öz yerinə canişin təyin edərək, adamları ilə Şama yola düşdü (34, s.55). Mərvan ibn Məhəmməd (744-cü ildə) hakimiyyəti ələ keçirdi. Lakin o, xəlifə olan kimi Azərbaycan və Arranda iğtişaşlar başlandı (34, s.55). Yerlərdə Xilafət əleyhinə, onun əmir və canişinlərinin, amillərinin soyğunçu, qarətçi, zülmkar hərəkətlərinə qarşı üsyanlar qalxdı (34, s.55; 154, k.2I, f.16; 174, s.21). Bu iğtişaşlardan biri Beyləqan sakini Müsafir ibn Kəsirin rəhbərliyi altında başlanmış üsyan idi (34, s.55).

Ölkədəki iğtişaşları yatırmaq, üsyançılara divan tutmaq üçün hərəkətə gəlmiş ərəblər üsyan ocaqlarından olan Beyləqan şəhərinə gəldilər. Qoşunun qalan hissəsi əmir Asim ibn Yəzid əl-Hilalinin başçılığı altında Bərdə şəhərinə çəkildi (34, s.55; 27, s.19; 174, s.81).

Əl-Kufi həmin hadisəni ətraflı təsvir edərək bildirir ki, «qiyamçılar Asimin buradakı canişinini tutub onunla birlikdə zindanın qapılarına yaxınlaşdılar, qapıları açdılar və (üsyan başçıları) Qüteybə ibn Sədəqəni və Aban ibn Məmunu azad etdilər. Bundan sonra qiyamçılar Beyləqanı tam ələ keçirdilər. Bütün ətraf və nahiyələrdən Beyləqana adamlar axışdı. Tezliklə burada nəhəng bir ordu toplandı. Müsafir ibn Kəsir əl-Qəssabın rəhbərliyi altında onlar Beyləqandan çıxıb (Bərdəni tutmaq məqsədilə – Q.H.)… gəldilər. Asim ibn Yəzid əl-Hilali bundan xəbər tutdu, tərəfdarlarını topladı və döyüşçülərini Bərdə şəhərinin qapıları yanında, Tərtər çayı boyunca yerləşdirdi…» (34, s.56).

Əl-Kufi nəql edir ki, «bu vaxt Bərdə nahiyəsindən olan bir adam onlara (qiyamçılara) yaxınlaşdı. Qiyamçılar onu tutub öz başçıları Müsafir ibn Kəsirin yanına gətirdilər. Müsafir ondan soruşdu: haradan gəlirsən? O, cavab verdi: Bərdədən. Müsafir soruşdu: Bilirsənmi indi Asim ibn Yəzid harada olar? O dedi: bilirəm. O, indi Tərtər

çayının sahilində yoldan bir qədər kənarda, filan yerdədir. Müsafir ona dedi: Onun ordusuna aparan yolu göstərə bilərsənmi? O, cavab verdi: Əlbəttə …» (34, s.56). Əl-Kufi sonra yazır: «Müsafir ibn Kəsir öz əsgərlərini yığıb bu adamla yola düşdü. Onlar gecənin zülmətində yola çıxmış, sübh çağı Asim ibn Yəzidin mövqeyinə çatmışdılar. Onları görən qiyamçılar «Allahu əkbər» sədaları ilə hücuma keçərək dəhşətli qırğın törətdilər. Bərdənin əmiri Asim ibn Yəzidi və onun xeyli əsgərini öldürdülər. Asimin Zəfər adlı oğlu ordunun qalıqları ilə döyüş meydanından qaçaraq çox acınacaqlı vəziyyətdə özünü Bərdəyə çatdırdı» (34, s.56).

Müsafir ibn Kəsir və onun silahdaşları Asim ibn Yəzidin adamlarının yerdə qalan hissəsini mühasirəyə alıb onları tutdular və Beyləqan şəhərinə apardılar (34, s.56).

Əl-Kufi bildirir ki, «bu hadisə Şamda olan xəlifə Mərvan ibn Məhəmmədə çatdı. Xəbər onu çox sarsıtdı. Lakin bir qədər sonra o, özünün Şamdakı sərkərdələrindən Əbdü-l-Məlik ibn Müslüm əl-Üqeylini yanına çağırıb tabeliyinə nəhəng bir ordu verdi, özünü də Azərbaycan və Arrana vali təyin etdi. Ona əmr etdi ki, o, oralarda müharibə aparıb əhalidən xərac vergisini toplasın. Xəlifə qiyamçılarla döyüşə girməyi də ona əmr etdi» (34, s.57).

Əbdü-l-Məlik ibn Müslüm nəhəng bir ordunun başında Şamdan yola düşüb, tezliklə Bərdəyə gələrək orada yerləşdi. Sonra o, bundan əvvəl qiyamçıların darmadağın etdiyi qoşunla Bərdədən çıxaraq «Cisr əl-Hicara» («Daş körpü») adlı yerdə düşərgə saldı və köməkçi qüvvələrin gəlməsini gözlədi. Sonra o, üsyançılara qarşı hərəkət etdi (34, s.57).

Mənbələr bildirir ki, tərəflər Bərdə şəhəri yaxınlığında üz-üzə gəlib döyüşə başladılar. Əbdü-l-Məlik ibn Müslüm bu döyüşdə öldürüldü, ordunun başına onun

qardaşı İshaq ibn Müslüm əl-Üqeyli keçdi (34, s.57). İshaq ibn Müslümlə üsyançıların döyüşü xeyli davam etdi. Mənbədə yazılır: «İshaq ibn Müslümlə, Müsafir ibn Kəsir əl-Qəssab və onun qiyamçıları arasında olan döyüşlər Xorasanda Əbu Müslümün rəhbərliyi altında qara bayraqlıların (əl-musavvada) meydana çıxmalarına qədər davam etdi» (34, s.57).

Abbasilərin ilk xəlifəsi Əbü-l-Abbas əs-Səffah (750-754) Məhəmməd ibn Sul adlı şəxsi vali təyin etdi. O, ordu ilə Azərbaycana gəldi (34, s. 57). Bu zaman, Azərbaycanda Müsafir ibn Kəsir əl Qəssab ağalıq edirdi. O, Məhəmməd Əbu Sulun 100 minlik ordu ilə yola düşdüyünü eşidib «əl-Kilab» qalasında («Sərt qala») möhkəmləndi. Sulun qoşunu onları mühasirəyə aldı, uzun müddət döyüşlər getdi, nəhayət, Müsafir və döyüşçüləri məhv edildi (34, s.57). Ərəb əmiri Məhəmməd ibn Sul üsyançılara ağır divan tutdu. O, Müsafir ibn Kəsirin və onun silahdaşlarının kəsilmiş başlarını əs-Səffahın hüzuruna göndərdi. Özü isə ordusu ilə Beyləqan şəhərinə gəlib bir neçə gün orada qaldı. Sonra o, Bərdə şəhərinə yola düşüb, uzun müddət burada qalaraq ölkəni idarə etdi (34, s.58).

752-ci ildə Bizans Xilafətdə başlanmış qarışıqlıqdan istifadə edərək ərəblərə tabe olan ərazilərə doğru irəlilədi. Xilafətə qarşı siyasi, diplomatik fəaliyyətini genişləndirməyə başladı (174, s.48). Xəzərlər isə 737-ci il məğlubiyyətində gözləri qorxduğuna görə, hələlik seyrçi mövqeyi tutmuşdular (136, k.2I, f.18; 15, s.111; 174, s.48).

Xəlifə Əbu Cəfər əl-Mənsur (754-775) Yəzid ibn Üseyd ibn Zəfir əs-Sulamini Arrana hakim təyin etdi (752/53) (34, s.56; 174, s.48). Əl-Kufi məlumat verir ki, «Yəzid ibn Üseyd İraqdan Arrana yola düşüb, Bərdə şəhərinə gəldi, burada yerləşib ölkənin hər yerinə öz vergiyığanlarını (amil) göndərdi» (34, s.58). Hələ də şimaldan

xəzərlərin təhlükəsi sovuşmamışdı. Buna görə də xəlifə əl-Mənsurun məsləhəti ilə Xəzərlərin təhlükəsinin qarşısını almaq məqsədilə Yəzid Xəzər xaqanının qızı Xatun ilə evləndi (34, s.58; 174, s.49).

Əl-Kufi bunun səbəbini və mahiyyətini belə şərh edir: «əl-Mənsur ona yazdı ki, … Xəzərlərlə qohumluq olmasa, Arran ölkəsində heç vaxt əmin-amanlıq bərqərar olmayacaq. Mən belə hesab edirəm ki, sən onlarla qohum olmalısan, onda ölkədə əmin-amanlıq olar. Əks təqdirdə mən sənin və sənin vergi yığanların üçün qorxuram, çünki Xəzərlər sizi rahat qoymayacaqlar» (34, s.58).

Əl-Kufi bildirir ki, «Xəlifə əl-Mənsurun (754-775) məktubunu aldıqdan sonra Yəzid öz adamlarını Xəzər hökmdarı Taatur xaqanın yanına onun qızı üçün elçi göndərdi. Qızın adı Xatun idi. Xəzərlərin padşahı öz razılığını verdi. Yəzid ibn Üseyd Xatunla evlənərək atasına qızına görə 100 min dirhəm verdi. Xatun təntənə ilə xəzərlərin ölkəsindən İslam ölkəsinə yola düşdü. Onu qohumlarından on min xəzər müşayiət edirdi; ona dörd min əla madyan, min qatır, min qul, on min xəzəri cinsindən olan alçaq dəvə, min baş türkü cinsindən olan iki hörküclü dəvə, iyirmi min baş qoyun, qapıları və üstü qızıl və gümüş lövhələrdən düzəldilmiş, içərisinə samur xəzi döşənmiş və ipək çəkilmiş on furqon, qızıl və gümüş əşyalar, qab-qacaq və başqa şeylər yüklənmiş iyirmi araba qoşulmuşdu. İslam ölkəsinə gəldikdən sonra Xəzər padşahının qızı bütün var-dövləti ilə Bərdə darvazasına yaxın olan əl-Kəbbab adlı yerdə düşərgə saldı. Bu yerdə dayandıqdan sonra, qız öz adamını Yəzidin yanına göndərib, ondan xahiş etdi: «Mənim yanıma müsəlman qadınlardan bir neçəsini göndər ki, onlar mənə İslam dininin mahiyyətini izah edib, Quranı oxusunlar, yalnız bunların hamısını mənimsəyəndən sonra mən sənin olacağam!» Yəzid onun yanına Bərdədən bir

neçə qadın göndərdi ki, islam dinini və Quranı xaqan qızına öyrədib izah etsinlər» (34, s.59).

İslamı böyük rəğbətlə qəbul etmiş xəzər qızının hörmətlə qarşılanması barədə Əl-Kufi təfsilatı ilə yazır: «Yəzid ibn Üseydin elə bir sərkərdəsi qalmadı ki, qıza şan-şöhrətinə aid hədiyyə gətirməsin. Xatun islam dininin mahiyyətini və Quranı öyrəndikdən sonra Yəzidə qılınc və xəncər göndərdi. Yəzid başa düşdü ki, qız onun yanına gəlməsinə icazə verir. Onun icazəsi ilə Yəzid otağa daxil oldu. Bu vaxt qız geyinib-gecinmiş, qiymətli daş-qaşla bəzənmişdi» (34, s. 59). Əl-Kufi bildirir ki, «Yəzid ibn Üseyd iki il dörd ay onun yanında qaldı. Qızın Yəziddən iki oğlu oldu, lakin qız da, oğlanları da öldü. Bu hadisə Yəzidi hədsiz dərəcədə kədərləndirdi» (34, s.59).

Xəzərlər xaqan qızı Xatunun ölüm xəbərini eşidib Dərbənddən (Bab əl-Əbvab) böyük bir ordu ilə ərəblərin üzərinə yola düşdülər. Yəzid ibn Üseyd yeddi minlik ordusu ilə onların qarşısına çıxdı, lakin qüvvəsi az olduğundan onlara gücü çatmadı. Buna görə də, məktub yazaraq əhvalatı xəlifə əl-Mənsura bildirdi. Xəlifə Yəzid ibn Üseydin məktubunu oxuyub kədərləndi, işin aqibəti onu qorxutdu. O, Şama məktub göndərib Arranda başına gələnlərlə Xəlifəni tanış etdi. Çox keçmədən Yəzidin yanına Şamdan on min nəfər, cəmi İraqdan otuz beş min əsgər köməyə gəldi (15; 34, s.60; 174).

Yəzid tabeliyində Şamdan və əl-Cəzirədən olan iyirmi min və İraqdan olan otuz beş min əsgərlə, yəni təxminən altmış minlik ordu ilə hücuma keçdi (rəqəmlərdəki uyğunsuzluq mənbəyin özünə aiddir – Q.H.). Qoşun Kür çayını keçərək, Şirvan ərazisinə daxil oldu (34, s.60). Əl-Kufi bu hadisəni belə təsvir edir: «Elə bu vaxt Xəzərlərin Nilin sularına və gecənin zülmətinə bənzər iki yüz mindən artıq süvari ordusu göründü. Düşmənlər Şirvan torpaqlarında

üz-üzə gəldilər. Müsəlmanlar bundan dəhşətli gün görməmişdilər, çünki onlardan saysız-hesabsız miqdarda adam qırıldı. Döyüş meydanından qaçan Yəzid ibn Üseyd Bərdə şəhərində gizləndi. Xəzərlərin hökmdarı xaqan isə döyüşçüləri ilə qələmə gəlməyən qədər qənimət apararaq öz mövqelərinə qayıtdı» (34, s.60).

Əl-Kufi yazır ki, xəlifə əl-Mənsur Şam, əl-Cəzirə və İraqın bütün yerlərindən adam yığıb on min döyüşçü seçdirərək, Yəzid ibn Üseydə verdi və Arrana göndərdi (34, s.60). Yəzid Bərdə şəhərinə gəldi və oradan Kür çayının sahilinə çıxdı. O, ordusu ilə çaydan keçərək şimala doğru hərəkət etdi və Dərbənd şəhərində yetişdi. Əsgərlərini burada yerləşdirib şəhərin istehkamlarını və darvazalarını nizama saldı (34, s.60). Bundan sonra xəlifə əl-Mənsur (754-775) Yəzid ibn Üseydə xəbər verdi ki, o, Arranın idarəçiliyindən kənar olunur və onun yerinə Bikar ibn Müslüm əl-Üqeyli (769-cu ildə) təyin edilir. Bir il yarımdan sonra onun yerinə əl-Həsən ibn Qəhtəbə ət-Tayi (770-775) təyin olundu. O, ölkəyə Xorasan, Şam və İraqdan olan əlli minlik qoşunla gəldi. (Bu, o Həsəndir ki, əl-Bəlazuri onun adına Beyləqanda arx, Bərdədə isə «Həsəniyyə bağı» adlı mülk olduğunu bildirir). Müəllif xəbər verir ki, həmin qoşunla Gürcüstanda baş vermiş iğtişaşı yatırdılar (34, s.61).

Mənbələr və tədqiqat əsərləri göstərir ki, əl-Həsən ibn Qəhtəbə Arranda qalıb Bərdədə yerləşdi. O, Qəhtəbə adlı oğlunu Bab əl-Əbvabın, ikinci oğlu İbrahimi Curzanın hakimi təyin etdi və Tiflisdən o yana müsəlman torpaqlarının idarəçiliyini ona tapşırdı. Üçüncü oğlu Məhəmmədə Xilat və Qaliqaldan o tərəfə olan torpaqların idarəsini verərək böyük bir əraziyə hakim təyin etdi (15; 34, s.61; 100; 174).

Abbasilərin üçüncü xəlifəsi əl-Mehdinin dövründə (775-785) Azərbaycanın və bütün qərbdəki torpaqların valisi əl-Mehdinin oğlu Harun ər-Rəşid olmuşdur (34, s.78). Əl-Kufi yazır ki, sonra Xəlifə Harun ər-Rəşid (786-809) əl-Fəzl ibn Yəhya əl-Bərmakini Azərbaycan və Arrana vali təyin etdi. Əl-Fəzl böyük ordu ilə yola çıxıb Bərdə şəhərinə gəldi. Buradan çıxıb Bab əl-Əbvab şəhərinə və Həzmin adlı qalaya çatdı. Buranın müdafiəçiləri ilə döyüşdü, lakin heç bir şey əldə edə bilməyib yenidən Bərdə şəhərinə qayıtdı və bir qədər burada qaldı. Burada olarkən Ömər ibn Əyyub əl-Kinani adlı adamı yanına çağırıb onu öz yerinə canişin təyin etdi, özü isə İraqa qayıtdı (34, s. 62).

Abbasilərin xilafət əyalətlərində yaratdıqları həm siyasi, həm də iqtisadi məhrumiyyətlər narazılıqların daha da güclənməsinə səbəb olurdu.

Tədqiqatlar göstərir ki, Abbasilərin hakimiyyəti dövründə türklərin ərəblərlə bərabər hakimiyyətdə təmsil olunmaları siyasi hadisələrin sonrakı gedişində özünü daha aydın göstərirdi. Abbasi xəlifəsi Əbu Cəfər əl-Mənsur Azərbaycan valisi Yəzidə məktub göndərib, mütləq türklərlə dost olmasını tövsiyə edərkən, Bizansdan və şimal tayfalarının axınlarından Qafqazı qoruya bilməyəcəyini bildirirdi. Yəzid bu məsləhəti qəbul etdi və Bərdədə Xəzər xaqanı Bağatur xaqanın qızı ilə evləndi, lakin iki il dörd aydan sonra Bağatur xaqanın qızı öldürüldü. Məqsəd türklərlə ərəblərin arasını vurmaq, yaranan qarışıqlıqdan faydalanaraq yenidən Bizansın Qafqaz üzərində hökmranlığına nail olmaq idi. Bu zaman da, həmişə olduğu kimi, ermənilər bizanslıların əlində alət idi. Bu hadisə xəzərlərlə münasibətlərə ciddi təsir göstərdi. Xəzər xaqanı Ast Tarkan 764-cü ildə 1000 nəfərlik ordu ilə Qafqazı başdan-başa istila edib ərəblərin buradakı hakimiyyətinə son qoydu və Tiflis yaxınlığında Yəzidin ordularını məğlubiyyətə

uğratdı. O günlərin şahidi Gevond yazır ki, xəlifə Harun ər-Rəşid öz türk vəziri Bərməkoğlunu Xəzər xaqanının qızı ilə nişanlayaraq dostluğu yenidən bərpa etdi, 798-ci ildə Xəzər xaqanının qızı Bərməkoğluna gəlin gətirilərkən qəflətən Bərdə şəhərində öldü. Xəzərlər qızın ərəblər tərəfindən zəhərləndiyini zənn edərək böyük bir ordu ilə Qafqaz üzərinə yeridilər və Qafqazın o üzündən girib bu üzündən çıxdılar. Abbasi valisi Yəzid ibn Məzyəd əş-Şeybani məğlub oldu. Şübhəsiz Bizansın oyunu olan bu hadisə islamı bütün Şərqi Anadoludan silmək planı ilə bağlı idi. Lakin xəlifə Mötəsim, anası türk olduğundan, türklərə bağlılığını göstərərək, onlardan özünə xüsusi ordular yaratdı. Türklər üçün Samarra adlı gözəl bir şəhər saldırıb, buranı mərkəz halına gətirdi. Burada yetişən türk bəyləri «Əmir-ül-üməra» (bəylərbəyi) rütbəsinə qədər yüksəldilər. Qafqaz yenidən türklərin hakimiyyəti altına düşdü (119, s.28).

Mənbələrdə Yəzidlə Bağatur xaqanın qızı arasındakı bu izdivac və onun nəticələri müxtəlif şəkildə şərh olunur (100, s.27; 356, s.35). Bu barədə ət-Təbəri qısa məlumat verir ki, «Səid ibn Səlman hakimiyyətdə olan ibn Kuteybənin dövründə Xəzər xaqanının qızı Fədl ibn-Yakbaya ərə verildi və oraya göndərildi, ancaq o, Bərdədə öldü. Xaqanın qızını müşayiət edən adam onun atasının yanına qayıtdı və xəbər verdi ki, onun qızını satqınlar öldürdülər. Bu, xaqanı qəzəbləndirdi və o, müsəlmanlara qarşı müharibəyə hazırlaşmağa başladı» (356, s.35). Bu barədə yuxarıda bəhs edildiyi üçün burada bununla kifayətlənirik.

Artıq ərəblərə qarşı narazılıqlar get-gedə artırdı. Ərəb canişinləri və inzibati idarəçilik orqanları işçilərinin törətdiklərindən narazı qalan yerli xalqlar üsyan edirdilər. Həmin üsyanlardan biri Bərdə şəhərində başlamışdı (27, s.7; 34, s.76; 174, s.43). Əl-Yaqubi yazır ki, «Ömər ibn-

Əyyub əl-Kinani vəzifəsindən uzaqlaşdırıldı, onun yerinə isə Əşərilərin azad edilmiş qulu (maula) Əbu-s-Sabah təyin edildi. Həmin Əbussabah Arran əhalisini sıxışdırmağa başladı, bərdəlilər də ona hücum edib öldürdülər» (34, s.62; 189, s.517). Bu hərəkat narazılıqların başlanğıcı idi. Bərdə üsyanı Arran və Azərbaycan əhalisinin xilafətə qarşı hamılıqla üsyana qalxmasına təkan verdi. Əl-Kufi bu barədə məlumat verir ki, «Bərdədə başlanmış üsyan Arran və Azərbaycan əhalisinin hər yerdə üsyana qalxmasına səbəb oldu. Bunların ən şiddətlisi Beyləqanda «xarici» təriqətinə mənsub olan Əbu Müslümün rəhbərliyi altında baş verən üsyan idi» (34, s.76). Beyləqanda Əbu Müslümün xəlifə Harun ər-Rəşidə qarşı başlanmış üsyanını yatırmaq üçün oraya İshaq ibn Müslüm əl-Üqeyli adlı sərkərdənin başçılığı altında min atlıdan ibarət İraq döyüşçüləri göndərildi (34, s.62-63). Bu barədə əl-Yaqubi bildirir: «Xalid ibn Yəzid ibn Üseyd as-Sulamini döyüşçülərinə beş min nəfər də əlavə edib göndərdi ki, Əbdü-l-Məlik ibn-Xalid əl-Hərəşinin rəisliyi altında möhkəmlənsin. Onlar Əbu Müslümün dəstələri ilə toqquşdular və onları qaçmağa məcbur etdilər. Əbu Müslüm özü isə Gilab (Sisyanda) qalasına qarşı hərəkət etdi və onu ələ keçirdi. Ər-Rəşid bundan sonra vali vəzifəsinə İbn Abdullah əl-Bacalını təyin etdi. O, Bərdəyə gələn kimi beyləqanlılar ona qarşı üsyan etdilər, ancaq o, Bərdədə, iqamətgahında möhkəmləndi və Mədən əl-Xümsünü altı min nəfərlik (döyüşçü) ilə Əbu Müslüm Şəritə qarşı göndərdi» (359, s.63).

Əbu Müslüm Xəlifənin hakimiyyətinə qarşı uzun müddət gərgin mübarizə aparmış, lakin üsyançılar Xilafət qoşunları tərəfindən məhv edilmişdilər (15; 34, s.64; 174).

Əl-Kufinin məlumatına görə, «üsyandan böyük zərər çəkmiş xəlifə Harun ər-Rəşid Azərbaycanda və Arranda hakimiyyətdə olanların hamısını vəzifələrindən kənar etdi.

Sonra o, Səid ibn Səlim ibn Qüteybəni (796-cı ildə) çağırtdırıb bütün ölkənin idarəsini ona tapşırdı. Səid ibn Səlim tezliklə Bərdə şəhərinə gəldi. Burada o, Nəsr ibn Ənan adlı adamı çağırtdırıb onu Bab əl-Əbvab şəhərinə hakim təyin etdi» (34, s.64).

Hadisələrin gedişini ətraflı surətdə təsvir etməyə çalışan əl-Kufi məlumat verir ki, Səid ibn Səlim qəzəblənərək ən-Nəcm ibn Haşimin (Dərbəndinin) yanına gəldi, onu qandallayıb Bərdə zindanına saldırdı. Bunu bilən Həyyun ibn Nəsr ibn Ənanı tutdurub, atası kimi həbs etdirdi. Bu barədə xəbər Səid ibn Səlimə çatdı. O, ən-Nəcm ibn Haşimi yanına gətirtdirib boynunu vurdurdu və onun başını oğlu Həyyun ibn ən-Nəcmə göndərdi. Belə olduqda, Həyyun ibn ən-Nəcm vergi toplayan Nəsr ibn Ənanı zindandan çıxarıb, boynunu vurdurdu və başını Səid ibn Səlimə göndərdi. Bu hərəkət Səid ibn Səlimi həddindən artıq qəzəbləndirdi. O, öz tərəfdarlarını yığdı və böyük bir qoşunla Bərdə şəhərindən çıxaraq Həyyun ibn ən-Nəcmlə döyüşə getdi. Həyyun bundan xəbər tutdu və öz elçisini yüz min dirhəmlik hədiyyələrlə Xəzər xaqanının yanına göndərdi. O, xaqana məktub yazıb, ondan kömək istədi və İslam ölkəsini qənimət kimi ona vəd etdi. Xaqan qırx min atlı və tarxanları ilə Bab əl-Əbvab şəhərinə tərəf hərəkət edərək onu zəbt etdi, hücumu davam etdirməyə hazırlaşdı. Səid ibn Səlim və onun ordusu Bab əl-Əbvab şəhərinə çatarkən baş vermiş hadisədən xəbər tutdu, xəzərlərlə qarşılaşmaqdan çəkinərək Bərdəyə qayıtdı (34, s.65; 15, s.75; 174).

Əl-Kufi bildirir: «Xaqan və onun orduları islam ölkələrinə soxulub (799-cu ildə) saysız-hesabsız müsəlmanları qırdılar, yüz min kişi, qadın və uşağı əsir aldılar. Bundan sonra xəzərlər öz ölkələrinə qayıtdılar. Həyyun ibn ən-Nəcm isə Dərbənd şəhərinə çəkildi» (34, s.65).

Göründüyü kimi, Azərbaycanda ərəblərin futuhatı heç də asanlıqla davam etməmişdir. Başqa dini təzyiqlərin ağırlığından can qurtarmaq istəyindən, yaxud İslam dininin yüksək xüsusiyyətlərini dərk edərək qəbul edilməsi səbəbindən yayılması və genişlənməsinə baxmayaraq ölkədə siyasi vəziyyət mürəkkəb idi. Yadellilərin işğallarına etiraz ilə cavab verən yerli əhali ölüm-dirim mübarizəsinə qalxaraq itaətdən, istiladan can qurtarmağa çalışır, işğalçılara qarşı kəskin müqavimət göstərirdi. Bütün bunlara baxmayaraq 90 illik mübarizədən sonra ölkədə (Albaniyada) ərəb istilaları əsasən başa çatdı (15, s.105; 34, s.65; 174).

Mənbələrin verdiyi məlumata görə, VIII əsrin ikinci yarısında Azərbaycana çoxlu ərəb tayfaları köçürülmüşdür. Onların köçürülməsi dövrün tələbinə və şəraitə uyğun olaraq iki məqsəddən irəli gəlirdi. Birincisi, xəlifələr və canişinlər tərəfindən Albaniya ərazisində hakimiyyətin möhkəmlənməsini təmin etmək üçün etibarlı hesab edən ərəb tayfaları köçürülüb yerləşdirilir; ikincisi, Ərəbistan torpaqlarından fərqli olan münbit, suvarılan torpaqlarda yaşamaq üçün çoxlu ərəb tayfaları özləri köçüb gəlirdilər. Arrana ən çox Abbasilər dövründə şimali ərəb tayfaları köçürlmüşdür ki, bunlar da nizarilər və və bənurəbiələr idi. Ərəb mənbələrinin tədqiqatçıları bənu-rəbiyələrin və avdilərin ən çox Bərdə şəhərində və onun ətraflarında yerləşdirildiyini qeyd edirlər (4, s.134; 15, s.167-168; 261). Azərbaycanda məskunlaşmış şimali ərəb tayfaları cənub həmvətənlərini düşmənçiliklə qarşılayırdılar. Albaniyanın bir sıra şəhərlərində, o cümlədən Bərdədə yeni sülalənin nümayəndələri müqavimətlə qarşılaşmışdılar. Bu vəziyyət yalnız xəlifə Hərun ər-Rəşid (786-809) dövründə nizama salındı (4, s.134; 15, s.168).

799-cu ildə Harun ər-Rəşid Yəzid ibn Məzyəd əş-Şeybanini yenidən canişin təyin etmişdi (34, s. 65). Bu barədə

əl-Kufi bildirir ki, «Yəzid yola düşüb Arrana gəldi. O, Bərdədə yerləşib hamının təhlükəsizliyinə təminat verdi və əhalini sakitləşdirdi. Sonra o, əl-Fəzl ibn Yəhyanın mavləsi əl-Hərisi və Səid ibn Səlimin onun yanında olan adamlarını yığıb zəncirlədi və xəlifə Harun ər-Rəşidin yanına göndərdi. Bundan sonra Yəzid ibn Məzyəd Dərbənd əhlinə məktub yazıb onlara aman verdi və bütün ölkə sakitləşdi» (34, s.65). Yəzid ibn Məzyəd əş-Şeybani yerinə Əsəd ibn Yəzid təyin olundu, sonra onu kənar edib yerinə Hüzeymə ibn Hazim ət-Təmimini təyin etdilər (34, s.65). Tədricən siyasi vəziyyət qaydaya salındı. Əl-Kufi bildirir ki, «Hüzeymə ibn Hazimi gəlib Bərdədə yerləşdi və əhalinin işlərini səhmana saldı. Sonra, o, Bab əl-Əbvaba getdi, bütün qüsurlu adamları xəlifə Harun ər-Rəşidin hüzuruna göndərdi» (34, s.65-66).

Xəlifə Hərun ər-Rəşid öldükdən sonra onun oğlanları Əmin ilə Məmun arasında hakimiyyət uğrunda başlanmış mübarizə xeyli davam etdi. Əl-Yaqubi yazır: «Məmun (810-833) tərəfindən Arran və Azərbaycan hakimiyyətinə Tahir ibn Məhəmməd əs-Sənan göndərildi. O, Varsana gəlib Arranın hərbi rəisi və ordunun görkəmli şəxsləri ilə yazışdı və onlar Məmuna and içərək tabe oldular. Xəlifə əl-Amin (809-813) tərəfindən təyin edilmiş Ömər əl-Həsunun tərəfdarı İshaq ibn Süleyman Arranın hakimi oldu, Arranın patriki Narsa və Əbdü-r-Rəhman və bir neçə patrik də onun tərəfdarları idilər. (İshaq) oğlunun Bərdədən qovulmasının qisasını almaq üçün Bərdə əhalisinin üzərinə hücum etdi» (189, s.59-61; 359, s.6).

Bərdə uğrunda onların arasında gedən mübarizə silahlı toqquşmalarla nəticələndi. Yerli əyanlar və əhali bu və ya digər tərəfi müdafiə edirdilər. Əl-Yaqubi bildirir: «Məmun böyük ordu ilə Zuhəyra ibn Sinan ət-Tamnimini Tahir ibn Məhəmmədə (köməyə) göndərdi. İshaq ibn

Süleyman isə öz oğlunu müdafiə etmək üçün Bərdəyə böyük qüvvə yeritdi. Onlar qarşılaşdılar və öz aralarında döyüşə girdilər, (döyüş) bütün gün davam etdi, bundan sonra İshaq ibn Süleyman öz yaxın adamları ilə qaçmağa başladı. İshaqın oğlu Cəfər ibn-İshaq əsir alındı, onu da digər əsirlərlə birlikdə əl-Məmunun yanına göndərdilər. Tahirin gəlişindən heç bir neçə gün keçməmişdi ki, Əbdü-l-Məlik əl-Cəhhəf as-Sulami onu tanımaqdan imtina etdi və ona qarşı üsyan qaldırdı. O, Beyləqan əhalisi ilə birlikdə hərəkət etdi və Tahiri Bərdə şəhərində mühasirəyə aldı. Mühasirə bir neçə ay davam etdi. Bunu bilən əl-Məmun (813-833) hakimiyyətə Süleyman ibn Əhməd əl-Haşimini təyin etdi, o isə oraya gələndə hələ Tahir mühasirədə idi, onu mühasirədən azad edib buraxdı, Əbdü-l-Məlikə isə aman verdi, ölkə sakitləşdi. Bundan sonra hakimiyyətə Həşim ibn Hərsəmə ibn Əyun təyin edildi. Onun gəlişi mütəzillərlə ortodoksallar (Köhnə müsəlman cəmiyyətlərinin tərəfdarları) arasındakı münaqişə vaxtına düşdü, onların öz aralarında güclü vuruşma gedirdi, ancaq sonra razılığa gələrək sakitləşdilər. Hatim ibn Hərsəmin ölkəyə gəlməsindən bir neçə gün keçdi, atası Hərsəmin ölüm xəbərini eşitdi. O, Bərdədən çıxdı və Kisalədə dayandı…» (15, s.225-257; 359, s.4-5). Müəllif fikrinə belə davam edir: «Əl-Mötəsim (833-842) Xalid ibn Yəzidi Arrana və Diyar-Rəbinin bir hissəsinə hakim təyin etdi. Bu barədə xəbər çatdıqda bütün başçılar təhlükəni hiss edərək, onun əleyhinə birləşdilər və ona qarşı üsyan etdilər. Bu haqda Mənsur ibn İsa əs-Səbi xəlifə Mütəsimə yazdı, o da Xalidin yerinə Əli ibn əl-Hüseyni qoyaraq geri qayıtması barədə əmr verdi. Heç bir neçə gün keçməmiş Bərdə əsgərləri qəzəbləndilər və ondan öz haqlarını tələb etdilər, ancaq belə cavab verdilər ki, onda heç nə yoxdur və (bütün) var-dövlət ölkənin əhalisindədir. O, əhalidən vergi tələb etdi, ancaq

onlar etiraz etdilər, (əsgərlər isə) öz qalalarında möhkəmləndilər, sonra öz aralarında yazışdılar, toplaşaraq onu Bərdədə mühasirəyə aldılar. Onda Mötəsim oraya canişin Həmdəvayh ibn Əli ibn əl-Fədli göndərdi» (359, s.5). Onun Bərdədə gördüyü tədbirlər nəticəsində, çox çətinliklə üsyan yatırıldı (189, s.7; 359, s.6).

Ərəb Xilafəti əleyhinə Azərbaycanda baş vermiş üsyanlardan ən güclüsü olan Babək hərəkatı başlandı (816-838). Təkcə Azərbaycanın deyil, bütün Yaxın və Orta Şərqin ən qüdrətli siyasi hərəkatı olan Babək hərəkatı elə geniş vüsət almışdı ki, əl-Məsudinin dediyi kimi, Abbasilər hakimiyyətini məhv edəcək dərəcəsinə çatmışdı (302, s.33). Xilafəti dağılmaqdan qorumaq üçün əl-Mötəsim hətta rəqibi olan Bizansla sülh bağladı (302, s.33) və Babək hərəkatına qarşı qüvvələrini səfərbərliyə aldı (15, s.233; 174, s.57).

Mənbədə qeyd edilir ki, «Xəlifə əl-Mötəsim (833-842) 835-ci ildə əl-Afşini Arrana hakim təyin edib, xürrəmilərlə müharibəni davam etdirməyə göndərdi. Xəlifə əl-Mötəsim-billah siyasi müsdəqilliyini möhkəmləndirdikdən sonra vergiyığanlarını bütün ölkələrə göndərdi. Sonra o, əl-Afşini Azərbaycana hakim təyin etdi və ona əmr etdi ki, Babək əl-Xürrəmi ilə müharibəni davam etdirsin» (34, s.66). O, əl-Afşin Məhəmməd ibn Süleyman əs-Səmərqəndi adlı şəxsi Arranın hakimi təyin edib Bərdəyə göndərdi, özü isə Babəklə gecə və gündüz döyüşdü (835-ci ildə). Süleyman əs-Səmərqəndi isə ərəblərə qarşı üsyan etmiş Səhl ibn Sumbat üzərinə hücum etdi, lakin məğlub oldu (34, s.66; 15, s.313-114; 100, s.145; 174, s.58).

Mənbələrin verdiyi məlumata görə, Babək ərəblərə qarşı 21 il (816-838) mübarizə apardı, Xilafətin dayaqlarını sarsıtdı, lakin ərəblərə qarşı mübarizədə keçmiş müttəfiqi, Səhl ibn Sumbat tərəfindən tutulub ərəblərə verildi.

Babək 838-ci ilin mart ayında xəlifə əl-Mötəsimin əmri ilə Samirə şəhərində edam edildi (15, s.313; 174, s.56). Babəkin edam edilməsinə baxmayaraq onun tərəfdarları uzun müddət Xilafətə qarşı mübarizədə fəal iştirak etdilər (34, s.66).

Babək hərəkatı yatırıldıqdan sonra Ərəb Xilafəti öz əvvəlki imkanlarını bərpa etməyə başladı. İlk növbədə Bizansa qarşı döyüş əməliyyatı keçirildi. Lakin uzun müddət daxili narazılıqlara, yerli xalqların üsyanlarına, xürrəmilər hərəkatına, xəzərlərin hücumlarına qarşı mübarizə aparmış Xilafət artıq əvvəlki kimi hakimlik iqtidarına malik deyildi (174, s.57). Bir-birini əvəz edən xəlifələr – əl-Vasiqin (842-847), əl-Mütəvəkkilin (847-861) bütün cəhdlərinə baxmayaraq, Xilafət əleyhinə mübarizə getdikcə gücləndi. 852-ci ildə xəlifə tərəfindən göndərilmiş Buğa dörd il müddətində bütün Qafqazı viran etdi (174, s.57; 209, s.20). Onun başçılığı ilə ərəb ordusu Tiflisi talan edib əhalisi üzərinə vergi qoydu. Buğa qışı Bərdədə keçirdikdən sonra, Dərbəndə yola düşüb oradan 300 xəzər ailəsini Şəmkirə köçürdü (302, s. 34). O, müqavimətdə iştirak edənləri xəlifənin hüzuruna göndərib məhv etdi, məcburi sakitlik yaratdı. Lakin bu sakitlik uzun sürmədi. IX əsrin ortalarında ərəb xəlifələrinin Azərbaycanda apardığı yeni siyasi tədbirlərin heç biri müsbət nəticə vermədi. Daxili sabitliyi qoruyub saxlaya bilməyən Xilafət Bizansla müharibə aparan zaman getdikcə artan daxili parçalanmaların qarşısını ala bilmədi. Mərkəzdən qaçan qüvvələrin və yerli əyanların təşəbbüsü ilə Xilafət ərazisində yarımmüstəqil dövlətlər yarandı (174, s.58).

Mənbə məlumatlarının və tədqiqat əsərlərinin təhlilindən aydın olur ki, Azərbaycan ərazisində baş vermiş müharibələr ölkənin siyasi həyatına, iqtisadiyyatına böyük ziyan və tələfat gətirmiş, yerli əhalinin saysız miqdarda əsir

aparılmasına, bir çox yaşayış məntəqələrinin tənəzzül etməsinə səbəb olmuşdur (34, s.3; 174, s.5-17). Ancaq bir çox şəhərlər, o cümlədən Bərdə tədrici inkişaf yolu keçmiş, hətta IX-X əsrin birinci yarısında yüksək inkişaf, çiçəklənmə dövrü keçirmiş, siyasi, iqtisadi və mədəni mərkəzi kimi mühüm əhəmiyyətə malik olmuşdur. Bu barədə daha ətraflı növbəti hissədə.

### 3.3. Bərdə Sacilərin və Salarilərin hakimiyyəti dövründə.

IX əsrin ikinci yarısından Xilafətin zəifləməsi ilə əlaqədar inzibati-siyasi dəyişikliklərlə bağlı olaraq Azərbaycanın, o cümlədən Bərdənin də siyasi həyatında yeniliklər göründü. Ərəblərin yaratdığı inzibati-ərazi bölgü sistemi pozuldu. Yeni feodal dövlətləri yarandı ki, onların da hər birinin ayrıca mərkəzi şəhəri var idi (169, s.90). Ona görə də, Bərdə tədricən inzibati mərkəz rolunu itirirdi. Lakin Xilafətin Azərbaycandakı sonuncu canişini – Məzyədilər sülaləsindən olan Məhəmməd ibn Xalid Bərdə şəhərində qərarlaşdı. Məzyədilər Şirvan ərazisinə köçdükdən sonrada, bütün Arran onların hakimiyyəti altında oldu. Lakin sonra – IX əsrin 70-ci illərində Bərdə Məzyədilərin tabeçiliyindən çıxdı (90, s.39; 169, s.60).

«Albaniya tarixi»ndə bildirilir ki, 870-ci ildə Məhəmməd ibn Yəmən Bərdəyə hakim təyin olundu. O, Arranın hakimi olmaq fikrinə düşdü və bu məqsədlə yerli hakimləri ələ aldı; məktublar göndərdi ki, onu hakim təyin etməsi üçün xəlifədən xahiş etsinlər. Lakin xəlifə onu deyil, Məhəmməd ibn Xalidi təyin etdi (136, k.2I, f.18).

IX əsrin sonlarından başlayaraq, Xilafətin şimal ölkələrində və digər ucqarlarında mərkəzdən ayrılma meylləri daha da gücləndi (15, s.176; 169). Müstəqilliyə marağı olan yerli canişin və hakimlər Xilafət mərkəzinə tabe olmaqdan və hətta vergi verməkdən imtina etdilər (15; 169, s.88). Xilafətin tərkibində ona tabe olmayan müstəqil feodal dövlətləri yarandı. Həmin dövlətlərdən biri də Sacilər dövləti idi (15, s.196; 169, s.89). Sacilər dövlətinin mövcudluğu dövründə Bərdə şəhəri əvvəlki kimi yenə də mühüm şəhər olaraq böyük rol oynadı. Bərdənin yarım əsrə yaxın siyasi tarixi həmin dövlətin daxili həyatı və bu dövlətdə baş vermiş siyasi hadisələrlə bağlıdır.

Xilafətin parçalanmağa başladığı bir dövrdə yaranmış müstəqil Sacilər dövlətini türk mənşəli Sacilər sülaləsindən olan hakimlər və onların əmirləri idarə edirdilər. Dövlətin başçısı «afşin» titullu, türk əmirləri nəslindən olan adlı-sanlı sərkərdə Məhəmməd ibn Əbu Sac idi (15, s.198-199; 169, s.89). Məhəmməd ibn Əbu Sacın dövründə Bərdə şəhəri ölkənin inzibati mərkəzi olaraq inkişaf edirdi (169, s.89). Feodalizm cəmiyyətinin inkişafı şəhərləri kənd təsərüfatından tamamilə ayıraraq, yalnız sənətkarlıq və ticarət mərkəzi kimi fəaliyyət göstərməyə vadar etdi. Bu isə, Bərdənin qədim sənətkarlıq və ticarət mərkəzi olması xarakterinə uyğun şəkildə daha da inkişaf etməsinə səbəb oldu. Arxeoloji qazıntılar zamanı aşkar edilmiş, həmin dövrə aid çoxsaylı sənətkarlıq məmulatı və pullar da bunu sübut edir (149; 150; 205; 335; 366).

Sacilər dövləti Xilafətə qarşı mübarizə şəraitində meydana çıxıb fəaliyyət göstərsə də Xilafətə vergi verməyi öhdəsinə götürən yarımmüstəqil dövlət olduğundan Abbasilərin qoyduğu qayda-qanunlardan kənara çıxmaq üçün gərgin mübarizə aparmalı olmuşdur. Məhəmməd ibn Əbu Sacın dövründə Bərdə şəhərində zərb edilmiş, üzərində

«Afşin» yazılmış pulların aşkar edilməsi göstərir ki, ərəblərin hakimiyyətinin siyasi baxımdan ciddi təsirlərə məruz qalması dövrü başlanmışdır (169, s.90).

Mənbələrə və tədqiqat əsərlərinə görə, artıq 1X əsrin axırlarında Azərbaycanda Sacilər sülaləsi hakimiyyətinin əsasını qoymuş Məhəmməd ibn Əbu Sac dövlətin ərazisini xeyli genişləndirmiş, müstəqil Sacilər dövləti yaratmışdı (8, s.94; 174).

Azərbaycanda Sacilərin hakimiyyətə gəldiyi dövr Abbasilər sülaləsinin hakimiyyətinin siyasi böhran içərisində olduğu vaxta təsadüf edir (8, s.90). Artıq valilərin çoxu Xəlifənin imtiyazlarını pozur, ona vergi verməkdən imtina edirdilər (169, s.93; 174, s.59).

«Albaniya tarixi»ndə Sacilər barədə bildirilir ki, «taciklər (ərəblər) … gəldilər və əhali üzərinə vergi qoyub zülm etdilər. Onlar ələ keçirdikləri patriarx II Georqu (876-897) dəmir buxov-la qandallayıb Partava (Bərdəyə) apardılar və zindana saldılar…» (136, k.2I, f.18; 169, s.98).

Müəllifin bu sözləri dini məzhəb tərzindən doğmuş qəzəblə deməsi hiss olunur, eyni zamanda Arran ərazisinin Sacilərin hakimiyyəti altında olmasını da təsdiq edir (169, s.99; 174, s.58-59).

Məhəmməd ibn Əbu Sac dövründə dövlətin paytaxtı Ərdəbil şəhəri olsa da Azərbaycanın böyük şəhərləri olan Marağa, Bərdə, Təbriz, Urmu, Xuvey (Xoy), Səlmas, Mərənd, Beyləqan çox böyük iqtisadi və siyasi əhəmiyyətə malik idi (169, s.101). Maraqlı faktlardan biri də Sacilər dövlətinin hökmdarlarının adına zərb olunmuş pullardır. Məhəmməd ibn Əbu Sacın dövründə Bərdədə üzərində «allah» kəlamı və Saci hökmdarlarının adı yazılmış dirhəmlər zərb olunmuşdur (169, s.90).

Sacilər Xilafətə qarşı mübarizəni gücləndirmək üçün mühüm siyasi və hərbi tədbirlərə əl atırdılar. Məhəmməd

ibn Əbu Sacın əmirlərindən olan Vasif Bərdədən qaçaraq Malatyaya getmiş və xəlifə Mötəziddən Suriya ilə Bizans sərhədində (Suqurda) hakim təyin olunmasını xahiş etmişdi (169, s.94). Mənbə məlumatına görə, Vasif oraya Məhəmməd ibn Əbu Sacın məsləhəti ilə getmişdi. Vasif orada yerləşdikdən sonra Məhəmməd ibn Əbu Sac özü də oraya getməli, xəlifəyə qarşı birlikdə mübarizə aparmalı idi. Vasif orada xəlifə tərəfindən həbs olunduğundan onların bu planı baş tutmamışdı (100, s.97).

Sacilər dövlətinin banisi Məhəmməd ibn Əbu Sac Ani və Dvindən tutmuş Tiflisə qədər olan və digər əraziləri də özünə tabe edərək bir müddət hökmranlıq etdikdən sonra Bərdə şəhərində taun xəstəliyindən vəfat etdi (15, s.201; 100, s.144; 169, s.37-38).

Əl-Əsir qeyd edir ki, «Azərbaycanda yayılmış taun xəstəliyindən çoxlu insan tələf olmuşdu. Hətta ölənləri dəfn etmək və onlara kəfən tapmaq belə mümkün deyildi» (100, s.144). 901-ci ildə baş vermiş həmin dəhşətli xəstəlik haqqında «Albaniya tarixi»ndə də məlumat verilir (136, k.2I, f.18).

Məhəmməd ibn Əbu Sacın yerinə hakimiyyətə gəlmiş qardaşı Yusif ibn Əbu Sac dövlətin ərazisini xeyli genişləndirdi. O, 913-cü ildə Azərbaycandan qərbdə yerləşən əraziləri də Sacilər dövlətinin tərkibinə birləşdirdi (40; 169, s.95-98; 174, s.59; 382, s.41).

M.Şərifli Yusif ibn Əbu Sacın dövründə Şirvanşah Məzyədilərin Sacilər dövlətinin vassalı halına salınmasından yazır və qeyd edir ki, bu səbəblərdən də əl-Yaqubi Bərdə, Beyləqan və digər Arran şəhərlərini Azərbaycan şəhərləri sırasında qeyd etmişdir (169, s.100).

Azərbaycan (Cənubi Azərbaycan) və Arranda öz mövqelərini möhkəmləndirmiş Sacilər Ani və Dvindən Xəzər dənizinədək, Zəncandan Dərbəndədək olan böyük

bir ərazini özlərinə tabe etmişdilər (169, s.99; 181, s.19; 284, s.109).

Əl-Bəlazuri bu ərazini iki tərkibdə göstərir: birinci, Arran və Sisacandan (Sünik) ibarətdir. Onun ikinci versiyası isə İbn Xordadbehin qeydləri (eləcə də İbn əl-Fakihin) ilə üst-üstə düşür, ancaq bunun hüdudlarına Arrandan başqa Sisacan və Tiflis, eləcə də əl-Bəlazuridə olmayan Bərdə, Beyləqan, Qəbələ və Şirvan daxil edilir. Balazuridə Tiflis, Bərdə, Beyləqan, Qəbələ və Şirvanın olmaması, yəqin ki, onları, Arranla bərabər, Xilafətin Cənubi Qafqaz vilayətindəki həmin şəhər və məskənlərin adlarının təkrarən işlətməyi artıq hesab etməsi ilə izah olunur (269, s.49).

M.Fəxrəddin Kırızoğlunun araşdırmalarına görə, sacoğullarının kökü saklara gedib çıxır. Bu bəylik Qafqazı uzun müddət Bizans və İran axınlarından, habelə Şərqi Anadoluda dağınıq halda yaşayan və erməni soylu bizans kralları tərəfindən zaman-zaman təşkil edilən erməni üsyanlarından qorumuşdur (119, s.26).

Bütün bunlar göstərir ki, ərəblərəqədərki Cənubi Qafqaz əhalisinin «kilsə birliyi»ndə» olan dövründən fərqli olaraq Xilafət dövründə buradakı vilayətlərin birliyi təmiz inzibati qaydada idi  və onlar bir xilafət canişini tərəfindən idarə olunurdu (273, s.57)

Burada bir məsəlyə də toxunmaq lazımdır. Xalqımızın tarixinə qara hərflərlə yazılmış səhifələrdən biri də vətənimizə, xalqımıza qarşı özlərini erməni adlandıran hayların irəli sürdüyü torpaq iddiaları və bunun ağır nəticələridir. Ermənilər bu iddaları "tarixi faktlar əsasında" irəli sürdüklərini bildirir, Azərbaycanın Qarabağ bölgəsininin onlara məxsus olmasını "sübut etməyə" çalışırlar. Azərbaycanın qədim torpaqları haqqında Strabondan başlayan Kür çayına qədər erməni aborigenliyi uydurmasını

Azərbaycan ərazilərinin "Ərməniyyə" adlı inzibati-ərazi bölgüsünə daxil etmiş ərəb mənbələri ilə davam edən "faktlar" bu gün də ermənilərin istifadə etdiyi mənbələrdən biridir. İndi həmin «mənbələr» erməni «tədqiqatçıları»nın müxtəlif şəkildə «tarixi əsərlər» yazmasına xidmət edir. Məsələn, «Ərməniyə»ni Ermənistan dövlətinin qədim ərazisi (?) hesab edən Ter Gevondyan («Ərəb xilafəti və Ermənistan» əsərində») Bərdə şəhərinin adını çox az halda çəksə də Bərdə şəhərini, onun yerləşdiyi ərazini də Ermənistan torpaqlarının sərhədi daxilində təsəvvür edir (360). Bundan istifadə edən digər erməni tədqiqatçıları da bu ənənəni davam etdirir. Bu yalanlar əsasında yazılmış əsərlərin hesabına bu gün ermənilərin xarici ölkələrə yaydığı Cənubi Qafqazın tarixi coğrafiyasına aid xəritələrdə ərazinin əsl sakinlərinə – türklərə «yer qalmır».

Ter Gevondyan yazır ki, «İbn Havqəl tamamilə aydın şəkildə Armeniyanı «ermənilərin ölkəsini» ayırır»(?). O, belə hesab edir ki, ərəb müəllifi İbn Havqəl Baqratilərin erməni çarlığının sərhədlərini aydın təsvir edir və göstərir ki, o şərqdən Bərdəyə, qərbdən isə Feodospola və «ermənilərin ölkəsi»nə çatır»dı (360, s.154). O, fikrini əsaslandırmaq üçün «maraqlı» ideya irəli sürür: «Ermənistan Ərməniyə tərkibində öz inzibati müstəqilliyini itirmədi. Xilafət dövründə Ermənistan vilayətlərini əhatə edən ərazilər sonradan Baqratilərin erməni çarlığına daxil oldu» (360, s.166). Güya İstəxri erməni çarlığı (məmləkət əl-Ərmən) barədə bildirir ki, «o, bir tərəfdən Bərdə şəhəri, digər tərəfdən Cəzirə, üçüncüsü – Azərbaycan ilə sərhədlənir» (360, s.166). Müəllif öz fikrini ərəb mənbələrinə istinadən «dəqiqləşdirir»: «Əl-İstəxri Ermənistan dövlətinin sərhədlərini belə təsvir edir: Ərməniyə Rumla (Bizansla) da sərhədlənir. Onun sərhəddi Bərdəyə qədər, Cəzirəyə qədər və Azərbaycana qədərdir. Ermənistanın Rum tərəfində yerləşən

sərhəd müdafiə istehkamı Xalxaldır». Müəllif fikrini davam etdirərək misal gətirir ki, eləcə də ibn Havqəl erməni çarlığından (?) danışarkən həmin sərhəddi təsvir edir: «Onun sərhəddi məlumdur – şimalda Bərdəyə qədər, qərbdə Cəzirəyə qədər, cənubda Azərbaycana qədər, Xalxal tərəfdə Rum torpaqlarına qədər» (360, s.239). Bir-birini təkrar edən erməni «tədqiqatçıları» ərəb mənbələrindəki bu məlumatları «məharətlə» öz uydurma tarixləri üçün mənbəyə çevirirlər. İndi əli qələm tutan hər bir erməni bu barədə cızmaqaralarla məşğuldur.

Maraqlı məsələlərdən biri ərəb müəlliflərinin IX əsrin sonlarında Azərbaycan və Arran haqqında vahid inzibati birlik halında danışmaqlarıdır. Görünür, bu, Sacilər dövlətinin yaranması və həmin ərazidə öz hakimiyyətini genişləndirməsi ilə əlaqədardır (269, s.291). Əl-Yaqubi Arranın baş şəhərini – Bərdəni Azərbaycan hüduduna daxil edir (189; 269, s.291). Qudamə hətta bu iki vilayəti birləşdirərək Bərdəni Azərbaycanın paytaxtı adlandırır (264; 269, s.291).

N.M.Vəlixanlı İbn Xordadbehin «Kitab al-məsalik və əl-məmalik» əsərinə aid şərhində qeyd edir ki, IX əsrin axırlarında Bərdənin qərbindəki torpaqlar Baqratilər hakimiyyətinə daxil olmamışdır, bu xristian vilayəti kimi ancaq nüfuz dairəsinə aid ola bilərdi. Müəllif bildirir ki, buna görə də müsəlman müəlliflər (İbn Havqəl) Bərdəni Cənubi Qafqazın digər vilayətləri ilə əlaqələndirən ticarət yollarını I Smbatın hakimiyyəti dövründə Bərdə-Dəbil traktına daxil olan torpaqlarına aid edirdilər (264). Qeyd etmək lazımdır ki, Yusiflə Smbatın münasibətinə aid İbn Havqəlin fikri (onu «Fatimilərin casusu» adlandırır- (290, IV, 202-204) siyasi xarakter daşıyırdı. Bu İbn Havqəlin öz subyektiv münasibəti və yaxud 913-cü ildə Yusif ibn Əbu-Sacın müstəqil Sacilər dövləti yaratması ilə əlaqədar ola

bilərdi. X əsrin 80-ci illərinin axırlarında – İbn Havqəldən bir neçə il sonra yazan Müqəddəsinin məlumatı ilə də Bərdənin qərbindəki torpaqların Arrana məxsus olması təsdiqlənir (269, s.299).

Sacilər şimaldan gözlənilən hücumlardan narahat olduqlarına görə, Dərbənd keçidinin möhkəmləndirilməsinə daha çox diqqət yetirirdilər. Lakin Xəzər dənizindən olan hücum, dövrün müəlliflərinin yazdığına görə, gözlənilmədən baş vermişdi (265, s.28; 302, s.40).

Bu barədə Məsudi geniş məlumat verir: «Azərbaycan, Arran, Beyləqan, Bərdə vilayətinin və digər şəhərlərin, habelə Deyləm, Cibəl və Təbəristanın əhalisi bu sahillərdən qaçdılar, belə ki, onlar keçmiş zamanlarda heç vaxt görməmişdilər ki, düşmən onlara həmin tərəfdən gələ bilər, belə bir hadisə heç qədim vaxtlardan bəri məlum deyildi» (302, s.40).

Məsudi hücum edən ruslardan bəhs edərək yazır: «… 300 (912-914)-cü ildə təxminən 500 rus gəmisi, hərəsində 100 nəfər olmaqla Xəzər dənizi ilə birləşən Mitas dənizinin kanalına girdi. Onlar Curcan sahilində yerləşən Abasquna hücum etdilər və neftli vilayət olan Azərbaycana yaxınlaşdılar; … ruslar çoxlu qan tökdülər, dağıtdılar və yandırdılar, qadınları və uşaqları qula çevirdilər və özləri ilə qənimət apardılar. Xalq arasında böyük vahimə yarandı, ona görə ki, uzaq keçmişdən bəri düşmənin dəniz tərəfdən gəldiyi olmamışdı, onlara buradan yalnız tacir və balıqçı gəmiləri gələrdi. Rusların Cil və Deyləmlə müharibəsi xeyli davam etdi və İbn Sacın hərbi rəislərindən biri ilə onlar neftli sahilə, «Bakı» adı ilə məşhur olan Şirvan şahlığına gəlib çıxdılar. Qayıdan zaman ruslar dənizin sahilində neftli yerdən cəmisi bir neçə mil olan adada düşərgə saldılar; …. onda Şirvan şahı Əli ibn əl-Heysəm idi; o, ordusunu silahlandırdı, xırda ticarət gəmilərinə oturub adaya yollandılar.

Ruslar onların üzərinə hücum etdilər və 1000 müsəlman öldürüldü və batırıldı» (302, s.41). Əl-Məsudi sonra qeyd edir ki, «Ruslar bu dənizdə bir neçə ay qaldılar, biz təsvir etdiyimiz kimi, heç kim bu dənizlə ölkədən-ölkəyə keçib gedə bilmədi « (302, s.42).

Məsudiyə görə, sonra müsəlmanlar hücum edərək onların çoxunu qırmış, sağ qalanları isə Xəzərin şimalında Burtaslar tərəfindən öldürülmüşdü (302, s.55).

Sacilər dövləti güclü olduğundan rusların hücumları siyasi cəhətdən ciddi təsir göstərə bilmədi (169, s.89). Azərbaycan torpaqlarını ilk dəfə vahid dövlət hüdudlarında birləşdirmiş Yusif ibn Əbu Sacın müstəqil hakimiyyəti başa çatdı. Bundan sonra bir müddət dövləti Sacilərin qulamları idarə etdilər (5, s.292; 169, s.89). Bunu Bərdədən tapılmış, Müflihin adına 931-932-ci illərdə kəsilmiş pullar sübut edir (169, s.89, 101; 205; 366).

A.A.Bakıxanov Məsudiyə və əl-Əsirə əsaslanaraq rusların Xəzər sahillərinə ilk hücumunu təhlil edir, hücumların səbəbi, gedişi, rusların miqdarı, hücumun nəticələri haqqında məlumat verir (208, s.60-61).

932-ci ildə Azərbaycanda Müflih ilə Yusifin başqa əmiri Deysəm ibn İbrahim ibn Şadluyə (Balduyə) arasında hakimiyyət uğrunda güclənən mübarizə 941-ci ilədək dövləti idarə etmiş Deysəmin qələbəsi ilə nəticələndi (302, s.56). Bərdə, Ərdəbil və Dəbil şəhərində onun adına zərb olunmuş sikkələr bunu bir daha təsdiq edir (335).

İlk mənbələrə və tədqiqat əsərlərinə əsaslanaraq belə nəticəyə gəlmək olur ki, Sacilər sülaləsi Xilafət hakimiyyətinin zəifləməyə başladığı dövrdə, həmin sülaləyə mənsub olan hakimlər IX əsrin axırlarından X əsrin 40-41-ci illərinə qədər, yarım əsrdən artıq bir dövrdə Azərbaycanda hökm sürmüşlər. Xilafətin əsrlərlə davam edən zülm və əsarətinə qarşı xalqın apardığı mübarizə və müstəqillik

meyllərindən Sacilər sülaləsinə mənsub olan hökmdarlar istifadə edirdilər. Ona görə də Sacilərin hakimiyyəti dövründə Azərbaycan gah müstəqil olur, gah da yarımasılı vəziyyətə düşürdü (169, s.120).

Sacilər dövründə Azərbaycandan toplanan vergilər haqqında ərəb müəllifi Kudamənin qeydlərindən məlum olur ki, Sacilər topladığı vergiləri xəlifə xəzinəsinə verirdilər. Mənbələrdə bəzən həmin vergiləri Xilafət xəzinəsinə verməkdən imtina etmək halları da vurğulanır (264, s.27).

Əslində, Sacilər bilavasitə vergi toplanması və maliyyə işləri ilə deyil, əsasən hərbi məsələlərlə məşğul olurdular. Maliyyə işi, vergilərin toplanması və xərclənməsi ilə hökmdarın təyin etdiyi katiblər və maliyyə müdirləri məşğul olurdular (264, s.27).

Bərdə şəhərinin Sacilər dövründə mövqeyini müəyyənləşdirmək üçün tutarlı dəlillər arxeoloji qazıntılar zamanı aşkar edilmiş və Azərbaycan tarixi muzeyinin numizmatika fondunda saxlanılan pullardır ki, onların içərisində Bərdədə hicri tarixi ilə 285-ci ildə Məhəmməd Afşinin adına zərb edilmiş gümüş pullar, 294-cü və 303-cü illərdə Yusif ibn Divdadın, 319-cu ildə Müflih əl-Yusifin, 341-ci ildə Deysəm ibn İbrahimin adına sikkələr xüsusilə fərqlənir (265; 334).

Ərəb səyyah və coğrafiyaşünaslarının diqqətini cəlb etdiyi kimi, Bərdə, Marağa, Ərdəbil və s. şəhərlərdə zərbxanaların olması, IX əsrin axırları – X əsrin ortalarında həmin şəhərlərin həqiqətən iqtisadi, ictimai və siyasi əhəmiyyətə malik olduğunu göstərir (169, s.120; 231, s.129).

Sacilərin hakimiyyəti dövründə Xilafət asılılığından azad olmağa çalışan Azərbaycan şəhərlərində böyük oyanış dövrü başlanmışdı (169, s.124).

Sacilər tərəfindən Azərbaycan torpaqlarının vahid dövlət halında birləşdirilməsi şəhərlərin, sənətkarlığın,

ticarətin və mədəniyyətin inkişaf etməsinə səbəb olmuşdur (169, s.124).

Sacilər dövlətinin maliyyə, vergi sahəsində nisbətən yumşaq siyasət yeritməsi iqtisadiyyatın və əhalinin dirçəlməsinə səbəb oldu (169, s.124).

Sacilərin siyasi fəaliyyəti əsasən Xilafətin Azərbaycandakı mövqelərini qorumağa və xaricdən gələn təhlükəni aradan qaldırmağa yönəldilmişdi (169, s.105).

Yuxarıda deyilənlərdən belə nəticə çıxarmaq olur ki, Bərdə şəhəri Sacilərin hakimiyyəti dövründə öz əzəmətini saxlamış, siyasi, iqtisadi və mədəniyyət cəhətdən inkişaf etmiş, iri sənət və ticarət mərkəzi olmuşdur.

## 3.4. Bərdənin ruslar tərəfindən dağıdılması, tənəzzül dövrü.

X əsrin ortalarında Yaxın və Orta Şərqdə siyasi vəziyyət mürəkkəbləşmiş, hərc-mərclik artmış, hakimiyyət dəyişmələri sürətlənmişdi (169; 175; 328; 339; 341). Hakimiyyət uğrunda siyasi-hərbi çəkişmələr davam edirdi. 941-ci ildə Salar Mərzban ibn Məhəmməd Sacilərin torpaqlarına hücum edərək hakimiyyəti Deysəmdən aldı. Sacilərin 50 illik hakimiyyətinə son qoyuldu. 942-ci ildən etibarən Sacilər sülaləsinin hakimiyyətini Salarilər sülaləsi əvəz etdi (169, s.124 – 125; 283; 395).

«Albaniya tarixi»ndə bildirilir ki, «bu müddət ərzində ərəb xalqı zəiflədi, onun yerinə yeni gələn meki (deyləm) xalqı meydana çıxdı, onların rəisi Salar Ağvaniyanı (Albaniyanı – Q.H.), … tutdu və öz hakimiyyəti altına aldı. O, Partava (Bərdəyə) gəldi, onu zəbt etdi» (136, k.2I, f.18).

Kəsrəvi Təbrizinin yazdığına görə Salarilər dövlətinin ilk hakimi və yaradıcısı Salar Mərzban öz dövrünün böyük hökmdarı olmuşdur. Müəllif Salar Mərzbanı çox bacarıqlı, cəsur, düşüncəli, mərd bir sərkərdə, mövcud şəraitdən məharətlə istifadə etməyi bacaran bir hökmdar kimi təqdim edir (395).

Salarilər dövlətin ərazisini genişləndirmək və möhkəm hakimiyyət yaratmaq uğrunda ciddi mübarizə aparırdılar. Onlar Sacilər dövlətinin hakimiyyəti altında olan Azərbaycan torpaqlarına sahib olaraq yaratdıqları yeni dövləti möhkəmləndirməyə çalışırdılar. Lakin ruslar əsrin əvvəllərində (912-ci il) Xəzər sahillərinə hücum etdikləri zaman gördükləri var-dövləti unutmamışdılar. Ona görə də yenidən Xəzərboyu ölkələrə yürüş etdilər. Salarilər dövlətinin yenicə yaranıb hakimiyyətini möhkəmləndirməyə başladığı bir vaxtda rusların Bərdəyə yürüşü baş verdi (100, s. 98-120; 114; 169, s.134; 265; 283; 395).

Bu, Bərdə şəhərinin tarixində ən dəhşətli hadisələrdən biri oldu. Bu hadisə həmdövr tarixçilərin və eləcə də tədqiqatçıların diqqətini cəlb etmiş, onlar bu hadisənin geniş şərhini vermişlər.

Rusların Bərdəyə hücumu X əsrin ortalarında – 944/45-ci ildə baş verdi. Bərdə talan edildi, dağıdıldı və bir əsrdən artıq xarabalıqlar içərisində qaldı. Tənəzzülə uğramış şəhər ölkənin siyasi həyatındakı aparıcı mövqeyini itirdi, əhalisi azaldı, aclıq və səfalətə düçar oldu.

Rusların Bərdəyə hücumu haqqında xeyli mənbə məlumatlarının olmasına və tədqiqatlar aparılmasına baxmayaraq onun tarixi xarakteri və mahiyyəti hələ də tam açılmamışdır. Tədqiqatçıların hamısı həmin hadisənin şərhinə eyni nöqteyi-nəzərdən yanaşmırlar. Bu səbəbdən, hadisənin elmi ədəbiyyatda müxtəlif şəkildə şərhi ilə qarşılaşırıq (169, s.134; 197; 210, I; 211, s.15-40; 239, s.250; 255,

s.210; 256, s.215; 265, s.28-34; 310; 332, s.81; 355; 381, s.71; 395).

Bərdəyə rusların gəlişi haqqında ən mötəbər məlumat verən ərəb müəllifi ibn Miskaveyh bildirir ki, «mənbələrdə «rus» adlanan tayfalar təbiətinin və sərvətinin zənginliyinə görə, Qafqazın mirvarisi hesab edilən Bərdə şəhərinə hücum etdilər» (265, s.28-34). İbn Miskaveyh həmin hadisəni təfsilatı ilə belə nəql edir: «332 (943/44). Bu ildə Azərbaycana «ər-Rus» adı ilə tanınan bir xalqın ordusu hücum etdi, Bərdəyə gəldi, onu işğal etdi və onun sakinlərini əsir aldı». Sonra müəllif onların xüsusiyyət və davranışları haqqında yazır: «Ruslar döyüşkəndirlər. Onlarda hər kəsin silah gəzdirməsi adətdir və öz üzərlərində sənət alətlərinin çoxunu gəzdirirlər – balta, mişar, çəkic və digərlərini. Onlar döyüşdə nizə və qalxandan istifadə edirlər, ehtiyat üçün qılınc, əmud, xəncərə oxşayan silahlar da götürürlər. Onlar piyada döyüşürlər, əsasən də bunlar (Azərbaycana gələnlər)» (265, s.28).

İbn Misgaveyh məlumat verir ki, «onlar öz ölkələri tərəfdən dənizlə üzərək Azərbaycan ərazisindən axıb həmin dənizə tökülən, Kür adı ilə tanınan böyük çaya qədər gəldilər. Bu çay Bərdə çayıdır, onu pələnglə müqayisə edirlər. Onlar Kürdən çıxan kimi, onları Mərzbanın yerli idarəçilik üzrə nümayəndəsi Bərdə hakimi qarşıladı. Onunla üç yüz nəfərə qədər adam var idi. O, sadə xalqa çağırışla müraciət etdi və beş min nəfər könüllü ilə onlarla (ruslarla) inamla döyüşə girdi. Lakin yaxşı silahlanmış ruslar şəhərə girdilər və ona sahib oldular…. onlar car çəkib elan etdilər: «Şəhər əhalisindən heç kim şəhərdə qalmamalıdır». Onlara elan olunan gündən sayılmaqla 3 gün möhlət verdilər. Dördüncü gün ruslar qılıncı işə saldılar, saysız miqdarda adam qırdılar və bundan sonra bir neçə min əsir götürdülər. Qadın və oğlanları ruslar şəhər içərisində, onların

yerləşdiyi şəhristanda olan qalada yerləşdirib, onların möhkəmləndiyi düşərgəni dağıtdılar. Bundan sonra, onlar (ruslar) kişiləri məscidə topladılar, qorxu altında saxladılar və dedilər: «Özünüzü satın alın. Ruslarla yerli əhali arasında vasitəçilik edən ibn Samun adlı bir xristianın əldə etdiyi razılığa görə, hər bir adam 20 dirhəm verməklə canını qurtara bilərdi. Pulu ödəyənlərə möhürlü gil parçası verirdilər. Xristian Samundan şübhələndikləri üçün bu danışıqlarla razılaşmadılar. Bundan sonra, pulu ödəyənlərdən və məscidin su arxı ilə qaçıb canını qurtaranlardan başqa hamını qılıncdan keçirdilər» (265, s.28-30).

İbn Miskaveyh yazır ki, «Beləliklə, (ruslar) bu (şəhərdən) ölçüsü və qiyməti çox böyük olan, külli miqdarda sərvət əldə etdilər. Bundan sonra (Bərdədə – Q.H) yoxsulluq həddini aşdı və onlar haqqında müxtəlif ölkələrin müsəlmanları eşidib, bir-birini ümumi hərəkata çağırdılar» (265, s.30).

İbn Miskaveyh bildirir ki, «Mərzban ibn Məhəmməd öz qoşununu yığıb əhaliyə çağırışla müraciət etdi və onların yanına bütün ucqarlardan könüllülər gəlməyə başladılar. O, otuz min adamla hərəkət etdi, lakin xeyli qüvvə toplanmasına baxmayaraq, rusların qarşısında dura bilmədi. Onlara az-çox təsir edə də bilmədilər. Onlarla səhər və axşam vuruşdular, ancaq hər dəfə əzilərək qaytarıldılar. Onlar arasında müharibə bu qaydada xeyli davam etdi və qırılanlar həmişə müsəlmanlar oldu» (265, s.30).

İbn Miskaveyhin məlumatında bildirilir ki, «Ruslar Bərdəyə yiyələndikdən sonra, orada çoxlu növ meyvələrdən yeyib xəstələndilər. Onların arasında epidemiya əmələ gəldi, ona görə ki, onların ölkəsi çox soyuqdur və orada meyvə ağacları bitmir, onlara az miqdarda meyvə yalnız başqa ölkələrdən gətirilir. Onların sayı azaldı» (265, s.32).

Rusların Bərdəyə basqını barədə digər müəlliflər də məlumat verir. Əl-Hüseyninin «Zinət-ül məcalis» əsərində bildirilir ki, «ruslar Xəzər dənizindən Kür çayına keçib Bərdə şəhərinə gəldilər. Orada çoxlu meyvə yeyib diş xəstəliyinə düşdülər. Buna görə şəhəri tərk etdilər» (90, s.53; 265, s.33). Xəstəliklərin ruslara təsir etməsinə baxmayaraq onların müqaviməti səngimirdi. Onlara qarşı mübarizə də getdikcə güclənirdi. İbn Miskaveyh bildirir ki, «Mərzbanın qoşunu ruslarla müharibəni onları mühasirədə saxlayıb gücdən salanadək davam etdirdi» (265, s.33). Mərzbanın qoşunu tərəfindən uzun müddət mühasirədə saxlanması rusların vəziyyətini ağırlaşdırmış, yerli əhalinin köməkliyi ilə davam etdirilən ardıcıl döyüşlər onların müqavimətini zəiflətmişdi (265, s.33).

İbn Miskaveyh yazır: «Mərzban danışırmış ki, deyləmlər onlarla kişi kimi vuruşdular və onlardan 700 nəfərini, o cümlədən onların rəisini öldürdülər. Sağ qalanlar yalnız şəhərdə yerləşib yığdıqları böyük miqdarda var-dövləti, ehtiyatları və əsirləri saxladıqları Şəhristan adlı şəhər qalasında gizlədənlər oldular» (265, s.33).

İbn Miskaveyh göstərir ki, «rusların sayı azaldığından, bir gün gecə ikən qiymətli əşyaları, özlərinə məxsus olan paltarları, nəyi vardısa, hamısını götürüb arxalarına bağladılar, yerdə qalanını yandırdılar və yerləşdikləri qalanı tərk etdilər. Kürə tərəf yola düşdülər. Orada hazır qayıqlar dayanmışdı, onlar öz ölkələrindən onlarla gəlmişdilər; qayıqlarda matroslar və qənimətin bir hissəsini böldükləri üç yüzə qədər rus adamı var idi. Onlar qayıqlara minib, üzüb getdilər …» (95, s.34).

İbn Miskaveyh həmin hadisəni qısa, yığcam şəkildə təkrar edir: «(944/45). Həmin ildə xəbər yayıldı ki, Xəzər ölkəsinin arxasında yaşayan, «rus» adı ilə tanınan xalq Azərbaycana soxulub və Bərdəni ələ keçirib. Bu xalqın dini

yoxdur, ancaq hakimiyyət axtarır; o qaçmaq nə olduğunu bilmir; onun silahı və xarici görkəmi deyləmlərə (olduğu kimi) oxşayır… Bir neçə vaxt keçdikdən sonra, müsəlmanlar onların üzərinə hücum etdilər və onlardan heç kimi (sağ) qoymadılar» (265, s.34).

Mənbələr göstərir ki, ruslar Bərdə şəhərini elə dağıtmışdılar ki, yerində yalnız xarabalıqlar qalmışdı (40, s.86; 181, s.20; 359, s.65).

Bəzi mənbələrdə rusların hücumunun 943/44-cü ildə baş verdiyi göstərilir. Həm mənbələrdə, həm də tədqiqat əsərlərində onların kim olduğu, gəldikləri yol və hücumun hansı ayda edilməsi haqqında fikir ayrılıqları vardır. Tədqiqatçılar həmin rusların slavyanlardan və yaxud tamamilə başqa tayfalardan – bulqar, türk və yaxud Skandinaviya tərəfdən gəlmiş varyaqlardan və ya Qərbi Avropadan gəlmiş normanlardan ibarət olduğunu güman edirlər (29; 114; 120; 197; 210, c. I; 239, s.250; 256, s.215; 265, s.28-34; 296; 310; 329, s.81; 395).

Mənbələrdə rusların sözügedən hücumuna aid vaxt göstəriciləri üst-üstə düşmür. İbn Miskaveyh əsərinin bir yerində rusların Bərdəyə gəlməsi tarixini 332(943)-ci il (265, s.28), başqa yerində isə 333(944)-cü il kimi qeyd edir (265, s.35). Digər müəllif həmin hücumun tarixini 944-cü il hesab edir (264, s.27). Tədqiqatçıların əsərlərində də bu səbəbdən müxtəlif tarixlər göstərilir. V.Bartold (210, c. I), V.Mavrodina (256, s.13), M.Şərifli (169, s.134), Ə.Haqverdiyev (90, s.56-57) və başqaları rusların qayıtmalarını 944-cü ilin yayına, B.Dorn (256, s.12), A.Yakubovski (381, s.38), N.Polevoy (342, s.43.) rusların Bərdəyə hücumunu 943-cü ilin payızına, geri qayıtmalarını isə 944-cü ilin yazına aid edirlər.

«Albaniya tarixi»nin verdiyi məlumata görə, rusların Bərdədə altı ay, həmin hadisələrin həmdövrü olan Məsudinin

məlumatına görə, bir il qaldığını və digər mülahizələri nəzərə alaraq rusların Bərdəyə hücum tarixini müəyyənləşdirmək mümkündür (136, k.3, f.18; 265, s.34). Birincisi, rusların, mənbədə qeyd olunduğu kimi, şimalda, soyuq iqlimə malik olan ölkələrdə, buradakı meyvələrdən bitməyən torpaqlarda yaşadıqlarına görə, onlarda olmayan meyvələrdən yeyib xəstələndiklərini və bu, tezliklə taun kimi geniş yayılan xəstəliyə düçar olduqlarını, onların çoxunun məhv olduğunu nəzərə alsaq, həmin meyvələrin Bərdədə yazın axırı – yayın əvvəllərində yetişən giləmeyvələr olduğu güman edilir (265, s.34). İkincisi şimaldan gələnlərin Qarabağın yay günlərində, mənbədə qeyd edildiyi şəkildə, cəsarətli döyüşlər apara bilməsi qeyri mümkündür. Kür çayının və Xəzər dənizinin cənub hissəsinin donmadığını da nəzərə alsaq, hücumun şimallıların əl-qol açdığı qış fəslində olduğu ehtimal edilə bilər. Beləliklə, hücum tarixi də iki cür – 943/44 və 944/45-ci illər kimi göstərilir (169, s.156; 265, s.28, 34).

Hesab edirik, ruslar Bərdəyə 943/44-cü ilin payız və ya qış aylarında hücum etmiş, soyğunçuluq və talanlarla məşğul olmuş, yazı orada keçirmiş, yerlilərin müqavimətinə davam gətirmədiklərinə görə ərazini 944/45-ci ilin yayında tərk etməyə məcbur olmuşlar.

Rusların Bərdəyə hücumuna aid tədqiqatçıların da maraqlı mülahizələri vardır. Məsələn, A.A.Bakıxanov əl-Məsudiyə, əl-Əsirə əsaslanaraq rusların Xəzər sahillərinə birinci yürüşü və Bərdəyə hücumunu təhlil edir, hücumların səbəbi və nəticələri barədə məlumat verir. Ancaq o, yanlışlığa yol verərək hücumun vaxtı barədə hər iki müəllifin məlumatını, yəni həmin müəlliflərin eyni hücumdan bəhs etdiyini bildirir (208, s.61).

Rusların Bərdəyə hücumuna izahat vermiş N.Karaulov göstərir ki, Bərdəyə gəlmiş ruslar Rus knyazı İqorun

qoşununun bir hissəsi ola bilərdi ki, onların Bərdəyə müsəlmanları öz tərəfinə çəkmək məqsədi ilə gəldiyi təxmin edilir (359, s.31-32). Guya orada (Bərdədə) onları zəhərlədiklərinə görə qəzəblənərək, əhali üzərinə ödənclər qoyub, sonra da cəzalandırmışlar (136, k.3, f.18; 169, s.134). Bu fikir həqiqətdən çox uzaq görünür. Döyüşçülər İqorun xırda bir dəstəsi olsa idi, bu qədər müqavimətə duruş gətirə bilməzdi. İkincisi, çox güman ki, uzun bir məsafəni keçərək Bərdəyə gələn dəstələri var-dövlət qazanmaq həvəsi gətirmişdi. Yeri gəlmişkən, tarixi faktları saxtalaşdırmaqla və qərəzli yanaşmalarla yazılmış tədqiqat əsərlərində, hətta orta məktəb üçün tarix dərsliklərində rusların Bərdəyə gəlişinin güya xeyirxah niyyətli olduğunu beyinlərə yeritməyə cəhd göstərmişlər.

Bu baxımdan A.Yakubovskinin şərhləri də diqqəti cəlb edir. O da, bu hücumları İqorla əlaqələndirir. Burada maraqlı cəhət bir də odur ki, müəllif həmin hücumları xəzərlərlə bağlayır. Müəllifin fikrincə, xəzərlərə məğlub olmuş Kiyev rusları xəzərlərin təkidi ilə əvvəl Konstantinopola, sonra isə Salarilərə doğru hücumlar təşkil etmişdilər ki, onlardan biri də Bərdə hücumu olmuşdur (169, s.146). Kiyev şəhərində arxeoloji qazıntılar zamanı tapılmış, üzərində bərdəli ustanın (zərgərin) adı və yeri yazılmış məmulat və qəlibin tapılması da bununla əlaqədar ola bilərdi (26).

Bərdəyə gəlmiş qoşunun, yuxarıda qeyd etdiyimiz kimi, normanlar və yaxud skandinaviyalılar olması barədə də məlumatlar verilir (169, s.124). Ərəb mənbələrində verilən məlumatlardan aydın olur ki, xəzərlər həmin dövrdə böyük qoşuna, Xəzər dənizinin şimalında böyük üstünlüyə malik idilər. Xəzərlərin razılığı olmadan həmin ərazilərə daxil olmağın mümkünlüyü şübhə doğurur. Demək olar ki, Bərdəyə hücum etmiş ruslar müəyyən şərtlər əsasında

xəzərlərlə razılığa gələrək, Xəzər dənizinə çıxıb oradan Kür çayına keçməklə, Bərdəyə gələ bilərdilər. Şəhəri soyub-talamağın asan başa gəlmədiyini gördükdə isə əhalini qırmış, şəhəri talan edib, dağıtmışlar.

Araşdırmalar göstərir ki, cənubdan və şimaldan yadellilərin yürüşləri, soyğunçuluq, dağıntılar şəhərin ahəngdar inkişafını pozmuş, eyni zamanda şimallıların kasad təbiətlərinin və acgöz niyyətlərinin ucbatından edilmiş qarətçi hücumlar Azərbaycanda müstəqil siyasi quruluşa və dövlətçiliyə güclü zərbə vurmuşdur (265; 358).

Ruslar tərəfindən dağıdılmış Bərdəni bərpa etmək, onu əvvəlki vəziyyətinə qaytarmaq Salari hakimlərini maraqlandırmamış, Salarilər dövlətin paytaxtı olan Ərdəbilin inkişafı ilə daha çox məşğul olmuşlar (169, s.156).

Nəhayət, Bərdə şəhəri Salarilər dövründə nəinki inkişaf etməmiş, hətta hakimiyyət uğrunda gedən çəkişmələr, ara müharibələri, soyğunçu hücumlar, yerli hakimiyyət orqanlarının fərasətsizliyi nəticəsində dağılmış, əvvəlki şəhərdən əsər-əlamət qalmamışdır.

Bərdə şəhəri ruslar tərəfindən dağıdıldıqdan sonra uzun müddət xarabalıqlar içərisində qalmışdır. Əl-Müqəddəsi xəbər verir ki, Bərdənin «ətrafları artıq dağılmış, əhalisi azalmışdır. Bərdənin qalası indi nizamsız haldadır» (173, s.131; 316, s.7).

Yaqut əl-Həməvi özündən əvvəlki müəlliflərin yazdıqlarına istinad edərək bildirir: «Bərdənin çox böyük şəhər olduğunu qeyd edirlər. Bu, köhnə məlumatdır. İndi həmin şəhərdə heç bir şey qalmamışdır. Azərbaycanda gördüyüm Bərdə şəhəri tamamilə dağılmış, əhalisi azalmış, kiçik kəndə çevrilmişdir. Orada vəziyyət dözülməzdir, aclıq və yoxsulluq-dur» (40, s.87; 370, s.25).

Bərdənin tamamilə bərbad hala düşməsində yerli hakimlərin laqeydliyi də öz təsirini göstərdi. «Ruslarla

müharibə zamanı hakim dairələrin təzyiqi ilə (ölkəni) ağılsız adamların idarə etməsi nəticəsində vaxtaşırı baş verən və bu günədək davam edən basqınların törətdiyi dağıntılara baxmayaraq…» bu dağıntını aradan qaldırmağa maraq göstərilmədi (268, s.86).

Ərəb xilafətinin zəifləməsi, ayrı-ayrı dövlətlərin yaranması ilə yeni paytaxtlar olan Ərdəbil, Təbriz, Gəncə, Şamaxı kimi şəhərlər inkişaf etməyə başladı. Bərdə həmin dövrdən ölkənin siyasi-inzibati mərkəzi hüququnu itirdi. Bərdənin böyük iqtisadi rolu tənəzzülə uğradı (169, s.156). O, yalnız din və mədəniyyət mərkəzi kimi qaldı (169; 211, s.44; 231, s.35). Həmin vaxtdan etibarən şimaldan gələn ticarət yolunun üstündə yerləşən Gəncənin nüfuzu artdı. X əsrin 60-cı illərində Arran valisinin iqamətgahı artıq Bərdədə deyil, Gəncədə yerləşirdi. V.Bartold yazır: «Gəncə şəhəri Şəddadilərin əlinə keçərək onların paytaxtı oldu. Bundan sonra Gəncə Qafqazın əsas şəhəri hesab edilirdi. Bərdə isə artıq özünə gələ bilmədi» (211, s.44).

Şəddadilər sülaləsinin banisi Məhəmməd ibn Şəddad Salariləri məğlub etdikdən sonra, onun oğlu Əli Ləşkəri 971-ci ildə hakimiyyəti ələ keçirdi və Gəncə əmirliyinin əsasını qoydu. Həmin vaxtdan etibarən Gəncə şəhəri Şəddadilər dövlətinin (971-1075) paytaxtına çevrildi (48, s.10). Bütün Arran Şəddadilər tərəfindən ələ keçirildiyi üçün Bərdə də həmin dövlətin tərkibində qaldı. Çox keçməmiş Şəddadilərin zəifləməsindən istifadə edən Şirvanşah Məzyədilər Bərdəni ələ keçirdilər (982-ci ildə). Şirvanşah Məhəmməd ibn Əhməd (981-991) Bərdəni idarə etməyi Əli ibn Musaya tapşırdı. İbn Musa isə bir müddətdən sonra özünü müstəqil hakim elan etdi. Lakin bu da çox çəkmədi. Şəddadi hökmdarı Fəzl ibn Məhəmməd 993-cü ildə Bərdəni yenidən Şəddadilər dövlətinə tabe etdi (5, s.132; 90, s.20).

XI əsrin 50-ci illərində Azərbaycana gəlmiş Səlcuqlar Şəddadiləri də asılı vəziyyətə saldılar. Bərdə də səlcuqların əlinə keçdi. Həmin dövrdə davam edən hücumların arası kəsilmirdi. İ.Artamanova görə, 1062-ci və 1065-ci illərdə alanlar iki dəfə Bərdəyə hücum edib onun ətrafını qarət etmiş, saysız-hesabsız əsir aparmışlar (90, s.61; 198, s.22).

Əl-Hüseyni bildirir ki, «h.460-cı ildə (m.1068-ci ildə) Baqrat adlı Abxaz (söhbət Gürcüstandan gedir – Q.H.) çarı Bərdə üzərinə hücum etdi, bu, müsəlman ölkələrindən biri idi. Onda sultan (Alp Arslan – Q.H.) planlaşdırdığı kimi möhkəmləndi və Abxaz ölkəsinə tələsdi…» (182, s.54). Müəllif yazır ki, «sultan sonra Abxazın çarı Baqrata qarşı mübarizəni davam etdirdi» (182, s.56).

Mənbələrə əsaslanan tədqiqatlarda bildirilir ki, 1068-ci ildə səlcuq sultanı Alp Arslan Arrana daxil oldu. Bu zaman ətrafda olan hökmdarlar ona öz münasibətini bildirməyə çalışırdı. Şirvanşah Fəribürz qiymətli hədiyyələrlə Alp Arslanın yanına gəldi, öz xidmətini ona təklif etdi (309, s.60). Gürcüstan səfərindən sonra Gəncədən keçib Bərdəyə gələn sultana, Bab əl-Əbvab şəhərinin nümayəndələri şəhərin bir neçə rəisinin şirvanşah Fəribürz tərəfindən həbs edilməsi barədə şikayət etdi. Sultan onların azad edilməsini tələb etdi və onların azadlığa buraxılmasını təmin etdikdən sonra şirvanşahın özünü həbsxanaya saldı. Sonra onu həbsdən azad etdi və ondan böyük miqdarda illik xərac verməyi tələb etdi (309, s.61).

Əl-Hüseyni yazır ki, «Sultan Gürcüstanda beş ay qaldı. Sonra ona xəbər verdilər ki, türk sultanı ölmüşdür, həmin vilayətin işlərində və hakimiyyətdə qarışıqlıq yaranmışdır. Sultan Gəncəyə qayıtdı, sonra Bərdəyə yola düşdü və ar-Raz (Araz) çayını gəmisiz və matrossuz keçdi» (182, s.56).

Fəzlullah Rəşidəddin (1247-1318) Oğuzun Arran və Muğan tərəfə yürüşü barədə məlumat verərək bildirir ki, «Oğuz həmin yayı Aladağdakı yaylaqda keçirdi. Oradan Bağdad, Gürcüstan, Diyarbəkr və Rakka (Suriyanın şimalında şəhər – Q.H.) tərəfə elçilər göndərib xəbər verdi ki, oralara gələcək…. Bu ölkələrə elçi göndərəndən sonra qışlamaq üçün Arran və Muğan tərəfə yollandı. Kür və Araz çayları arasında özünə yurd və qərargah seçdi və qışı orada keçirdi (47, s.22).

Əl-İdrisi bildirir ki, «Bayandur xan Gürcüstandan vergiləri yığmaq üçün bütün bəyləri toplamışdı. O, qəmgin idi, çünki heç kim sərhəddi keçmək istəmirdi. Nəhayət, Qorqud Begil adında bəyi razı saldı, özü ona qılınc verdi, barmağına qolçaq taxdı, əmr etdi cəsur at gətirdilər, onun yurtunu çıxardı və bəyi Bərdə və Gəncəyə göndərdi ki, oğuz ilini qorusun» (əl-İdrisi izah edir ki, oğuzların torpağını qorumaq üçün onların hökmdarı tərəfindən təyin edilmiş xüsusi adamlar olurdu) (181, s.365).

Mənbələrdə və tədqiqatlarda səlcuqların gəldiyi ilk dövrlərdə Arran şəhərlərinin böhranlı vəziyyətdə olması haqqında məlumat verilir (182; 217; 301; 309, s.60-61).

Beləliklə, Bərdə şəhəri X əsrdə keçirdiyi ağır böhrandan sonra uzun müddət bərpa olunmadı. O, əsrin sonlarında ölkənin siyasi, iqtisadi və mədəni həyatında heç bir roly olmayan şəhər kimi qaldı.

### 3.5. Bərdə şəhərinin yenidən dirçəlməsi və sonrakı tarixi (XII-XIX əsrlər).

XII əsrin birinci yarısından etibarən Bərdə Azərbaycan Atabəyləri dövlətinin təkibində idi (14, s.15; 180; 132, s.250; 263, s.18). Belə ki, 1136-cı ildə Səlcuq sultanı Məsud

Arranı iqta kimi atabəy Şəmsəddin Eldənizə bağışlamışdı. İqamətgahı Bərdədə yerləşən Eldəniz tezliklə yerli əmirləri öz tərəfinə çəkdi, özü də sultana xidmət asılılığından çıxdı. O, tədricən bütün Azərbaycana yiyələndi (4, s.140; 14, s.44; 132, s.250; 180; 182, s.144; 301).

Azərbaycan Atabəylərinin ilk iqamətgahlarından biri olmuş Bərdənin şəhər siması bərpa edildi. Şəmsəddin Eldənizin iqamətgahı on ilə qədər (1136-1146) Bərdədə yerləşdi (14, s.15).

Arxeoloji qazıntılar zamanı Atabəylərə məxsus olan sikkələrin və digər əşyaların aşkar edilməsi göstərir ki, Bərdə həmin dövrdə həqiqətən şəhər kimi varlığını saxlamış və hətta orada sikkə də zərb edilmişdir (322, s.220; 366).

Atabəylər dövlətinin paytaxtı Naxçıvana köçürüldükdən sonra Bərdə şəhərinin həyatı əsrin əvvəllərinədək adi qaydada davam etdi. Lakin monqolların hücumu hər şeyi alt-üst elədi (8, s.137-145; 180; 284, s.167; 365, s.28). Gəncəli Kirakos yazır ki, İberlər taciklər üzərində qələbəsini təntənə ilə qeyd edən zaman (1220-ci il) yaxşı silahlanmış, çoxsaylı dəstələrdən ibarət olan qoşun gözlənilmədən gəldi, Dərbənd qapılarından keçərək, güclü həmlə etməklə Albaniya ölkəsini dağıtdı, İberiyaya və digər yerlərə hücum etdi (8, s.137-145). Yol boyu rast gəldiklərinin hamısını qılıncdan keçirdilər. Adamları da, heyvanları da, hətta itləri də öldürürdülər. Onlar atlardan başqa heç nəyə, qiymətli geyimlərə, digər əmlaka məhəl qoymurdular. Onlar tezliklə Tiflis şəhərinə yaxınlaşdılar, ancaq Albaniya ölkəsinə qayıdaraq Mokok şəhərinin ərazisində yerləşdilər… Onlar iki şəhər: Beyləqanla Bərdə arasındakı bataqlıq və meşəlik yerlərdən keçərək, Beqamec adlanan yerlərdən cəsarətli hücumlar etdilər və çoxlu sayda vilayətləri dağıtdılar (284, s.117).

Fəzlullah Rəşidəddinin məlumatı: «Ölkələr tutulan zaman çoxlu əhalisi olan böyük şəhərlərdə elə qırğın olmuşdu ki, tək-tük adam sağ qalmışdı. Bəlx, Marağa, Ərdəbil, Bərdə, Gəncə, Bağdad … və bu şəhərlərə aid olan vilayətlərin çoxu buna misal ola bilər» (5, s.281-282; 365, s.28).

Monqolların birinci yürüşü başa çatan kimi şimaldan qıpçaqların hücumu başlandı (1221-ci ildə) (8, s.145; 100, s.21; 217, s.183; 365, s.31).

Gəncəli Kirakosun yuxarıda verdiyi məlumatdan fərqli olaraq, əl-Əsir bu barədə bildirir: «qıpçaqlar Bərdəyə yollandılar, onlar oradan Küşxərəyə müraciət etmişdilər ki, gürcülərə qarşı birlikdə hərəkət etmək və onlardan qisas almaq üçün gürcülərin üstünə gəlsinlər» (100, s.88). Mənbənin verdiyi məlumata görə, onlar razılığa gələ bilmədilər. Qıpçaqlar Bərdəni, onun ətrafındakı şəhər və kəndləri qarət edib geriyə qayıtdılar (8, s.137-143; 100, s.89).

Yaranmış imkandan istifadə edən gürcülər də Azərbayanın şəhərlərinə talançı basqınlar etdilər. Əl-Əsir gürcülərin Azərbaycana basqınlarından bəhs edərək yazır: «1222-ci ilin ramazan (fevral) ayında gürcülər öz ölkələrindən Arran ölkəsinə hərəkət etdilər və Beyləqan şəhərinə gəldilər. Qıpçaqlar getdikdən sonra, xilas ola bilmiş sakinlər geriyə qayıdıb şəhərin dağıdılmış divarlarını mümkün olduğu qədər bərpa etdilər. Bu zaman gürcülər gəlib şəhərə girdilər və ona sahib oldular» (8, s.149-150; 100, s.148; 359, s.89).

XIII əsr müəllifi ən-Nəsəvinin yazdığına görə, 1225-ci ildə Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddin əmir Urxanın rəhbərliyi altında Arrana qoşun göndərdi. Onlar Gəncəni və onunla birlikdə Bərdəni, Beyləqanı, Şəmkiri istila etdilər (8, s.150; 48, s.22; 190, s.163; 217, s.184; 341,

s.69). Ölkənin çox yerində, eləcə də Gəncə və Qarabağda Cəlalilərə qarşı gərgin mübarizə başlandı. Lakin, Cəlalilər Azərbaycan Atabəyləri hakimiyyətinə son qoydular (4, s.150; 8, s.150-152; 217).

Bu hadisələr Azərbaycanın, o cümlədən Qarabağ bölgəsinin həm ictimai-siyasi, həm də iqtisadi həyatına ağır zərbə vurdu.

1231-ci ildə monqollar yenidən Azərbaycana yürüş etdilər. 1239-cu ildən etibarən Azərbaycan və bütün Cənubi Qafqaz monqol xanları tərəfindən idarə olunmağa başladı.

Monqol imperiyası dağıldıqdan sonra ayrı-ayrı dövlətlər meydana gəldi. Azərbaycanda paytaxtı Marağa olan Hülakülər dövləti (1256-ci ildə) yarandı. Azərbaycan bütünlüklə həmin dövlətin tərkibinə qatıldı (8, s.156-160; 100, s.154; 156, s.45-53; 341, s.99). 1259-cu ildə Hülakü xanın əmri ilə, Arqunun başçılığı altında monqol ordusu bir neçə şəhərlə bərabər, Bərdə şəhərini də tutub Hülakülərə tabe etdi (48, s.24; 341, s.99; 365). XIII əsrin əvvəllərində başlanmış monqol hücumları böyük dağıntı və itkilərlə müşayət edilsə də sonralar şəhərlərin iqtisadi həyatının kəskin surətdə dəyişməsi ilə nəticələndi. Hülakülər iri feodalların hakimiyyətini ləğv edib bütün şəhərləri öz əllərinə aldılar və bir siyasi hakimiyyət altında birləşdirərək yeni inkişafın bünövrəsini qoydular. Bu, yeni bazarların açılmasına, mübadilə şərtlərinin dəyişilməsinə, pul təsərrüfatı sahəsinin genişlənməsinə və s. gətirib çıxartdı (329, s.82). Bütün bunlar öz əksini şəhərlərin, o cümlədən Bərdənin inkişafında tapdı. Həmin dövrdə şəhərin canlanmasını arxeoloji qazıntılar zamanı Bərdədən aşkar edilmiş pulların çoxluğu sübut edir (149; 150; 151; 152; 154; 332; 333; 335; 349).

1318-ci ildə Qızıl Orda xanı Özbək Dərbənddən keçərək Kürə qədər gəldi, İsen-Qutluğu Arranı qarət etməyə göndərdi. Beyləqana yığılmış monqol qoşununun gəlməsi təhlükəsi Özbəyi mal-qara və atları yığaraq, geri qayıtmağa məcbur etdi (156, s.45; 217, s.184; 365, s.24).

Azərbaycan uzun müdət Qızıl Orda ilə Hülakülər arasında döyüş meydanı oldu (159; 160).

Kürlə Araz çayları arasındakı ərazi əmir Çobana qarşı üsyanın mərkəzinə çevrildi. Üsyançılar bütün Qarabağ ərazisini ələ aldılar (160; 188, s.43).

1320-ci ildə Qarabağ əslən qızılordalı nəcabətindən olan, burada özünə müstəqil dövlət qurmaq istəyən Asxir-oğlan (Özbəyin qardaşı) tərəfindən zəbt edilsə də, onun bu təşəbbüsü sonadək baş tutmadı: göndərilmiş 10 min nəfərlik qoşun onun qüvvələrini darmadağın edib özünü də öldürdü (5, s.84; 160; 188, s.44).

Çobani feodallarının zülmündən azad olmağa can atan Azərbaycan əhalisi və bir sıra yerli feodallar Qazi Məhiyəddin Bərdəi və Şirvanşah Kavusun (1345-1372) başçılığı ilə Qızıl Orda xanı Canı bəyi Azərbaycana dəvət etdilər. Canı bəy 1357-ci ildə Azərbaycana gəldi və yerli feodalların köməyilə hakimiyyəti ələ aldı. Çobani əmiri Məlik Əşrəf edam edildi (5, s.328; 33; 159; 160; 178, s.217; 240, s.125).

Azərbaycana Teymurun gəlişi və teymurilər dövrü Bərdə tarixində də öz izini qoymuşdur. XIV əsrdə Naxçıvanı, Karsı, Tiflisi, Şəkini fəth etmiş Teymur Qarabağa daxil olmuşdu (178, s.27-30).

Nizaməddin Şaminin yazdığına görə, Əmir Teymur Hindistandan döndükdən sonra Azərbaycana gələrək, Gürcüstan üzərinə hücuma hazırlıq işləri görmək və qışı keçirmək üçün Qarabağda məskən salmışdı. Müəllif yazır: «Qış mövsümü başa çataraq ilk baharın qoxusu gəlməyə

başladı … ordunu təftiş edib piyadalara at və bütün əsgərə ülufə və yemək paylayaraq, Georginin vilayətinə (gürcü çarı VII Georgi) doğru yürüşə başladı. Bərdəyə gəldilər, səhrada çadırlar qurdular. Oradan Gürcüstan sərhədlərinə gəlincəyə qədər ovlandılar» (145, s.19). Mənbədə Teymurun Gürcüstanda qələbəsindən sonra Qarabağa qayıdaraq orada qışlamasından danışılır, lakin bundan sonra Bərdənin adı daha çəkilmir (145, s.21, 31).

Teymurun Qarabağa gəlişi ilə bağlı olayları Mirxond aşağıdakı kimi təsvir edir: «… yaz gələn kimi, 789-cu (miladi 1389 – cu il) ilin əvvəlində (dünya fatehi əlahəzrət Xaqan (Teymur) çiçəklənən yer olan Bərdə şəhərinə gəldi. Bu vaxt əlahəzrətə xəbər çatdı ki, Toxtamış xan xəyanət qapısında vicdansızlıq ağacı əkib; bu fikri təsdiq edən odur ki, bir qrup döyüşçü onu Kürün sahilində görüb …» (5, s.358; 48, s.25; 312).

Mənbə və tədqiqatlarda bildirilir ki, Toxtamış Azərbaycanı işğal etmək üçün vaxtaşırı hücmlar edirdi. 1387-ci ilin yazında Teymur Bərdəyə tərəf yollandı. Toxtamışın ordusu da Dərbənd tərəfdən Azərbaycan sərhədlərini keçməyə təşəbbüs göstərdi və Kür çayına gəlib çatdı. Teymur tələsmədən İbrahimə kömək edərək öz əmirlərinin başçılığı altında Toxtamışa qarşı qoşun göndərdi. Bir müddət keçdikdən sonra, o, öz oğlu Miranşahın rəisliyi altında yeni hücum təşkil etdi (188, s.387). Teymurla Toxtamışın arasında gedən vuruşmaların nəticəsində ölkədə xeyli dağıntılar baş verdi. Zeynəddin Qəzvini Teymurun hücumu haqqında xəbər verir ki, onlar Marağanın və Təbrizin axırına çıxdılar, güclü qırğın törətdilər, Mərənd və Naxçıvan vilayətlərini dağıtdılar. Əhər yolu ilə hərəkət edərək, Qarabağa gəldilər və bu vilayətdən 200 minə qədər adamı əsir apardılar (156, s.67; 178, s.50).

Teymurun Azərbaycana hücumu zamanı Bərdə şəhəri də dağıdıldı (178, s.27-30). Tədqiqatçıların qənaətinə görə, Teymurun (1333-1405) Gürcüstana hücumları zamanı (1402-1403) fatehin qoşunu Bərdə – Gəncə – Şəmkir yolu ilə hərəkət etmək üçün Ağdamdan – Bərdə – Yevlax istiqamətində getmiş, oradan Gəncəyə keçmişdi (48, s.25).

Teymur Gürcüstanla sülh bağlayandan sonra Səmərqəndə getmək üçün geri qayıdarkən Azərbaycandan keçdi (8; 188, s.393). Bu zaman Azərbaycan digər vilayətlərlə birlikdə Miranşahın oğlu Mirzə Ömər tərəfindən idarə olunurdu.

Teymurun ölümündən (1405-ci il) sonra onun vərəsələri arasında daxili çəkişmələr başlandı (8; 188, s.393; 312).

Bu dövrdə Qafqaz və Kiçik Asiyada yayılmış oğuz tayfalarının bir qrupu qaramanlılar Kiçik Asiyada və digər yerlərdə kalonlar yaratmaqda mühüm rol oynayırdılar. Bu tayfanın cəsur nümayəndələrindən biri XV əsrdə Gəncə və Bərdənin hakimi olmuş Əmir Yar Əhməd Qaraman idi (22, s.32; 336, s.163).

XV əsrdə Azərbaycan, həmçinin Qarabağ, teymurilərlə qaraqoyunluluların müharibə meydanına çevrildi. Azərbaycanda teymurilərə qarşı vuruşmuş Qaramanlı tayfasının başçısı əmir Yar Əhməd bir müddət Bərdə və Gəncə şəhərlərini zəbt edib, bu şəhərləri idarə etməyə başladı, lakin o, tezliklə teymuri Baysunqur tərəfindən məğlub edildi (1433 – cü ildə) (45, s.110; 48, s.25; 309, s.23).

Mirxond məlumat verir ki, «Yar Əhməd və Qaraman oğulları Gəncə və Bərdədən olan böyük ordu halında birləşdilər. Digər sərdarlar, ölkə şahları və xeyli hakimlər, əmir Qara Yusif, o sıradan Hacı Cəfər Təbrizli, Gürcüstan səfiri Baqrat və digərləri Qarabağa gəldilər. … Hər tərəfdən əmirin iqamətgahına axışıb gəlir, onunla əlaqələri yaxşılaşdırmağa çalışırdılar. Yaz gələndə Teymur Qarabağdan

çıxıb Təbrizə getdi. Onun sərkərdələri bütün əyalətlərə yayılaraq öz hakimiyyətlərini qurmaqla məşğul oldular» (312, s.50).

Mirxond həmin dövrün hadisələri barədə bildirir: «Qaramanlı əmirliyinə məlumat verdilər ki, Yar Əhməd Qaramanlı açıq şəkildə qiyam qaldırıb və əmirlər arasında xəbər yayıb ki, Mirzə Baysunqur vəzifəsindən kənarlaşdırılmalıdır» (312, s.50). Yar Əhməd bir müddət Şahzadənin qoşununa müqavimət göstərsə də, nəhayət, Mirzə Baysunqura təslim olmağa məcbur oldu (312, s.50).

Yaranmış siyasi vəziyyətdən istifadə edərək bir çox vilayətlərin hakimləri, o cümlədən Şirvanşah İbrahim, xalq kütlələrinə arxalanaraq öz hakimiyyətlərinin müstəqilliyi uğrunda mübarizəyə qalxdılar (188, s.393).

Qısa bir müddətdə İbrahim Şirvanın müstəqilliyini bərpa etdi (203). Teymurilər bu vəziyyətlə razılaşmalı oldular. Şirvanın müstəqilliyini də tanıdılar. Belə vəziyyətdə bir sıra vilayətlərdə, o cümlədən Şəki hakimi, gürcü çarı, eləcə də cənubi Azərbaycan feodalları kimi feodal hakimlər meydana çıxdı. Azərbaycanda, həmçinin Cənubi Qafqazda feodal hakimlər sırasında şirvanşah mühüm yer tuturdu. Teymuri Ömər Şirvanı özünə birləşdirmək istəyirdi. Ömərə qarşı Ərdəbil hakimi əmir Bestam Cəyir üsyan hazırladı. Ömər bundan xəbər tutan kimi onu zindana salmaq əmrini verdi. Bestam cənubi Azərbaycandan Qarabağa keçərək Şirvanşah İbrahimin yanında sığınacaq tapdı. İbrahim, Ömərlə mübarizədən qaçmağın mümkün olmayacağını bilsə də, Bestamı öz yanında saxladı. Tarixçilər qeyd edir ki, İbrahim Bestamla birlikdə hərəkət edərək Kürü keçdilər və Bərdədə dayandılar (188, s.393; 312). Yaranmış vəziyyətdən istifadə edərək şirvanşah Arranın bir neçə şəhərini zəbt etdi. Bestamın Şirvana gəlişi İbrahimlə Ömər arasında qarşılıqlı əlaqəni gərginləşdirdi. Ömər Şirvanşahdan

əmir Bestamı verməsini tələb etdi. Bu təklif İbrahim tərəfindən rədd edildi. İbrahim öz etirazını onunla əsaslandırdı ki, «yaydır, indi istirahət lazımdır, qışda isə Ömər Qarabağa qışlamağa gələn zaman əmir Bestam onun ordusuna veriləcəkdir» (188, s.393; 156; 312).

Bu hərəkətlər Şirvanşah İbrahimlə Ömər arasında müharibənin başlaması üçün bəhanə oldu. Onların arasında Kür çayının hər iki sahilində gedən vuruşmalar uzun müddət davam etdi. Bu döyüşlər zamanı Qarabağın şəhər və kəndləri, həmçinin Bərdə xeyli zərər çəkdi (188, s.394; 312).

XV əsrdə Azərbaycan ərazisində üç böyük dövlət – Şirvanşahlar, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri mövcud idi. Qaraqoyunlu və Ağqoyunlu ərazisi Azərbaycanın cənubunu və şimalda Kür çayına qədər Gəncə və Şəmkiri əhatə edirdi (141, s.5; 304, s.31).

Azərbaycanın cənubi-şərqində yerləşən Qaraqoyunlu dövləti ilə onun qərbində yerləşən Ağqoyunlu dövlətləri arasında gərgin mübarizə gedirdi. Vaxtilə atasına qarşı üsyan etdiyinə görə üç dəfə həbs edilmiş Həsənəli qaraqoyunlu Cahanşahın ölümündən sonra qoşun toplamağa başladı. Lakin tezliklə Uzun Həsən tərəfindən əzilən bu şahzadə əvvəlcə Bərdəyə qaçdı, oradan da artıq hücumla Ərdəbilə gəlib çatan teymuri Sultan Əbu Səidə pənah gətirdi (45, s.102; 156).

Cahanşahın öldürülməsi ilə araya düşən qarışıqlıqdan istifadə edən Uzun Həsən dərhal böyük oğlu Sultan Xəlili Təbrizə yolladı və bununla da Azərbaycan taxtına sahibləndi. Ancaq bu zaman Sultan Əbu Səidin Azərbaycana hücumu baş verdi və Uzun Həsən oğluna Təbrizdən çıxmağı əmr etdi (45, s.103; 156).

Qara Yusifin ölümündən sonra da Qaraqoyüunlularla Ağqoyunluların müharibəsi davam etdi. Qaraqoyunlu

əmirləri arasında gərgin mübarizədən istifadə edən teymuri Sultan Şahrux 1420-ci ilin dekabrında Arazı keçib Qarabağa daxil oldu. I Xəlulillah qardaşı Mənuçöhr və Azərbaycan əmirləri ilə birlikdə onun yanına gəldi. O, teymuri Şahruxun nəvəsi ilə evlənməklə bu ittifaqı daha da möhkəmləndirdi. Lakin Azərbaycanda Şahruxun mövqeyi möhkəm deyildi. Çünki, bir tərəfdən, Qara Yusifin varisləri, digər tərəfdən, Gəncə və Bərdə hakimləri ona qarşı ciddi mübarizəyə başlamışdılar (45, s.110-136; 48; 141, s.96-98).

1436-cı ildə Şahrux hakimiyyəti Cahanşaha verdi. Əbubəkr Tehrani «Kitabi diyarbəkriyyə» əsərində bildirir: «1447-ci ilin axırlarında İskəndər ibn Qara Yusifin oğlu Əlvənd yağı olub öz hörmətli əmisi Cahanşah Mirzəyə qarşı üsyan qaldırdı, Kürdüstandakı Ərbili tutdu. Cahanşah Mirzə onu dəf etmək üçın Əmir Rüstəm Tərxanı hücuma göndərdi. Qoşun oraya çatan kimi hər iki tərəf arasında böyük qırğın oldu, Əlvənd məğlubiyyətə uğradı. Qarət olunmuş və əhvalı pərişan halda Cahangir Mirzənin yanına getdi. Cahanşah Mirzə elçi göndərib Əlvəndi Cahangir Mirzədən tələb etdi" (22, s.108). Cahangir Mirzənin rədd cavabından sonra Cahanşah Mirzə qışı Gəncə və Bərdədə keçirdi. Üç ildən sonra Ərzincana Osman bəyin oğlu Mahmud bəyin üzərinə qoşun göndərdi (22, s.108).

Əbubəkr Tehrani daxili çəkişmələrin sonrakı gedişini şərh edərək bildirir ki, Ərəbşah bu hücumlar zamanı Gəncə və Bərdə tərəfə çəkildi (22, s.131).

Əbubəkr Tehrani Sahibqranın Azərbaycana yollanması və Həsənəlinin qüvvələrinin məhv olmasından bəhs edərək bildirir ki, «Həsənəli naxələf bir övlad kimi atasının var-dövlətini qumara qoydu, lüt-üryan, rüsvay və pərişan halda qaçdı, arvad-uşağından ayrı düşüb mülkünü və malını itirdi. O, düşərgədən Bərdəyə qaçdı. Cahanşahın ölümündən

sonra həmin vilayətin hakimi olmuş Piri Qaramaninin övladları (əvvəlcə) onu Sahibqranın hüzuruna göndərmək istədilər (lakin) sonra bu fikirdən daşınıb ona imkan verdilər ki, Ərdəbilə getsin və böyük şeyxlərin (Səfəviyyə təriqətinin banisi Şeyx Səfiəddin İshaq nəzərdə tutulur) hüzuruna pənah aparsın. İki aydan sonra o, möminliyin pənahı olan şeyx ilə birlikdə Sultan Əbu Səid Mirzənin hüzuruna getdi» (22, s.244, 249-250).

Əs-Samani «Tarixnamə» əsərində Teymuri Sultan Şahruxun Əmiran şaha yazdığı məktubu şərh edərək bildirir ki, «… Qoy o (Xəlil Mirzə – Q.H), Beyləqan, Bərdə kimi ən çiçəklənən vilayətin torpaqları və Trabzona qədər ölkələrlə, kifayətlənsin və oraya yola düşsün, Mavarannəhr ölkəsini isə əmirzadə Pirməhəmməd Bahadura qoysun …» (288, II, 60).

XV əsrin axırlarında daxili çəkişmələr Ağqoyunlu dövlətini zəiflətdi. Ruzbixan Xunci «Tarix-i alam-ara-yi Əmini» əsərində bildirir ki, 1486-cı ilin avqustunda «Xəlil bəy Sufi Şiraz darğası vəzifəsindən geri çağırıldı və əmir Müzəffər əd-Din Mənsur Pornək vali və hökmdar sifətilə Şiraza yola düşdü. Xəlil bu vəzifədən ona görə qovuldu ki, o, isti bölgənin ərazilərinə və Caruna (Hörmüz adası) dəfələrlə hücum etdiyinə görə, ondan saraya daimi olaraq şikayətlər göndərilirdi. Xəlil, hətta, Hindistanı (Hindi) da işğal etməyi nəzərdə tutmuşdu və bu məqsədlə gah gəmi düzəltdirir, gah da Fars (körfəzi – müəllif) sahillərində istehkam inşa etdirirdi. … Həmin vaxt Gürcüstan, Gəncə və Bərdə vilayətləri (vəch-i xuriş) padşahzadə Bəysunqura təhkim edilmişdi» (364, s.70). Azərbaycanın başqa əraziləri kimi Bərdə də əldən-ələ keçən hakimiyyətlərin acı nəticələrinə tab gətirməli olurdu.

Ruzbixan Xunci Şeyx Heydərin hücumları zamanı Bərdə ərazisindən keçməsi ilə əlaqədar olaraq həmin vilayətə

daxil olan yerlərin adını çəkir (364, s.86). O qeyd edir ki, Şeyx Heydərin göstərişi ilə Ərdəbildən çıxıb Arazı keçərək Qarabağa gələn ordu Bərdə vilayətinə daxil olan şəhər və qalaları tutaraq, məcburi vergi tələb edənlərlə mübarizə etmək qərarına gəlmişdi. Ruzbixan Xunci yazır: «O, Bərdə vilayətindəki Böyük Hakimin mülkü Caraberti (Çarpert) (Carabert Bərdə ilə Gəncə arasında, Kürəkçay üzərində qaladır) (364, s.135) vilayətinə gəldi, onu talan etdi və zimmilər cəmiyyətinin mülkiyyətini əlindən aldı» (364, s.86).

Hakimiyyət uğrunda çəkişmələr gedən zaman Uzun Həsənin nəvəsi Rüstəm Mirzə Naxçıvanda Əlincə qalasına salınmışdı (45, s.110). 1492-ci ildə Əbih Sultan Rüstəm Mirzəni Əlincə qalasından xilas etdi. Hakimiyyət uğrunda mübarizə yenidən canlandı. 1492-ci il may ayının əvvəllərində Bərdə yaxınlığında Baysunqurun qoşunu Rüstəm Mirzənin qoşunu ilə döyüşə girdi. Döyüş Rüstəm Mirzənin qələbəsi ilə başa çatdı (45, s.110). Rüstəm 1492-ci ilin 28 mayında taxt üstündə mübarizəyə başladı (364, s.144). 1492-ci il mayın sonunda Təbrizdə Ağqoyunlu taxtına əyləşdi. Rüstəm Mirzə geniş torpaq sahələri – soyurqal paylamaqla özünə böyük rəğbət qazandı. Həsən bəy Rumlu bildirir ki, «yüz il ərzində Qaraqoyunlu və Ağqoyunlu padşahlarından heç biri Rüstəm Mirzə qədər soyurqal paylamamışdı. Məhz bu səxavəti sayəsində o, beş il (1492-1497) Ağqoyunlu dövlətini idarə etdi» (45, s.110; 156; 315; 364, s.143).

Rüstəm Mirzənin hakimiyyəti dövründə iri feodallar daha da gücləndilər və mərkəzi hakimiyyətə qarşı çıxdılar. 1492-ci ilin sonunda hakimiyyətdən devrilmiş Baysunqur babası Fərrux Yassarın köməkliyi ilə Bərdə ilə Gəncə arasında Rüstəmə qarşı döyüşə girdi, lakin məğlubiyyətə uğradı. Rüstəm Mirzə Şirvana daxil oldu, onu viran etdi.

Müttəfiqlər isə Qarabağa hücum etdilər. Rüstəm onlara qarşı mübarizədə Ərdəbil şeyxi Heydərin oğlu Sultanəliyə arxalandı. Baysunqur və onun müttəfiqləri 1493-cü ildə Əhər yaxınlığında darmadağın edildi, özü isə öldürüldü (45, s.111- 314).

Ruzbixan Xunci bildirir ki, «Rüstəm 897-ci il rəcəb ayının axırıncı günündə (miladi 1492-ci ilin mayın 28-də) taxta çıxdı. Beləliklə, Şirvanşahlar Səfəvi Cüneyd və Heydərın ölümünə görə məsuliyyətli idilər, Rüstəm axırıncının uşaqlarını azad etdi və onları Ayba-sultanla birlikdə Baysunqura qarşı göndərdi. İkinci toqquşmada Baysunqur (898-ci il zülqədə ayının əvvəlində – 1493-cü il avqustun ikinci yarısında) Gəncə yaxud Bərdə yaxınlığında həlak oldu» (364, s.144).

Gödək Əhməd XV əsrin sonlarında Azərbaycana hücum etdi və hakimiyyəti ələ aldı. Hüseynəli Tərxan Gödək Əhmədi padşah elan etdi və onun adına pul kəsdirdi. Həmin pullar Bərdədə kəsilirdi. Bu vaxt şəhərin iqtisadiyyatı da bir qədər dirçəldi (332, s. 28).

Gödək Əhməd 1496-cı ildə Naxçıvan yaxınlığında Rüstəm Mirzəni də məğlub etdi. O, Ağqoyunlu dövlətini möhkəmləndirməyə çalışırdı. Lakin qiyam qaldırmış feodallar onu öldürdülər. Onun istəyi həyata keçmədi (45, s.123; 141).

Muradın əmisi olan Yusifin oğlu Əlvənd Mirzə isə Diyarbəkrə gələrək dayıları Qasım bəy və Rüstəm bəyin köməyilə Ağqoyunlu taxtı uğrunda mübarizəyə hazırlaşdı (45, s.123; 141; 304). XV əsrin axırında iki güclü varis – Murad və onun əmisi oğlu Əlvənd arasında mübarizə kəskinləşdi. Lakin bu çəkişmə çox çəkmədi. 1500-cü ildə bağlanmış sülhə görə, Ağqoyunlu torpaqları iki yerə bölündü. Diyarbəkr, Azərbaycanın Kürdən cənuba doğru olan hissəsi, Qarabağ və Qərbi Azərbaycan ərazisi Əlvəndə,

Ərəb İraqı, Fars və Kirman isə Murada çatdı. Bu parçalanma tezliklə Ağqoyunlu dövlətinin dağılmasına səbəb oldu (24, s.43; 45, s.111-113).

1501-ci ildə Şah İsmayılın başçılığı altında Səfəvilər dövləti yarandı və qısa müddət ərzində Azərbaycan ərazisi bu dövlət ətrafında birləşdirildi (24, s.33; 45, s.113; 261, s.26; 282, s.64).

Səfəvilər 13 bəylərbəylikdən ibarət ayrı-ayrı inzibati qurum yaratdı. Bunlardan bir də Qarabağ bəylərbəyliyi idi. Qarabağ bəylərbəyliyinin ilk əmiri Şahverdi sultan təyin olundu. Qacar nəslindən olan Ziyadoğlu sülaləsi Şahverdi xandan başlayaraq nəsilbənəsil Qarabağ bəylərbəyliyində hökmranlıq etdi. Qarabağ bəylərbəyliyinə Şəmkir, Zəyəm, Tovuz, Şəmsəddinqulu, Qazax, Borçalı, Bərdə, Beyləqan, Yevlax, Ağdam və digər yerlər daxil idi (48, s.26; 49; 282, s.64).

XVI əsrdə Osmanlı dövlətinin hücumları zamanı Krım xanı Qazi Gəray dəfələrlə Gəncə-Qarabağ əyalətinə basqın edərək Gəncə ilə Bərdə ərazisini talan etdi (49, s.15; 112, s.256). Krım xanı Məhəmməd Gəray Osman paşa ilə birlikdə Kürü keçərək Gəncə, Qarabağ və Muğana hücum etdi. Lakin Qızılbaşların Şirvana daxil olduğunu eşidib geri qayıtdı (7, s.209).

Osmanlı-Krım ordusunun törətdiyi dağıntılar, talan-qarətlər nəticəsində Azərbaycanda aclıq və taun baş qaldırdı (7, s.209).

1580-1581-ci illərdə Qazı Gəray və Səfi Gərayın başçılığı ilə tatar ordusu daha iki dəfə hücum etdi. Sonuncu yürüş zamanı Peykər xan Qacarın rəhbərliyi altında qızılbaş dəstəsi Krım tatarlarını Şabranla Şamaxı arasındakı ərazidə qarşıladı. Peykər xan onları ağır məğlubiyyətə uğratdı. Qazi Gəray əsr düşdü. Ancaq hərbi əməliyyatlar davam etdirildi (7, s.209).

Krım tatarları Osmanlılara hakimiyyətlərini möhkəmləndirmək üçün çox mühümköməklik göstərirdilər (7, s.209).

XVI əsrin sonlarında Osmanlıların hücumları gücləndi. Osmanlı sultanı III Muradın (1574-1594) vaxtında – 1578–ci ildə Mustafa paşa Azərbaycanı tutdu (8, s.245; 24; 48, s.26; 49). Sonra Qarabağ, o cümlədən Bərdə Osmanlıların əlinə keçdi. Sultan qoşunları 1588-ci ildə Məhəmməd xan Ziyad oğlu Qacarıın əlində olan Qarabağı bütünlüklə ələ keçirdi. Gürcüstandan keçib gələn Fərhad paşa Gəncə və Bərdəyə daxil oldu və Osmanlı hərbi hissələrini burada yerləşdirdi. Osmanlı qoşunları tərəfindən təqib edilən «Qacarlar» və «İyirmidördlü» tayfaları Arazın cənub sahilinə geri çəkildilər (24, s.178).

Osmanlı-Səfəvi münasibətlərini diqqətlə araşdıran Yaqub Mahmudov yazır: "Osmanlı imperiyası ilə Səfəvi arasında 12 ilə qədər davam edən yeni müharibə (1578-1590-cı illər) başlandı" (115, s.199).

Bu müharibə nəticəsində bütün Azərbaycan sultan III Murad tərəfindən tutuldu (24, s.179; 115, s.203). Əhalisinin çox böyük əksəriyyəti yerli türk-müsəlmanlardan ibarət olan Qarabağ əhalisi Səfəvi-Osmanlı qarşıdurması nəticəsində bölgəni tərk etdi və bu səbəbdən də Qarabağda türk əhalisinin sayı, müvəqqəti də olsa, nəzərəçarpacaq dərəcədə azaldı. Bu zaman hakimiyyət dəyişikliyini düzgün qiymətləndirən Qarabağın xristian məlikləri boşalmış türk kəndlərini və torpaqlarını rüşvət və hədiyyələrlə ələ keçirdilər. Müasir erməni tarixşünaslığının Qarabağ əhalisinin əsrlər boyu ermənilərdən ibarət olması və hətta onların burada əksəriyyət təşkil etməsi haqqında uydurmaları Eçmiədzin keşişi İsrael Ori tərəfindən ortaya atılmış avantüranın nəticəsində yaranmışdır ki, onlar da həmin bu "faktlara" söykənir (49, s.19).

Osmanlı-Səfəvi müharibələrinin yaratdığı vəziyyət sonralar erməni tarixinin «çiçəklənməsinə» xidmət etmişdir. XVII əsrdə baş vermiş hadisələrə öz münasibətini bildirən Arakel Təbrizlinin Sovetlər dövründə nəşr olunmuş əsərində göstərilir ki, I Şah Abbas nəhəng türk ordusunun hücumu ərəfəsində İrəvandan «hamını – xristianları, məhəmmədiləri və yəhudiləri» İrana köçürdü. Erməni tarixçiləri üçün bu da bir «fakta» çevrilmişdir ki, guya Qərbi Azərbaycan vaxtilə ermənilərin doğma torpaqları olmuş və onlar həmin vaxt «öz doğma torpaqlarından zorla köçürülmüşlər» (125, s.171,174, 182; 194, s.203; 231, s.104). Hansı ki, həmin dövrdə Qarabağda yaşayan erməni adlandırılanlar, eləcə də məliklərin özləri xristian albanlar idilər. Məlumdur ki, Qarabağa ermənilər XIX əsrdə İran və Türkiyədən köçürülmüşlər (116; 228; 299).

Burada, yeri gəlmişkən, bir məsələyə də toxunmaq lazımdır ki, ermənilərin bu dolaşıq eyhamlarına güya əks çıxmaq istəyən bəzi «tarixçilər» daha ciddi səhvə yol vermışlər. Belə ki, Gülüstan və Türkmənçay müqavilələrindən sonra Qarabağa köçürülənlər güya ermənilər deyil, vaxtilə Səfəvilər dövründə İrana, Türkiyəyə qovulmuş və sonradan geri qayıdan alban mənşəli əhali olduğu bildirilir. Bununla da Qarabağa ermənilərin XIX əsrdə köçrülməsi faktını şübhə altında qoyur (298).

Doğrudur Sovetlər dövrü tarixşünalığında Qarabağ məliklərinin erməni kimi tanıdılmasına edilən cəhdlər uzun müddət Azərbaycan tarixşünaslığında da öz əksini tapmışdı. Ona görə də bəzi əsərlərdə «erməni məlikləri» ifadəsi mexaniki olaraq təkrar edilmişdir. Ancaq nəzərə almaq lazımdır ki, bu barədə son dövrlərdə obyektiv tədqiqatlar aparılmış, bu məsələnin əsl mahiyyəti və məliklərin mənşəyi barədə maraqlı şərhlər verilmişdir (89; 228).

Burada bir məsələyə xüsusi diqqət vermək lazımdır: Qarabağda bir çox yerli iri tayfalar mövcud idi ki, bunlar ölkənin siyasi həyatında mühüm rol oynayırdılar. Bu tayfalardan biri Qacarlar idi. Qarabağın XVI-XVIII əsr tarixində Qacarlar soyunun böyük rolu olmuşdur. Azərbaycan tarixşünaslığında Qacarların Qarabağa gəlmə oması barədə fikirlər mövcuddur. A.A.Bakıxanova görə, Cəlairi türklərindən olan Qacarlara məxsus 200 min ailə Hülakü xan dövründə İrana və Azərbaycana köçürülmüşdür. Qacarların bir hissəsi Anadoluya və Suriyaya köçmüşdür. Əmir Teymur 50 minlik Qacar ailəsini Cənubi Qafqaza köçürmüş, İrəvan, Gəncə və Qarabağda yerləşdirmişdi (208, s.82,172).

M.V.Baharlı bildirir ki, Cəlairi türklərindən olan Qacarlar ilk əvvəl Kiçik Asiyada və Suriyada yerləşdi, sonra Teymur onları İrana köçürdü. Onlar Mərv, Mazandaran, həmçinin İrəvan və Qarabağ bölgələrində yerləşdirildi (120, s.48-49).

Yuxarıda deyilənlərdən fərqli olaraq «Qızılbaşlar tarix-i»nin müəllifi Qacarların mənşəyinə daha dəqiqliklə yanaşaraq onların qədimdən Gəncə və Bərdədə yaşadıqlarını, bir qisminin isə Şamdan gəldiyini bildirir (142, s.48).

Qacarların Azərbaycan dövlətçiliyi tarixində yeri və rolu baxımından Azərbaycan Səfəvi dövlətinin yaranmasında aparıcı mövqedən çıxış edən Qacarlar soyundan olan Qara Piri bəyin (Şeyx Heydərin müridlərindən biri) fəaliyyətini dövrün qaynaqları bir daha təsdiq edir (377, 81-82).

1547-ci ildə Şirvanda Əlqas Mirzənin başçılığı altında üsyan başlanan zaman Gürcüstan səfərindən Yevlağa qayıdan Şah Təhmasibin üsyançılara qarşı göndərdiyi 5 min nəfərlik Qızılbaş süvarilərinə oğlu İsmayıl Mirzənin

lələsi Göycə Sultan Qacar və Qarabağ bəylərbəyi Şahverdi Sultan Ziyadoğlu Qacar rəhbərlik etmişdir (377, s.84-85).

Tanınmış Qacar əmirlərindən biri Ziyadoğlu Şahverdi Sultan öz ata yurdu Qarabağın valisi idi (142, s.49).

F.Sümər bildirir ki, Osmanlıların işğalı zamanı Qarabağda Qacarlar, otuzikilər, qazaxlar, iyirmidördlü, qaramanlı və digər tayfalar yaşayırdılar. Yeri gəlmişkən, Bərdədə həmin tayfaların adını daşıyan kəndlər indi də mövcuddur. Qarabağın Osmanlı idarəçiliyinə keçməsi nəticəsində Qacarların bir hissəsi Osmanlı hakimiyyəti altında qalmaq istəməyərək Arazın cənubundakı Səfəvi torpaqlarına köç etdilər (390, s.145; 142, s.50).

Mənbələr və tədqiqatlar Qarabağ bəylərbəyliyini irsi olaraq Ziyadoğlu Qacar nəsli idarə etməsini təsdiq edir. Şahverdi Sultanın nəvəsi Xəlil xanın oğlu Məhəmməd xanın dövründə Ziyadoğlu nəsli Osmanlı ordusu tərəfindən təkcə Şirvandan deyil, həm də Qarabağdan qovulmuşdu. Beləliklə, bütün Qacarlar Qarabağı tərk edərək Ərdəbil bölgəsində məskunlaşmışdılar (336, s.122-123; 142, s.50).

Ziyadoğlu Qacarlar Qarabağın Osmanlı ordusu tərəfindən işğal edilməsi ilə uzun müddət barışmamışdılar (142, s.50).

Qacarların artıq dövlət işlərindən kənarda qalmasını göstərən faktlar məlumdur. Vəzifədə cəmi iki Qacar əmiri qalmışdır. Bu əmirlərdən biri Çuxur-Səd bəylərbəyi Əmirgünə oğlu Təhmasibqulu xan, digəri Bərdə valisi Peykər xan idi ki, iyirmidördlü Peykər xan Şah Səfi dövründə İbrahim xanın yerinə təyin edilmişdi. Sonra isə İbrahim xan da bu vəzifədən uzaqlaşdırılmışdı, - elçi kimi Bərdə valiliyindən İstanbula göndərilmişdi. Hüseyin Əli bəy də Şah Abbas dövründə tanınmış Qacarlardan biri idi (390, s.188).

XVIII əsrin əvvəllərində Azərbaycan ərazisi Rusiya və Osmanlı imperiyaları arasında gedən müharibələrin mərkəzində idi. Səfəvilər dövlətinin zəifləməsindən istifadə edən Rusiya ciddi «Qafqaz siyasəti» yeridirdi. I Pyotrun Azərbaycan neftinə və geostrateji mövqeyinə olan marağı Türkiyə ilə münaqişəyə gətirib çıxardı. Bu münaqişələr yerli xalqa ağır zülm və bəlalar verdi (102; 320).

XVIII əsrin əvvəllərində Şimali Qafqazlıların Qarabağa (Gəncə-Qarabağ əyalətinə) aramsız basqınları başlandı. 1712-ci il hücumu zamanı Bərdədən Qazağa qədər olan düzənlik yerlərdəki yaşayış məskənləri talandı, xeyli insan tələf oldu və əsir düşdü (8, s.245; 49, s.15; 259). Qarabağın dağlıq hissəsində yaşayan qeyri-müsəlmanlar (alban-xristianlar) hədiyyələr verərək əsirləri xilas etdi, müsəlmanlar isə əsir aparıldı, yaşayış məskənlərinin çoxu boş qaldı (49, s.14-17; 259, s.29-30). Bu səbəbdəndir ki, Bərdə nahiyəsində olan kəndlərin də bir çoxu mənbələrdə boş, sakinsiz kimi qeyd edilir (49, s.15). Alban soykökündən olan Yesai Həsən Calalın «Alban ölkəsinin qısa tarixi (1702-1722)» əsərində məlumat verilir ki, 1721-ci ildə növbəti hücum zamanı dağıstanlılar Kür çayından Qarabağın dağlıq hissəsinə qədər bütün kəndləri viran qoydular, əhalini soyub taladılar (259, s.29-31).

Yesai Həsən Calal Şamaxının talan edilməsi haqqında məlumatının ardınca nəql edir ki, «bu şəhəri aldıqdan sonra Gəncə və İrəvan hakimləri bu barədə şaha etirazlarını bildirərək xəbər verdilər, özləri isə bütün orduları ilə hərəkət etdilər və Kür çayının sahilinə, Aqvan (Albaniya) şəhəri Bərdəyə gəldilər. Bölgənin bütün hakimləri ilə İrəvan xanı, bütün əyanlar ilə Gəncə xanı və yerdə qalan 30 min nəfərlik qoşunla oraya toplaşdılar» (259, s.28). Mənbə məlumatında deyilir: Şahın özünün və qoşununun başı Qəndəharda qarışdığından, şimaldan gələn bu hücumun

qarşısını almağa maraq göstərmədi. Kür çayını keçərək hücum edən basqınçılar əhalini Tərtər və Xaçın çayları boyunca Arsak dağlarına tərəf qovdular (259, s.29). Yığdıqları qənimətləri və əsirləri toplayaraq Xaçınla Tərtər arasında düşərgə saldılar. Onların «Qarı körpüsü»ndən Bərdəyə hücum edəcəyini bilən əhali bütün tədbirləri görərək düşmənə ağır zərbələr vurduğuna görə, oradan tezliklə çıxıb getməyə məcbur oldular. Kürü təcili keçib topladıqları qənimətləri və əsirləri öz vilayətlərinə göndərdikdən sonra, özləri Gəncə üzərinə basqın etdilər (259, s.31).

Səfəvi hakimiyyətinin zəifləməsindən istifadə edən Nadir xan Əfşar hakimiyyəti ələ keçirdi və Səfəvilər dövründə olan torpaqları geri qaytarmaq yürüşlərinə başladı. Azərbaycan ərazisində yenidən hərbi əməliyyatlar başlandı. Səfəvi dövlətinin bərpasına tərəfdar olan feodallara qarşı mübarizə ilə əlaqədar II Təhmasib 1730 – cu ildə Uğurlu xanı 700 nəfərlik dəstə ilə Gəncəyə göndərdi. O, Bərdə və Bərgüşadda 12 minlik ordu yığmağa nail oldu. Osmanlı İbrahim paşaya qulluq edən Qara bəy də «iranlı əsgər» ordusu ilə Uğurlu xanla birləşdi (320, s.177).

1733-cü il sentyabr ayının 26-da Bakıda rus komandanlığının dəftərxanasında Gəncədən olan şabranlı Hacı Məhəmməd aşağıdakıları danışmışdır: Guya o, Şamaxıda öyrənmişdir ki, Surxay və Krım xanı birlikdə 18 minlik ordu ilə Kürə tərəf hərəkət etmiş, oradan Surxay Şamaxıya qayıtmış, xan və onunla Surxayın naibi – Qara bəy körpü tikərək Kürdən keçib Cavaddan yuxarı yollanmışdır. Komandanlığı altında 6 min adam olan Gəncəli Əli paşa da bura gəlmişdir. Onlar birləşmiş halda Bərdəyə yola düşmüş, 3 günə gəlib çatmış, sonra isə Qarabağdan keçib ərdəbililərin yay iqamətgahına gəlmişlər. Burada onlar öyrənmişlər ki, artıq iranlılar Ərdəbili tərk etmişlər. Əli paşa tatar ordusunu yay iqamətgahında qoyub, türk dəstəsini

Ərdəbilə göndərmiş, özü isə 700 nəfərlik dəstə ilə Gəncəyə qayıtmışdır (320, s.193).

Nadir xan Əfşar Səfəvilər sülaləsinin hakimiyyətinə son qoydu, keçmişdə Səfəvi dövlətinin tərkibinə daxil olmuş əraziləri öz hakimiyyəti altına keçirmək üçün xeyli mübarizə apardı və buna nail oldu (320, s.193-195).

Nadirin şah seçilməsi üçün Muğanda çağırılmış (1736 – cı ildə) yığıncaqda Muğan və Bərdə əhalisi Səfəvi sülaləsinin tərəfini saxlayaraq Əfşarlar soyundan olan Nadirin əleyhinə çıxdıqları üçün ciddi cəzalandırıldılar. Nadir şah Əfşar Qarabağın yerli sakinlərindən olan Cavanşir, Otuzikilər və Kəbirli ellərini Xorasanın Sərəxs torpaqlarına köçürdü. O, məlikləri (5 məliklik var idi) Gəncə xanının itaətindən çıxarıb, birbaşa şahlığın mərkəzinə tabe etdi (25; 133, s.30).

Abbasqulu Ağa Bakıxanov Nadir şahın yürüşləri zamanı dəfələrlə Bərdəyə gələrək orada yerləşməsi barədə məlumat verir və qeyd edir ki, Nadir şah 1732-ci ilin mayında Azərbaycanın şimalına doğru hərəkət edərkən Bərdədən keçmişdi. Orada məğlub olduqdan sonra Bərdəyə qayıtmış, yenidən Dərbənd üzərinə yürüş etmişdi (125; 208, s.149). Abbasqulu Ağa Bakıxanov Nadir şahın Gürcüstanda apardığı döyüşdən geri çəkilərək Bərdəyə gəlməsindən bəhs edərək yazır: «Bundan sonra Nadir təcili olaraq Türkiyə sərhəddindən qışlamaq üçün ən əlverişli yer olan Bərdəyə gəldi» (208, s.149). O, Bərdədə bir müddət qalıb hazırlaşdıqdan sonra, 1743-cü ilin yanvarında Dərbənd üzərinə hücum etdi. Təbəristandan Dərbəndə qayıtmış Nadir şah 5 dekabrda yenidən Bərdəyə gəldi, atlara yem çatışmadığı üçün Bərdədən Kürün sol sahilinə keçərək Ərəşdə düşərgə saldı (208, s.150).

Mənbələrin məlumatına görə, Nadir şah Əfşar Azərbaycan ərazisinə dördüncü yürüşündə – Şəki üzərinə

hücum zamanı, «Gələsən-görəsən» qalası uğrunda döyüşlərdə qoşununun bir hissəsini itirdikdən sonra geri qayıdaraq Bərdədə yerləşmişdi. O, imperiyanın mərkəzindən qüvvə və ərzaq gəlməsini gözləyərək oradan Dərbənd istiqamətində hücum təşkil etmişdi (25; 125; 133; 208).

Nadir şah Əfşara qədər Qarabağı Ziyadoğlu nəslindən almağa cəhd göstərilməmişdir. Lakin 1736-cı ildə Nadir xanın çağırdığı Muğan qurultayından sonra Ziyadoğlu Qacar sülaləsinin həyatında siyasi baxımdan böyük dəyişikliklər baş verdi. Yuxarıda qeyd edildiyi kimi, Muğan qurultayında iştirak edən bəzi xanlar kimi II Uğurlu Xan Ziyadoğlu da Qırxlı Əfşar nəslindən olan sərkərdə Nadirin şahlıq üçün namizəd verilməsinin əleyhinə çıxaraq Səfəvilər sülaləsinin devrilməsinə qəti etiraz etdi. Nadir şah seçildikdən sonra Ziyadoğlular sülaləsinə ciddi zərbə vurdu. Nadir şah Ziyadoğlu nəslini zəiflətmək məqsədilə Qarabağın 5 məlikliyini və Mil-Qarabağ düzündəki tayfaları, eləcə də Zəngəzuru onun nəzarətindən çıxardı. Bütün bu torpaqlar Nadir şahın qardaşı Azərbaycan sipəhsaları İbrahim xana tabe edildi (133, s. 30; 320, s.195).

Bu hadisə ilə bağlı Mirzə Adıgözəl bəy yazır: «Bunlar Muğan qurultayında gizlin və aşkar olaraq, son dərəcə çalışdılar ki, Səfəvilərdən başqa bir kimsə padşah olmasın … Ziyadoğlanları qədim bir ocaq və böyük bir dudman olduqlarına görə, Nadir şah onlara özgə bir cəza və başqa bir siyasəti rəva görmədi. Qazax və Borçalı ellərini öz xanları ilə bərabər Gürcüstan əmirlərinə tabe etdi. Cavanşir, Otuzikilər və Kəbirlilərdən ibarət olan Qarabağ elləri haqqında da icrası vacib olan fərman çıxdı ki, onları köçürüb Xorasanın Sərəxs torpaqlarına aparsınlar. Xəmsə məliklərinə də əmir etdi ki, Gəncə xanlarının itaət zəncirini mənim möhkəm hökmüm vasitəsilə xas və avam camaatın boynundan kənar edin. Özünüzü tamamilə azad sayın… Beləliklə,

Gəncə xanlarının ixtiyarları tamamilə əllərindən çıxdı. Səlahiyyətləri alındığından qol-qanadları sındı və çox pərişan oldular (133, s.30-31).

B.İ.Dorn «Qafqaz və Xəzər dənizinin cənub sahilləri üzrə elmi səyahətə dair» hesabatında bildirir ki, Muğan (Cavad) yığıncağında Nadirin şah seçilməsi əleyhinə çıxdıqları üçün bərdəlilərdən intiqam almaq məqsədilə O, Bərdə şəhərini tamamilə dağıtmaq haqqında göstəriş vermişdir (1744-cü ildə) (5, s.520; 256, s.18). B.Dornun verdiyi məlumata görə Bərdə şəhəri Nadir şah tərəfindən tamamilə dağıdılmışdır (256, s.435). Y.A.Paxomov onunla razılaşmır və Bərdə şəhərinin XVIII əsr dağıntısından sonra tədricən tənəzzülə uğradığını bildirir (329, s.86).

Mirzə Adıgözəl bəyin məlumatına görə, Nadir şahın sarayında qalmaqdan ehtiyat edən, Sarıcalı soyundan olan Pənahəli bəy mühafizə olunmaq üçün Qarabağa gələrək orada yerləşmişdi. Pənahəli tezliklə xan olandan sonra Nadir şahın Qarabağdan məcburi köçürdüyü tayfaları geri qaytardı, çoxunu Bərdə ərazisində yerləşdirdi (133, s.32-33).

1747-ci ildə Nadir şah Əfşarın öldürülməsindən sonra Gəncə hakimi Hacı xan yerli feodallar tərəfindən qovuldu və Şahverdi xan gürcü qoşunlarının köməyi ilə Gəncədəki İran qornizonunu dağıdıb müstəqil Gəncə xanlığının əsasını qoydu (1747-1760). 1749-1750-ci illərdə Pənahəli xan hücum edərək Gəncə şəhərinin bir hissəsini tutsa da Şahverdi xan II İrakli və Teymurazı köməyə çağırdığı üçün Pənahəli xan bac alaraq geri dönməyə məcbur oldu (48, s.40).

XVIII əsrin birinci rübündən etibarən Azərbaycanda xanlıqların yaranması ilə əlaqədar şəhərlərin daxil olduğu yeni ərazi birliklərinin və dövlət qurumlarının inzibati quruluşunda dəyişikliklər baş verdi. Siyasi və iqtisadi əhəmiyyətini

itirmiş Bərdə yalnız Qarabağ xanlığına daxil olan kiçik bir şəhərə – ticarət və mədəni əlaqələr yolu üzərində yaşayış məntəqəsinə çevrildi (329). Buna görə də Bərdə şəhərinin adı tarix səhnəsində xeyli müddət görünmür. Bu səbəbdən Azərbaycana gəlmiş səyyahların qeydlərində Bərdənin adına rast gəlmirik.

Bərdə XVIII əsrin sonlarında Qarabağ xanlığının şimal ölkələri ilə əlaqə yolunun üstündə mühüm məntəqə rolu oynayırdı. Bərdə həmin dövrdə poçt, tranzit xidmətləri göstərən, həmçinin sənətkarlıq və ticarət məşğuliyyəti olan şəhər idi. Qarabağ xanlığı ərazisində mühüm daxili yolların Bərdədən kənar keçməsi şəhərin siyasi, ictimai-iqtisadi və mədəni həyatına mənfi təsir göstərirdi. Belə ki, Qarabağlı İbrahimxəlil xan ilə Rus İmperatorunun səlahiyyətlisi Sisiyanov arasında imzalanmış Kürəkçay (1805-ci il) müqaviləsinin şərtlərinə (362, 6-cı bənd; 228; 89) görə, Şuşa-Gəncə və Şuşa-Cavad yolları genişləndirildi, hərəkət üçün əlverişli vəziyyətə salınaraq geniş istifadə edilməyə başlandı ki, həmin yolların da heç biri Bərdədən keçmirdi.

Bu, Azərbaycanı gələcəkdə bölüb parçalamaq üçün Rus imperiyasının «uzaqgörən» siyasi tədbirlərindən biri idi (300). Belə ki, Şimali Azərbaycanın ən böyük bölgələrindən biri olan Qarabağı gələcəkdə ayrıca bölgə kimi təcrid edə bilmək üçün onun qədim və zəngin tarixə malik olan mərkəzi şəhəri Bərdəni zəiflətmək, məhv etmək lazım idi ki, məlum olduğu kimi, buna da nail oldular. Həmin siyasətin davamı idi ki, sonralar Şuşa şəhərini "gözdən salmaq" üçün Xankəndini (Stepanakert adlandıraraq) Yuxarı Qarabağın mərkəzinə çevirdilər. Təkrar olsa da xatırlatmaq istərdik ki, bu siyasətin əsası orta əsrlərdən qoyulmuşdu. Bu planın həyata keçirilməsi Rusiya üçün də, İran üçün də əlverişli idi. Bütün bunlar Rusiyanın kaloniya siyasətindən irəli gəlirdi. Göründüyü kimi, bu gün də

həmin siyasət davam etdirilir. Süni şəkildə yaradılmış Dağlıq Qarabağ problemi də, Rusiyanın müdafiə etdiyi Ermənistanın (143) Azərbaycana ərazi iddiaları və işğalının mahiyyəti də, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini həll etməyin çətinliyi də bununla bağlıdır.

XIX əsrin əvvəllərində Azərbaycan İranla Rusiya arasında bölüşdürüldü. Şimali Azərbaycanın tərkibində Bərdə də Rusiyanın tabeliyinə keçdi. Gülüstan (1813-ci il) və Türkmənçay (1828-ci il) müqavilələrindən sonra Azərbaycanın şimal hissəsinə öz müstəmləkəsi kimi baxan Rusiya bu bölgənin təbii sərvətlərindən xammal kimi istifadə etməyə, sənaye mallarına tələbatını Rusiya istehsalı vasitəsilə ödəməyə başladı. Bu məqsədlə də Şimali Azərbaycanda, o cümlədən Bərdədə, sənaye müəssələrinin yaradılmasına «ehtiyac qalmadı». İqtisadi inkişafdan geri qalan Şimali Azərbaycanın digər şəhərləri kimi Bərdə də nəinki inkişaf etmədi, şəhər olaraq mövcudluğunu itirmək səviyyəsinə endi.

Araşdırmalar həmin dövrə dair heç bir mənbədə Bərdənin adının şəhərlər sırasında çəkilmədiyini göstərir. Tarixi ədəbiyyatda Bərdəyə aid məlumatlarda o, Cavanşir və Şuşa qəzalarına daxil olan məntəqələr kimi qeyd edilir. Çox az hallarda isə Bərdənin indi böyük kəndərindən biri olan Lənbərənin adı çəkilir (208; 176, s.120-122; 319).

XIX əsrin sonlarında Şimali Azərbaycanın umumi əhalisinin 25 %-ə qədəri şəhərlərdə, qalan 75 %-i kəndlərdə yaşayırdı. Həmin dövrin tarixinə dair məlumatlarda 200 mindən artıq əhalisi olan bir şəhər – Bakı, 40-60 mindən artıq əhalisi olan 3 şəhər – Gəncə, Nuxa (indiki Şəki) və Şuşa, 20-40 mindən artıq əhalisi olan iki məntəqə – Quba, Şamaxı, 5-20 mindən artıq əhalisi olan 12 məntəqə qeyd edilir ki, bunlardan biri də Bərdə idi.

# IV FƏSİL

# BƏRDƏNİN MADDİ VƏ MƏNƏVİ MƏDƏNİYYƏTİ

## 4.1. Maddi mədəniyyət.

Tarixi tədqiqatların əsas vəzifələrindən biri xalqın maddi və mənəvi nailiyyətlərinin öyrənilməsidir. Yuxarıda qeyd etdiyimiz kimi, qədim Kür-Araz mədəniyyətinin bünövrəsi üzərində inkişaf etmiş yaşayışın yüksək səviyyəli nəticələri, inkişaf nəticəsində yaranmış sənətkarlıq sahələri və insanların yaratdığı maddi mədəniyyət nümunələri – memarlıq abidələri, məişət qurğuları, alət və avdanlıqları Bərdənin maddi mədəniyyət tarixinin faktiki əsasdır (54, s.263-304; 322, s.7-21).

Mənbələrdə adı çəkilən ilk orta əsr tikililərinin heç birinin dövrümüzə qədər gəlib çatmaması təəssüf doğurur. Lakin az-çox məlum olan yazılı mənbə materialları, arxeoloji qazıntılarla öyrənilən qala və digər tikinti bünövrələri və tikinti materialları, həmçinin öz formasını xeyli dərəcədə saxlamış orta əsrlərə aid yerüstü abidələr mədəniyyət tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir (53; 109; 154, s.55-85; 234, s.277; 235, s.14; 271, s.41; 322, s.3-25; 325, s.112; 346).

Qeyd etmək lazımdır ki, qazıntı təbəqələrindən çoxlu miqdarda müxtəlif növ tikinti materialları – müxtəlif ölçülərdə bişmiş kərpic (149; 150; 151; 322) və kirəmit (dam örtüyü) (56; 152; 325) tapılmışdır. Bərdədə vaxtilə xüsusi tikinti materialları istehsal edən sənət ocaqları şəhərin tikinti-memarlıq cəhətdən inkişaf etməsinə səbəb olmuşdur (149; 150; 151; 322).

Maddi mədəniyyətin əsas amillərindən biri şəhərsalma mədəniyyəti – şəhərin bünövrəsinin qoyulması və tikinti-quruculuq işləridir. Yazılı mənbələrdə Bərdə şəhərinin salınması və bərpası haqqında müəyyən qədər məlumat varsa (136, k.1, f.8; 8; 126; 173; 267; 373, s.116) da, onlar şəhərin tarixini hərtərəfli və kompleks şəkildə öyrənməyə imkan vermir. Yuxarıda bəhs etdiyimiz arxeoloji materiallar Bərdənin qədim və erkən orta əsrlər dövründəki şəhər həyatını, daha dəqiq desək, şəhərlilərin ictimai mühitini, məişət şəraitini əks etdirirsə, tikintilər qədim və erkən orta əsr şəhərlərinin şəhərsalma xüsusiyyətlərinin, tarixi dövrünün öyrənilməsində mühüm rol oynayır.

Arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi nümunələr müəyyən dövrlərdə Bərdənin mədəniyyəti və incəsənəti haqqında fikir söyləməyə imkan verir. Həmin nümunələr həm sənətkarlıq məhsulları, həm də incəsənət nümunələri kimi Bərdə əhalisinin maddi və mənəvi mədəniyyəti baxımından mənbə rolunu oynayır (9; 54; 149; 150; 151; 152; 154; 234; 242; 322; 324; 325).

Arxeoloji qazıntılar zamanı aşkar edilmiş daşdan ibarət olan tikinti materialları daha böyük maraq doğurur. Aşağı hissələri kvadrat, yuxarısı isə dairəvi və köbərli quruluşlu, müəyyən həndəsi və nəbati təsvirli naxışı olan daş sütun altlıqları, üzərində qazma üsulu ilə həndəsi və nəbati naxışlar vurulmuş kapitellər (sütun başlıqları) antik və ilk orta əsrlərə aid olan mədəni təbəqədən aşkar edilmiş

nümunələr olub, şəhərin qədim tikinti mədəniyyəti haqqında fikir söyləməyə imkan verir (9; 149; 322). Həmin kapitellərdən biri oricinallığı ilə daha çox seçilir. O, kvadrat şəkillidir, üst hissəsində qoç başı təsvir edilmişdir (321; 322).

Həmin tikinti materialları qazıntı təbəqəsinin müxtəlif dərinliklərindən tapılmış, hər birinin dövrü həm qazıntının stratiqrafik təbəqələrinə, həm də numizmatik əşyalara əsasən müəyyənləşdirilmişdir (149; 150; 151). Bərdədən aşkar edilmiş həmin kapitel və sütun altlıqlarının oxşarları digər şəhər tipli arxeoloji abidələrdən də tapılmışdır. Onların antik dövr şəhər tikintilərinin əsas atributlarından biri olduğu qeyd edilmişdir (206).

1970-ci ildə Bərdə şəhərində aparılmış arxeoloji qazıntılar zamanı uzunluğu 11 metr, eni 6 metr olan, içəri hissəsində sütunları daş və kərpiclə tikilmiş, qalın divarlı məbəd aşkar edilmişdir ki, həmin məbəd həm tikinti üslubuna, həm də dövrünə görə maraq doğurur. Arxeoloqların fikrincə, həmin məbəd VIII əsrə qədər yaxşı vəziyyətdə olmuş, vaxtilə içərisində yanğın baş verdiyindən qismən dağılmışdır (226). Həmin abidə M.Kalankatlının «Albaniya tarixi»ndə» qeyd etdiyi, Cavanşirin Bərdədə iki il müddətinə (tikdirdiyi) məbəd ola bilərdi (136, k.2, f.26; 15, s.111).

Həmin məbədin oxşarları Azərbaycanın digər şəhərlərində də aşkar edilmişdir ki, bunlar da dövrün ictimai tikililəri haqqında bəzi ümumi nəticələr çıxarmağa imkan verir (50; 172; 235; 236). Tədqiqatlar göstərir ki, xristianlığın Albaniyada rəsmi dövlət dini kimi qəbul edildiyi vaxtdan (IV əsrin əvvəlləri) etibarən məişət arxitekturası cəhətdən yeni formalar meydana çıxmışdır. IV-VII əsrlər tikinti mədəniyyəti xristian arxitekturası tipində yaradılmışdır (107; 236; 299). Xristian abidələri ilə indi «Ermənistan»

adlandırılan ərazinin xristian abidələrinin oxşarlığından istifadə edən bir çox erməni «tarixçiləri» (uzun müddət Sovetlər dövründəki xristian tərəfkeşliyindən istifadə edərək) bütün Alban xristian abidələrini «erməni abidələri» kimi qələmə verməyə çalışmış, hətta, guya qədim mənbələrdən istifadə edərək, Kür və Araz çayları arasındakı ərazilərə aid «özəlləşdirmə» konsepsiyası yaratmış və bu ərazilərin «əzəli erməni torpaqları» olduğunu «sübut etməyə» çalışmışlar (təəssüf ki, indi əli qələm tutan hər bir erməni təbliğatçısı Qarabağın hər bir qarşına, daşına, ağacına o qədər uydurmalar yazıblar ki, onların adlarını belə burada sadalamağa lüzum yoxdur). Halbuki ermənilər nəinki Kür-Araz ovalığında, hətta Qafqazda belə, heç vaxt kompakt şəkildə məskun olmamışlar. Ona görə də onların yaratdıqları «tarixi»in uydurma olmasına heç bir şübhə yoxdur.

Azərbaycanın tarixi torpaqları olan Albaniya ərazisində meydana çıxmış şəhərlər də Azərbaycana və onun yerli sakinlərinə məxsus olmuş, antik dövrdə bütpərəstlik və atəşpərəstlik, ilk orta əsrin əvvəlki yüzilliklərində xristianlıq dövrünə uyğun olan memarlıq üslublarında tikililər yaradılmışdır (51, s.83; 236, s.164; 297, s.8).

Bərdə şəhərinin ərazisində və ətraflarında, o cümlədən «Şortəpə» abidəsində müxtəlif vaxtlarda (9; 149; 150; 151; 152; 242; 322; 324; 325) aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi mədəniyyət qalıqları – üzərində həndəsi və nəbati təsvirlər olan şirli saxsı qablar, metal və şüşə əşyalar, müxtəlif materialdan düzəldilmiş qliptik, torevtik məmulat bu cəhətdən böyük əhəmiyyətə malikdir (242; 322, s.4-25; 324; 325). Həmin materiallar içərisində bədii tərtibatı ilə diqqəti cəlb edən nümunələr vardır. Onlardan biri, üzərində musiqi aləti və çalğıçı qadın təsviri olan piyalədir ki, onun antik dövrə aid olduğu bildirilir

(242, şək.2). Küp qəbirdən aşkar edilmiş qızıl, gümüş, mis və şüşə bəzək əşyaları, həmin əşyalarla birlikdə tapılmış kiçik qadın heykəli də maraqlı nümunələrdir (96). Antik dövr təbəqəsindən aşkar edilmiş, qadın sifətinin incə cizgiləri və saçının yüksək zövq və ustalıqla həkk olunmuş heykəlcikdən bəzək əşyası və bəlkə də dini inam rəmzi kimi istifadə edildiyi güman olunur. M.M.Hüseynov hətta, həmin təsviri Nizami Gəncəvinin bədii qəhrəmanı olan Bərdə hökmdarına bənzədərək «İlahə Nüşabə» adlandırmışdır (96).

Bundan başqa, Bərdənin qazıntı təbəqələrindən üzərində yazı və xüsusi işarələr olan daş bütlər aşkar edilmişdir ki, onların müxtəlif dövrlərə və müxtəlif ölçülərə aid olması, mənsubiyyəti və şəhərlilərin ictimai həyatında yeri barədə tədqiqatçılar tərəfindən ətraflı məlumat verilmişdir (235; 321; 322). Həmin bütlərin antik və ilk orta əsrlər dövründə daha çox yayıldığı da məlumdur (235).

Bərdənin müxtəlif yerlərində aparılmış qazıntı işləri zamanı xeyli kirkirə (56; 155; 322), su dəyirmanı daşları (155) və digər daş alətlər (9; 149; 150; 151) aşkar edilmişdir ki, bu nümunələr həmin dövr üçün səciyyəvi ictimai və məişət əşyaları olmaqla, tarix üçün maddi mədəniyyət materiallarıdır.

Bərdədən arxeoloji qazıntılar zamanı aşkar edilmiş çoxlu miqdarda, müxtəlif formalı gil və metal çıraqlar içərisində yumru gövdəli, üzəri naxışlı, üç ayaqlı gil şamdanlar böyük maraq doğurur (234).

Bundan əlavə, həmin qazıntı sahəsinin bütün təbəqələrindən müxtəlif ölçülü təndirlər, ocaqlar və digər məişət qurğuları aşkar edilmişdir (9; 149; 150; 151; 152; 154; 322).

Arxeoloji qazıntı işləri ilə əlaqədar olaraq, aşkar edilmiş qəbir abidələrinin tədqiqi göstərir ki, Bərdədə müxtəlif formalı dəfn adətləri də mövcud olmuşdur. Bunu

Bərdə ərazisində tapılmış küp (35; 96; 242; 325), daş qutu (144; 234) və torpaq qəbirlər sübut edir (9; 149, s.8).

Beləliklə, Bərdədən aşkar edilmiş hər bir arxeoloji material, başqa sözlə maddi mədəniyyət nümunəsi olan irili-xırdalı bütün əşyalar – tikinti materialları, məişət əşyaları, süfrə qabqacaqları, bəzək əşyaları hər biri həm özünün istehsal olunması baxımından, həm də onların üzərindəki müxtəlif qliptik, teoreftik təsvirlərin, naxışların həkk olunması baxımından bərdəlilərin həyatında özünə yer tutan qədim mədəniyyətin xarakterik cəhətləri, səviyyəsi, inkişaf xüsusiyyətlərinin təcəssümüdür.

VIII əsrdən etibarən orta əsrlərə aid olan xristian tipli tikinti üslubunun inkişafı dayanmış, şəhərin plan quruluşu və evlərin xarici görünüşü müsəlman dünyasının yeni şəhərsalma üslublarına uyğun olaraq davam etdirilmişdir (215, s. 16).

Müsəlmanlıq dövrünün, islam dininin tələblərinə uyğun olan yeni tipli tikintilərin meydana çıxması əvvəllər formalaşmış memarlıq ənənələrinin inkişaf etməsinə maneçilik törətməmişdir (3, s.18; 27, s.8; 296, s.62).

IX əsrdə Bərdədə əzəmətli memarlıq kompleksləri – ictimai, dini və yaşayış tikililəri yaradılmış və o, möhtəşəm şəhərə çevrilmişdir. Bunu həm yazılı mənbələr, həm də arxeoloji materiallar sübut edir (154; 8; 149; 150; 151; 173; 322). Bərdə şəhərində aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilmiş müxtəlif növlü və formalı əşyalar orta əsrlər dövrünün maddi mədəniyyətini bir daha səciyyələndirir (136; 309; 322). Bərdədə aparılmış arxeoloji tədqiqatlar zamanı aşkar edilmiş bir və ikimərtəbəli binanın (322, s.12) və çoxotaqlı bina komlekslərinin bünövrələri (322, s.9, 12-13), üzəri naxışlı kapitellər (322, s.18-20), daş sütun altlıqları (322, s.18), bişmiş kərpiclə döşənmiş küçə (322, s.5), tünglərlə çəkilmiş su təchizatı xətti (322, s.5), şirli və

şirsiz dulus, metal və şüşə məmulatları, bəzək əşyaları, daş bütlər (235; 322, s.20) və s. orta əsr Bərdəsinin maddi mədəniyyət nümunələridir (149; 150; 151; 152; 154; 322).

Bərdədə IX-XI əsrlərə aid olan təbəqədən bişmiş kərpic və saxsı tünglərlə inşa edilmiş su təchizatı xətti də memarlıq sənəti incəliyi ilə yaradılmış qurğulardır. İçərisi və yanları bişmiş kərpiclə hörülmüş həmin su xətti planlı bölgülərlə xüsusi suayırıcı və sudurulducu hovuzlarla təchiz edilmişdir (280; 322).

Bərdədə arxeoloji abidələrlə yanaşı, dövrümüzə qədər öz quruluşunu saxlamış yerüstü tarixi abidələr də mövcuddur ki, bunların da əksəriyyəti X əsrdən sonrakı dövrə aiddir. Tərtər çayı üzərindəki körpülər, «Bərdə» türbəsi, «Axsadan baba» türbəsi, «İmamzadə» məscid kompleksi, şəhərin orta əsrlərin memarlıq üslublarını özündə əks etdirən mədəniyyət abidələridir (107; 116; 227; 322; 329).

Həmin abidələr N.Xanıkov (329), B.Dorn (256), V.Sısoyev tərəfindən qeydə alınmış (355), Y.İ.Paxomov (329; 330), son dövrlərdə isə M.S.Nemətova (139), A.B.Nuriyev (322), Ə.ŞHaqverdiyev (90), Q.Ə.Hacıyev (54), tərəfindən tədqiq və təsvir edilmişdir. Bərdənin yerüstü abidələri haqqında məqalələr və kitablar nəşr edilmiş, həmin abidələrin ümumi görünüşləri şəkillər vasitəsilə oxuculara təqdim olunmuşdur (136; 322; 329).

Həmin abidələr içərisində daha çox maraq doğuranı 1322-ci ildə Əhməd ibn-Əyyub əl-Hafiz Naxçıvani tərəfindən tikilmiş Bərdə türbəsidir.

Arran memarlıq məktəbinin xüsusiyyətlərini özündə b-irləşdirən həmin türbə, orta əsrlər dövründə yerli tikinti mədəniyyəti ilə bərabər, Bərdənin Naxçıvan kimi qədim mədəniyyət və incəsənət mərkəzi ilə əlaqəsini də özündə əks etdirir (54; 136; 261; 271; 322; 329).

Abidə yeraltı sərdabədən, bayır diametri 10 m., hündürlüyü 13,5 m., dairəvi, silindirşəkilli gövdədən ibarət, üst hissəsində konusvari künbəzi olan məqbərədir.

Müxtəlif daş və kərpiclərlə naxış vurulmuş məqbərənin divarlarının yuxarı hissəsində 35 sm enində, üzəri kufi xətti ilə yazılmış kəmərşəkilli zolaq vardır. Həmin yazı bişmiş kərpiclə tikilmiş «Allah» sözünün təkrarıdır (329). Təəssüf ki, qopub töküldüyüdən həmin yazıların lap az bir hissəsi qalmışdır. Y.İ.Paxomov XX əsrin əvvəllərində abidənin həm xaricində, həm də daxilində həkk edilmiş həmin yazıları oxumuş və izahını vermişdir (329).

Bərdənin abidələri xalqın adət-ənənələrini, maddi, mənəvi həyatını əks etdirən tikililərdir. Son dövrlərdə xeyirxah adamların təşəbbüsü ilə həmin abidələr qismən bərpa edilmiş, ətrafları abadlaşdırılmış, əsl ziyarətgaha, mədəni-kütləvi tədbirlər məskəninə çevrilmişdir. Belə tarixi əhəmiyyətli abidələrin qorunub saxlanması, təbliğ edilməsi vətəninin tarixi ilə fəxr edən hər bir insanın mənəvi borcudur.

Yeri gəlmişkən, Bərdə şəhərində yaxın vaxtlaradək öz quruluşunu müəyyən qədər saxlamış, lakin sonralar tamamilə dağılmış «Torpaq qala» haqqında məlumat vermək yerinə düşərdi. O, xalq arasında «Nüşabə qalası» kimi tanınmışdır. Çiy kərpic və çay daşları ilə tikilmiş, enli divarlı bu qala düz kvadrat şəkilli, tərəfləri 115 metr olub, şərqə doğru 25 dərəcə meylli şəkildə tikilmişdir. Qalanın 4-5 m hündürlükdə divarı, divarların küncləri və ortalarında divar ilə eyni hündürlükdə, daxili diametri 9,5 m olan fasadlar – dairəvi yarımbürclərləri olmuşdur. Qapı cənub-qərb divarının bürcündə yerləşirdi. Tədqiqat aparılmadan həmin qalanı son dövrlərə aid edən müəlliflərdən (B.Dorn, V.Sısoev, Y.Paxomov) (256; 329; 355) fərqli olaraq, XX əsrin 70-ci illərində həmin qalada arxeoloji qazıntı işləri

aparmış arxeoloqlar (R.B.Göyüşov, A.B.Nuriyev) qala divarlarının bünövrəsinin ilk orta əsrlərdən əvvəl qoyulduğunu bildirirlər. Həmin qapıların qarşısında, təxminən 15 metr aralıda ayrıca türbə tikilmişdir ki, həmin türbə yuxarıda bəhs etdiyimiz (XIV əsr), Əhməd ibn Əyyub əl-Hafiz Naçıvani tərəfindən tikilmiş «Bərdə» məqbərəsidir (329,s.86). Türbənin qaladan çox sonralar tikildiyi şübhəsizdir (234).

Orta əsrlərdə Tərtər çayı üzərində tikilmiş körpülər də dövrünün qiymətli tikilisi, Bərdənin memarlıq, başqa sözlə mədəniyyət abidəsidir. Körpülərdən biri 15 tağlıdır (X-XI əsrlər) və xalq arasında «Qarı körpüsü» adlandırılır. Təəssüf ki, həmin körpünün xeyli hissəsi tamamilə dağılmışdır. Digər körpü isə Tərtər çayının nisbətən dar hissəsində salınmış 12 tağlı (XIII-XIV əsrdə tikilmiş) körpüdür (54; 90; 261).

Bundan əlavə, Bərdə şəhərinin bir çox yerlərində yalnız bünövrəsi və müəyyən hissələri salamat qalmış xeyli abidə də qeydə alınmışdır ki, onlar da dəyərli maddi-mədəniyyət nümunələridir (3; 261; 321; 322). «Axsadan baba» türbəsi, «Güloğullar» türbəsi bu qəbildəndir.

Bərdə XIX əsrin əvvəllərində ətraf yaşayış məntəqələrinin əhalisinin dini mərasimlər keçirdiyi mərkəzə çevrilmişdi. Dini sitayiş məqsədli tikililər müxtəlif səbəblərdən dağılsa da onların salamat qalanları ziyarətgah kimi fəaliyyət göstərirdi. Həmin tikintilər indi də mühavizə olunmaqdadır. Bu abidələrdən biri XIX əsrdə (1868-ci il) Kərbəlayi Səfxan Qarabaği tərəfindən tikilmiş qoşa minarəli Şeyx İbrahimin «İmamzadə» məscididir. Qeyd etmək lazımdır ki, Bərdə şəhərindəki bir kümbəzli dörd minarəli həmin məscid müəyyən xüsusiyyətlərinə görə Şimali Azərbaycanda nadir məscid kompleksidir. Bu məscid Buxaradakı «Çar minar» adlı abidə ilə, həmçinin

Kərbəlayi Səfxanın XIX əsrin sonlarında tikdiyi Ağdam Cümə məscidi ilə də oxşarlıq təşkil edir (110). Bişmiş kərpiclə yüksək memarlıq üslubunda tikilmiş, «Məscid İmamzadə», «Bərdə İmamzadə məscidi», «İmamzadə İbrahim» adlandırılan bu məscid indi də dini mərasimlərin keçirildiyi mərkəz, həmçinin qiymətli tarix və mədəniyyət abidəsidir.

Bərdədə yerləşən Bəhmən Mirzə türbəsi də XIX əsrə məxsus abidədir. Bəhmən Mirzə 1811-ci ildə anadan olmuş, müxtəlif ölkələrdə yüksək təhsil almış və yaradıcılıqla məşğul olmuşdur. Onun «Şükürnameyi-Şahənşah» və «Təzkireyi-Məhəmmədşah əsərləri məlumdur. Bəhmən Mirzə Bəhaüddövlə (1811-1884) Fətəli şahın (Babaxanın) nəvəsi, naibüssəltənə Abbas Mirzənin isə oğlu idi. O, 1834-cü ildə Tehran, 1835-ci ildə Əcəmi-İraq, 1836-cı ildə Kaşan, 1841-ci ildə Yəzd, 1842-ci ildə Azərbaycan əyalətinin hakimi olmuşdur. 1848-ci ildə İranda baş vermiş saray fitnə-fəsadı onun rus səfarətxanasına pənah aparması ilə nəticələnmişdi.

O, İranda, Rusiyada və Gürcüstanda (Tiflisdə) yaşamış, Şimali Azərbaycana köçərək əvvəl Bərdədə, sonra Şuşada bir müddət yaşadıqdan sonra – 1884-cü ildə vəfat etmiş, öz vəsiyyətinə görə özü sağ ikən Bərdədə «İmamzadə» məscidinin yaxınlığında tikdirdiyi məqbərədə dəfn edilmişdir (155; 167).

Şəhərdə gündəlik tələbat malları və kənd təsərrüfatı məhsullarının ticarəti ilə bağlı gündəlik bazarlardan başqa «həftəbazarı», yəni həftənin bir günü fəaliyyət göstərən bazarın təşkili səciyyəvi hal almışdı. Bunlar müxtəlif əmtəələrin, eləcə də bütün növlərdən olan mal-qara və davarların, minik və qoşqu heyvanlarının alınıb-satıldığı iri «mal bazarı» adlanan bazardan ibarət olmuşdur. Bərdə təbii-coğrafi cəhətdən əlverişli ərazidə təsərrüfatın güclü

inkişafı zəminində inkişaf etmiş, eyni zamanda sıx ticarət əlaqələrinə malik olmuş və sənətkarlıq mərkəzi kimi də məşhurlaşmışdır. Bərdədən arxeoloji qazıntı işləri zamanı müxtəlif ölkələrin pullarlı, eləcə də Şuşada XVIII-XIX əsrin əvvəlində kəsilmiş gümüş pullar da aşkar edilmişdir.

Azərbaycanın Qarabağ bölgəsi XIX əsrdə xalçaçılığın mərkəzlərindən biri idi. Rəng çalarları və naxışlarının orcinallığı ilə seçilən, bədii və texnoloyi xüsusiyyətlərinə görə üstün olan Qarabağ xalça növünün bu gün də dünya şöhrətli olması həmin mədəniyyət ənənəsinin öz təsirini saxlaması ilə şərtlənir.

XVIII-XIX əsrdə Bərdədə palaz, kilim və xalı toxuculuğu xüsusi yer tutmuşdur. Bərdənin maddi mədəniyyətini əks etdirən dekarativ incəsənət növləri arasında aparıcı yer tutan xalçaçılıq məhsulları – xovlu (xalça, xalı, gəbə) və xovsuz (palaz, kilim, cecim, sumağı, zili) xalçalar geniş yayılmışdır. Bərdədənın xov-lu xalçaları naxışlarının incəliyi və rənglərin zənginliyi ilə fərqlənirdi. Qarabağda toxunmuş suyetli kompazisiyalı xovsuz xalçalar Azərbaycan xalçalarının ən gözəl nümunələrindəndir.

Bərdə xalçaları öz şöhrətini günümüzədək saxlamışdır. Qarabağ qrupuna daxil olan Ağcabədi, Şuşa Cəbrayıl xalçaları ilə bərabər Bərdə xalçaları adları və naxışları ilə seçilir.

Bərdədə xalçaçılıq sənətinin ənənələri bu gün də davam etdirilməkdədir. Xalq arasında yayılmış xırda əl toxuculuq sənəti də mövcud olmuşdur k, bu barədə etnoqrafik tədqiqatlarla ətraflı məlumat vermək olar.

Tədqiqat nəticələri göstərir ki, Bərdə şəhərinin maddi mədəniyyəti qədim və zəngin əsaslara söykənir. Qaynaqlarda göstərilmiş, arxeoloji qazıntılar vasitəsi ilə tədqiq edilmiş və et-noqrafik cəhətdən öyrənilmiş maddi mədəniyyət

şəhərin ümumi tarixinin mühüm bir sahəsinin öyrənilməsini təmin edir.

Beləliklə, tədqiqat Bərdəni qədim maddi mədəniyyət üzərində meydana gəlib formalaşmış, antik, ilk və inkişaf etmiş orta əsrlər dövründə müəyyən inkişaf yolu keçmiş, şəhər mədəniyyətinin mühüm xüsusiyyətlərini – şəhərsalma mədəniyyətini, şəhər əhalisinin məişət səviyyəsini, sənət növlərinin yaranması və genişlənməsini, incəsənət və mədəniyyətin əlaqəli şəkildə inkişaf prosesini özündə əks etdirən şəhər kimi göstərir.

### 4.2. Mənəvi mədəniyyət.

Tədqiqatlar göstərir ki, Albaniya dövlətinin mövcud olduğu dövrdə alban əlifbası, alban yazısı kimi mənəvi mədəniyyət abidələri yaranmışdır. Zaman-zaman müxtəlif maneçlərin törənməsinə, müxtəlif ünsürlər tərəfindən böhtanlar atılmasına baxmayaraq həmin abidələr xalqımızın tarixi abidələri olaraq mənsub olduğu xalqın adı ilə bağlı şəkildə xatırlanmaqdadır. Erməni mənbələri üzrə tədqiqatçı alim, albanşünas Tofiq Məmmədov qeyd edir ki, yazılı mənbələr Qafqaz Albaniyasının dili və yazısı haqqında şübhə edilməz sübutlar saxlamışdır (296, s.100). Tarixçi alim əlavə edir ki, «V əsrin başlanğıcında, Alban çarı Arsvagenin hakimiyyəti dövründə alban əlifbası yazıda işlənməyə başladı» (296, s.100). Göründüyü kimi, bu mənəvi mədəniyyət abidələrinin yaranması və istifadə edilməsi Bərdə şəhərinin, Albaniyanın məlum müddətdə paytaxtı olması ilə əlaqədar olaraq, mədəni həyatı ilə bağlı olmuşdur. Albaniya dövlətinin ictimai-siyasi tarixində xüsusi yeri olan hökmdarlar (II Vaçe, III Vaçaqan, katolikos Viro, hökümdar Cavanşir) həm dini, həm də dünyəvi biliklərin

inkişafına xidmət edən tədbirlər həyata keçirməklə, Bərdə şəhərinin elm, təhsil, mədəniyyət mərkəzi kimi formalaşmasında böyük xidmətlər göstərmişlər (136; 236; 296; 313; 352). V əsrdə Alban hökmdarları əyan uşaqlarına təhsil vermək, bilik öyrətmək üçün məktəblər açmışdılar (136; 223; 15, s. 57; 313). Mənbədə göstərilir ki, III Vaçaqan (487-510) təhsil vermək üçün müəllimlər topladı, kahinlərin və digər təbəqədən olanların uşaqlarını həmin məktəblərə cəlb etdirdi (136, k.1, f.25; 296, s.100).

M.Kalankatlı Bərdədə yaradılmış məktəblər və təhsil şəraiti haqqında maraqlı məlumat verərək yazır ki, «Vaçaqan əmr etdi ki, cadugərlərin, sehrbazların, bütpərəst kahinlərin, ağlayanların uşaqlarını yığıb məktəbə göndərsinlər və orada onlara dini ayinləri öyrətsinlər. O, oğlan uşaqlarına əmr etdi ki, hamı birlikdə onun Rustak kəndinə toplansın, onlar üçün təqaüd ayırıb məktəb müdiri təyin etdi və xristianlığı öyrənməyi onlara əmr etdi. O, kəndlərə gələndə, tez-tez məktəblərə gedər, sehrbaz və bütpərəst kahinlərin uşaqlarını öz ətrafına toplayar, onu əhatə edən camaatın içərisində bəziləri əllərində kitab, başqaları isə yazı lövhəsi tutub dayananlara əmr edərdi ki, ucadan bir-birinə oxusunlar və belə hallarda o qədər sevinərdi ki, böyük bir xəzinə tapsa idi, o qədər sevinə bilməzdi» (136, k.1, f.25).

III Vaçaqanın dövründə (VI əsrdə) Bərdədə ölkənin ilk yazılı qanunlarından biri olan «Alban kilsə qanunları» qəbul edildi (136, k.1, f.32). Albaniyada xristianlığın geniş təbliğ edilməsi üçün ölkəyə gətirilmiş dini kitablar alban dilinə tərcümə edildi, alban əlifbası ilə yazıldı (165; 223; 236, s.162; 296, s.100, 116). Məşhur yunan şairi Homerin «İliada» və Vergilinin «Eneida» əsərləri də Alban dilinə tərcümə edildi (127, s.104; 165, s.18). Təəssüf ki, alban dilində olan həmin yazılardan heç biri gəlib bizə çatmamışdır.

Albaniyanın ali katolikosu Viro Bərdənin mənəvi mədəniyyət tarixində mühüm yer tutmuş bir mütəfəkkirdir (136, k.2, f.14; 15, s.47; 218; 296, s.116-143). Onun xarici dilləri bilməsi, elmə, biliyə xidmət edən işlərlə məşğul olması, səlis, aydın nitqə, fəlsəfi biliyə yiyələnməsi və digər elmi biliklərdən xəbərdar olması «Albaniya tarixi» əsərində xüsusi qeyd edilir (136, k.2, f.14). Azərbaycan tarixinin qədim dövrünün öyrənilməsində ən mötəbər və qiymətli yazılı mənbə olan, tariximizin böyük bir dövrünü (I-X əsrləri) əhatə edən «Albaniya tarixi» qiymətli maddi və mənəvi abidədir. Həmin əsərin qiyməti bir də ondadır ki, onun müəllifi Bərdədə və onun yaxın ətrafında yaşamış, Bərdənin ictimai-iqtisadi və mədəni tarixi haqqında dəyərli məlumatları qələmə almışdır. Həmin əsər vaxtilə alban dilində yazılmış, sonra erməni dilinə və başqa dillərə tərcümə edilmişdir (136, s.7-12; 296, s.26; 313).

Tədqiqatçıların yazdıqlarına görə, «Albaniya tarixi»nin alban dilində olan nüsxəsi itmişdir. Onun bizə gəlib çatmış nüsxəsi başqa dillərə tərcümə nümunələridir (136, s.7-11; 15, s.7; 223; 296, s.28; 313; 384).

Bunlardan başqa, alban kilsəsinin, alban kilsə məclislərinin – V əsr (488-ci il) Aquen və VIII əsr (705-ci il) Bərdə yığıncağının kanonik qərarlarını da Alban tarixi-ədəbi ənənələrinin nümunələri sırasına daxil etmək»lə mənəvi tarix nümunələrinin məzmununun geniş olduğunu görə bilərik (296, s.23).

Mənbələrin verdiyi məlumatlara görə, Bərdədə Alban katolikosu Nersesin zəngin kitabxanası olmuşdur (136, k.3, f.1). Bir qədər əvvəldə qeyd etdiyimiz kimi, erməni qriqoryan təriqəti tərəfdarlarının və katolikosluğunun satqınlığı ilə cəzalandırılmış alban katolikosu Nersesin kitabları Tərtər çayına atdırılıb tamamilə məhv edildiyi

üçün onların bu gün heç bir nümunəsinə rast gəlmək mümkün deyil (136, k.3, f.1; 15, s.94; 236; 126).

Bərdə şəhərinin mənəvi mədəniyyət tarixinə qızıl hərflərlə yazılmalı Cavanşirin hakimiyyəti dövrüdür. Cavanşir təhsilin, elmin və mədəniyyətin inkişafına xüsusi fikir verirdi (136, k.3, f.28; 295, s.42; 219; 296, s.100). Bərdə Albaniyanın mədəniyyət mərkəzi, onun mənəvi dünyasının ocağı idi. Alban katolikosluğu Bərdəyə köçürüldükdən sonra Albaniyanın bütün vilayətlərində yerləşən ruhanilər və digər rütbəli din xadimləri vaxtaşırı oraya toplaşaraq, müəyyən dini və digər mənəvi problemləri həll etməklə məşğul olurdular (136, k.1, f.33; 236, s.162).

Mənbələrin verdiyi məlumata görə, həmin dövrdə (ilk orta əsrlərdə) Albaniyada xeyli xristian kilsəsi fəaliyyət göstərirdi. Bununla əlaqədar olaraq, dini qanunların icrasına və təbliğinə nəzarət və rəhbərlik Bərdədə təşkil edilirdi (236, s.143).

Tədqiqatçıların bu barədə göstərdikləri fakt və dəlilləri nəzərdən keçirərək belə bir nəticəyə gəlmək olar ki, xristianlıq Albaniyanın mənəvi mədəniyyət tarixində bir mərhələ təşkil etmiş, onun ictimai və iqtisadi həyatında olduğu kimi mədəni həyatında da müəyyən rol oynamışdır (236, s.142; 296, s.116-142).

Bərdədə yaşamış və Albaniya hökmdarı Cavanşirin ölümünə ağı üslubunda şer həsr etmiş Davdaq alban dilində yazmış ilk şairlərdən hesab edilir (136, k.2, f.37). Davdaq Cavanşirin bütün həyat və fəaliyyətini tərənnüm etməklə, onun ölümünə kədər hissi ilə «akroşer» üslubunda qəsidə həsr etmişdir (136, k.2, f.36). Şerdəki fikir ardıcıllığı, məntiqi məna, bədii fikir kamilliyi onun peşəkar şair tərəfindən yazıldığını göstərir (136, k.2, f.36).

Bizə «Albaniya tarixi» vasitəsilə gəlib çatmış 31 bənddən ibarət olan həmin şer haqqında öz fikrini bildirən

M.Kalankatlı onun xalqın dilində uzun müddət dolaşdığını qeyd edir (136, k.2, f.37).

Beləliklə, Bərdə şəhərinin maddi mədəniyyət nümunələrinin, yazılı mənbə materiallarının tədqiqi göstərir ki, qədim bünövrə üzərində təməl tapmış mədəniyyət mədəni inkişafın iki xarakterik xüsusiyyəti ilə özünü göstərmişdir. Qədim maddi mədəniyyətə malik olan xalq mənəvi mədəniyyətin yaranması və inkişafında xüsusi imkanlara sahib olmuş, bu mərhələlərin dinamik inkişafı ilə müşayət edilən mədəni səviyyə yaratmşdır. Bərdənin ilk orta əsrlərdə paytaxt şəhərə çevrilməsi, inkişaf etmiş orta əsrlərdə çiçəklənmə dövrü keçirməsi şəhərin mədəniyyətinin kompleks şəkildə tərəqqi etməsini şərtləndirmişdir. Torpaq, insan, şüur, fiziki və mənəvi qüvvə buna əsas zəmin olmuşdur.

İslam dininin qəbul edilməsi Azərbaycanda yeni bir mərhələnin başlanğıcını qoydu. Çox keçmədən Albaniyada o cümlədən ölkənin paytaxtı Bərdə şəhərində keçmiş dini ibadətlərə son qoyuldu. Yeni və mütərəqqi din olan islamın qanunları bütün dinləri üstələdi.

Hər bir xalqın sitayiş etdiyi dinlərə məxsus olan (yəhudilik, xristianlıq və s.) məbədlərə toxunmadan islamın yayılması üçün geniş şərait yaradıldı (174, s.38; 236, s.163).

Mənbələrdə bildirilir ki, islam dininin geniş yayıldığı bir dövrdə Azərbaycanın bir çox şəhərlərində olduğu kimi, Bərdə şəhərində də müsəlman məscidləri ilə yanaşı alban xristian kilsələri də görünürdü (34, s.57).

Bir daha qeyd etmək lazımdır: İslamın yayılması üçün yerlərdə müxtəlif üsullar və qaydalar müəyyənləşdirilmişdi ki, burada onlara rəğbətlə yanaşmaq tələb olunurdu. Kitabı olan başqa dinlərə qarşı zorakılıq göstərilmirdi. M.Kalankatlı bildirir ki, Bərdədə müsəlmanlıq dövründə də müxtəlif dinlərə xidmət edənlər var idi (136, k.3, f.18).

Xilafət hökmranlığı möhkəmləndikcə Bərdədə elmi və bədii kitablar, ümumiyyətlə bütün əsərlər ərəb dilində yazılmağa başlandı. Xristian məktəblərini müsəlman mədrəsələri əvəz etdi. Bərdədə və onun ətraflarında məscid kompleksləri tikildi. Şərq ölkələrində olduğu kimi, şəhər yeni üslubda yenidən qurulmağa başlandı (193; 215, s.16; 328, s.26).

Bərdənin Xilafətin şimal vilayətinin mərkəzinə çevrilməsi onun inkişafına səbəb oldu. Şəhərin sənətkarlıq və ticarət mərkəzi kimi böyüməsi, əhalisinin artması və yerli biliklərlə müsəlmanlığın gətirdiyi yeni elmi biliklərin qovuşması cəmiyyətin elmə, biliyə yiyələnməsi üçün geniş meydan açdı. Yeni mədəni mühit yarandı. Ərəb dilində yazıb-yaratmış bir çox alimlər, şair və yazıçılar, ictimai xadimlər meydana çıxdı (127, s.9; 128, s.7; 129, s.75; 174, s.73).

Xilafətin genişlənməsi və inkişaf etməsi ilə əlaqədar olaraq ictimai, siyasi məsələlərin həll edilməsində yeni elmi biliklərin meydana çıxmasına zərurət yaranırdı. Quran, sünnə, icma və qiyas müsəlman hüququnun əsasını təşkil edirdi (127, s. 16; 327, s.9). Həmin dövrdə «Bərdəi» təxəllüsü ilə tanınmış onlarla mütəfəkkir yetişdi, onların adı, şəxsiyyəti və yaradıcılığı haqqında məlumatlar tarixə çevrildi (127; 128; 129; 174, s.139; 179, s.8; 327). Təəssüf ki, onların əsərlərinin çoxu müxtəlif səbəblərdən itmiş, bizə gəlib çatmamışdır.

Həmin alimlərin əksəriyyətinin Bərdədə fəaliyyəti barədə məlumat da yox dərəcəsindədir. Sübuta ehtiyacı olmayan bir məsələdir ki, erməni mənşəli «tarixçilərin» əksəriyyəti öz xalqının «tarixini» yazmaqla bərabər, mümkün qədər bizim tariximizə aid olan məlumatlar üzərində də «düzəlişlər» aparmışlar (136, s.7-13; 15, s.7-9; 296, s.6-27).

Azərbaycanda ictimai mühitin dəyişməsi mənəvi mədəniyyətdə də öz əksini tapırdı. Siyasi vəziyyətdən irəli gələn məşəqqətlərə baxmayaraq iqtisadiyyat tərəqqi etmiş, elm, ədəbiyyat və incəsənət yüksək inkişaf mərhələsi keçmişdi. Həmin dövrdə müsəlman ölkələrində dini elmlərə üstünlük verilsə də, fəlsəfə, məntiq, riyaziyyat, astronomiya, musiqi və s. elmlərin tədrisinə də diqqət yetirilirdi. Elm öyrənmək istəyənlər Şərqin mədəniyyət mərkəzlərinə gedir, orada görkəmli mütəfəkkirlərdən təhsil alırdılar. Orta əsr mənbələrində onların adları, təhsili, yaradıcılığı, nüfuzlu müəllimləri və şagirdləri haqqında məlumat verilir (127, s.17; 170, s.51). Onların sırasında Bərdədən olan bir çox görkəmli elm, ədəbiyyat və mədəniyyət xadimlərindən bəhs edilir.

İlk mənbələrdə «Hənəfilik» cərəyanının Azərbaycandakı nümayəndələrindən olmuş **Əbu Səid Əhməd ibn Hüseyn Bərdəinin** adı çəkilir. İbn ən-Nadim onu görkəmli alim, fiqhə (hüquqa) dair «əl-Müxtəsər» kitabının müəllifi Əbülhəsən Abdulla ibn Həsən Kərxinin (874-916) müəllimi kimi təqdim edir (127, s.17). Əbu Səid əl-Bərdəi haqqında türk alimi Əhməd Taşköprüzadə (1495-1559) «Təbaqət əl-füqəha» («Fəqihlərin təbəqələri») kitabında bildirir ki, «Əbu Səid Əhməd ibn Hüseyn Bərdəi Əbu Əmr Dəqqaqdan və Musa ibn Nəsrdən təhsil almış böyük fəqihlərdən və Bağdadda yaşamış qabaqcıl şeyxlərimizdən biridir. Əbülhəsən Kərxi, Əbu Tahir Dəbbas və Əbu Əmr Bəsri onun yanında fiqhi öyrənmişlər» (127, s.18). Əbu Səid Əhməd ibn Hüseyn Bərdəi Bağdadın məşhur ilahiyyatçılarından olmuşdur. O, hənəfiliyin və mütəzililiyin görkəmli nümayəndəsi, ilahiyyatçı hüquqşünas alim idi. Əbu Səid əl-Bərdəi Bərdədə anadan olmuş, ilk təhsilni burada almış, həccə getmək məqsədilə səfərə çıxmış, bir daha vətənə qayıtmamışdır. Alim həccə gedərkən Bağdada gəlmiş, burada

din xadimlərinin yığıncağında iştirak etmişdir. Əbu Səid zahiriliyin banisi Davud ibn Əli ilə tanış olmuş və onunla xüsusi görüşlər keçirmişdir. O, bir müddət Bağdadda qalmış, mötəzili təliminin əsaslarını tədris etmişdir. Əbu Səid əl-Bərdəi Bağdaddan Məkkəyə gedərkən həccə gedənlərlə birlikdə qərnatilər tərəfindən öldürülmüşdür (90, s.108; 195, s.119; 327, s. 91).

Xətib Bağdadi nəql edir ki, «Əbu Səid Bərdəi həcc edərək Bağdada daxil oldu. O, Zahirin dostu Davud ibn Əlinin yanına düşdü… Əbu Səid illərlə Bağdadda qalıb dərs dedi. Sonra həccə getdi… Həccacla birlikdə 317 (m.t.929)-ci ildə qərnatilər döyüşündə öldürüldü» (127, s.18).

Yuxarıda adları çəkilənlərdən başqa, bir çox Bərdəli alimlərin şəxsiyyəti, yaradıcılığı və elmi fəaliyyəti haqqında bizə gəlib çatmış məlumatları ardıcıllıqla təqdim etməklə yanaşı, onların yaşayıb yaratdıqları dövrün ictimai mühiti, mədəniyyət və elm dünyası haqqında ətraflı məlumat vermək yerinə düşərdi. Öncə bir məsələni də qeyd etmək lazımdır ki, mənbələrdə göstərildiyi kimi, islam dininin əhatə etdiyi şəhərlərdən ərəb dilini bilən, elmə, mədəniyyətə və incəsənətə marağı olan şəxslər Şərqin mədəniyyət mərkəzlərinə gedir, təhsil və biliklərini artırır, bəziləri geri- öz vətənlərinə qayıdır, bir çoxu isə ya təhsil aldığı şəhərdə qalır, ya da başqa müsəlman ölkələrinə gedib fəaliyyət göstərirdilər. Mənbələrdə Yaxın Şərqin və Orta Asiyanın iri mədəniyyət mərkəzlərində – Bağdadda, Qahirədə, Dəməşqdə, Nişapurda, Şaşda (Daşkənddə) və b. fəaliyyət göstərmiş bir çox bərdəlinin adı çəkilir. Burada qeyd edilir ki, tanınmış bir çox Bərdəli alimlər və mütəfəkkirlər var idi ki, onlar hüquqa, fəlsəfəyə və digər elmlərə dair qiymətli əsərlər yaratmışdılar (127; 128; 129; 174; 347).

Bu bir tarixi faktdır ki, islamın yayıldığı Yaxın və Orta Şərq ölkələrində alimlərin yetişməsində Azərbaycan mütəfəkkirlərinin də xidməti olmuşdur. Məsələn, (913-cü ildə) Əbü-l-Qasim Bətrani Misirdə **Məhəmməd ibn Zeyd Bərdəinin** mühazirələrini dinləmişdir (127, s.18).

Ərəb müəllifi Yaqut əl-Həməvi bildirir ki, «…Bərdə şəhərindən olan və imam alimlərdən ideya alan alimlər var idi» (40, s.87; 129, s.75). Onlardan **Məkki ibn Əhməd Bərdəi** (…965) mühəndis, səyyah və hədisçi idi. O, Dəməşq şəhərində Əhməd ibn Umeyrdən, Trablisdə Abdulla ibn Həsəndən, Bağdadda Əbü-l-Qasim Bəğəvidən təhsil almışdır. Alim 941-942-ci ildə Nişapura, 961-ci ildə isə Mavərənnəhrə getmiş, Səmərqənddə hədisçilər dərnəyini yaratmışdı. O, 965-ci ildə Şaş (Daşkənd) şəhərində vəfat etmişdir (90, s.109; 127, s.18; 174, s.139; 347, s.120). Mənbələrdə bildirilir ki, Məkki ibn Əhməd Bərdəi təkcə Xorasanda insanı heyrətə salacaq qədər kitab yazmışdı (127, s.18).

**Əbu Bəkr Məhəmməd ibn Yəhya Hilali əl–Bərdəi** xaricilər təriqətinin görkəmli nümayəndələrindən biri idi. O, əsas təhsilini Bağdadda almış, şair və alim kimi tanınmışdı. Sonralar o, Səmərqəndə gəlmiş və burada hədis söyləməklə şöhrət qazanmışdı. O, ənənəvi dini fənlərlə yanaşı filologiya ilə məşğul olmuşdur. Onunla şəxsən görüşmüş ən-Nədim onun dünyagörüşü, əsərlərinin adı barədə məlumat vermişdir. Əbu Bəkr Məhəmməd əl-Bərdəi təqiblərə məruz qalmış, əsərləri gizlədilmişdir. Bu səbəbdən onun əsərləri itmişdir. Onun 961-ci ildə vəfat etdiyi bildirilir (90, s. 109; 127, s. 20-21; 347, s. 120). **Səid ibn Əmr Əbu Osman əl-Əzdi əl-Bərdəi** Dəməşqdə və Xilafətin başqa mərkəzlərində tanınmış hədis bilicisi idi. O, bir çox müsəlman mədəni mərkəzlərində olmuş, görkəmli ilahiyyatçılardan təhsil almışdır. Alim Dəməşq şəhərində islam hüquqşünası Əbu Zuranın hədislərinə qulaq asmış və onun ardıcıllarından

biri olmuşdur. Səid əl-Bərdəi Misirə – müəlliminin yanına getmiş, onun üzünü köçürdüyü əsərlərini ona oxumuş və təbliği üçün icazə almışdır. Ərəb müəllifi nəql edir ki, Səid əl-Bərdəi bir gün qapısını bağlayıb evdən bayıra çıxmır və bildirir ki, «adamlar hədisləri təhrif etdiyi üçün mən bir də hədis söyləməyəcəyəm». Lakin şagirdlərindən birinin (Məhəmməd ibn Vərək ər-Razinin) səyi nəticəsində o, inadından əl çəkir, hədislər söyləməyə başlayır (347, s.117). Səid əl-Bərdəi yalnız hədis söyləməmiş, onların təhrif edilməsinə qarşı mübarizə aparmışdır. Onun həyat və fəaliyyəti barədə əldə kifayət qədər məlumat yoxdur. Mənbələr onun 883-cü ildə vəfat etdiyini bildirir (90, s.106-107; 174, s. 91; 347, s.117-118). **Əhməd ibn Ömər Əbül–Həsən əl–Bərdəi** Bağdadın mütəzili təriqətinə mənsub olan mötəbər alimlərindən olmuşdur. O, mütəzililərdən Əbu Mücaəllad ibn əl-Hüseyndən təhsil almışdır. Əhməd ibn Ömər Əbül–Həsən əl-Bərdəi haqqında mənbələrdə bildirilir ki, o, yüksək təhsil görmüş, görkəmli alim olmuşdur. Alim dövrünün məşhur mütəzililərindən Əbu Əli Məhəmməd ibn Əbdü-l-Vəhab Cübai, Hişam ibn Ömər Füvəti, Əbbal ibn Süleyman və başqaları ilə dostluq etmişdir. Bağdadın bir çox görkəmli alimləri ondan dərs almışdılar. Onlardan şəfiit fəqihi Əbu Abbas Əhməd ibn Ömər ibn Sürayc, malikilərin başçısı Əbu Həsən Abdullah ibn Müta əl-Fədl, mütəkəllim fəqih Teyyib Məhəmməd ibn İbrahim Xalid əl-Bağdadini göstərə bilərik. Onun IX əsrin ikinci yarısınadək yaşadığı güman edilir (90, s.107; 174, s.91; 347, s.118).

Bağdadda yaşamış **Əbu Bəkr Əhməd ibn Harun Bərdici əl–Bərdəi** haqqında mənbələrdə maraqlı məlumat verilir. Harun Bərzəi və ya Bərdəi Bərdə şəhəri yaxınlığında olan Bərdicdən Bağdada getmiş və orada yaşamışdır. Əbu Səid əl-Eşəc, Harun ibn İshaq, Rəbi ibn Süleyman, eləcə də Şam, Harameyn, Əcəm, Misir, İrak və Cəzirədəki alimlərdən

təhsil almış, elm öyrənmiş və fəaliyyət göstərmişdir. Əbu Əli ibn Savvaf, Əbu Bəkr əş-Şəfii, Əbül Qasim ət-Təbərani, Əli ibn Lülü əl-Vərraq və bir çoxları ondan rəvayət öyrənmişdir. Əhməd ibn Harun Bərdəi hədisdən bəhs edən bir sıra kitabların müəllifidir. Onun yazdığı «Əl-Əsma əl-mufrədə» kitabı müsəlman ideoloqları üçün ən qiymətli kitablardan biri hesab edilir. Həmin kitabın əlyazması Qüdsdə (Yerusəlimdə Xalidiyyə kitabxanasında) saxlanılır. Hədis elmində sika, mömin və hafis kimi dəyərləndirilən Bərdicinin daha iki əsəri günümüzə gəlib çatmışdır. Onlardan biri «Tabakat-ül əsma il-müfrədə», ikincisi «Cüz fi mən rəva anin-nəbiyyi…minəş-sahabe fil-kəbair» dir. Əhməd ibn Harun Bərdəi təxminən yetmiş yaşlarında Bağdadda vəfat etmişdir (127, s. 18).

**Əbu Bəkr Əbdüləziz ibn Həsən Bərdəi** Dəməşqdə Məhəmməd ibn Abbasdan, Misirdə Əbu Yaqub İshaq ibn İbrahim Bağdadidən, Mosulda Əhməd ibn Mərdən, Nişapurda Məhəmməd ibn İshaqdan təhsil almışdır. O, Məhəmməd ibn İshaqın vəfatından sonra, 930-cu ildə Rabata və oradan Nisa şəhərinə köçmüş, 935-ci ildə Nisada vəfat etmişdir (127, s. 18).

**Məhəmməd ibn Zeyd ibn Yədəhdəvayh əl–Heysəm əl–Bərdəi** ilk təhsilini Bərdədə almış, sonra Misirə gedərək uzun müddət orada yaşamışdır. O, ədəbiyyat, dil və poeziya sahəsində böyük şöhrət qazanmışdı. Onun ləyaqət və qabiliyyətinə hörmətlə yanaşmış Əbu Əbd ül-Kadi öz vəqf mülkünün bir hissəsini istifadə üçün ona vermişdir. Əbül Qasim Təbərani 912-ci ilin aprelində onun mühazirələrini dinlədiyini bildirir. Təəssüf ki, onun nə əsərləri, nə də əsərlərinin adları bizə məlum deyildir (90, s.110; 179, s. 21).

Şərq ölkələrini bürümüş rəsmi dini ideologiya ilə bidət arasındakı ideya mübarizəsi Bərdədə də öz təsirini göstərmişdi. Həmin dövrdə ortodoksal islama qarşı sufilik,

mütəzililik cərəyanı tərəfdarları olan bidətçilər ideya mübarizəsi aparırdılar (127, s.18). Orta əsr mənbələrində hədisçi, fəqih **Məhəmməd ibn Xalid Bərdəi** (…?-938) haqqında «nüfuzlu, nüfuz sahibi», «inanılmış», «doğruçu, sədaqətli» kimi ifadələr işlədilir (127, s.18). Orta əsr mənbələrində IX-X əsrlərdə yaşamış sufilərin sırasında **Səid ibn Qasim Bərdəinin və Əbu Əli Hüseyn ibn Süfvan ibn İshaq ibn İbrahim Bərdəinin** adları çəkilir (127, s.28). Əbu Əli Hüseyn ibn Süfvan Bərdəi X əsrin birinci yarısında Bağdadda görkəmli hədis təbliğatçılarından biri idi. O, dövrünün «yüksək biliyə malik həqiqi ədib və tarixçisi» Əbu Bəkr ibn Əbu Dünyidən təhsil almışdı. Sonra o, müəlliminin əsərlərinin tədrisi və təbliği ilə məşğul olmuşdur. Əbu Əli Hüseyn ibn Süfvan Bərdəi 952-ci ildə vəfat etmişdir (90, s. 108; 347, s. 120). **Əli ibn Əbdüləziz Bərdəi** (…? – 997) Şərq ölkələrinin məşhur sufilərindən idi. Mənbələrin göstərdiyinə görə, Əbülhəsən Əli ibn Əbdü-l-Əziz Bərdəi Bağdadda Əbu Hatəm Razinin, Nəsr ibn Mənsur Ərdəbilinin yanında təhsil almışdır. O, Bağdadın böyük tacirlərindən olmuşdur. Tacir, alim 997-ci ilin yanvar ayında vəfat etmişdir (90, s.109; 129, s.78).

Beləliklə, orta əsrlərdə Şərq ölkələrinin çox hissəsini bürümüş müsəlman dünyasında məşhur olan elm adamlarının, ədiblərin sırasında Bərdəli alimlərin olması Bərdə tarixinin çiçəklənmə dövrünü səciyyələndirir. Maddi və mənəvi mədəniyyətin vəhdəti Bərdənin mədəni həyatınının ən parlaq tərəqqi dövrünü xarakterizə etməyə imkan verir.

Xilafətdə hakimiyyətə sahib olmaq uğrunda gərgin mübarizə gedərkən Bərdədə də İslamın təəssübkeş ideoloqları ilə mütəzililər arasında kəskin mübarizə gedirdi. Mütəzililər ilahi qüvvələri inkar edirdilər. Onların yaradıcılığında təbii-elmi fikirlər, o cümlədən ruh, substansiya, cisim, atom haqqında maraqlı mülahizələr irəli

sürülmüşdür (127, s.25). Mütəzililərlə ortodoksal sünnilik arasında gedən kəskin mübarizə hətta açıq vuruşmalara səbəb olurdu. Ərəb tarixçisi və coğrafiyaşünası əl-Yaqubi (…?-897) o dövrdə Bərdədə islamın təəssübkeş ideyaları ilə mütəzililər arasında baş vermiş münaqişənin nəticəsini təsvir edərək yazır: «Bərdədə mütəzililərlə təəssübkeş müsəlmanlar arasında dava düşdü. Onlar bir-birini az qala qırıb qurtarana qədər vuruşdular» (127, s.25; 129, s.77).

Bərdə şəhəri və onun ətraflarında mənəvi-ideoloci mübarizələrin mahiyyətinən asılı oaraq mənəvi fikir cərəyanları da formalaşırdı. Bu cərəyanlar ətrafında birləşən tərəfdarların içərisində o dövrün ziyalıları, tanınmış şəxsləri də var idi.

Mütəziliiliyin Azərbaycanda ən böyük nümayəndələrindən biri bərdəli **Əbu Bəkr Məhəmməd ibn Abdullah ibn Əbülhəsən Bərdəi** olmuşdur (127, s.23). Məhəmməd ibn Abdullah Bərdə şəhərində anadan olmuş, bir müddət Bağdadda yaşamışdır. Onun haqqında isə yeganə ilk mənbənin öz müasiri ən-Nədimin (936-995) «Əl-Fihrist» («Göstərici») kitabından ibarət olduğu göstərilir. Mütəfəkkirlə şəxsən tanış olmuş müəllif onun əqidəsinə və əsərlərinə dair yığcam şəkildə dəyərli məlumat vermişdir: «Əbu Bəkr Bərdəini (adı Məhəmməd ibn Abdullahdır) 951-952-ci ildə gördüm. Mənimlə etdiyi söhbətdən mütəzili məzhəbinə aid mənsubiyyəti aydınlaşdı. O, xarici olub, onların (xaricilərin) fəqihlərindən biri idi. Alim təxminən 961-ci ildə vəfat etmişdir» (127; 129). Ən-Nədim Əbu Bəkr Məhəmməd Bərdəinin aşağıdakı əsərlərinin adını çəkmişdir: «Kitab əl-murşid fil-fiqh» («Fiqhə dair rəhbər kitab»), «Kitab ər-rədd ələ əl-muxtalifin fil-fiqh» («Fiqhə dair müxalifətçilərə cavab kitabı»), «Kitab təzkirət əl qərib fil-fiqh» («Fiqhə dair qəribin xatiratı kitabı»),

«Kitab ət-təbəssür lil-mütəllimin» («Öyrənənlər üçün düşüncə kitabı») «Kitab əl-ehticac ələ əl-müxəlifin» («Müxalifətçilərə qarşı etiraz kitabı»), «Kitab əl-cami fi üsul əl-fiqh» («Fiqhin əsaslarına dair məcəllə kitabı»), «Kitab əd-dua» («Dua kitabı»), «Kitab əl-izkar vət-təhkim» («Xatırlama və təhkimetmə kitabı»), «Kitab əs-sünnə və-l-cəmaə» («Sünnə və camaat haqqında kitab»), «Kitab əl imamə» («İmamət haqqında kitab»), «Kitab ibn ər-Rəvəndi fil-imamə» («İmamətə dair ibn Rəvəndinin kitabı əleyhinə kitab»), «Kitab təhrim əl-muskir» («Spirtli içkini qadağan etmək haqqında kitab»), «Kitab ər-rədd ələ ma qalə bil-mutə» («Mutəni təsdiq edən müddəanın rəddi barəsində kitab»), «Kitab ən-nakisin» («Qaydanı pozanlar haqqında kitab») «Kitab əl-iman vən–nüzur» («İman və vəd haqqında kitab») (129, s.76). Aydın olur ki, Əbu Bəkr Məhəmməd Bərdəi zəngin yaradıcılıq yolu keçmişdir. Öz dövrünə görə, yuxarıda göstərildiyi kimi, mütərəqqi sayılan xaricilərin hüquq normaları, onların əsas tələbləri mütəfəkkirin kitablarında geniş şərh edilmişdir (127, s.21). Bu əsərlərin heç biri hələlik əldə olmadığı üçün, onların daşıdığı məzmun və orada irəli sürülmüş məsələlər barəsində danışmaq çətindir. Bununla belə, xaricilərin ideya istiqamətinə nəzərən ehtimal etmək olar ki, «Kitab əs-sünnə vəl-cəmaə», «Kitab əl-imamə», «Kitab nəqz Kitab İbn ər-Rəvəndi fil-imamə», «Kitab ər-rədd əla ma qalə bil-mutə» və s. əsərlərdə mütərəqqi cəhətlər, demokratik fikirlər öz əksini tapmaya bilməzdi (127, s.21). Çünki, bütün müsəlman ölkələrində, o cümlədən Azərbaycanda mütəzililik cərəyanı geniş yayılmışdı. Əbu Bəkr Məhəmməd ibn Abdullah ibn Əbülhəsən Bərdəi haqqında deyilir: Əbülhəsən ibn Ömər ibn Abdullah Bərdəi nəcib və görkəmli alim idi. O, məşhur mütəzililərdən Əbu Əli Məhəmməd Cübban, Hişam ibn Ömər Füvati, Əhməd ibn Süleyman və başqalarının dostu idi. «Təbəqət əl-mütəzilə» kitabında Əbu Əli Məhəmməd

Cübban haqqında bir çox məlumatlar Əbülhəsən Bərdəinin dilindən nəql olunur. Eyni zamanda göstərilir ki, fəqih, mütəkəllim Əbu Teyyib Məhəmməd ibn İbrahim Xalidi Bağdadi kəlam elmini Əbülhəsən Bərdəidən öyrənmişdir (127, s. 23). Xətib Bağdadi (1002-1071), ən-Nədim Əsgilani (1372-1449) də Əbülhəsən ibn Ömər ibn Abdullah Bərdəini mütəziliiliyin görkəmli nümayəndəsi kimi qeyd etmişlər (127, s.23).

Əl-Əsrin məlumatlarında adı çəkilən **İbn əl ...– Bərdəinin** «Tətimmət əl-müxtəsər fi əxbar əl-bəşər» («İnsanları tamamlayan qısa xəbərlər») əsəri orta əsrlərdə Şərq ölkələrində geniş yayılmışdı. Nəcəf şəhərində son dövrlərdə nəşr edilmiş həmin əsər XI-XII əsrlərdə baş vermiş ictimai hadisələrindən bəhs edir (217, s.191-192; 263).

Orta əsrlərdə ideya cərəyanlarından olan sufilik XIII əsrdən sonra şairlər tərəfindən inkişaf etdirilmişdir. Bu şair sufilərdən biri də **Şeyx İbrahim ibn Şihabəddin Gülşəni Bərdəi** idi (127, s. 168). Təəssüf ki, onun əsərlərinin adları bizə məlum deyildir.

**Mühiddin Məhəmməd əl-Bərdəi** (…?-1521) filosof, ilahiyyatçı və hüquqşünas idi. Mütəfəkkiri «görkəmli alim» ad-landıran İbn İmdad Hənbəli (…?-1678) onun ziyalı ailəsindən çıxdığını, ilk təhsilini atasından aldığını yazır. Məhəmməd Bərdəi Bərdə şəhərindən Şiraz və Herat şəhərlərinə getmiş, müxtəlif elmləri dərindən öyrəndikdən sonra Bursa şəhərinin Əhməd paşa mədrəsəsində müəllimlik etmişdir (128, s.50). O, məntiq, fəlsəfə və Quranın təfsirinə dair əsərlərin müəllifidir. Əsirəddin Əbhərinin (…?-1265) «İsağuci» («Kateqoriyalara giriş»), Siracəddin Urməvinin «Nurların doğuşları», Əzüdəddin İcinin (…?-1355) «Ədəb əl-bəhs» («Mübahisə etmək qaydaları»), Nəsirəddin Tusinin «Təcrid əl-kəlam» («Kəlamın təcridi») kitablarının şərhlərinə onun haşiyələri vardır (128, s.50).

Müəllifin məntiqə aid olan «Kateqoriyalara giriş» kitabının haşiyəsinin əlyazma nüsxələri Sankt-Peterburqda, Tehranda və dünyanın başqa yerlərində saxlanılır (128, s.50). Qahirənin Hədiviyyə kitabxanasındakı nüsxəni xəttat İsmayıl ibn Əli hicri tarixi ilə 641-ci ildə köçürüb qurtarmışdır. Məhəmməd Bərdəinin bu traktatına orta əsrlərdə «İzahat» («ət-Təliqat») yazılmışdır. Onun əlyazma nüsxələrindən biri Sankt-Peterburq Şərqşünaslıq İnstitutundadır (128, s.51).

Bərdəli alimlər də Azərbaycanın bir sıra alimləri kimi, ərəb filologiyasının inkişaf etdirilməsində xüsusi rol oynamışlar. Onlar ərəb dilinin qrammatikasına aid əsərlər yazmışlar (129; 214; 324). **Sədullah əl–Bərdəi** XIV əsrin sonu-XV əsrin əvvəllərində yaşamış, filologiyaya dair bir sıra əsərlər yazmışdır. Alim «Hədəiq əd-dəqə fi şərh risalət əllamət əl-həqəiq» («İncə mətləblər bağı, incə biliklərin həqiqi traktatlarının şərhləri»), «Haşiyə «əl-ət-təsrif əl-İzz» («Ət-Təsrif İzzi» əsərinə haşiyəli şərh») adlı qiymətli əsərlər yaratmışdır. Bunlardan əlavə o Kəpəz dağına aid poema həsr etmişdir ki, həmin poemanın əlyazması Azərbaycan MEA Əlyazmaları İnstitutunda saxlanılır (90, s.111; 179, s.25-26). Sədullah əl-Bərdəinin Respublika Əlyazmalar İnstitutunda saxlanılan «Hədəiq əd-dəqə» əsərinin bir hissəsi N.Ağayeva tərəfindən tədqiq edilmişdir (179, s.25-26).

Mənbələrdə bərdəli alimlərdən başqa Bərdədən çıxmış siyasi və ictimai xadimlərin də adları çəkilir. Onların bir çox-unun zəmanəsinin ictimai, siyasi həyatında fəal rol oynadığı qeyd edilir. Şirvanşah Məzyədilər sülaləsindən olan Yəzid ibn Əhmədin (991-1027) dövründə Şirvanşahlar dövlətinin idarə edilməsində iştirak etmiş **Abbas Bərdəinin** və onun oğlanlarının adı çəkilir və bildirilir ki, Yəzid ibn Əhməd 998-ci ildə bütün dövlət işlərini Abbas Bərdəinin oğulları Əbdü-l-Əzizə və Əbdü-l-Səmədə tapşırmış,

dövlət işlərinin idarə edilməsində həmişə onlarla məsləhətləşmişdir (90, s.111; 169, s. 66; 309, s.52).

**Qazi Məhiyəddin Bərdəi** (XIV əsr) dövlət xadimi olmuş, dövrünün siyasi işlərində fəal iştirak etmişdir (161; 178, s.149). XIV əsrin ortalarında monqol əsarətinə qarşı mübarizədə məharətli natiq Qazi Məhiyəddin Bərdəi mühüm rol oynamışdır. Məlik Əşrəfin zülmündən əhalinin ölkəni tərk etdiyi vaxt Qazi Məhiyəddin Qızıl Ordanın paytaxtı Saray şəhərinə gəlmiş, orada vaizlik edərək məşhurlaşmışdı. Onun moizələrinin birində Qızıl Orda hakimi Canıbəy də iştirak etmişdi. Qazi Məhiyəddin Bərdəinin Məlik Əşrəfin zülmlərinə aid olan moizəsini eşidən məclis əhli ilə birlikdə Canıbəy də ağlamışdı. Qazi Məhiyəddin Bərdəinin çağırışını eşitmiş Canıbəy böyük qüvvə ilə Azərbaycana gəlmiş və Məlik Əşrəfi hakimiyyətdən salmışdı. Qazi Məhiyəddin də onunla Azərbaycana qayıdıb burada yaşamışdır (33, s.99; 90, s.111; 341). Təəssüf ki, onun sonrakı həyatı və fəaliyyəti haqqında əldə məlumat yoxdur. Bərdənin uzun müddət ölkənin siyasi həyatından kənarda qaldığı dövrlərdə mədəni həyat tədricən zəifləmişdir. XVI əsrdə Bərdənin təmiz, yaraşıqlı bir şəhər olduğu qeyd edilir (231, s.128). Lakin onun mədəni mühiti haqqında heç bir məlumat verilmir.

Arxeoloji materiallar, yazılı mənbə məlumatları, tədqiqat əsərləri və etnoqrafik müşahidələr əsasında aparılan tədqiqat belə bir nəticəyə gəlməyə ikan verir ki, Bərdə şəhəri maddivə mənəvi mədəniyyət baxımından tarixi ənənəsini davam etdirmişdir.

Beləliklə, siyasi, sosial-iqtisadi və mədəni inkişaf baxımından qədim ənənəyə malik olan Bərdənin yenidən inkişaf etməsi üçün təbii stimul olduğundan zaman-zaman tənəzzül dövrləri keçirsə də şəhər həyatı heç vaxt tamamilə sönməmişdir.

# NƏTİCƏ

Bərdə şəhərinin tarixi üzrə qədim yazılı qaynaqların, arxeoloji materialların, tədqiqat əsərlərinin əsasında apardığımız elmi araşdırmalar aşağıdakı nəticələrə gəlməyə imkan verir:

Bərdə Azərbaycanın zəngin tarixi keçmişə malik olan ən qədim şəhərlərindəndir. Azərbaycanın qədim şəhər mədəniyyətini özündə əks etdirən və eyni zamanda ölkəmizin siyasi həyatında xüsusi yeri ilə fərqlənən, habelə xalqımıza böyük və şərəfli maddi və mənəvi şəhər mədəniyyəti bəxş edən Bərdənin şəhər kimi yeri və rolu daima görünməkdədir.

Bərdə ərazisində aparılmış arxeoloji qazıntılar nəticəsində əldə edilmiş çoxsaylı maddi mədəniyyət nümunələrinin tarixi-arxeoloji tədqiqi həmin ərazidə ən qədim şəhər yaşayış izlərinin olduğunu göstərir. Tədqiqat zamanı müəyyən edilmişdir ki, Qafqaz Albaniyasının Uti nahiyəsinin mərkəzində, Kür və Tərtər çayları arasında ilk insan yaşayışı daş dövründən başlanmış, tunc və dəmir dövründə inkişaf etmiş, burada təsərrüfatın inkişafı, sənət və ticarətin meydana çıxması nəticəsində e.ə.V-IV əsrlərdə şəhər – Bərdə yaranmışdır.

Arxeoloji qazıntılar zamanı Bərdənin antik dövrdə şəhər tipli yaşayış məskəni əlamətlərini göstərən çoxlu miqdarda maddi nümunələr aşkar edilmişdir. Həmin arxeoloji materialların, yazılı mənbələrin tədqiqi, tədqiqat əsərlərinin tənqidi

təhlilindən alınan nəticələrlə şəhərin qədim dövrünün tarixini öyrənmək, onun antik dövrdə mövcud olduğunu sübut etmək, ərazinin təbii-coğrafi xüsusiyyətini, həmçinin qədim şəhərin quruluşunu, adının etimologiyasını tədqiq etmək mümkün olmuşdur. Bərdə şəhəri Şərq şəhərləri tipinə uyğun əlamətləri ilə bərabər, özünəməxsus plan quruluşuna malik olmuşdur. Şəhər Tərtər çayının sol sahilində, çaya yaxın, ətraf yerlərə nisbətən hündür bir ərazidə salınmışdır. Onun kənarları möhrə, çiy kərpic və çay daşlarından hörülmüş enli divarla dövrələnmiş, su doldurulmuş xəndəklə əhatə edilmişdir. Arxeoloji qazıntılar zamanı həmin müdafiə istehkamlarının qalıqları, həmçinin qala qapılarının izləri aşkar edilmişdir.

Bərdə strateji cəhətdən əlverişli, iqtisadi baxımdan inkişaf etmiş şəhər kimi erkən orta əsrlərdə Albaniyanın iqtisadi, siyasi və mədəni mərkəzinə – paytaxtına çevrilmişdir. Bərdə şəhərinin siyasi tarixini əks etdirən yazılı mənbə məlumatları, əsasən şəhərin paytaxta çevrilməsindən sonrakı dövrə aid olduğuna görə, həmin tarix V əsrdən öyrənilir. Bərdə şəhərinin siyasi həyatı V-VII əsrlərdə bütövlükdə Albaniya dövlətində baş vermiş siyasi hadisələrlə sıx bağlı olmuşdur. Başqa sözlə, şəhərin siyasi tarixi Albaniyanın siyasi tarixinin mərkəzində dayanmışdır. Belə ki, Bərdə Albaniya dövlətinin möhkəmlənməsi uğrunda gedən mübarizənin, xarici müdaxiləçilərə qarşı savaşların, habelə daxili çəkişmələrin mərkəzinə çevrilmişdir.

Həmin dövrdə Albaniya qədim dövlətçilik ənənələrinə malik olan, bu ənənələr üzərində möhkəmnlənən və öz müstəqilliyini qorumaq uğrunda gərgin mübarizə aparan dövlətlərdən biri idi. Bərdə Albaniyanın paytaxt şəhəri kimi ictimai həyatın bir sıra amillərini – hərbi-strateji, inzibati amilləri, sənətkarlıq və ticarəti, din və mədəniyyəti özündə cəmləşdirərək hərbi gücə, siyasi nüfuza, iqtisadi və mədəni

əlaqələrə malik şəhər olmuşdur. Albaniya dövləti nəhəng imperiyaların arasında yerləşdiyinə, onların müdaxilələrinə məruz qalmasına baxmayaraq öz suverenliyini əsrlər boyu qoruyub saxlaya bilmişdir. Albaniya xüsüsilə VII əsrdə qüdrətli dövlət olmuşdur. Albaniya dövlətinin böyük hökmdarı Cavanşirin ağıllı dövlət başçısı olması və çevik siyasət yeritməsi sayəsində Sasani imperiyası, Bizans imperiyası, Xəzər xaqanlığı, eləcə də Ərəb xilafəti onunla hesablaşırdı.

İlk orta əsrlərdə Azərbaycan tarixində xüsusi yeri olan Alban hökmdarları II Vaçe, III Vaçaqan, Varaz-Qriqor, Cavanşir, Varaz-Trdat, ictimai xadimlər Viro, Nerses Bakir, şair Dəvdək Bərdədə yaşamış və fəaliyyət göstərmişlər.

Tədqiqat göstərir ki, Bərdə antik və ilk orta əsrlərdə iqtisadi, ictimai, siyasi və mədəni cəhətdən intensiv inkişaf dövrü keçirmişdir. Arxeoloji qazıntılar vasitəsilə müəyyənləşdirilən antik şəhər eramızın əvvəllərinə qədər indi Şortəpə adlanan yerdə (indiki Bərdə ilə Şortəpənin arası 5-6 km-dir) olmuşdur. Orada eramızın II əsrindən etibarən yaşayış zəifləmiş, şəhər indiki Bərdənin yerləşdiyi sahədə yenidən salınmışdır. Həmin yerdə son antik və erkən orta əsrlərdə tikilmiş şəhər yeni forma və quruluşa malik olmuşdur. İnkişaf etmiş orta əsrlərdə şəhərin ərazisi təqribən 40 hektarı tutmuşdur.

Bərdənin siyasi və iqtisadi inkişafı əhalisinin ictimai həyatında da müsbət rol oynamışdır. Bərdə şəhəri ilk orta əsrlərdə ölkədə baş vermiş ictimai-siyasi və ideoloci mübarizənin mərkəzi olmuşdur. Manniçilik, məzdəizm hərəkatı Bərdədə əks-səda tapmış, yaqubilik hərəkatının ocağı isə əsasən Bərdədə yaranmışdır.

V-VII əsrlərdə, həyatın başqa sahələrində olduğu kimi, maddi və mənəvi mədəniyyət baxımından da Bərdə şəhərində güclü tarixi ənənə yaranmışdır. Bərdədə çoxlu elm, təhsil ocaqları yaradılmış, şəhər ölkənin mühüm mədəniyyət mərkəzinə çevrilmişdir. Bərdədə elmə, təhsilə böyük maraq olmuş,

alban əlifbası ilə tarixi və bədii əsərlər, o cümlədən Azərbaycan tarixinin günümüzə qədər gəlib çatan yeganə yazılı mənbəyi olan M.Kalankatlının «Albaniya tarixi» məhz həmin dövrdə Bərdədə alban dilində yazılmışdır. Eyni zamanda müxtəlif dillərdə yazılmış xeyli sayda qədim dünyavi və dini əsərlər alban dilinə tərcümə edilmişdir.

VIII əsrin əvvəllərindən etibarən, Albaniya dövlətinin həyatında olduğu kimi, Bərdənin də siyasi həyatında ciddi dəyişikliklər baş vermişdir. Belə ki, VII əsrin II yarısından başlamış və aramsız davam edən ərəb hücumları ölkənin siyasi həyatının dəyişməsinə mühüm təsir göstərmişdir. Ərəblər ölkədə islam dininin yeni, mütərəqqi ideyalarının təsiri altında xalqı birləşdirməyə çalışmışlar. 654-ci ildə Xilafətin Şimal vilayətləri üzrə canişinin iqamətgahı Bərdəyə köçürülmüş və Bərdə Xilafətin Qafqazdakı canişinliyinin mərkəzinə çevrilmişdir. 705-ci ildə isə Bərdədə çağırılmış qurultayda Albaniyanın dövlət müstəqilliyinə son qoyulmuş, ərazisi Xilafətin tərkibinə qatılmışdır. Bərdə, ərazicə, o dövrdə «Arran» adlandırılan inzibati-ərazi bölgüsünə daxil edilmiş, bölgənin mərkəzi şəhəri kimi fəaliyyət göstərmişdir.

Bərdə VIII əsrdə Xilafətin şimaldakı mərkəzinə çevrildikdən sonra sürətlə inkişaf etmişdir. Beynəlxalq ticarət yollarının üstündə yerləşməsi Bərdəni Avropanın və Asiyanın bir çox şəhərləri ilə əlaqələndirmiş, bu da şəhərin tərəqqisində böyük rol oynamışdır. Bərdə şəhəri həmin dövrdə Qafqazdan keçən ticarət yollarının üstündə yerləşən mühüm məntəqə və eyni zamanda Cənubi Qafqazın ticarət yollarının kəsişdiyi mərkəz olmuşdur. Mənbələrdə bu, Bərdə-Bab ül-Əbvab, Bərdə-Ərdəbil, Bərdə-Dvin, Bərdə-Tiflis ticarət yolları kimi qeyd edilir.

VIII əsrdən X əsrin ikinci yarısınadək Bərdə şəhəri yalnız Arranın deyil, eyni zamanda Qafqazın, habelə Yaxın və Orta Şərqin sənət və ticarət mərkəzlərindən biri, ölkənin siyasi,

ictimai və mədəniyyət mərkəzi kimi tanınmışdır. Həmin dövrdə şəhər böyümüş, ərazisi 30 kv.km, əhalisi 100 000 nəfərdən çox olmuşdur. Şəhərin antik və ilk orta əsrlərdə möhrə və çiy kərpiclə tikilmiş müdafiə istehkamını artıq bişmiş kərpiclə tikilmiş əzəmətli qala divarı əvəz etmişdir.

Bərdə IX əsr-X əsrin birinci yarısında çiçəklənmə dövrünü yaşamış, tərəqqiyə malik olmuş, Yaxın və Orta Şərqin möhtəşəm şəhərlərindən biri kimi məşhurlaşmışdır. Orta əsr mənbələrində Bərdə «Arranın anası» adlandırılmışdır.

Orta əsrlərdə Bərdədə doğulmuş, öz fəaliyyətləri, əsərləri ilə Yaxın və Orta Şərq ölkələrində tanınmış «Bərdəi» təxəllüslü böyük alimlər nəsli olmuşdur. Onlar Bərdədə və müsəlman dünyasının böyük elm mərkəzlərində dini və dünyavi təhsil almış, Azərbaycanda, həmçinin müsəlman dünyasının bir çox ölkələrində fəaliyyət göstərmişlər. Onların arasında riyaziyyatçı, mühəndis, təbib, tarixçi, filosof, hüquqşünas, şair, hədisçi, natiq, münəccim və siyasi xadimlər olmuşdur. Əbu Səid Əhməd ibn Hüseyn Bərdəi, Məhəmməd ibn Zeyd Bərdəi, Məkki ibn Əhməd Bərdəi, Əbu Bəkr Məhəmməd ibn Yəhya Hilali əl-Bərdəi, Səid ibn Əmr Əbu Osman əl-Əzdi əl-Bərdəi, Əhməd ibn Ömər Əbu-l-Həsən əl-Bərdəi, Əbu Bəkr Əhməd ibn Harun Bərdici əl-Bərdəi, Əbu Bəkr Əbdü-l-Əziz ibn Həsən Bərdəi, Məhəmməd ibn Xalid Bərdəi, Səid ibn Qasim Bərdəi, Əbu Əli Hüseyn ibn Süfvan ibn İshaq ibn İbrahim Bərdəi, Əli ibn Əbdü-l-Əziz Bərdəi, Əbu Bəkr Məhəmməd ibn Abdullah Bərdəi, Şeyx İbrahim ibn Şihabəddin Gülşəni Bərdəi, Mühyiddin Məhəmməd əl-Bərdəi, Məhəmməd ibn Zeyd ibn Yədəhdəvayh əl-Heysəm əl-Bərdəi, Sədullah əl-Bərdəi, Qazi Məhiyəddin Bərdəi alimlərin daha məşhurları olmuşlar.

Bərdə X əsrin 40-cı illərində (Salarilərin hakimiyyəti dövrü), rusların hücumu nəticəsində dağıdılmış, tənəzzülə

uğradılmışdır. X əsrin ikinci yarısından etibarən Bərdə tamamilə siyasi qüdrətini itirmişdir. Şəddadi hökmdarları Bərdə şəhərinin dirçəldilməsinə maraq göstərməmiş, Gəncə, Beyləqan, Təbriz, Naxçıvan və digər şəhərlər inkişaf etmiş, Bərdənin bərpası isə diqqətdən kənarda qalmışdır. X əsrin ikinci yarısı – XI əsrdə xarabalıqlar içərisində qalmış şəhər kənd təsərrüfatının və iqtisadi əlaqələrin, zəif olsa da, hesabına həyatını davam etdirmişdir.

Bərdə XII əsrin birinci rübündən etibarən Azərbaycan Atabəyləri dövlətinin tərkibində olmuş, iqamətgahı Bərdədə yerləşən Şəmsəddin Eldəgiz (1147-1157) həmin dövrdə şəhəri yenidən bərpa etdirmişdir.

Bərdədə arxeoloji abidələrlə yanaşı, dövrümüzə qədər öz quruluşunu qismən və bəzilərində isə tam saxlamış yerüstü tarix və mədəniyyət abidələri də mövcuddur ki, bunların da əksəriyyəti şəhərin son orta əsrlər dövrünə aid memarlıq üslublarını özündə əks etdirən maddi mədəniyyət nümunələridir («Bərdə türbəsi», «Axsidan baba türbəsi» və körpülər).

XIII əsrin əvvəllərində monqolların hücumları şəhərlərin iqtisadi həyatının kəskin şəkildə tənəzzülə uğraması ilə nəticələnmişdir. Azərbaycanın bir sıra şəhərləri kimi Bərdə də monqollar tərəfindən dağıdılmışdır. Monqolların talanları zamanı Bərdənin iqtisadi həyatında yenidən tənəzzül dövrü başlanmışdır. Azərbaycanı bürüyən böhran – əmtəə mübadilələrinin azalması, qapalı natural təsərrüfata qayıdış, gümüş böhranı, aramsız müharibələr, ticarət şəhərlərinin feodallar tərəfindən ələ keçirilməsi Bərdə şəhərinə də ciddi təsir göstərmişdir.

Bərdə XIII əsrdə mərkəzi Təbriz olan Hülakular (Elxanilər) dövlətinin tərkibinə qatılmışdır. Elxanilərin iri feodalların hakimiyyətini ləğv edərək bütün şəhərləri vahid siyasi hakimiyyət altında birləşdirmələri və yeni inkişafın bünövrəsini

yaratmaları şəhərlərin, o cümlədən Bərdənin, inkişaf etməsinə səbəb olmuşdur. XIV əsrin əvvəllərində Bərdədə sənətkarlıq, ticarət və mədəniyyət inkişaf etmişdir. Həmin dövrdə Bərdədə hülakülərin pulları kəsilmişdir.

Bir-birini əvəz edən daxili müharibələr və yadellilərin hücumları Qarabağ ərazisindən yan keçməmiş, Bərdə də həmin hərbi-siyasi hadisələrin təsirinə məruz qalmışdır. Əmir Teymurun Azərbaycana gəlişi və Teymurilər dövrü Bərdə tarixində də öz izini qoymuşdur. XIV əsrdə Naxçıvanı, Karsı, Tiflisi, Şəkini fəth etmiş Teymur Bərdənin də yerləşdiyi Qarabağ bölgəsini də tutmuşdur. Teymurilər tərəfindən zəbt edilmiş Bərdə mübarizə zamanı dağıdılmışdır. Çox keçmədən digər ərazilərlə yanaşı, Bərdə də azad edilmişdir.

XV əsrin əvvəllərində Bərdə Qaraqoyunlu dövlətinin tərkibinə qatılmışdır. Qaraqoyunlu və Ağqoyunlular dövründə, əsasən XIV əsrin ikinci yarısı-XV əsrin başlanğıcına nisbətən XV əsrin ortalarında Azərbaycanın bir çox şəhərləri kimi Bərdənin də inkişafı yüksək səviyyədə olmuşdur.

Qaraqoyunlu dövlətinin süqutu və Ağqoyunlu dövlətinin yaranması ilə əlaqədar Bərdə XV əsrin ikinci yarısında Ağqoyunlu dövlətinin tərkibində olmuşdur. Bu zaman şəhərin iqtisadi həyatında müəyyən qədər dirçəliş baş vermişdir. Həmin dövrdə Ağqoyunlu padşahlarının adına pullar da Bərdədə kəsilmişdir.

I Şah İsmayılın başçılığı altında mərkəzi Təbriz şəhəri olan Azərbaycan Səfəvilər dövləti yaranan zaman Bərdə qəsəbə tipli sənətkarlıq mərkəzi olmuşdur.

XVI əsrin ortalarında (1551-ci ildə, şah I Təhmasibin dövründə) şəhər əhalisinin fövqəladə xərci (ixracat) hesabına Bərdədə hamam və karvansaralar tikilmiş, yaxşı bağ salınmışdır. Bu və digər abadlıq tədbirləri nəticəsində Bərdə qəsəbədən əsl şəhərə çevrilmişdir.

XVI əsrin sonlarında Qarabağ, o cümlədən Bərdə, Osmanlıların hakimiyyəti altına keçmişdir. Belə ki, Osmanlılar 1578-ci ildə Azərbaycanın Xəzər dənizi sahillərinə qədər uzanan şimal vilayətlərini zəbt etmiş, bir çox şəhərlərlə birlikdə Bərdəni də tutmuşdur. Gəncə-Qarabağ əyaləti 36 nahiyəyə bölünən 7 sancaqdan ibarət olmuşdur. Bərdə sancağı Bərdə şəhərini, Bərdə, Sir, Bayat və İncərud nahiyəsini əhatə etmişdir.

Osmanlılar Gəncə-Qarabağ əyalətinin ərazi-inzibati bölgüsündə xüsusi dəyişikliklər aparmağa meylli olmamış və tam əksinə, özlərindən əvvəl, Səfəvilər dövründə mövcud olmuş bölgünü saxlamışlar. Bərdə nahiyəsi də Osmanlıların Qafqazda ələ keçirdikləri torpaqlarda yaratdıqları ən böyük ərazi-inzibati vahidi olan əyalətin tərkibində olmuşdur. Buna baxmayaraq Bərdənin əyalətin illik gəlirinin formalaşmasında xüsusi rolu olmamışdır. Həmin dövrdə Azərbaycanın qədim şəhərlərinin çoxu, o cümlədən Bərdə, tənəzzül dövrünü keçirmişdir.

XVII əsrin sonlarında xarici siyasi vəziyyət və daxildə baş verən siyasi hadisələr, Azərbaycanın bütün şəhərlərində olduğu kimi, Bərdənin də iqtisadiyyatını zəiflətmişdir.

XVIII əsrin əvvəllərində Azərbaycan Səfəvi dövləti, Rusiya imperiyası və Osmanlı dövləti arasında müharibələr meydanına çevrilmişdi. Bu zaman Qarabağa (Gəncə-Qarabağ əyalətinə) aramsız basqınlar başlanmış, Bərdədən Qazağa qədər olan düzənlik yerlərdəki yaşayış məskənləri talanmış, xeyli insan həlak olmuş və əsir aparılmışdır. Bərdə nahiyəsinə hücumlar zamanı əhali qırıldığına və əsir aparıldığına görə, xeyli kənd uzun illər boş qalmışdır.

Azərbaycanda xanlıqların yaranması ilə əlaqədar şəhərlərin daxil olduğu yeni ərazi birliklərinin və dövlət qurumlarının inzibati quruluşunda da dəyişikliklər baş vermişdir. Bərdə XVIII əsrin sonlarında Qarabağ xanlığının şimal

ölkələri ilə əlaqə yolunun üstündə mühüm məntəqə rolu oynamış, həmçinin sənətkarlıq və ticarət məskəni, poçt, tranzit xidmətləri göstərən kiçik şəhər olmuşdur. Buna görə də həmin dövrün mənbələrində Bərdənin adına təsadüf olunmur.

Bərdə şəhəri XVIII əsrin sonu-XIX əsrin əvvəllərindən etibarən yenidən inkişaf etməyə başlamış, yeni və ən yeni tarixdə öz varlığını göstərmiş, həyatını özünün qədim bünövrəsi üzərində davam etdirmişdir.

XIX əsrin əvvəllərində Azərbaycan İranla Rusiya arasında bölüşdürülən zaman Şimali Azərbaycanın tərkibində Bərdə də Rusiyanın tabeliyinə keçmişdir. Azərbaycanın şimal hissəsinə öz müstəmləkəsi kimi baxan Rusiya, onun təbii sərvətlərindən xammal kimi istifadə etməklə, sənaye mallarına tələbatını Rusiya istehsalı vasitəsilə ödəməklə yerli istehsala imkan verməmişdir. Azərbaycanın iqtisadi inkişafdan geri qalan digər şəhərləri kimi Bərdə də nəinki zəifləmiş, hətta şəhər kimi mövcudluğunu itirmək səviyyəsinə enmişdir.

Beləliklə, antik və orta əsr yazılı mənbə məlumatlarının, arxeoloji qazıntı materiallarının tədqiqi göstərir ki, Bərdə şəhəri eradan əvvəl yaranmış, inkişaf edərək erkən orta əsrlərdə Albaniyanın paytaxtına çevrilmiş, orta əsrlərdə Azərbaycanın, həmçinin Yaxın və Orta Şərqin məşhur şəhərlərindən biri olmuşdur. 25000 ildən artıq tarixə malik olan Bərdə şəhəri müxtəlif dövrlərdə tənəzzülə uğramışsa da günümüzə qədər öz həyatını davam etdirmiş, bu gün də yaşayır və inkişaf edir.

# MƏNBƏ VƏ ƏDƏBİYYAT

## Azərbaycan dilində

1. Axundov A.A. Torpağın köksündə tarixin izləri. Bakı, Elm, 1983, 110 s.
2. Aşurbəyli S.B. Bakı şəhərinin tarixi. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1998, 360 s.
3. Azərbaycan incəsənəti. Bakı, İşıq, 1992, 344 s.
4. Azərbaycan tarixi. Bakı, Elm, 1993, 284 s.
5. Azərbaycan tarixi. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994, 680 s.
6. Azərbaycan tarixi, II c. Bakı, Elm, 1998, 596 s.
7. Azərbaycan tarixi, III c. Bakı, Elm, 1999, 584 s.
8. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, Bakı Dövlət Universiteti Nəşriyyatı, 1989, 328 s.
9. Babayev İ.A., Hacıyev Q.Ə. Bərdədə arxeoloji qazıntının hesabatı, 2006-cı il. AMEA AEİEA.
10. Babayev İ.A., Əhmədov Q.M. Qəbələ. Bakı, Elm, 1981, 66 s.
11. Bahaəddin Ö. Böyük Hun imperiyası, I kitab. Bakı, Gənclik, 1992, 408 s.
12. Bammat H. Qərb mədəniyyətinin inkişafında müsəlmanların rolu. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994, 62 s.
13. Bünyadov T.Ə. İpin boyanması haqqında // ATM. Bakı, 1985, s.43-50.

14. Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər). Bakı, Elm, 1984, 268 s.
15. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı,1989, 336 s.
16. Cəfərova D.H. Son tunc və ilk dəmir dövründə Qarabağ tayfalarının silahları, t.e.n. dis.avtoreferatı. Bakı, 2007.
17. Cəmşidov Ş.A. Kitabi-Dədə-Qorqud. Bakı, Elm, 1999, s.678.
18. Cünabadi. Rövzət-üs-səfəviyyə (foto surət) // AMEA TİEA inv. №2614 (5).
19. Çəmənzəminli Y.V. Tarixi, coğrafi və iqtisadi Azərbaycan. Bakı, Bakı Universiteti Nəşriyyatı, 1993, 56 s.
20. Çıraqzadə V.A. Azərbaycanda ipəkçiliyin inkişafı tarixindən // AEAM, 1964, №12, s.56-60.
21. Evliya Çələbi. Səyahətnamə. Tərcümə edən S.Onullahi. Bakı, Azərnəşr, 1997, 92 s.
22. Əbubəkr Tehrani. Kitabi Diyarbəkriyyə. Fars dilindən tərcümə R.Şükürovanındır. Bakı, Elm, 1998, 336 s.
23. Əcayib-əd-dünya // AMEA TİEA, inv. №3831, foto-surət.
24. Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı, Azərnəşr, 1993, 350 s.
25. Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair // Qarabağnamələr, birinci kitab,. Bakı, Yazıçı, 1989, s.150-183.
26. Əhmədov Q.M. Bərdəli usta qədim Kiyevdə // Ədəbiyyat və incəsənət, 1 fevral 1985.
27. Əhmədov Q.M. Qədim Beyləqan. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1997, 144 s.
28. Əhmədov Q.M. Qədim Bərdə // Azərbaycan gəncləri, 18 avqust 1957.
29. Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri. Bakı, Elm, 1979, 197 s.
30. Əhmədov T.M. Azərbaycan toponimikasının əsasları. Bakı, Bakı Universiteti Nəşriyyatı, 1991, 312 s.

31. Əhmədov T. M. El-obamızın adları. Bakı, Elm, 1984, 120 s.
32. Əl-Bakuvi. Kitab təlxis əl-asar və əcaib əl-məlik əl-qəhhar» («Abidələrin» xülasəsi və qüdrətli hökmdarın möcüzələri). Bakı, Şur, 1992, 176 s.
33. Əl-Əhəri. Tarixi şeyx Üveys. Tərcümə V.Z.Piriyevindir. Bakı, Elm, 1989, 173 s.
34. Əl-Kufi. Kitab əl-fütuh (Fəthlər kitabı). Tərcümə akademik Z.M. Bünyadovundur. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1995, 80 s.
35. Əliyev Ə.Ə. Yevlax rayonu ərazisində aşkar olunmuş küp qəbirləri haqqında // Azərb. SSR EA Xəbərləri (tarix, fəlsəfə, hüquq seriyası), 1989, №2, s.61-63.
36. Əliyev İ.H., Qədirov F.V. Qəbələ. Bakı, Elm, 1985, 88 s.
37. Əliyev K.H., Əliyeva F.K. Azərbaycan antik dövrdə. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1997, 120 s.
38. Əliyev V.H. Gəmiqaya abidələri. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1992, 79 s.
39. Əliyev V.H. Qədim Naxçıvan. Bakı, Elm, 1979, 360 s.
40. Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı, Çaşıoğlu, 1999, 244 s.
41. Əliyev F.Ə. XVIII əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərləri. Bakı, Azərb. SSR EA Nəşriyyatı, 1966, 136 s.
42. Əsgərov M.İ. Şatırlı etnonimi haqqında // Elm və həyat, 1987, №5, s.16-17.
43. Ərəb və fars sözləri lüğəti. Bakı, Yazıçı, 1985, 1036 s.
44. Əzizov E.A. Bərdə toponimi // Azərbaycanın onomastika problemlərinə dair konfransın materialları. Bakı, 1987, s.149-150.
45. Fərzəliyev Ş.F. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun «Əhsənüt-təvarix» əsəri üzrə). Bakı, Elm, 1983, 150 s.
46. Fərzəlibəyli Ş.F. Quba tarixi. Bakı, 2001, 388 s.

47. Fəzlullah Rəşidəddin. Oğuznamə, tərcümə R.M.Şükürovanındır. Bakı, Azərbaycan Dövlət Nəşriyyat-Poliqrafiya birliyi, 1992, 72 s.
48. Gəncə (tarixi oçerk). Bakı, Elm, 1994, 152 s.
49. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri (ön söz, tərcümə, qeyd və şərhlər H.Məmmədovundur (Qaramanlı). Bakı, Şuşa nəşriyyatı, 2000, 576 s.
50. Göyüşov R.B. Amaras Ağoğlan. Bakı, Elm, 1975, 98 s.
51. Göyüşov R.B. Azərbaycan arxeologiyası. Bakı, İşıq, 1986, 186 s.
52. Göyüşov R.B. Şabran şəhərnin arxeoloji tədqiqi // AEA Tİ Arxeologiya və Etnoqrafiya bölməsinin 1987-ci il arxeoloji qazıntılarının yekununa həsr edilmiş elmi sessiyasının materialları. Bakı, Elm, 1984, s.45-58.
53. Göyüşov R.B., Quliyev N. M. Orta əsr Bərdə-Dvin ticarət yolu haqqında // AMM, VII c. Bakı, Elm, 1973, s.124-129.
54. Hacıyev Q.Ə. Bərdə şəhərinin tarixi (b.e.ə. III – b.e. XVIII əsri). Bakı, «T» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2000, 320 s.
55. Hacıyev Q.Ə. Qədim Bərdə şəhərinin quruluşu və tarixi mövqeyi haqqında // AEA Tİ Azərbaycan tarix qurumu, AXC-nin 81-ci ildönümünə həsr edilmiş Respublika elmi konfransının materialları. Bakı, Elm, 2000, s.72-75.
56. Hacıyev Q.Ə. Bərdə antik və orta əsrlər dövründə. AEA Tİ Azərbaycan tarix qurumu // Respublika elmi konfransının materialları. Bakı, Elm, 2000, s.55-59.
57. Hacıyev Q.Ə. Bərdənin tarixi-arxeoloji tədqiqi // BDU Xəbərləri (ictimai elmlər seriyası), 2000, №1, s.24-27.
58. Hacıyev Q.Ə. Bərdənin yerləşdiyi ərazi və onun təbii-coğrafi xüsusiyyətləri // Tarix və onun problemləri. Bakı, 2000, №2, s.26-31.
59. Hacıyev Q.Ə. Qədim Bərdə şəhərinin strateji mövqeyi və müdafiə istehkamları haqqında // AEA Tİ. Azərbaycan tarix qurumu. Bakı, 2000, s.94-99.

60. Hacıyev Q.Ə. Bərdənin tarixi-arxeoloji tədqiqi tarixindən // AMEA Xəbərləri (tarix, fəlsəfə, hüquq seriyası), 2001, №3, s.139-146.
61. Hacıyev Q.Ə. Bərdədə Kür-Araz mədəniyyəti izləri // Azərbaycan Arxeologiyası, 2001, №3-4, s.61-62.
62. Hacıyev Q.Ə. Bərdə XVIII əsrin sonu– XIX əsrin əvvəllərində // AMEA Tarix İnstitutu Azərbaycan tarix qurumu, Respublika elmi konfransının materialları. Bakı, 2002, s.63-66.
63. Hacıyev Q.Ə. Qədim Bərdənin pullarının tədqiqinə dair // Azərbaycan Arxeologiyası, 2002, №3.
64. Hacıyev Q.Ə. VIII-X əsrlərdə Bərdədə sosial şərait // AMEA Tarix İnstitutu. Azərbaycan tarix qurumu. Respublika elmi konfransının materialları. Bakı, 2002, s.84-87.
65. Hacıyev Q.Ə. Qarabağın qədim şəhəri – Bərdə // Pedaqoci Universitetin Xəbərləri. Bakı, 2003, №3, s. 44-46.
66. Hacıyev Q.Ə. Berde Qarabağın en zengin tarihe malik şehridir // Yeni Avrupa. Frankfurt/Almaniya, Yil: 1. Sayı: 3, 2003, s.39-41.
67. Hacıyev Q.Ə. Bərdə şəhərinin maddi-mədəniyyəti tarixindən // Tarix və onun problemləri. 2003, №3, s. 202-205.
68. Hacıyev Q.Ə. Qarabağın ən qədim şəhəri – Bərdənin iqtisadi tarixindən // Elmi-tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu. Elmi əsərlər, 2003. №1, s. 123-128.
69. Hacıyev Q.Ə. Qədim şəhərin son tədqiqatları barədə // Tarix və onun problemləri. 2003, №4, s. 201-206.
70. Hacıyev Q.Ə. Qədim Bərdə şəhəri // Azərbaycan dünyanın ən qədim sivilizasiya mərkəzlərindən biridir. Azərbaycan Respublikası Gənclər, idman və turizm nazirliyinin Respublika elmi-nəzəri konfransının məruzələri. Bakı, 2004, s.52-56.
71. Hacıyev Q.Ə. Gəncə və Qarabağın yadellilərə qarşı birgə mübarizəsi // Gəncə şəhərinin tarixi elmi-praktik konfransın materialları. Bakı, 2004, s.94-108.

72. Hacıyev Q.Ə. Bərdə şəhərinin qədim tarixinin tarixi-arxeoloji tədqiqatla öyrənilməsi // Azərbaycan MEA Xəbərləri, 2005, №3, s.140-147.
73. Hacıyev Q.Ə. Bərdə şəhərinin yeni dövr tarixinə dair // Azərbaycan MEA. Məruzələr. 2006, №3, s.130-138.
74. Hacıyev Q.Ə. Qədim Bərdə şəhərinin quruluşu haqqında // Azərbaycan Arxeologiya və Etnoqrafiyası, 2005, №1, s.110-114.
75. Hacıyev Q.Ə. Bərdə erkən orta əsrlərdə // Xarici Dillər Universiteti. Xəbərlər. 2005, №4, s.245–249.
76. Hacıyev Q.Ə. Bərdə şəhərinin orta əsr ticarət əlaqələri // Tarix və onun problemləri. 2005, №3, s.208-213.
77. Hacıyev Q.Ə. Orta əsr Bərdəli filosof və hüquqşünaslar müsəlman dünyasında // Azərbaycan MEA Şərqşünaslıq İnstitutu. Elmi araşdırmalar. 2005. №1-4, s.182-188.
78. Hacıyev Q.Ə. Bərdə XVIII əsrdə // Azərbaycan MEA Folklor İnstitutu. Elmi axtarışlar. 2005, №2, XV, s.518-521.
79. Hacıyev Q.Ə. Qədim şəhərlərimizin tədqiqinin tarixi-siyasi əhəmiyyəti // Azərbaycan MEA Tarix İnstitutu Azərbaycan tarix qurumu, Respublika elmi konfransının materialları. Bakı, 2001, s. 32-35.
80. Hacıyev Q.Ə. Böyük «İpək» yolu və qədim Bərdə şəhəri // Böyük «İpək yolu» Avrasiya mədəniyyətlərinin dialoqu, beynəlxalq elmi konfransının materialları. Bakı, 2003, s. 266-274.
81. Hacıyev Q.Ə. Qarabağın maddi və mənəvi mədəniyyəti // Qarabağ: suallar və faktlar. Bakı, 2003, s.70-150.
82. Hacıyev Q.Ə. Dağlıq Qarabağ problemi yeni geostrateji münasibətlərdə // «Qərb» Universiteti, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 80 illik yubileyinə həsr edilmiş Beynəlxalq elmi konfransın materialları. Bakı, 2003, s. 115-117.

83. Hacıyev Q.Ə. Bərdə Qarabağın ən qədim şəhəridir // Azərbaycan və mədəni irs problemləri «Təhsil» cəmiyyəti elmi-praktik konfransının materialları. Bakı, 2003, s. 22-29.
84. Hacıyev Q.Ə. Bərdə şəhərinin orta əsrlər karvan və su yolları vasitəsilə ticarət əlaqələri // Azərbaycan MEA Tarix İnstitutu Azərbaycan tarix qurumu, Respublika elmi konfransının materialları. Bakı, 2003, s.135-140.
85. Hacıyev Q.Ə. Qarabağın tarix və mədəniyyət abidələri // Azərbaycan Respublikası Gənclər, idman və turizm nazirliyinin «Milli mədəni irsimiz ən qiymətli sərvətimizdir» Respublika elmi-praktik konfransının materialları. Bakı, 2004, s.58-63.
86. Hacıyev Q.Ə. Qədim Bərdə şəhəri // Azərbaycan dünyanın ən qədim sivilizasiya mərkəzlərindən biridir, Azərbaycan Respublikası Gənclər, idman və turizm nazirliyinin Respublika elmi-nəzəri konfransının məruzələri. Bakı, 2004, s.52-56.
87. Hacıyev Q.Ə. Qarabağın maddi və mənəvi mədəniyyəti // Qarabağ: suallar və faktlar. Bakı, Nurlan, 2004, 182 s.
88. Hacıyev Q.Ə. Azərbaycanda aşkar edilmiş orta əsr təbabət qabı haqqında // Heydər Əliyev Fondu «Orta əsr əlyazmalarında tibb və əczaçılıq» I Beynəlxalq Konfransın materialları. Bakı, 2006, s.24.
89. Hacıyev Q.Ə. Kürəkçay müqaviləsi və Qarabağın sonrakı tarixi taleyi // Qarabağ dünən, bu gün və sabah. V Ümumrespublika elmi-əməli konfransının materialları. Bakı, QAT, 2006, s.142-147.
90. Haqverdiyev Ə.Ş. Orta əsr Bərdə şəhəri (Dərs vəsaiti) // Nəsrəddin Tusi adına Azərbaycan Dövlət Pedoqoci Universiteti Nəşriyyatı, 1991, 112 s.
91. Heydər Əliyev və Bərdə. Tərtib edəni İlham Ağayevdir. Bakı, 2005, 312 s.
92. Həmdullah Qəzvini. Nüzhət əl-qülub. Tərcümə F.Babayevindir. AMEA TİEA inv. №4960.

93. Həsənov H.N. Şimali Azərbaycan kəndi XIX əsrin sonu XX əsrin əvvəllərində Bakı, Elm, 2007, 210 s.
94. Həsənov A.H. Çar skiflər (Çar skiflərin və digər oğuzların etno-dil eyniləşdirilməsi) çarlığı. Bakı, Əbilov, Zeynalov və qardaşları, 2005, 480 s.
95. Hüseynov M.M. Azıx. Bakı, Kommunist, 1984, 22 s.
96. Hüseynov M.M. Bərdədə yeni arxeoloji tapıntılar // Ədəbiyyat və incəsənət qəzeti, 11 noyabr 1978.
97. Hüdud əl-Aləm. Tərcümə Ə.Ələsgərzadənindir. AMEA TİEA inv. №257, 37 s.
98. Xəlilov X.D. Qarabağın elat dünyası. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1992, 119 s.
99. Xəlilov X.D. Qarabağ: etnomədəni inkişaf tarixi. Bakı, Günəş nəşriyyatı, 2006, 80 s.
100. İbn əl-Əsir. Əl-Kamil fi-t-tarix (Mükəmməl tarix). Tərcümə M. Əfəndizadənindir. Bakı, Azərbaycan SSR EA Nəşriyyatı, 1959, 383 s.
101. İbrahimov F.Ə. Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti. Bakı, Elm, 1988, 176 s.
102. İsgəndər bəy Münşi. Tarix-i aləm aray-i Abbasi. AMEATİEA, inv. №934, 49 s.
103. İsmayılov M.Ə. Şəki (tarixi oçerk). Bakı, Azərnəşr, 1982, 180 s.
104. Katib Çelebi. Cahan-Nüma. Tərcümə F.Babayevindir AMEA TİEA, inver. №827, s.3-20.
105. Kazımov Q.Ş. Azərbaycan dilinin tarixi. Bakı, Təhsil, 2003, 583 s.
106. Qazıyev S.M. Küp qəbirlər albomu. Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1960, 110 s.
107. Qarabağ: suallar və faktlar. Bakı, Nurlan, 2004, 182 s.
108. Qeybullayev Q.Ə. Qarabağ (etnik və siyasi tarixinə dair). Bakı, Elm, 1990, 236 s.
109. Qədirov F.V. Azərbaycanın şimal müdafiə istehkamları. Bakı, Elm, 1984, 152 s.

110.Qarabağlı R. Memar Kərbəlayi Səfxan Qarabaği. Bakı, Nurlan, 1995, 81s.
111.Quliyev N.M. Bir daha Bərdə-Dvin ticarət yolu haqqında // Azərb. SSR EA Məruzələri. XXXII cild, 1976, №1, s.30-32.
112.Qumilyov L.İ. Qədim türklər. Bakı, Gənclik, 1993, 536 s.
113.Mahmudov Y.M. Səyyahlar Azərbaycana gəlir. Bakı, Gənclik, 1977, 140 s.
114.Mahmudov Y.M. Rusların Bərdəyə hücumu // Azərbaycan gəncləri, 1992-ci il 11 mart.
115.Mahmudov Y.M.Azərbaycan diplomatiyası. Bakı, Azərbaycan diplomatiyası curnalı nəşriyyatı, 1996, 289 s.
116.Mahmudov Y.M., Şükürov K.K. Qarabağ: real tarix, faktlar, sənədlər (Azərbaycan, ingilis, fransız, ərəb, alman və rus dillərində). Bakı, Təhsil, 2005, 380 s.
117.Mahmudova H.R. Sibir skifləri və Azərbaycan (tarixi-arxeoloji tədqiqat), t.e.n. dis.avtoreferatı. Bakı, 2006.
118.Mehdizadə X., Qəmbərov R. Bərdə (fotoalbom). Bakı, 1992, 12 s.
119.Məhərrəm Bayar. Altı min illik türk yurdu – Qarabağ. Çevirən M.Talıblı // Xəzər, 1991, №1, s.135-140.
120.Məhəmmədhəsən Vəlili (Baharlı). Azərbaycan (coğrafi-təbii etnoqrafik və iqtisadi mülahizat). Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 208 s.
121.Məmmədov A.Ə. Coğrafi adların sirri. Bakı, Elm, 1969, 24 s.
122.Məmmədov A.M. Gəncəbasar IV-XIII əsrlərdə (tarixi-arxeoloji tədqiqat). Bakı, Elm, 1993, 203 s.
123.Məmmədov A.M. Qoşqarçay və Kürəkçay hövzəsinin tarixi-arxeoloji tədqiqi. Bakı, Ağrıdağ, 2000, 96 s.
124.Məmmədov R.İ Naxçıvan şəhərinin tarixi oçerki. Bakı, Elm, 1977, 315 s
125.Məmmədov S.A. Azərbaycan XV-XVIII əsrin birinci yarısında. Bakı, APİ, 1982, 108 s.

126.Məmmədov T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı, Təhsil, 2006, 400 s.
127.Məmmədov Z.C. Azərbaycanda IX-XIII əsrlərdə fəlsəfi fikir. Bakı, Elm, 1978, 190 s.
128.Məmmədov Z.C. Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri. Bakı, Elm, 1986, 65 s.
129.Məmmədov Z.C. VII-X əsr Azərbaycan fəlsəfi və ictimai fikir tarixindən. Azərb SSR EA Xəbərləri (tarix, fəlsəfə, hüquq seriyası), №4, 1969, s.75-81.
130.Məmmədova Ş.K. «Xülasət ət-təvarix» Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, Elm, 1991, 120 s.
131.Mərkəzi Zaqafqaziya Arxeoloji Mədəniyyəti. – ASE, VI c. B., 1982, 528 s.
132.Mxitar Qoş. Alban salnaməsi. Tərcümə Z.M.Bünyadovundur. Bakı, Elm, 1993, s.236-272.
133.Mirzə Adıgözəl bəy. Qarabağnamə. Tərcümə Ə.B.Şükürzadənindir. Qarabağnamələr, birinci kitab, Bakı, Yazıçı, 1989, s.6-102.
134.Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. Tərcümə F.Babayevindir. Qarabağnamələr, birinci kitab, Bakı, Yazıçı, 1989, s.104-148.
135.Musalı N. Səfəvilər zamanında Qarabağ bəylərbəyiliyinin yaradılması və onun inzibati quruluşu // «Qarabağ Dünən Bu Gün və Sabah» V Elmi-əməli konfransın materialları. Bakı, 2006, s.166.
136.Moisey Kalankatuklu. Albaniya tarixi (tərcümə Z.M.Bünyadovundur). Bakı, Elm, 1993, 235 s.
137.Muxtarova Ə. Türk xalqlarının tarixi. Bakı, BDU Nəşriyyatı, 1999, 350 s.
138.Muradov V.H. Orta əsr Azərbaycan şəhərləri. Bakı, Maarif, 1983, 157 s.
139.Nemətova M.S. Zaqafqaziyanın epiqrafik abidələri (XI-XIX əsrlər). Bakı, Elm, 1972, 320 s.
140.Nəbiyev N.Ə. Coğrafi adlar. Bakı, Elm, 1982, 90 s.

141.Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında. Bakı, Çaşıoğlu, 2000, 198 s.
142.Nəcəfli T., Nəcəfli G.C. XVI-XVIII yüzilliklərdə Qacarların Azərbaycanın siyasi həyatında rolu // «Şah İsmayıl Xətai» elmi-praktik konfransın materialları. Bakı, 2006, s.47-53.
143.Nəcəfli G.C. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhtləri. Bakı, Nurlan, 20007, 246 s.
144.Nərimanov İ.Q., Rüstəmov Ç.N. Bərdə rayonu Zümürxaç kəndində daş sarkovaq. AMM, VI c. Bakı, Azərbaycan SSR EA Nəşriyyatı, 1965, s.198-200.
145.Nizaməddin Şami. Zəfərnamə. Tərcümə Z.M.Bünyadovundur. Bakı, Elm, 1992, 40 s.
146.Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı, Elm, 1982, 420 s.
147.Nizami Gəncəvi. İskəndərnamə (Şərəfnamə). Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1941, 440 s.
148.Nizamülmülk. Siyasətnamə. Bakı, Elm, 1987, 208 s.
149.Nuriyev A.B. Bərdə arxeoloji ekspedisiyasının hesabatı, 1984-cü il. AMEA AEİÇTİBA, inv. №H-365.
150.Nuriyev A.B. Bərdə arxeoloji ekspedisiyasının hesabatı, 1985-ci il. AMEA AEİÇTİBA, inv. №H-396.
151.Nuriyev A.B. Bərdə arxeoloji ekspedisiyasının hesabatı, 1986-cı il. AMEA AEİÇTİBA, inv. №H-453.
152.Nuriyev A.B. Bərdə arxeoloji ekspedisiyasının hesabatı, 1987-88 ci illər. AMEA AEİÇTİBA, inv. №H-465.
153.Nuriyev A.B., Məmmədov A. Bərdənin orta əsr dəyirmanları // Elm və həyat, 1986, №6, s.17-18.
154.Nuriyev A.B., Babayev Ə.H. Bərdə şəhərinin tarixi-arxeoloji oçerkləri. Bakı, Nurlan, 2001, 182 s.
155.Nurəliyeva T. Azərbaycan ədəbiyyatının tədqiqində əlyazma kolleksiyaları. Bakı, Elm, 1998, s. 74-89.
156.Onullahi S.M. XIII-XVIII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı, Elm, 1982, 279 s.
157.Ordubadi M.S. Nizaminin dövrü və həyatı (Nizami) I kitab. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1940, 621 s.

158. Osmanov F.L. Qafqaz Albaniyasının maddi mədəniyyəti. Bakı, Elm, 1982, 160 s.
